AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL PROBLEMLƏRİ İNSTİTUTU

# *ELMİ ƏSƏRLƏR*
# *НАУЧНЫЕ ТРУДЫ*
# *RESEARCH PAPERS*

**2014, №3**

**BAKI – 2014**

***Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu Elmi Şurasının 20 fevral 2014-cü il tarixli iclasının (protokol № 1) qərarı ilə nəşr edilir.***

***Təsisçi: Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu***

***"Elmi əsərlər" məcmuəsi Azərbaycan Respublikası Ədliyyə Nazirliyində qeydə alınmışdır***

***Məcmuə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının qərarı ilə tövsiyə edilən nəşrlər siyahısına daxil edilmişdir***

**Baş redaktor: Qulu Novruzov** – *hüquq üzrə fəlsəfə doktoru*

**Baş redaktorun müavini: – Akif Abbasov** – *pedaqogika üzrə elmlər doktoru, professor*

**Redaksiya heyəti**:

Ənvər Abbasov – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

Rəfiq Qəndilov – *kimya üzrə fəlsəfə doktoru*

Yəhya Kərimov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Gültəkin Hüseynova – *respublika Təhsil Nazirliyinin şöbə müdiri*

Oruc Həsənli – *pedaqogika üzrə elmlər doktoru, professor*

Asəf Zamanov – *fizika-riyaziyyat üzrə elmlər doktoru, professor*

Fərahim Sadıqov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Dilqəm Quliyev – *pedaqogika üzrə fəlsəfə doktoru, professor*

Əjdər Ağayev – *pedaqogika üzrə elmlər doktoru, professor*

Fərrux Rüstəmov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Hikmət Əlizadə – *pedaqogika üzrə elmlər doktoru, professor*

Şahin Tağıyev – *pedaqogika üzrə elmlər doktoru, professor*

Ramiz Əliyev – *psixologiya üzrə elmlər doktoru, professor*

Vidadi Xəlilov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Şəmistan Mikayılov – *pedaqogika üzrə elmlər doktoru, professor*

Müdafiə Mahmudov *(məsul katib) - pedaqogika üzrə elmlər doktoru*

İntiqam Cəbrayılov – *pedaqogika üzrə elmlər doktoru*

Piralı Əliyev – *pedaqogika üzrə elmlər doktoru*

Hümeyir Əhmədov – *pedaqogika üzrə elmlər doktoru*

Talıb Paşayev – *pedaqogika üzrə fəlsəfə doktoru, dosent*

© ARTPİ, 2014

# ÜMUMPEDAQOJİ PROBLEMLƏR

## ÜMUMİ TƏHSİL STANDARTLARI: TARİXİLİK VƏ MÜASİRLİK MÜSTƏVİSİNDƏ

**Ənvər Abbasov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ARTPİ-nin direktor müavini,*
E-mail: abbasov_anver@mail.ru

**Rəyçilər:** *prof.* Ə. Tanrıverdi,
*dos.* A.X. Hacıyev

***Açar sözlər:*** *ümumi təhsil, təhsil standartları, bazis tədris planı, konseptual xarakter, təhsil qanunu*
***Ключевые слова:*** *общее образование, образовательные стандарты, основной образовательный план, концептуальный характер, образовательный закон*
***Key words:*** *general education, education standards, basic education plan, conceptual character, education law*

Ümumi təhsilin mühüm komponentlərindən biri olan məzmun anlayışını açıqlamaq, pedaqoji problem kimi həll etmək üçün ona müasir kontekstə yanaşmaq, bu gün üçün zəruri olan məsələləri şərh etmək vacib hesab edilir. Belə məsələlərdən biri ümumi təhsil standartları və onların psixopedaqoji xüsusiyyətləridir.

Araşdırmalardan gəldiyimiz qənaət bundan ibarətdir ki, nəinki ümumi təhsil, ümumiyyətlə, Azərbaycan təhsili üçün standart, onun pedaqoji müstəvidə şərhi, demək olar ki, yenidir. Xüsusilə ötən əsrin 90-cı illərindən pedaqoji aləmdə səslənməkdə olan bu söz ingilis mənşəli olub norma, nümunə, ölçü mənasında işlədilir (1, 122). Azərbaycan dilinin izahlı lüğətində qeyd olunur ki, "standart" ingilis sözüdür. Öz ölçüsünə formasına, keyfiyyətinə görə tələbata cavab verən hər hansı bir şeyin nümunəsi. Bir şeyin təşkilində, qurulmasında, hazırlanmasında, həyata keçirilməsində tətbiq edilən forma, eyni tip, eyni nümunə"dir (2, 153).

Ümumiyyətlə, mənbələrdə standart haqqında daha ümumi məlumat verilməklə, onun quruculuq işində, xüsusən də istehsalatda, texnikada zəruri olması göstərilir. Dünyada belə standartların üç növə bölündüyü: dövlət standartları, sahə standartları və respublika standartlarının olduğu qeyd edilir (3, 3). Eyni zamanda təhsil standartları barədə danışılır. Artıq ötən əsrin 70-ci illərindən başlayaraq təhsilin məzmununun standartlaşdırılması, başqa sözlə, təhsil standartlarının yaradılmasına təşəbbüs göstərilir. Dünyanın ABŞ, İngiltərə, Avstraliya, Kanada, eləcə də Avropanın inkişaf etmiş ölkələrində təhsil standartlarının hazırlanmasına başlanılmışdır. Əslində dünya təhsilində baş verən bu dəyişiklik köklü, həm də ciddi konseptual xarakter daşıyır. Bu, onun daha mümkün olan uğurlarının konkret izlənməsi və dəyərləndirilməsi tələbindən irəli gəlir. Bunun üçün isə təhsilin nəticələrdən ibarət məzmununun yaradılmasının vacibliyi müddəası irəli sürülür ki, hazırda dünyanın inkişaf etmiş ölkələrində aparılan təhsil islahatlarında bu vacib tələbin yerinə yetirilməsinə xüsusi diqqət yetirilir.

Azərbaycanda təhsil standartı anlayışına ötən əsrin 90-cı illərindən başlayaraq müraciət olunsa da, fundamental pedaqoji araşdırmalarda, xüsusilə pedaqogika dərsliklərində ona, demək olar ki, münasibət bildirilmədi. Sonralar təhsil standartları barədə pedaqoji mülahizələr söylənildi, onların mahiyyəti açıqlandı. Pedaqoqlardan Ə.X. Paşayev və F.A. Rüstəmov bu məsələ barəsində qeyd edirdilər ki, "Təhsil standartı dedikdə, ictimai idealı əks etdirən, bu ideala nail olmaq üçün şəxsiyyətin və təhsil sisteminin real imkanlarını nəzərə alan və dövlət təhsil normaları kimi qəbul edilən, əsas paramertlər sistemi kimi başa düşülür" (4).

Göründüyü kimi, bu yanaşmada standartlar dövlətin təhsil normaları, əsas paramertlər sistemi kimi izah edilir. Əslində, doğrudan da, təhsil standartlarının yaradılmasında dövlətin bu sahədə

siyasətinin olması və ona ardıcıl olaraq xüsusi normalar çərçivəsində yanaşılması və istiqamət verməsi təhsilin idarə olunması baxımından məqsədəuyğun hal kimi dəyərləndirilir. Görünür, elə bu səbəbdəndir ki, ölkənin 1992-ci ildə təsdiq edilmiş Təhsil Qanununun 7-ci maddəsində həmin məsələ barəsində xüsusi qeyd verilmişdir: "Azərbaycan Respublikasında dünya standartlarına müvafiq olan dövlət standartları tətbiq edilir" (5).

2005-ci ildə artıq Müstəqil Azərbaycanın müxtəlif sahələrdə, o cümlədən təhsildə özünə məxsus olan siyasəti müəyyənləşir ki, burada dövlətin ümumi təhsil standartlarını müəyyənləşdirdiyi xüsusi olaraq vurğulanır. "Dövlət ümumi təhsil standartlarını müəyyən edir" (6, 14).

İnkişaf etmiş ölkələrdən biri kimi Azərbaycanın dünyanın proqressiv ölkələrinin cərgəsində olması onun strateji fəaliyyətinin baş xəttini təşkil edir. Dünyanın standartları səviyyəsinə çatmaq, bunun üçün təhsilin bütün imkanlarından istifadə etmək başlıca tələb kimi meydana çıxır. Ə.Ə. Əlizadə və H.Ə. Əlizadə özünün psixopedaqoji araşdırmalarında müasir təhsil konsepsiyasının özünəməxsus cəhətlərindən danışaraq qeyd edir ki, "Müasir təhsil konsepsiyası şəxsiyyətin formalaşdırılmasını təhsil sisteminin başlıca vəzifəsi hesab edir" (7, 10). Doğurdan da, bu gün cəmiyyətin qabağa getməsi, inkişaf etməsi şəxsiyyətin formalaşmasından daha çox asılıdır. Psixoloqların gəldiyi qənaət də məhz bundan ibarətdir ki, "yeni təfəkkürün konseptual modeli məhz insan amilinə əsaslanır. Müasir təhsil konsepsiyası şəxsiyyətin formalaşmasını təhsil sisteminin başlıca vəzifəsi kimi dəyərləndirir" (8, 15-16). Şəxsiyyət amili cəmiyyətin sosial-iqtisadi, mənəvi problemlərinin həll olunmasında vacib məqam hesab edilir ki, burada təhsilin üzərinə çox ciddi vəzifələr düşür.

Bu mövqe bilavasitə təhsil müəssisələrinin, xüsusən məktəblərin fonunda meydana çıxır. Məktəb özünün humanist yanaşmalarında şagirdin əvəzsiz mövqeyini yüksək qiymətləndirməklə onu cəmiyyətin missiyalarını daşıyan etibarlı bir insana çevirmək uğrunda fəaliyyətini tənzimləyir.

Ümumi təhsildə fəaliyyətlər şəxsiyyətə inkişaf müstəvisində müasir cəmiyyətin tələbləri baxımından yanaşmaqla davam etdirilir. Bu texnologiya, ilk növbədə, cəmiyyətin ehtiyac və tələbatlarının nəzərə alınması kimi müsbət qarşılanmaqla yanaşı, həm də şagird şəxsiyyətinin maraqlı olan tərəflərdən biri kimi rəğbətini qazanır.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, qlobal dünyanın təhsil məkanında icbari olaraq nə isə qəbul etdirmək uğurlu texnologiya kimi qəbul olunmur. Bu yanaşma tərzi qeyri-demokratik xarakteri ilə müasir düşüncəmizdən uzaq olan bir fəaliyyət kimi inkar edilir.

Uşaqlarda rəğbət hissinin yaranması onların maraq hissinin əsasında dayanmaqla onu stimullaşdırır. Öyrənmənin daha səmərəli qurulması üçün təbii vasitəyə çevrilir.

Müasir məktəbin inkişafetdirici konsepsiyasının nüvəsində şəxsiyyətin modeli dayanır ki, hər addımda onu irəlilətmək, bir pillə qabağa aparmaq sadəcə sosial-pedaqoji mahiyyət daşımır. O həm də özünəməxsus psixopedaqoji anlamda başa düşülür.

Bu günün insanı elə bir mühitdə yaşayır ki, onu daim sadəcə elmi biliklər deyil, həyat, yaşayış üçün vacib olan informasiyalar izləyir. O, bu informasiyalar axınında özünü daha çox idraki bacarıqları, kommunikativ qabiliyyətləri ilə tənzimləyir. Bundan əlavə, yaradıcı keyfiyyətləri ilə seçilməyə başlayır. Bu gün belə insanlar kreativ keyfiyyətlərə malik olan insanlar kimi dəyərləndirilir.

Görəsən, kreativ insan, şəxs kimidir? Kreativlik müasir dünyamızda şəxsiyyətin ən vacib keyfiyyəti hesab olunur. Kreativlikdə yüksək düşüncənin nəticəsi olaraq yaradıcılıq özünü parlaqlığı ilə göstərir. "Kreativ şəxsiyyətin təxəyyülü özünün parlaqlığı, qeyri-adiliyi, gözlənilməz çaları obrazlılığı ilə seçilir" (9, 142).

Göründüyü kimi, kreativlikdə heç kimdə olmayan bir qeyri-adiliyin, eləcə də emosional çaları ilə daha çox diqqəti cəlb edən bir obrazlılığın olması əlamətdar keyfiyyətlər hesab edilir. Bunlar həm də həyatda qazanılması mümkün olan, məktəbin inkişafetdirici, humanist missiyasında həmin dəyərlərin formalaşdırılmasını zəruri vəzifəyə çevirir.

Məlum olduğu kimi, zamanın informasiyalar bolluğunda sadəcə seyrçilik missiyasını daşımaq yol verilməzdir. Burada informasiyalara yaradıcı yanaşmaq, zərurini zəruri olmayandan seçə

bilmək, eləcə də proqnoztik və diaqnostik fəaliyyətləri istiqamətləndirənləri fərqləndirmək vacib keyfiyyətlər hesab olunur. Bütün bu əməliyyatların mərkəzində isə idrak prosesləri dayanır. Psixopedaqogikada qəbul olunmuş belə bir müddəa vardır ki, "Şagirdlər yeni informasiyanı idrak prosesləri vasitəsilə mənimsəyirlər" (10, 25). Bu zaman onlar özünəməxsus təfəkkür fəaliyyəti göstərməklə informasiyaların ən zəruri olanlarını mənimsəyir və fəaliyyətlərinin əsasına gətirirlər. Fəal həyat mövqeyinin formalaşmasına dəstək olan, onu qoruyub saxlayan və kreativ bacarıqları ilə dəyərləndirən belə insanların inkişafının tənzimlənməsi mürəkkəb olduğu qədər vacibdir. Bu zərurətin yerinə yetirilməsi işində dəqiq müşahidələrin aparılması, inkişafın mərhələlər üzrə düzgün getməsinin diqqət mərkəzində saxlanılması əsas texnoloji tələblərdəndir. Bütün bunların obyektiv olaraq baş verməsində isə konkret səviyyələri ifadə edən standartların olması çox vacibdir. Artıq son onilliklərdə təhsil standartları təhsil sisteminin zəruri parametri kimi tədqiqat obyektinə çevrilmişdir. Bu da ondan irəli gəlmişdir ki, "təhsil standartları sosial-pedaqoji fenomen kimi meydana çıxmışdır" (11, 9). Təhsildə, xüsusən də ümumi təhsildə şagird səviyyəsinin müəyyən olunması üçün indiyədək ondan etibarlı vasitə yaranmamışdır.

Məşhur rus pedaqoqu E.D. Dneprovun qeyd etdiyi kimi, "yeni pedaqoji sistem", "yeni tip pedaqoji insan" haqqında qlobal suallar meydana çıxarır (12, 5). Bu sualların əsasında onun bir şəxsiyyət kimi formalaşmasını təmin edən idraki, hissi emosional və psixomotor bacarıqlar dayanır ki, bunun da özünəməxsus psixopedaqoji cəhətləri vardır.

Əlbəttə, bütün bu fikirlərin əsasında belə qənaətə gəlmək olar ki, zaman keçdikcə həyat dəyişir. Yeni ehtiyac və tələbatlar meydana gəlir. Onlar öz növbəsində reallaşdıqca əhəmiyyətini itirmiş ənənəvi yanaşmalar sıradan çıxır. Ən yaxşı halda konservləşərək tarixin qucağına sığınır. Başqa sözlə, tarixi-pedaqoji əhəmiyyət daşımaqla sadəcə yaddaşlarda qalır. Tədqiqatçı İ.A. Kolesnikova bu prosesi təhlil edərək belə nəticəyə gəlir ki, "artıq yeni təhsil sivilizasiyasının yaranması müşahidə olunur. Kreativ-pedaqoji sivilzasiyanın meydana gəlməsi mövcud olan təbii və reproduktiv sivilizasiyaların mövcudluğuna son qoyur" (13, 71). Beləliklə, düşüncə ilə müşayiət olunan insanların yaradıcılıq qabiliyyəti fonunda nəzərə çarpan bir epoxanın başlanması aydın görünür.

Dünyanın inkişaf etmiş ölkələrindən biri kimi Azərbaycan da özünün proqressiv fəaliyyətindən tarixi faktları qeyd etməklə müxtəlif dövrlərin salnaməsini yaradır. Burada əhəmiyyətlilik, diqqət və qayğı ön planda dayanır. Hər şeydən öncə, müəllimlik fəaliyyətində bütün istiqamətlərdə fəaliyyətlərə aid konkret standartların yaradılması istiqamətində iş aparılır.

Təhsilin məzmununun ölçülə bilən nəticələr formasında ifadə edilməsi, başqa sözlə, nəticəyönümlü bir məzmunun yaradılması pedaqoji fikir tariximizin ən önəmli səhifələrindən hesab olunur. Doğrudur, o fikirlər müasir araşdırmaların fonunda tarixilik baxımından fundamental əhəmiyyət daşıyır. Lakin inkişafyönümlülüyün nəzərə alınması istər təhsildə, istərsə də pedaqogikada yeni standartların qəbul edilməsini tələb edir ki, bu fikirdə iki prioritet müddəanın vacibliyi aydın görünür. Onlardan birincisi, təhsilin standartlaşmasıdır ki, inkişaf prosesinin izlənilməsində bu prosesin önəmli rolu vardır. Standartların yaradılması inkişafın tənzimlənməsi üçün əvəzsiz praktik əhəmiyyət daşıyır. İkinci isə pedaqogika elmində standartlar haqqında elmi fikrin formalaşması ilə əlaqədardır ki, bu da daha çox məsələnin nəzəri-fundamental tərəfi ilə əlaqədardır. Xüsusilə didaktikada innovasiyaların nəzərə alınması mühüm pedaqoji anlayışların, o cümlədən təhsilin məzmununda mahiyyət etibarı ilə yeni yanaşmaların yer alması bu baxımdan fikrimizi əsaslandırmaq üçün nümunə ola bilər.

Təhsil stdandartlarının yaradılması Azərbaycanda müstəqillik illərinin mühüm prioritet təhsil hadisələrindən biri kimi qeyd olunur. Başqa sözlə, Azərbaycan dövlətinin təhsil siyasətinin mühüm istiqamətlərindən biri kimi dəyərləndirilir. Ona görə də 1999-cu ildə ölkədə həyata keçirilən təhsil islahatının ilk ilində "Azərbaycan Respublikasında ümumi orta təhsilin dövlət standartları" (14, 6-20) qəbul olunur. İlk dəfə olaraq bu sənəddə ümumi orta təhsilin mahiyyəti, strukturu və demokratik prinsiplərə uyğun olaraq qurulmuş bazis tədris planı verilir. İki komponentdən ibarət olan bazis tədris planında təhsil sahələri və siniflər üzrə həftəlik dərs saatlarının miqdarı öz əksini

tapır. Bu, tədris planının ən xarakterik cəhəti kimi, orada dövlət və məktəb komponentlərinin verilməsi ilə izah olunur.

Ümumi orta təhsilin strukturunda təhsil sahələrinə aid ən ümumi nəticələr və fənlər təqdim olunur.

Bazis tədris planında məktəb komponenti kimi seçmə fənlərin verilməsi ilk hadisə idi ki, bu, ümumi təhsil müəssisələrimizdən məzmuna müstəqil yanaşmaq, onlardan yaradıcı istifadə etmək kimi bacarıqların olmasını tələb edirdi.

Bu dövlət sənədi özündən əvvəlki sənədlərdən nə qədər mütərəqqi olsa da, onda ölçülə bilən konkret nəticələrin olmaması ona nəticəyönümlü sənəd kimi yanaşılmasını çətinləşdirir. Bu sənəd Azərbaycanda ilk ümumi təhsilin standartı kimi bütövlükdə ümumi təhsilin məzmun və strukturunu əhatə etməklə yanaşı, həm də pedaqoji fikrimizə yeni yanaşma tərzi gətirir, dövlət standartının fərqli mahiyyətini açıqlayır. Orada qeyd olunur ki, "Ümumi orta təhsilin dövlət standartları ümumi orta təhsilin məzmununun mütləq tədris yükünün maksimum həcmini, şagirdlərin və məzunların (buraxılış sinif şagirdlərinin) hazırlıq səviyyəsinə verilən tələbləri müəyyən etməklə ibtidai, əsas və orta ümumi təhsilə şamil edilir" (14, 6). Göründüyü kimi, dövlət təhsil standartlarında bir neçə mühüm cəhət qabarıq şəkildə vurğulanır: mütləq tədris yükünün maksimum həcmi, şagirdlərin və məzunların hazırlıq səviyyəsinə verilən tələblər. Bu iki cəhət ilk dövlət standartı üçün mühüm atributlar olmaqla daha qabarıq diqqəti cəlb edir. Orada təqdim olunan yalnız bir səviyyəni deyil, üç səviyyəni təmsil edən nəticələr ifadə olunur. İbtidai, əsas və orta ümumi təhsilin hər birinin sonu üçün standartlar verilir. Onların dövlət tələbi kimi yerinə yetirilməsi zəruri hesab edilən son hədlər kimi nəzərə alınır. Bundan sonra ümumi təhsilin bütün səviyyələrinə aid edilməklə bir-birini tamamlayan ardıcıl səviyyələr olmaqla sənədə daxil edilir.

Bir daha onu söyləmək lazımdır ki, bu sənəd ümumi təhsilin tarixində ilkin nəticəyönümlü məzmunun yaradılmasına göstərilən təşəbbüs kimi qiymətləndirilir. Ən başlıcası demokratik prinsiplərlə qurulan ümumi təhsilin məzmuna aid xarakterik nümunələrdən biri kimi qabarıq şəkildə diqqəti cəlb edir. Eyni zamanda yeni pedaqoji üslubda ümumi təhsilin məzmununun qurulmasının bünövrəsini təşkil edir.

2006-ci ildə hazırlanaraq hökumət tərəfindən təsdiq olunan "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulum)" ölkəmizdə standartların hazırlanmasının növbəti mərhələsi hesab oluna bilər. Bu sənəd həm də özünün məzmununa və quruluşuna görə, demək olar ki, yeni pedaqoji yanaşmaların əsasında durur. İslahatçılıq fəaliyyətimizdən danışanlar bu məsələyə xüsusi diqqət yetirməklə onu ümumi təhsildə əlamətdar hadisə kimi qiymətləndirirlər.

Standartların hazırlanmasında mühüm addım kimi qiymətləndirilən bu sənədin, təbii ki, əvvəlkilərdən fərqi, vardır. Çünki müqayisəli təhlillər apardıqca ümumi təhsilin məzmununun müəyyənləşdirilməsinə verilən yeni tələblərin və yanaşmaların üstünlüyü, strateji xarakteri daha qabarıq şəkildə görünür. Keçmiş sovetlər dönəmində qəbul olunmuş və bu gün də mövcud vəziyyətlərə görə istifadə edilən ənənəvi modelə nəzər salsaq, məzmun yalnız hər bir fənn üzrə bölmə, bəhs və mövzuları əks etdirən tədris proqramlarının hazırlanması ilə məhdudlaşır. Bu proqramlar əsas etibarı ilə fənyönümlüdür, həm də bəzi hallarda proqram müəllifləri bir az da "irəli" gedərək fənlə elm sahəsini eyniləşdirdikləri üçün fənnin məzmununa sistemli şəkildə müvafiq elm sahəsinə aid bilikləri daxil etmişlər. Belə olan halda tədris proqramları və onların əsasında yazılan dərsliklər artıq materiallarla yükləndiyindən şagirdlərdə əzbərçilik meylləri güclənir və bunun əksinə olaraq təfəkkürün inkişafında ləngl ik əmələ gəlir.

Məzmun sahəsində yeni siyasətə görə isə başlıca diqqət "şagirdlərdə idraki bacarıqların, ilk növbədə, təhlil, tətbiq və dəyərləndirmə bacarıqlarının, nitq və ünsiyyət mədəniyyətinin, müstəqil qərar qəbul etmə və tədqiqatçılıq qabiliyyətinin formalaşdırılmasına yönəldilir, verilən biliklərin zəruriliyi, həyatla bağlılığı, bilavasitə inkişafa, dünyagörüşün genişlənməsinə xidmət etməsi ön planda saxlanılır" (15, 56).

Bu sənəddə ilk dəfə ümumi təhsilin səviyyələri üzrə nəticələr verilir. Həmin nəticələrdə şagirdlərin hər hansı səviyyə üzrə mənimsədikləri bacarıqlar ifadə olunur. Eyni zamanda hər təhsil səviyyəsi üzrə fənlərə aid nəticələr də ümumiləşdirilərək sənədə daxil edilir.

"Fənlər üzrə ümumi təlim nəticələri əslində, məzmunu müəyyən edən əsas standartlar fənn kurikulumlarında dövlət tələbi kimi bütün siniflər üçün dəyişməz qalır və alt-standartlar vasitəsilə sinifdən sinfə inkişaf edir" (15, 58).

Nəzərə alınsa ki, ümumi təhsilin səviyyələri üzrə də ümumi nəticələr verilir və onlar şagirdlərin hər təhsil səviyyəsindəki inkişafını ifadə edir o zaman bu nəticələrin də təhsil standartı olduğunu söyləmək mümkündür.

Yeri gəlmişkən qeyd etmək lazımdır ki, 2006-ci ildə qəbul olunmuş bu sənədin ən dəyərli xüsusiyyətlərindən biri orada səviyyələr üzrə ümumi və fənlərə aid nəticələrin ifadə edilməsidir. Mahiyyət etibarı ilə bu nəticələr şagirdlərin müəyyən səviyyədə əldə edəcəkləri nailiyyətləri əhatə edir. Başqa sözlə. onlar xarakter etibarı ilə milli səviyyədə müəyyənləşdirilmiş standartlardır.

Bu nəticələr ölkədə milli səviyyəli qiymətləndirmə mexanizmlərinin, onların təşkili işinin pedaqoji xarakterini müəyyənləşdirmək baxımından əhəmiyyət daşıyır. Bütövlükdə milli qiymətləndirmə texnologiyalarının didaktik əsasını təşkil edir.

2007-ci ildə Milli Kurikuluma əsasən ibtidai siniflərin fənn kurikulumları təsdiq olunur ki, həmin kurikulumların tərkibində standartlar da təsdiq edilir.

2009-cu ildə "Təhsil haqqında" Azərbaycan Respublikasının qanunu qəbul edilir. Bu qanun müasir Azərbaycan cəmiyyətinin inkişafını təmin edə bilən, dəstəkləyən elə bir dövlət sənədidir ki, orada qlobal dünyanın təhsil paramertləri baxımdan, demək olar ki, ən müasir mexanizmlərin nəzərə alınmasına diqqət yetirilmişdir. Xüsusilə dövrün ən müasir təhsil problemləri kimi standart anlayışına, onun hazırkı məktəb sisteminə onun əhəmiyyəti, mahiyyəti və məzmunu məsələlərinə diqqət yetirilmiş, onlara xeyli aydınlıq gətirilmişdir. Təhsil Qanununda göstərilir ki, "Təhsil sahəsində dövlət standartları fərdin, cəmiyyətin, dövlətin tələbatına uyğun olaraq, elmi-pedaqoji prinsiplər əsasında hazırlanan və müəyyən dövr (5 ildən az olmayaraq) üçün vahid dövlət tələblərini əks etdirən ümumi normalar məcmusudur" (5, 18). Deməli, təhsil sahəsində dövlət standartları ümumi normalar məcmusudur. Eyni zamanda müəyyən prinsiplər əsasında hazırlanmış sənəddir ki, müasir Azərbaycan məktəbində bu sənədlərin öyrənilib tətbiq olunması dövlət tələbi kimi həyata keçirilir. Onun pozulması yol verilməz hal kimi qəbul edilir. Bundan əlavə, qanunda açıq şəkildə göstərilir ki, "Dövlət təhsil standartları təhsil sahəsində sınanmış mütərəqqi beynəlxalq meyarla, milli və ümumbəşəri dəyərlər nəzərə alınmaqla müəyyən edilir" (5, 18).

Sonuncu təhsil qanununda təhsil standartlarının məzmunu göstərilir: "Dövlət Təhsil standartı təhsilin məzmununu, idarə olunmasını, maddi-texniki və tədris bazasını, infrastrukturunu, təhsil verənlərin keyfiyyət göstəricilərini, hər bir təhsil pilləsində təhsil alanların bilik bacarıq və vərdişlərinin səviyyəsini müəyyənləşdirir" (5, 18).

Bunlardan əlavə, təhsil qanununda təhsil müəssisələrində standart tələbə uyğun fəaliyyət göstərməsi barədə də qeyd verilir. Onlardan istifadənin məktəbin məsuliyyətinə verilməsi məqsədəuyğun hesab edilir.

Bu fikirlər Azərbaycanda təhsil standartlarının yaxın onilliklərdə yaranmasını göstərməklə yanaşı, həm də onun sürətli və dinamik bir yol keçdiyini aydın şəkildə ifadə edir. Bu gün də standartların təkmilləşdirilməsi, inkişaf etdirilməsi istiqamətində işlər aparılır. Eyni zamanda təhsil standartlarının nəzəri-konseptual problemlərinin həll olunası mühüm vəzifə kimi qarşıda durur. Bütün bunlar "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"ndan irəli gələn təxirəsalınmaz tədbirlər kimi öz həllini gözləyir.

**Aktuallıq.** Azərbaycanda təhsil islahatları ümumi təhsilin məzmununda dəyişikliklərin aparılmasını, tədris planlarının müasir dövr üçün xüsusiyyətlərini müəyyənləşdirmək üçün tarixi və müasir aspektlərdə araşdırmanın aparılmasını tələb edir.

**Elmi yenilik.** İlk dəfə olaraq ümumi təhsilin məzmun komponentlərindən biri kimi standartlar tarixi və müasir aspektlərdən öyrənilir.

**Tətbiqi əhəmiyyəti.** Məqalədə irəli sürülmüş müddəalar müasir dövr üçün əhəmiyyət daşıyır. Tədris planlarının yeniləşdirilməsində onlardan istifadə olunması faydalı hesab edilir.

## ƏDƏBİYYAT

1. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika: Yeni kurs. Bakı: Elm və təhsil, 2002.
2. Azərbaycan dilinin izahlı lüğəti, IV cild. Bakı: Qərb-Şərq, 2006.
3. Azərbaycan Sovet Ensiklopediyası. IX cild. Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyası. Bakı, 1986.
4. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika: Yeni kurs. Bakı: Çaşıoğlu, 2001.
5. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
6. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı: Qanun, 2005.
7. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür: psixopedaqogikaya giriş. Bakı, 2008.
8. Əlizadə Ə.Ə. Yeni pedaqoji təfəkkür. Bakı: Adiloğlu, 2001.
9. Əlizadə Ə.Ə. Əlizadə H.Ə. Əsrin meqameyilləri: psixopedaqoji problemlər. II cild. Bakı, 2008.
10. Əlizadə Ə.Ə. İdrak prosesləri və hisslər . Psixopedaqoji məsələlər. Bakı. 2006
11. Байденко В.У. Образовательный стандарты. Опыт системного исследования. Новгород, 1999.
12. Днепров Е.Д. Школьная реформа между вчера и завтра. М., 1999.
13. Колесникова И.А Педагогическая цивилизации и их парадигм. М: Педагогика, 1995.
14. Azərbaycan Respublikası məktəblərinin təhsil standartları. Bakı, 1999.
15. İsgəndərov İ. Müasir təhsil: prioritet istiqamətlər. Bakı: Kövsər, 2011.

**А. Аббасов**

## СТАНДАРТЫ ОБЩЕГО ОБРАЗОВАНИЯ: В ИСТОРИЧЕСКОЙ И СОВРЕМЕННОЙ ПЛАТФОРМЕ

### РЕЗЮМЕ

В статье говорится о современном содержании образовательных стандартов, необходимости их создания в нашем текущем развитии. Прокомментированы особенности стандартов общего образования в историческом и современном аспектах. Говорится о необходимости их периодически улучшения.

**A. Abbasov**

## THE GENERAL EDUCATION STANDARDS: IN HISTORICAL AND MODERN PLATFORM

### SUMMARY

In this article is reported the expression of modern education content of education standards, the necessity of their creation in our current development. There is commented the features of general education standards in historical and modern aspects. It is based on the necessity of their improvment periodically.

# MİLLİ İQTİSADİYYATIN İNKİŞAFI TƏHSİL TƏHLÜKƏSİZLİYİNİN TƏMİNATÇISI KİMİ

**Hümeyir Əhmədov,**
*pedaqogika üzrə elmlər doktoru,*
*Rusiya Təhsil Akademiyasının həqiqi üzvü, ARTPİ*
E-mail: eduaz@mail.ru

**Rəyçilər:** *ped. üzrə elmlər dok.* P.B. Əliyev,
*ped. üzrə elmlər dok.* İ. Cəbrayılov

*Biz maddi dəyərlərimizi, iqtisadi potensialımızı insan kapitalına çevirməliyik*
**İlham Əliyev**

***Acar sözlər:*** *qloballaşma, milli iqtisadiyyat, təhsil təhlükəsizliyi, prioritet sahələr, təhsil əsri*
***Ключевые слова****: глобализация, национальная экономия, образовательное безопасность, приоритерные отрасли, образовательная эпоха*
**Keywords**: *globalization, national economy, educational safety prioriter industry industry, educational era*

Biz hazırda bütün dünyanı bürüyən və daim dəyişən iqtisadi, sosial-mədəni və siyasi dəyişikliklərin əhatəsində yaşayırıq. Müasir dünyada baş verən qloballaşma şəraitində təhsildə təhlükəsizlik probleminə yanaşmada müxtəlif fikirlər və münasibət mövcuddur. Əsas məsələ onları sistemləşdirib ortaq məxrəcə gətirməkdir. Ölkə təhsilinin təhlükəsizlik sistemində təhlükələr sahəsinin konkret məzmunu aydınlaşdırılmalıdır. İlk növbədə müəyyən vaxt ərzində mürəkkəbləşən xarici və daxili şərtlərin məcmusundan asılılıq təhlil edilməli, milli təhsilin rəqabətqabiliyyətliliyi ilə yanaşı sosial-iqtisadi sahələrdə yeridilən qeyri-səmərəli siyasət öyrənilməlidir. Ölkənin sosial sahəsindəki təhlükənin çox hissəsi təhsilin rəqabət aparmaq qabiliyyəti ilə əlaqələnir.

Təhsil təhlükəsizliyinin meyarları, indikatorları və hüdudları müəyyən edilməlidir. Onların isə keyfiyyət və kəmiyyət baxımından kompleks tətbiqinə nail olunmalıdır. Təhsil sahəsində təhlükənin ümumi artım meylini və səviyyəsini qiymətləndirməyi və mahiyyətini müəyyən etmək üsulları tapılmalıdır. Ölkənin təhsil təhlükəsizliyinin təmin edilməsi mexanizminin işlənməsi üçün iqtisadi-sosial təhlükənin ölçülməsinə və dəqiqləşdirilməsinə sistemli yanaşmaq lazım gəlir. Sistemli yanaşma belə bir nəticəyə gəlməyə imkan verir ki, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinin əsasında dövlətin sabit və məqsədyönlü fəaliyyəti dayanmalıdır. Buradan da aydın olur ki, ölkənin təhsil siyasətinin prioritetləri məhz iqtisadi təhlükəsizliyin dövlət tərəfindən təmin olunmasının konkret şərtləri aşağıdakı istiqamətlərində öz əksini tapmalıdır:

-Milli iqtisadiyyatın rəqabətqabiliyyətli olmasının və bununla da rəqabət üstünlüklərinin dövlət tərəfindən himayə edilməsi tədbirləri;

-Ölkə əhalisinin yaşayış səviyyəsinin artmasına, onların güzəranının yaxşılaşmasına, təhsilin rəqabətədavamlı olması üçün dövlət təsirinin tədbirləri;

Aparılan təhlillər nəticəsində belə qənaətə gəlinir ki, Azərbaycanın iqtisadi təhlükəsizliyinin təmin edilməsi üçün tələb olunan tədbirlər elə ardıcıllıqla həyata keçirilməlidir ki, əvvəla ölkə iqtisadiyyatının aparıcı sahələrinin-təhsilin daxili və xarici bazarlarda apardıqları rəqabətdə üstün mövqeyini qoruya bilsin. Bunu isə yalnız rəqabətin real ünsürlərinin daim inkişafı və təkmilləşdirilməsi hesabına saxlamaq olar. İkinci, Azərbaycan əhalisinin yaşayış şəraitinin, onların həyat səviyyəsinin Avropa standartlarına yaxınlaşdırılmasına əsasən həyatın keyfiyyətinə xarici və daxili amillərin təsirini və əks təsirini nəzərə almaqla nail olmaq olar.

Qloballaşmanın müasir ölçülərinə və göstəricilərinə müvafiq olaraq inkişaf etmiş ölkələr özlərinin iqtisadiyyatlarının rəqabət qabiliyyətliliyinin artırılmasını davam etdirir. Azərbaycan həmin göstəricilər üzrə layiqli yerlərdən birində qərar tutması qardaş Türkiyə Respublikası da daxil olmaqla Cənubi Qafqaz və Qara dəniz hövzəsi iqtisadi zonasının aparıcı dövləti olaraq önə çıxması ən vacib amil kimi bu irəliləyişə şərait yaradır. Bu problemə Türkiyənin də ciddi yanaşması aparılan uğurlu nefti və investisiya qoyuluşu siyasəti ilə xarici iqtisadi təhlükəsizliyin təmin olunması beynəlxalq müqavilələrlə möhkəmləndirilmişdir.

Milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması təhsilimizin təhlükəsizliyinə mane olan amillərin aradan qaldırılmasına zəruri şərait yaradır. Ölkənin iqtisadi təhlükəsizliyinə təhlükə yaranmaması üçün ölkənin qeyri-neft-təhsil sahələrinin davamlı inkişaf etdirilməsinə diqqət yetirilir. Bunun üçün xarici ölkələrin investisiyasına deyil, daxili resurslara söykənən investisiyalara daha çox üstünlük verilir.

Azərbaycan iqtisadiyyatının aparıcı sahələrinin rəqabət üstünlüklərinin gələcəkdə qorunub saxlanılmasına yönəldilən iqtisadi siyasətin prioritetləri təhsil təhlükəsizliyin səviyyəsinin artırılmasına təminat verməlidir. Bu məqsədlə Azərbaycanın milli iqtisadiyyatında əsaslı struktur dəyişikliklərinə daha çox sürət verilməlidir. İqtisadiyyatda ayrı-ayrı müəssisələrlə yanaşı, bütünlükdə sənaye sahələrinin quruluşcaa yenidən qurulması layihələri çoxaldılmalıdır. Nəzərə alınmalıdır ki, layihələrin hazırlanması zamanı dəyişikliyin məqsədi yalnız iqtisadiyyatın texnika, texnologiya çərçivəsi ilə deyil, daha çox insan amilinin həyat şəraitinin yaxşılaşdırılmasına, millətin sağlamlıqlarının qorunmasına təhsilin inkişafına təminat verən şərtlərlə əhatələnməlidir. Təhsil xərclərinin ilbəil artması Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təhsili dövlət siyasətinin əsas prioritetlərindən biri hesab etməsi ilə birbaşa bağlıdır. “Təhsil əsri” elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu heç vaxt indiki qədər aktual olmamışdır.

**Problemin aktuallığı.** “Təhsil əsri” elan edilən XXI əsrdə yüksək intellektə malik insan kapitalının formalaşması və güclü iqtisadiyyatın qurulmasında təhsilin rolu danılmaz bir həqiqətdir.

## ƏDƏBİYYAT

1. Əhmədov H.H. Ali təhsilin modernləşdirilməsi. Bakı: Maarif, 2008.

2. Əhmədov H.H. Azərbaycan təhsilinin inkişaf strategiyası. Bakı: Elm, 2010.

3. Совершенствование системы образования как фактор обеспечения национальной безопастности Азербайджанской Республики / “Ümumi orta təhsilin müasir problemləri” mövzusunda beynəlxalq elmi konfransın materialları. Naxçıvan 24 noyabr 2012-ci il. Bakı: Mütərcim, 2012.

4. Məmmədov Z., Əhmədov H. Azərbaycan universitetlərinin ümumavropa təhsil və elm məkanına inteqrasiya prosesləri: modernləşmənin tələbləri kontekstində // ARTPİ-nin Elmi əsərləri, 2014, № 1

5. Ахмедов Г.Г. Человеческий ресурс Азербайджанского образования. Москва: МПСИ, 2007.

6. Ахмедов Г.Г. Безопасность образования в Азербайджанской Республике в условиях его интеграции в мировое образовательное пространство // Известия Российской Академии образования, 2012, № 2

# ÜMUMTƏHSİL SİSTEMİNDƏ MƏZMUN İSLAHATLARI: NƏZƏRİ VƏ ƏMƏLİ PROBLEMLƏR

**Mirhəsən Eminov,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*Naxçıvan Dövlət Universiteti*
E-mail: mirhesenemin@yahoo.com

*Cəmiyyətin gələcək tərəqqisi indi gənclərimizə*
*nəyi və necə öyrətməyimizdən asılıdır.*
**Ümummilli lider Heydər Əliyev**

**Rəyçilər:** *prof.* F.B. Sadıqov,
*dos.* K. Camalov

***Açar sözlər:*** *ümumtəhsil sistemi, təhsilin məzmunu, yaradıcı fəaliyyət, səriştə, milli-mənəvi dəyərlər, şəxsiyyətyönümlü təhsil*
***Ключевые слова:*** *общеобразовательная система, содержание образования, творческая деятельность, компетентность, национально-нравственные ценности, личностно-ориентированное образование*
***Key words:*** *general education system, content of education, creative activity, competence, national and spiritual values, personality-oriented education*

Çağdaş dünyanın informasiya bolluğu şəraitində ümumtəhsil məktəbində təhsilin və onun məzmununun vəzifələri dəyişir. Ağılın, intellektin inkişaf etdirilməsi ön plana keçir. Mütəxəssislərin fikrincə dünyanın təhsil məkanında sadəcə bilik, bacarıqlar deyil, dəyərlər, səriştələr şəxsiyyətin inkişafında mühüm atributlar kimi qiymətləndirilir və bugünkü təhsilin keyfiyyət göstəriciləri kimi qəbul edilir. Belə bir zamanda ümumtəhsil sistemində məzmun islahatlarının aparılması zamanın tələbidir. Təhsilin məzmunu didaktikanın əsas problemlərindən biridir. Ümumi təhsilin məzmunu problemi ətrafında daima mübahisələr getmiş və indi də getməkdədir. Bəşər övladının əldə etdiyi bilik, bacarıq və vərdişlər sistemindən nələri seçib, ümumi təhsil məktəblərinin ayrı-ayrı təhsil pillələrində öyrətmək lazımdır problemi bu gün də çox aktualdır, ona görə ki, ümumtəhsil müəssisələrində təlimin müvəffəqiyyəti təhsilin məzmunu məsələsinin düzgün həllindən çox asılıdır. Həmin problemdə başlıca məsələ bundan ibarətdir ki, məktəbliyə müntəzəm biliklər minimumu lazımdırmı? Bu minimum nədən ibarətdir, nədən asılıdır? (8, 248).

Akad. M. Skatkin və prof. İ. Lernerə görə, təhsilin məzmununun düzgün müəyyənləşdirilməsi didaktikanın ən mühüm problemlərindən hesab olunur. Bəzən onu biliklə, çox vaxt isə bilik və bacarıqlarla eyniləşdirirlər. Təhsilin məzmununa bilik və bacarıqlarla yanaşı yaradıcı fəaliyyət təcrübəsi də daxildir. Bu fəaliyyət sahəsində şagirdlərin əvvəllər mənimsədikləri bilik və bacarıqları müstəqil olaraq yeni, adət edilməmiş situasiyaya keçirmələri nəzərdə tutulur. Yaradıcı fəaliyyət təcrübəsinin mənimsənilməsi şəxsiyyətin gələcək inkişafına hazır olmasını təmin edə bilər. İnsanın tələbatları, motivləri qazandığı mənəvi sərvətlər təhsilin məzmununun daha bir tərkib hissəsini – emosional münasibət təcrübəsini təşkil edir. Bu tərkib hissəni yalnız şəxsiyyətin fərdi xüsusiyyətlərini nəzərə almaqla formalaşdırmaq olar. Müəlliflərə görə, təhsilin məzmununun bütün tərkib hissələri qarşılıqlı əlaqədədir (12, 24). Q.İ. Şukinanın redaktəsi ilə nəşr olunan "Məktəb pedaqogikası" dərs vəsaitində qeyd olunur ki, orta məktəbdə mənimsənilməsi lazım olan bilik, bacarıq və vərdişlərin həcmini müəyyən edərkən böyüməkdə olan adamın dərketmə imkanlarını nəzərə almamaq olmaz. Ölkəmizdə və xaricdə aparılmış xüsusi tədqiqatlar göstərmişdir ki, akselerasiya (yeni həyat şəraitinin təsiri altında uşaqların və yeniyetmələrin sürətli inkişafı) təkcə orqanizmin fiziki cəhətdən böyüməsinə deyil, habelə beyin fəaliyyətinin güclənməsində, onun mürəkkəb informasiyanı qavramaq və mənimsəmək qabiliyyətinin genişlənməsində də təzahür edir.

Sovet psixoloqları L.V. Zankov, D.B. Yelkonin, V.V. Davıdov, A.A. Lyublinskaya kiçik yaşlı məktəblilərdə zehni fəallığın artdığını müəyyən etmişlər. Bu, şagirdlərin hazırlığı keyfiyyətinə zərər yetirmədən, ibtidai tədris müddətini azaldıb üç ilə yendirməyə imkan vermişdir (8, 247). Beləliklə XX əsrin 70-ci illərində elmi-texniki tərəqqinin irəli sürdüyü tələblərə uyğun olaraq məktəb təhsilinin məzmununda mühüm dəyişiklik edilmişdir. Bu dəyişikliklərin mahiyyəti aşağıdakılardan ibarətdir: ibtidai ümumtəhsil hazırlığı kursu sıxlaşdırılmış və təzələnmişdir, IV sinifdən fənn tədrisi tətbiq edilmişdir; məktəb fənlərinin əksəriyyətinə, xüsusən təbiətə aid fənlərin məzmununa elm, texnika və mədəniyyət sahəsində ən yeni nailiyyətləri əks etdirən material daxil edilmişdir; ümumiləşdirilmiş nəzəri biliklərin rolu gücləndirilmişdir; istehsalın iqtisadi texnologiyasının daha dərin elmi şərhi verilir, nəzəri biliklərin əməyə tətbiqi sahəsi genişləndirilir və s. (8, 248). İlk baxışdan elmi-texniki tərəqqinin irəli sürdüyü tələblərə uyğun olaraq ümumtəhsil məktəb təhsilinin məzmununda edilən mühüm dəyişiklər təqdirə layiqdir. Professorlar Ə.X. Paşayev və F.A. Rüstəmovun “Pedaqogika: Yeni kurs” dərs vəsaitində göstərilir ki, XX əsrin 70-ci illərində dünya didaktikasında məktəb proqramlarına mürəkkəb bölmələrin (materialların) daxil edilməsi yolu ilə təhsilin məzmunu təkmilləşdirildi. Amma bununla bağlı başlanmış hərəkat uğursuzluqla nəticələndi. Bu, bir daha yaş xüsusiyyətlərinin nəzərə alınmasını, onlarla hesablaşmağın zəruriliyini sübut etdi. Bu gün sübut olunmuşdur ki, uşaq hər şeyi yadda saxlaya bilər, o nə qədər gəncdirsə, bir o qədər çox və tez yadda saxlayır. Başa düşmək, anlamaq, mənimsəmək məsələnin başqa tərəfidir, çünki bunlar üçün müəyyən inkişaf səviyyəsi lazımdır. Müəlliflərin fikrindən belə bir nəticə çıxır ki, məktəbli uşağın yadda saxlama fəaliyyəti ilə başa düşmə, anlama və mənimsəmə fəaliyyəti arasında psixoloji fərqlər mövcuddur. Bu fikir professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadənin “Psixologiya” dərsliyində öz təsdiqini tapır. Qeyd olunan dərslikdə göstərilir ki, insanlar psixi fəaliyyətin dinamik xarakteristikalarına görə bir-birlərindən fərqlənirlər. Müəlliflər şagirdlərin şeri əzbərləmələri ilə əlaqədar aşağıdakı nümunəni çəkirlər. Şagird:

1. Şeri tez əzbərləyir, yaxşı başa düşür.
2. Şeri tez əzbərləyir, yaxşı başa düşmür.
3. Şeri gec əzbərləyir, yaxşı başa düşür.
4. Şeri gec əzbərləyir, yaxşı başa düşmür.

Bu nümunənin müqayisəli təhlili göstərir ki, şerin yaxşı başa düşülüb-düşülməməsi bilavasitə onun tez və ya gec əzbərlənməsindən asılı deyildir. Şerin necə başa düşülməsi psixi fəaliyyətin məzmunu (məsələn, təfəkkürün inkişaf səviyyəsi) ilə bağlıdır. Şerin tez və ya gec əzbərlənməsi isə psixi fəaliyyətin ancaq və ancaq dinamikası haqqında təsəvvür yaradır (5, 449). Şəxsiyyətin münasibətlərini, əxlaqi görüşlərini, motivlərini və s. təhlil edərkən biz psixikanı məzmun baxımından nəzərdən keçiririk. İnsanın sosial cəhətdən şərtlənən mühüm xassələri ilə yanaşı dinamik xassələri də vardır. Müasir dünyamızda, yəni elmin və texnologiyanın sürətlə inkişaf etdiyi bir zamanda tədris olunacaq materialları seçərkən şagirdlərin psixi fəaliyyəti və onun dinamikası diqqət mərkəzində saxlanılmalıdır. İlk baxışdan tədris olunacaq materialları mütəxəssislərin köməkliyi ilə seçmək asan görünür. Lakin öyrənənlərin hansı bilik və bacarıqlara yiyələnməsinin elmi zəmində izah edilməsi və tətbiqi mütəxəssislərin fikrincə çox mürəkkəb məsələdir. Prof. N.M. Kazımovun fikrincə, təlim-tərbiyə müəssisələri üçün təhsilin məzmunu hazırlanarkən, yəni tədris planları, tədris proqramları və dərsliklər tərtib edilərkən Azərbaycan xalqının həyatı, onun tarixi, mədəniyyəti, adət və ənənələri ön plana çəkilir. (6, 128). Prof. F.B. Sadıqova görə, ümumtəhsil məktəblərində şagirdlərə verilən təhsil milli-mənəvi, əxlaqi və ümumbəşəri dəyərləri özündə ehtiva edir. Bu cür normalar təhsilin məzmununda sistemə salınır, şəxsiyyətin hərtərəfli inkişafına şərait yaradılır. Təhsilin məzmununda varislik olduğundan orta təhsilin bütün pillələrində şəxsiyyətin hərtərəfli inkişafı diqqət mərkəzində olur (11, 104).

Görkəmli pedaqoqların təhsilin məzmunu ilə əlaqədar fikirlərindən bu nəticəyə gəlirik ki, təlim prosesində şagirdlər tərəfindən mənimsənilməsi zəruri olan elmi biliklər, bacarıq və vərdişlər, yaradıcı fəaliyyət təcrübəsi və emosional münasibətlə yanaşı, təhsilin məzmununda Azərbaycan xalqının həyatı, onun tarixi, mədəniyyəti, adət və ənənələri ön plana çəkilməli, verilən təhsil milli-

mənəvi, əxlaqi və ümumbəşəri dəyərləri özündə ehtiva etməlidir. Gəlin müstəqillik qazandığımız ilk illərdə təhsil sistemimizdə olan vəziyyəti nəzərdən keçirək. Azərbaycan Respublikası Prezidentinin 1998-ci il 30 mart tarixli Sərəncamı ilə yaradılmış Dövlət Komissiyası tərəfindən hazırlanmış "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı"nda oxuyuruq: "Hazırda təhsil sistemində milli ideologiyamıza əsaslanan, gənclərimizdə vətənpərvərlik, vətəndaşlıq, torpağa və xalqa bağlılıq hissi aşılayan tərbiyə konsepsiyası yoxdur. Təhsilin və tərbiyənin məzmununun əsasını təşkil edən təhsil proqramlarında bu hissləri aşılayan mövzuların olmaması, Azərbaycan tarixi və mədəniyyətinin lazımi səviyyədə öyrədilməməsi onların milli hisslərinə mənfi təsir göstərir". 1999-cu ildən etibarən ölkəmizin ümumtəhsil sistemində yuxarıda qeyd olunan çatışmazlıqlar nəzərə alınmaqla, məzmun islahatlarına başlanmışdır. İslahatlar əsasən, təhsilin məzmununun yeniləşdirilməsinə və keyfiyyətcə yüksəldilməsinə yönəldilmişdir. Azərbaycanın ümumtəhsil sistemində məzmun islahatlarına başlanarkən inkişaf etmiş ölkələrin təcrübəsi nəzərə alınaraq, ümumi təhsilin məqsədlərinin orta məktəb məzunları üçün müəyyənləşdirilən baza kompetensiyalarının (tələblərin) təmin olunması istiqamətinə yönəldilməsi ideyası əsas tutulmuşdur (7, 32). Aydın Əhmədovun "Ümumtəhsil sistemində kurikulum islahatı: real nəticələrə doğru" məqaləsində qeyd edilir ki, təhsil sahəsində islahat hərəkatı başlandıqdan sonra, ilk növbədə, tanınmış xarici ekspertlər, mütəxəssislər ölkəmizin ümumtəhsil sistemində geniş tədqiqatlar aparmış və aşağıdakı nəticələrə gəlmişlər:

1. Fənlər vasitəsilə bilik və bacarıqların verilməsi zamanı daha çox faktlardan istifadə olunur, məlumatların yadda saxlanılmasına üstünlük verilir. Fənlərin əksəriyyətində uşaqların təfəkkür və düşüncə tərzini, qabiliyyətini inkişaf etdirən məzmun yoxdur.

2. Azərbaycanda olan cari kurikulum modeli, əsasən, fənlər üzərində qurulmuşdur, təklifyönümlüdür. Şagirdlərin dərs yükü çox ağırdır, bu isə onların informasiya ilə xeyli yüklənməsinə və nəticədə təlimlə bağlı problemlərin yaranmasına səbəb olur. Cari sistem şagirdlərin müstəqil tədqiqat aparması, düşünməsi, kitabxana və digər vasitələrdən istifadə etməsi üçün zəmin yaratmır. Səhv olaraq hesab edilir ki, əgər şagirdlərə müəyyən fənnin məzmunu öyrədilirsə, onlarda avtomatik olaraq məhsuldarlıq və məsuliyyət kimi keyfiyyətlər formalaşır.

3. Müxtəlif siniflər üzrə eyni fənlərin məzmununda lazımsız təkrarlamalar mövcuddur ki, bunlar da təlim nəticələrinin keyfiyyətinə lazımi diqqət yetirməyə maneçilik törədir.

4. Orta məktəb məzunlarının real həyata hazırlanmasının vacibliyi kifayət qədər nəzərə alınmır. Tədris proqramlarında həddən artıq məlumatlar mövcuddur ki, şagirdlər onları əzbərləmək yolu ilə öyrənmək məcburiyyətində qalırlar. Artıq bazar cəmiyyəti üçün lazım olan bilik və bacarıqların öyrənilməsinə az əhəmiyyət verilir. Məsələn, problem həlli, tənqidi düşünmə, fikir yürütmə, alternativ izahatların axtarılması və s. tədris proqramlarında əsas hədəf kimi qarşıya qoyulmur və s. (7, 32). Göründüyü kimi, ümumi təhsil sistemində ciddi problemlər mövcud idi. Bu problemlər yalnız təhsilin məzmununa deyil, onun idarə olunmasına, pedaqoji prosesin həyata keçirilməsində müasir texnologiyaların tətbiqinə, şagird nailiyyətlərinin giymətləndirilməsinə də aid idi. "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim materialları"nda qeyd olunur ki, ümumi təhsilin məzmunu fərdin, cəmiyyətin, dövlətin maraq və tələbatlarını, milli və ümumbəşəri dəyərləri əks etdirməklə, humanistlik, dünyəvilik, varislik, inteqrativlik prinsipləri əsasında müəyyən edilir. Ümumi təhsilin məzmunu təhsilalanların yaş, fizioloji, psixoloji xüsusiyyətləri nəzərə alınmaqla, onların dünyagörüşünün və şəxsiyyətinin formalaşmasını, bazar münasibətlərinin tələblərinə uyğun zəruri bilik və bacarıqlara yiyələnməsini, əqli, fiziki, mənəvi, estetik inkişafını, müstəqil əmək və təhsil həyatına hazırlanmasını, cəmiyyətin faydalı və məhsuldar üzvünə çevrilməsini təmin edir. Ümumi təhsilin məzmununa dair ümumi tələblər aşağıdakılardır:

təhsilin məzmununu təhsilalanın və cəmiyyətin tələbatına, dövlətin təhsil siyasətinə uyğunlaşdırmaq;

məzmunu nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında müəyyənləşdirmək;

təhsilalanların təlim marağını, potensial imkanlarını, sağlamlığının təhlükəsizliyini nəzərə almaqla onlara davamlı inkişaflarını təmin edən, müstəqil həyatda lazım olan zəruri biliklərin və əqli, informativ-kommunikativ, psixomotor bacarıqların aşılanmasını təmin etmək;

təhsilin məzmununa şagirdlərin ümumi inkişafına xidmət etməyən, tətbiqi xarakterdə olmayan, məzmunu ağırlaşdıran məlumatyönümlü məsələlərin daxil edilməsinə yol verməmək (9, 12).

Hazırda Azərbaycan özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə təkmilləşdirir, məzmun və struktur dəyişiklikləri aparır. İnsanın həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət göstərir. Azərbaycanda təhsil sahəsində islahatlar məhz bu məntiqə uyğun olaraq pillə-pillə aparılır.

**Məqalənin elmi yeniliyi** ondan ibarətdir ki, müəllif ümumi təhsil sistemində akselerasiya və təhsilin məzununun düzgün müəyyənləşdirilməməsi, məktəblilərin sosial cəhətdən şərtlənən mühüm xassələri ilə yanaşı dinamik xassələri nəzərə alınmaması, təhsil proqramlarında milli ideologiyamıza əsaslanan, gənclərimizdə vətənpərvərlik, vətəndaşlıq, torpağa və xalqa bağlılıq hissi aşılayan mövzuların olmaması ilə nəticələnən təlim-tərbiyə prosesi ilə bağlı fikirləri təhsilin müasir nəticəyönümlülük, şəxsiyyətyönümlülük, şagirdyönümlülük, inteqrativlik prinsipləri əsasında qurulan məzmun ilə müqayisə edərək valideynlərə, tərbiyəçilərə, müəllimlərə elmi ideyalar verir, yeni elmi-pedaqoji-metodik istiqamətlər müəyyənləşdirir.

**Məqalənin praktik əhəmiyyəti** ondan ibarətdir ki, məqalədəki elmi ideyalar müəllimləri, tərbiyəçiləri, gənc valideynləri nəzəri cəhətdən məlumatlandırır, tədqiqatçıları milli dəyərlərimizlə bağlı yeni-yeni axtarışlar aparmağa ruhlandırır.

**Nəticə.** Məqalə müəllifi ümumtəhsil sistemində mövcud olan problemlərlə yanaşı, ümumi təhsilin məzmununa dair tələbləri diqqət mərkəzində saxlamaqla yetişən nəslin bir şəxsiyyət kimi formalaşdırılması yollarını da qeyd edir. Belə yanaşma isə müasir pedaqoji fikrin inkişafını zənginləşdirən faktlar kimi qiymətləndirilməlidir.

## ƏDƏBİYYAT

1. Abbasov A.N. Seçilmiş əsərləri. 12 cilddə. İkinci cild. Bakı: Mütərcim, 2014.
2. Təhsil haqqında Azərbaycan Respublikasının Qanunu. Bakı: Qanun, 2009.
3. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Azərbaycanın təhsil siyasəti (1998-2004). I kitab. Bakı: Çaşıoğlu, 2005.
4. Eminov M.S. Təlimdə fəallıq. Naxçıvan: Məktəb, 2009.
5. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Çinar-ÇAP, 2002.
6. Kazımov N.M. Məktəb pedaqogikası: Dərslik. Bakı: Çaşıoğlu, 2005.
7. Kurikulum islahatı: tədqiqatlar, nəticələr. Bakı: Mütərcim, 2011.
8. Педагогика школы. М.: Просвещение, 1977.
9. Orta məktəb üzrə fənn müəllimləri üçün ixtisasartırma təhsilinin 2-ci modulu üzrə "Ümumi orta təhsil səviyyəsinin yeni fənn kurikulumlarının tətbiqi üzrə" təlim kursunun iştirakçıları üçün təlim material.
10. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika: Dərs vəsaiti. Bakı: Caşıoğlu, 2002.
11. Sadıqov F.B. Pedaqogika: Dərs vəsaiti. Bakı: Adiloğlu, 2009.
12. Skatkin M., Lerner İ. Muasir dərs // Azərbərbaycan məktəbi, 1985, № 6
13. http: //en.wikipedia.org/wiki/Curriculum

**М. Эминов**

## СОДЕРЖАТЕЛЬНЫЕ РЕФОРМЫ В ОБЩЕОБРАЗОВАТЕЛЬНОЙ СИСТЕМЕ: ТЕОРЕТИЧЕСКИЕ И ПРАКТИЧЕСКИЕ ПРОБЛЕМЫ

### РЕЗЮМЕ

Статья посвящена содержательным реформам в общеобразовательной системе. В условиях изобилия информации современного мира меняются задачи образования в общеобразовательной школе. В истории нашего педагогического развития формируется личностно-орентированное образование. Основой образования являются интересы, потребности и желания личности. Служить

интересам обучающихся выдвигается на передний план. В настоящее время Азербайджан совершенствует свою общеобразовательную систему, используя образовательные принципы самых развитых стран мира.

**M. Eminov**

## CONTENT REFORMS IN GENERAL EDUCATION SYSTEM: THEORETICAL AND PRACTICAL PROBLEMS

### SUMMARY

The article deals with the content reforms in general education system. It states that in the information abundance atmosphere of modern world the position of education is changing. In our pedagogical history personality - oriented education system is being formed. Person’s interest and need, wish and desire are considered the base of education. Serving in student’s interest is a priority. Nowadays Azerbaijan improves its education system stage by stage using educational principles of the most developed countries of the world.

# BAZAR İQTİSADİYYATI ŞƏRAİTİNDƏ KADR HAZIRLIĞINDA BİZNESİN ROLU

**Malik Qurbanov,**
*ARTPİ-nin peşə-ixtisas təhsili şöbəsinin böyük elmi işçisi*

**Rəyçilər:** *prof.* A.N. Abbasov,
*prof.* H.H. Əhmədov

***Açar sözlər:*** *dövlət strategiyası, strateji istiqamətlər, ilk peşə-ixtisas təhsili, maliyyələşdirilmə, şagird-müəllim nisbəti*

***Ключевые слова:*** *государственная стратегия, стратегические направления, начальное профессионально-специальное образование, финансирование, соотношение учителей и учащихся*

***Key words:*** *state strategy, strategic directions, first profession-based education, financialization, student-teacher ratio*

Beynəlxalq təcrübəyə əsaslanan ilk peşə - ixtisas təhsili sisteminin islahat siyasəti və strategiyasının mərkəzində bacarıqların inkişaf etdirilməsi, onun əmək bazarının tələbatlarına və iş yerində əmək fəaliyyətinin məqsədlərinə istiqamətlənmiş sistemə çevrilməsidir. Bu cür sistem əsasən təlimin razılaşdırılmış nəticələrindən və təlim prosesinin keyfiyyətindən çıxış edərək formalaşdırılmalıdır [2; 12].

Ölkəmizdə gerçəkləşdirilən islahatlar və genişmiqyaslı infrastruktur layihələri, dayanıqlı makroiqtisadi yüksəlişin təmini, yoxsulluğun azaldılması, iqtisadiyyatın diversifikasiyası və onun dünya iqtisadi sisteminə inteqrasiyası insan potensialının inkişafı üzrə qəti tədbirlərin həyata keçirilməsini tələb edir. Bu isə öz növbəsində təhsilin keyfiyyətinin yüksəldilməsi və rəqabət qabiliyyətli kadr potensialının hazırlanması ilə bağlıdır. Göstərilən məsələlərin həlli üçün zəruri şərt ilk peşə-ixtisas təhsili sistemində kadr hazırlığının əmək bazarının tələblərinə uyğunluğunun təmin edilməsidir.

- Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" [15] təsdiq edilmişdir.

Dövlət Strategiyasının mühüm xüsusiyyətlərindən biri ondan ibarətdir ki, ilk peşə-ixtisas təhsili sistemində tədrisin məzmununun müasirləşdirilməsi əmək bazarının geniş müstəvisində əhatə olunur. Özünün yeni inkişaf mərhələsinə qədəm qoyan ilk peşə ixtisas təhsili (İPİT) son illərdə əmək bazarının tələblərinə uyğun peşələr üzrə mütəxəssislərin yetişdirilməsi üçün peşə bacarıqları və ixtisas səviyyələri ilə bağlı dəyişən tələblərin konkretləşdirilməsinə səy göstərir. Peşə təhsili müəssisələri və işəgötürənlərlə ardıcıl olaraq iş aparılır, əmək bazarının tələbləri öyrənilir, işəgötürən və təhsil müəssisələri arasında müntəzəm dialoqlar təşkil olunur. Şagirdlərin əmək bazarında rəqabətə qabil olmaları üçün yiyələnməli olduqları bacarıqlar dəqiqləşdirilir [4;6]. Araşdırmalar göstərir ki, təhsilə ayrılan maliyyə vəsaitinin səmərəliliyi onun düzgün və məqsədyönlü xərcləməsindən çox asılıdır. Bunun üçün mütəmadi monitorinqlərin aparılması, görülmüş işlərin qiymətləndirilməsi vacib hesab edilir [9].

İlk peşə-ixtisas təhsili sisteminin öhdəliklərinin əsasında işəgötürənlərin ehtiyacları dayanır [6]. Bu təhsil pilləsi işəgötürənlərin ehtiyaclarına cavab verməli, onun kursları və xidmətləri əmək bazarının sürətlə dəyişən ehtiyaclarını ödəməyə yönəlməlidir. Yerli işçi qüvvəsinin fasiləsiz peşə təhsili ilə təmin edilməsində həm biznes qurumları, həm də ilk peşə - ixtisas təhsili müəssisələri çox fəal olmalıdırlar.

İşəgötürənlər bazar iqtisadiyyatı şəraitində elə işçi axtarırlar ki, lazımi kompetensiyalara malik olsun [14]. Lakin texnoloji prosesin elə bir pilləsi var ki, o tədris prosesi planlaşdırılarkən

nəzərə alınmayıb. Yaxud, təhsil müəssisəsində mövcud olan proqramlarda texnoloji prosesin həmin pilləsi yoxdur. İşəgötürənə də məhz həmin pilləni bacaran ixtisaslı kadr lazımdır ki, işi ləngiməsin.

Texnologiyada daima təkmilləşmə prosesi gedir, lakin hər şeyi yenidən dəyişməyə lüzum qalmır. Çünki dəyişiklik heç də bütün texnoloji prosesə yox, onun ayrı-ayrı pillələrinə aid olur.

Hazırda biznes qurumlarının əksəriyyəti ilk peşə-ixtisas təhsili müəssisələrinə çox az vaxt ayırırlar. Böyük biznes qurumları kadrların hazırlanması, yenidən hazırlanması və ixtisaslarının artırılması sahəsində öz işlərini müstəqil şəkildə təşkil etməyə çalışırlar. Buna baxmayaraq, son illərdə Təhsil Nazirliyinin təşəbbüsü ilə bir sıra biznes qurumları bu işədə fəallıq göstərməyə başlamışlar [4].

İlk peşə-ixtisas təhsili üzrə hazırlanacaq yeni strategiyada kadr hazırlığında işəgötürənlərin rolu xüsusi qeyd edilməlidir.

Bu sahədə mövcud problemlər aşağıdakılardır:

- Biznes qurumlarının kadr hazırlığı sahəsində ilk peşə - ixtisas təhsili müəssisələrinə inamsızlığı;
- kadr hazırlığında işəgötürən təşkilatlarla səmərəli əməkdaşlıq və hər iki tərəfin məsuliyyətini müəyyənləşdirən müvafiq normativ-hüquqi bazanın olmaması;
- bu boşluqdan istifadə edərək bir sıra biznes təşkilatlarının kadr hazırlığına dair ilk peşə-ixtisas təhsili müəssisələrinə verdikləri sifarişi yerinə yetirməkdən imtina etməsi;
- biznes təşkilatlarının İlk peşə-ixtisas təhsili müəssisələri barədə məlumatsızlığı;
- ilk peşə - ixtisas təhsili müəssisələrinə şagird qəbulu zamanı biznes qurumlarının dövlət tərəfindən təsdiq edilmiş öhdəliklərinin olmaması;
- işçi heyətinə təlim keçməyə imkanları və şəraiti olmayan kiçik biznes qurumlarının fəaliyyətlərinə uyğun təlim keçən qurumlara ehtiyacı duysalar da, bu sahədə heç bir iş görməmələri;

Bu istiqamətdə öyrənilmiş və beynəlxalq təcrübədən aşağıdakı qısa xülasə şəklində vermək olar:

- **Almaniya** dual sistemi – işəgötürənlərlə təhsilalanlar arasında bağlanmış müqavilə əsasında peşə təhsili müəssisəsinin şagird kontingenti formalaşdırılır.
- **Böyük Britaniya** hökumətinin "14-19 yaşlı gənclər üçün Təhsil və Bacarıqlar üzrə Sənədində" işəgötürənlər hökumət tərəfindən aparıcı qüvvə kimi müəyyənləşdirilmiş və qeyd edilmişdir ki, işəgötürənlər şagirdlərə keçilən dərslərin və kurikulumların məzmununa dair qərar verilməsində əsas rol oynayırlar.
- **Rumıniyada** texniki peşə təhsili müəssisələri ilə biznes qurumları arasında əməkdaşlıq məktəb, vilayət və regional səviyyələrdə qurulur və işəgötürənlər bu qurumlarda xüsusi rol oynayırlar.
- **Belarus Respublikasında** kadr hazırlığında işəgötürənlərin rolu qəbul edilmiş "Təhsil Kodeksi" ilə tənzimlənir

Bu məsələdə Almaniyanın təcrübəsi daha çox diqqəti çəkir. Bu ölkədəki mövcud dual sisteminə görə, peşə təhsili almaq istəyənlərlə işəgötürənlər arasında bağlanmış müqavilə əsasında həmin şəxs ilk peşə - ixtisas təhsili müəssisəsinə qəbul edilir, nəzəri təlim dərslərini peşə məktəbində, təcrübə dərslərini isə həmin müəssisədə keçir. Həmin işəgötürənin verdiyi tövsiyə və digər müvafiq təhsil göstəriciləri əsasında təhsilalan dövlət imtahanına buraxılır və müstəqil dövlət imtahan komissiyasının (İxtisas Palatasının) qərarı ilə ona təhsil sənədi verilir [8].

Beləliklə, işəgötürən müəssisə özünün gələcək işçisinin mütəxəssis kimi hazırlanmasında bağlanmış müqaviləyə əsasən götürdüyü öhdəliklərə görə məsuliyyət daşıyır və birbaşa iştirak edir.

Düşünürük ki, Azərbaycanda ilk-peşə ixtisas təhsili sahəsində kadr hazırlığında işəgötürən təşkilatlarla səmərəli əməkdaşlıq və hər iki tərəfin məsuliyyətini müəyyənləşdirən müvafiq normativ-hüquqi baza yaradılsa və kadr hazırlığı üçün sifariş vermiş biznes qurumlarının peşəyönümü işi, şagird qəbulu, təhsilin təşkili və imtahanlarda fəal iştirakı təmin edilsə, qısa zaman ərzində böyük inkişafa nail olmaq mümkündür.

İlk peşə-ixtisas təhsili müəssisələri ilə maraqlı tərəflər arasında əməkdaşlıq durumunu təhlil edək. Maraqlı tərəflər: ilk peşə - ixtisas təhsili müəssisələri; dövlət; həmkarlar təşkilatları; təhsilverənlər; təhsilalanlar; işəgötürənlər.

Əvvəllər hər bir ilk peşə-ixtisas təhsili müəssisəsi şagirdlərinin istehsalat təcrübəsi keçmələri üçün şərait yaradan və təhsillərini bitirdikdən sonra işlə təmin edən bir sıra müəssisələr (dövlət tərəfindən istiqamətləndirilən və maliyyələşdirilən sənaye, k/t və xidmət müəssisələri) mövcud idi. Onlar baza müəssisəsi adlanırdı. Bu müəssisələrlə peşə təhsili müəssisələrinin əlaqələri hökumət tərəfindən təsdiq edilmiş hüquqi normativ sənədlə ("Baza müəssisəsi haqqında əsasnamə") [2] tənzimlənirdi. Bazar iqtisadiyyatı şəraitində əlaqələrin pozulması nəticəsində ilk peşə-ixtisas təhsili sahəsi ilə biznes qurumları arasında əlaqələr zəiflədi.

Hazırda Azərbaycan Respublikası Təhsil Nazirliyinin tabeliyində 103, Naxçıvan Muxtar Respublikasının Təhsil Nazirliyinin tabeliyində isə 4 ilk peşə-ixtisas təhsili müəssisəsi fəaliyyət göstərir. Bunlardan 46-sı peşə liseyi, 59-u peşə məktəbi, 2-si isə Peşə Tədris Mərkəzidir. Peşə məktəblərindən 8-i cəzaçəkmə müəssisələrində yerləşir [6].

Bununla yanaşı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində 2 regional peşə-tədris müəssisəsi (Bakı və Göyçay) fəaliyyət göstərir [4]. İlk peşə-ixtisas təhsili müəssisələri əsasən dövlət büdcəsindən maliyyələşir, eyni zamanda onlar ödənişli kadr hazırlığı və fərdi olaraq məhsul və xidmətlərini satmaq yolu ilə də maliyyə vəsaiti əldə edirlər.

Azərbaycanda bazar iqtisadiyyatı inkişaf etdikcə, işçi qüvvəsinə ehtiyac da artır. Azərbaycan Respublikası Prezidentinin 3 iyul 2007-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında texniki-peşə təhsilinin İnkişafı üzrə Dövlət Proqramı (2007 – 2012-ci illər)"nın əsas məqsədi ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun peşə-ixtisas kadrlarına yaranan tələbatın ödənilməsi, habelə əhalinin müasir peşə təhsili almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli texniki peşə təhsili sisteminin formalaşdırılmasıdır [6].

## ƏDƏBİYYAT

1. " Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009
2. Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı. Bakı: Çaşıoğlu,1999.
3. Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu). Bakı, 2006.
4. Azərbaycan Respublikasının Məşğulluq Strategiyası (2005-2006-cı illər). Bakı, 2005.
5. Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə Dövlət Proqramı (2007-2010-cu illər). Bakı, 2007
6. Azərbaycan Respublikasında texniki peşə təhsilinin inkişafı üzrə Dövlət Proqramı (2007-2012-ci illər). Bakı, 2007.
7. Abbasov Ə.M. Təhsil İslahatı və kurikulumların hazırlanması problemi // ARTPİ-nin Elmi əsərləri, 2005.
8. Рамазанов А., Аскеров Р. и др. Профессиональное образование и обучение на Южном Кафказе: на пути от выживания к эффективному функционированию национальных систем. Баку, 2008.
9. Mərdanov M., Ağamalıyev R., Mehrabov A., Qardaşov T. Təhsil sistemində monitorinq və qiymətləndirmə. Bakı: Çaşıoğlu,2003.
10. Mərdanov M., Mehrabov A., Qardaşov T., Təlim-tərbiyə prosesinin və nəticələrinin qiymətləndirilməsi islahatın mühüm amili kimi // Azərbaycan məktəbi, 2002, № 1
11. Əlizadə Ə.Ə. Müasir Azərbaycan məktəbinin psixoloji problemləri. Bakı: Pedaqoqika, 2004.
12. Əhmədov A.Ə. Azərbaycan Respublikasının ümumtəhsil sistemində məzmun islahatları: perspektivlər və gözlənilən nəticələr // ARTPİ-nin Elmi əsərləri, 2005.
13. О.Н. Олейникова, А.А. Муравьева. Н.М. Аксенова Обучение в течение всей жизни и профессиональное образование. М., 2011.
14. О.Н. Олейникова и.д. Разработка модулных програм, основанных на компетенсиях М.: Алфа-М, 2005.

15. "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. "Azərbaycan müəllimi" qəz., 2013, 24 oktyabr

**М. Курбанов**

## РОЛЬ БИЗНЕСА В ПОДГОТОВКЕ КАДРОВ В УСЛОВИЯХ РЫНОЧНОЙ ЭКОНОМИКИ

### РЕЗЮМЕ

В статье отражены важные вопросы, поставленные перед начально-профессиональными школами, исходящие из утверждённого 24 октября 2013-года Распоряжения Президента Азербайджанской Республики «Государственная Стратегия в развитии просвещения Азербайджанской Республики».

**M. Gurbanov**

## THE ROLE OF BUSİNESS TRAİNİNG İN A MARKET ECONOMY

### SUMMARY

In the article is reflected the significant issues based on the first-vocational schools and "State Strategy on the Education Development in the Azerbaijan Republic" that approved by the 24 october 2013 dated order of the President of the Azerbaijan Republic.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN SOSİAL-ŞƏXSİ İNKİŞAFI

**Şəhla Əliyeva,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
*ADPU*
E-mail: aliyevashaxla@mail.ru

**Rəyçilər:** *ped.üzrə elm.dok.* M. İlyasov,
*dos.* S. Cəmilzadə

***Açar sözlər:*** *məktəbəqədər dövr, sosial inkişaf, prinsip, şəxsi inkişaf, uşaq*
***Ключевые слова:*** *дошкольный период, социальное развитие, принципы, личностное развитие, ребенок*
***Key words:*** *pre-school, social, principle, private, child*

Qarşılıqlı təsir (sosial psixologiyada) obyektlərin (subyektlərin) bir-birinə bilavasitə və bilvasitə təsiri prosesidir. Bu proses onlar arasında qarşılıqlı əlaqə yaradır [4, 43].

Tərbiyə ictimai və mədəni həyatda aktiv iştiraka hazırlanması məqsədi ilə şəxsiyyətin məqsədyönlü, sistematik şəkildə formalaşdırılması prosesidir.

İnteriorizasiya prosesi nəticəsində uşaq sosial reallıqdan mənimsədiyi yeni şəxsi keyfiyyətlər əldə edir [4,45].

Şəxsiyyət. "Şəxsiyyət" anlayışının 50-dən artıq tərifi mövcuddur. L.İ. Bojoviç bu anlayışa belə bir tərif vermişdir: "Şəxsiyyət - özünün psixoloji inkişafının kifayət qədər yüksək pilləsinə çatmış insandır".

Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və idrakında baş verən dəyişikliklərin ardıcıl və irəliləyən şəkildə baş verməsidir.

Sosiallaşma (lat. *socialis* - ümumi) - individ tərəfindən sosial təcrübənin mənimsənilməsi və bunun nəticəsi prosesidir.

Sosial-şəxsi inkişaf bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan və uşağın sosiomədəni mühitə daxil edilməsinə istiqamətlənmiş iki prosesin: sosiallaşma və interiorizasiya proseslərinin nəticəsi prosesidir.

Həyat təhsil və tərbiyənin nəzəriyyə və təcrübəsi qarşısına ənənəvi - müasir şəraitdə nəyi və necə öyrətmək suallarından başqa, prioritet problem də çıxarır: tarixi inkişafın bu mərhələsində cəmiyyətin tələblərinə cavab verə biləcək insanı nə cür formalaşdırmalı? Bu səbəbdən də biz bu gün uşağın şəxsiyyətinə, onun formalaşmasına təsir edən proseslərin təhlilinə müraciət edirik.

Müasir cəmiyyət "özünü" və həyatda öz yerini tapmağa, milli mənəvi mədəniyyəti bərpa etməyə qadir olan mənəvi cəhətdən dayanıqlı, sosial cəhətdən uyğunlaşmış, özünüinkişafı və özünütəkmilləşdirməyi bacaran təşəbbüskar cavan insanların olmasını tələb edir. Şəxsiyyətin əsas keyfiyyətləri insan həyatının ilk illərində formalaşır, bu isə o deməkdir ki, yuxarıda sadalanan keyfiyyətlərin böyüyən nəslə aşılanması və tərbiyəsi məsuliyyəti əsasən ailənin və məktəbəqədər təhsil müəssisələrinin üzərinə düşür.

Bununla bağlı olaraq, sosial-şəxsi inkişaf problemi - uşağın ətraf aləmlə qarşılıqlı təsirdə olaraq inkişaf etməsi - müasir mərhələdə xüsusilə aktualdır.

Sosial inkişaf (sosiallaşma) - individin ictimai münasibətlər sisteminə daxil olması üçün zəruri olan sosial-mədəni təcrübənin onun tərəfindən mənimsənilməsi və sonradan inkişaf etdirilməsi prosesidir. Bu proses aşağıdakılardan ibarətdir:

- əmək vərdişlərindən;
- biliklərdən;
- norma, dəyər, ənənə və qaydalardan;

- insana digər insanların arasında rahat və effektiv şəkildə yaşamağa imkan yaradan sosial keyfiyyətlərdən.

Sosial bacarıqların inkişaf etdirilməsi - uşağın ictimai həyat və ictimai münasibətlər təcrübəsini mənimsəməsi prosesində onun sosiallaşmasının vacib və zəruri mərhələsidir. İnsan öz təbiətinə görə ictimai məxluqdur. Kiçik uşaqların cəmiyyətdən məcburi şəkildə təcrid olunması ("*mauqli*" uşaqlar) hallarının hamısı göstərir ki, bu cür uşaqlar heç bir zaman cəmiyyətin tam dəyərli üzvünə çevrilmir: onlar insanların nitqini, elementar ünsiyyət, davranış formalarını mənimsəyə bilmir və başqalarından tez ölürlər.

Məktəbəqədər təhsil müəssisələri şəraitində sosial-pedaqoji fəaliyyət uşaq, pedaqoq və valideynlərə öz individuallığını inkişaf etdirməyə, öz psixoloji vəziyyətini yaratmağa kömək edən; ünsiyyət zamanı yaranan problemləri həll etməyə və aradan qaldırmağa kömək edən, həmçinin, kiçik insanın cəmiyyətdə formalaşmasına kömək edən pedaqoji və psixoloji fəaliyyətin vəhdətidir.

Uşaqların sosial-şəxsi inkişafının müasir problemləri.

Hal-hazırda məktəbəqədər təhsil müəssisələrində yaranan real vəziyyətin təhlili göstərir ki, yeni tərbiyə proqramları üzrə çalışan təcrübəçi-pedaqoqlar, bu proqramların nə qədər yaxşı hazırlanması və təmin olunmasına baxmayaraq, məhz uşaqların sosial-şəxsi inkişafı istiqamətinin həyata keçirilməsində müəyyən çətinliklərlə qarşılaşır. Bunun səbəbləri aşağıdakılardan irəli gəlir:

Birincisi, insan ətrafdakı reallıqla birlikdə dəyişir, lakin bu dəyişikliklər ətraf aləmin dəyişmə sürətinə uyğunlaşmır. Böyüklər yeni şəraitdə öz həyat tərzini, dəyərlərini, fəaliyyət üslubunu şəraitə uyğun olaraq dəyişməli olduğunu dərk etsə belə, çox zaman bunu etmək iqtidarında olmur və sadəcə olaraq baş verən dəyişikliklərə uyğunlaşırlar. Böyüməkdə olan nəsil isə həyatın reallığını olduğu kimi qəbul edir. Böyüklər və uşaqlar arasındakı məhz bu fərq bu günün ən böyük problemlərindən biridir. Belə ki, tərbiyəni böyüklər verməlidir. Onların əksəriyyəti isə müasir həyata uyğunlaşa bilmir.

İkincisi, uşaqların sosial-şəxsi inkişafı mürəkkəb, ziddiyyətli və kompleks xarakter daşıyan bir prosesdir: şəxsiyyətin mənəvi əsaslarının, intellektinin, hisslərinin inkişaf etdirilməsi məsələləri bir-biri ilə qarşılıqlı əlaqə şəklində həll olunur və birini o birindən ayırmaq mümkün deyildir. Bu səbəbdən də, uşağın sosial münasibətlər aləminə gətirilməsinə istiqamətlənmiş pedaqoji prosesin təşkili pedaqoqdan xüsusi ustalıq, uşaqlara yaxşı bələd olmasını, bu işə şəxsi münasibətinin olmasını tələb edir.

Üçüncüsü, bizim cəmiyyətdə uşaqların sosial-şəxsi inkişafına olan yeni yanaşma və bu istiqamətdə aparılan işlər pedaqoqların sosiallaşma prosesinin mahiyyətini, həmçinin, mürəkkəb psixogen mexanizmləri (özünüdərketmə, özünəmünasibət, özünüinkişaf və s.) və şəxsiyyətin inkişafında onların rolunu anlamasına əsaslanır. Bu zəruri psixoloji biliklərə müstəqil şəkildə yiyələnmək çox çətindir.

Dördüncüsü, məktəbəqədər yaşlı uşaqların inkişaf etdirilməsi və tərbiyə olunması istiqamətli müasir variativ proqramların hər biri işin bu istiqamətdə həyata keçirilməsində dəqiq metodiki tövsiyələr vermir. Bir sıra proqramlar yalnız sosiallaşmanın ümumi məsələləri ilə məhdudlaşır. Bununla əlaqədar olaraq, pedaqoqun qarşısında "proqramı real pedaqoji proses dilinə tərcümə etmək" və məşğələ metodikasının seçimi, inkişafetdirici mühit və fəaliyyətin təşkilinin seçimi məsələlərinə yaradıcı şəkildə yanaşmaq tələbatı durur.

Yuxarıda yazılanlar məktəbəqədər təhsilin dövlət standartı proyektinin uşaqların sosial-şəxsi inkişafı sahəsində olan tələbatlarını həyata keçirmək işini xeyli çətinləşdirir.

Buna görə də, məktəbəqədər təhsil müəssisələri pedaqoqları ilə aparılan metodik işin əsas aspekti aşağıdakı məsələlərin həllinə yönəlmiş fəaliyyət olmalıdır:

1. Uşaqların sosial-şəxsi inkişafı sahəsində pedaqoqların peşəkar bacarıqlarının kurs hazırlıqları, seminar-praktikumlar, bu problemə həsr olunmuş dairəvi masalar vasitəsilə artırılması.

2. Məktəbəqədər təhsil müəssisələri pedaqoqları üçün uşaqların sosial-şəxsi inkişafı probleminin mahiyyətini, onun optimallaşdırılmasının metod və yollarını açıqlayan metodik tövsiyələrin işlənib hazırlanması.

3. Həmin istiqamətdə təklif olunan yeni iş formalarının, yeni proqramların təqdir edilməsi.

4. Məktəbəqədər təhsil müəssisələrində çalışan pedaqoqlar üçün uşaqlar və pedaqoq, uşaqlar və valideynlər arasındakı qarşılıqlı təsir üslubunun dəyişdirilməsinə istiqamətlənmiş treninq və seminarların təşkili.

5. Məktəbəqədər təhsil müəssisələrinin pedaqoji kollektivin uşaqların sosial-şəxsi inkişafı mövzusuna dair yeni proqramlar, texnologiyalar, metodiki vəsaitlərlə məlumatlandırılması və tanış edilməsi.

6. Uşaqların sosial-şəxsi inkişafı proqramı mövzusunda şəxsi metodiki paketini yaratmaq təşəbbüsü göstərən, lakin bunun üçün kifayət qədər materialı olmayan pedaqoqların təqdir edilməsi və onlara metodiki köməkliyin göstərilməsi.

7. Uşaqların sosial-şəxsi inkişafı probleminin yeni optimal həlli yollarının axtarılması məqsədi ilə, həmin problemlə bağlı dərindən çalışan məktəbəqədər təhsil müəssisələri arasında təcrübə mübadiləsinin həyata keçirilməsini təşkil etmək.

8. Uşaqların sosial-şəxsi inkişafının nəticələrinin monitorinqi metodikasının işlənib hazırlanması. Bu prosesin effektivliyinin izlənməsi.

9. Həmin problem üzrə məlumat mərkəzinin yaradılması və buraya şəhərin müxtəlif təhsil müəssisələrinin təcrübəsinin daxil edilməsi.

10. Uşaqların sosial-şəxsi inkişafı sahəsində qabaqcıl təcrübənin yayılması.

Məktəbəqədər yaşlı uşağın sosial-şəxsi inkişafının əsas istiqamətlərinin müəyyənləşdirilməsi.

Sosial-şəxsi inkişafın əsasları erkən və məktəbəqədər yaş dövründə qoyulur və daha intensiv şəkildə inkişaf edir. Uşağın digər insanlarla ilk ünsiyyət təcrübəsi onun şəxsiyyətinin sonrakı inkişafının bünövrəsi hesab olunur. Bu ilk təcrübə insanın özünüidrak xüsusiyyətlərini, onun dünyaya olan münasibətini, insanlar arasında davranışını müəyyənləşdirir. Son zamanlar gənclər arasında müşahidə olunan neqativ halların (qəddarlıq, aqressivlik, soyuqluq və s.) bir çoxunun kökü erkən və məktəbəqədər yaş dövrünə təsadüf edir.

Uşağın sosial-şəxsi inkişafı probleminin məsələləri

Məktəbəqədər təhsilin dövlət standartı proyekti Məktəbəqədər təhsil müəssisələrində həyata keçirilən proqramın mütləq minimumunu müəyyənləşdirməklə, orada təhsil alan uşaqların sosial-şəxsi inkişafına dair bir sıra tələblər irəli sürmüşdür. Bu tələblər sırasına aşağıdakılar aiddir:

- uşaqda özünə, digər insanlara, ətraf aləmə qarşı müsbət münasibətin, kommunikativ və sosial bacarıqların inkişaf etdirilməsi;
- uşaqda özünə qarşı müsbət - öz imkanlarına, hamının onu sevdiyinə əminlik kimi hisslərin formalaşması üçün şəraitin yaradılması;
- uşaqda mənliyin, öz hüquq və azadlıqlarını (öz fikrinin olması, dost, oyuncaq, fəaliyyət seçmək, şəxsi əşyalara sahib olmaq hüququ) dərk etmək hissinin formalaşdırılması;
- uşaqda sosial mənşəyindən, irqi və milli mənsubiyyətindən, dilindən, dinindən, cinsindən, yaşından, şəxsi və davranış xüsusiyyətlərindən asılı olmayaraq ətrafında olan insanlara - uşaq və böyüklərə qarşı müsbət münasibətin, onların fikrinə, istəklərinə, baxışlarına hörmətlə yanaşmağın tərbiyə olunması;
- uşaqların digər insanlarla əməkdaşlıq dəyərlərinə cəlb edilməsi: insanların bir-birinə ehtiyac duyduğunu dərk etdikdə köməkliyin göstərilməsi, müştərək işin planlaşdırılması, öz istəklərinin idarə edilməsi, fikir və rəylərin fəaliyyət ortağı ilə razılaşdırılıması;
- uşaqlarda digər insana, ümumi işə, verdiyi sözə görə məsuliyyət hissinin inkişaf etdirilməsi;
- uşaqda kommunikativ bacarıqların - ətrafdakıların emosional vəziyyətini anlamaq, öz hisslərini ifadə edə bilmək bacarıqlarının yaradılması;
- uşaqlarda sosial vərdişlərin formalaşdırılması: münaqişəli vəziyyətlərin aradan qaldırılmasının müxtəlif üsullarını mənimsəmək, ümumi razılığa gəlmək, növbəni gözləməyi bacarmaq, yeni əlaqələr yaratmaq.

Məktəbəqədər yaşlı uşağın sosial-şəxsi inkişafı prosesində pedaqoqun fəaliyyəti hansı istiqamətdə olmalıdır?

Uşağın tam dəyərli sosial-şəxsi inkişafının ən mühüm əsaslarından biri uşağın özü haqqında müsbət fikirdə olmasıdır. Böyüklər uşağın emosional vəziyyətinin qeydinə qalır (dayaq olur, həvəsləndirir, öz güc və imkanlarına inanmaqda onlara kömək edirlər), nailiyyətlərindən, üstün və çatışmayan cəhətlərindən asılı olmayaraq ona hörmət edir, uşaqlarla inam üzərində qurulan münasibətlər yaradır; uşaqda mənlik hissinin inkişaf etməsinə, onun öz hüquq və azadlıqlarını dərk etməsinə kömək edirlər. Böyüklər uşaqların maraqlarına, zövqlərinə və seçimlərinə (oyunda, məşğələdə, yeməkdə, geyimdə və s.) hörmətlə yanaşır. Böyüklər uşaqlarda ətrafdakı insanlara qarşı müsbət münasibətin formalaşmasına kömək edir [3, 77].

Böyüklərin köməkliyi ilə uşaqlar anlayır ki, insanlar müxtəlif olur və digər insanların mənliyinə hörmətlə yanaşmaq, onların fikrini, istəklərini, ünsiyyət, oyun və müştərək fəaliyyət zamanı baxışlarını nəzərə almaq lazımdır. Bundan başqa, diqqətli münasibət, acıma hissinin olması da böyüklər tərəfindən təqdir edilir. Uşaqda digər insana kömək etmək, ona dayaq olmaq istəyi və bacarığının yaranması çox vacibdir. Uşaqlarda yuxarıda sadalanan hisslərin formalaşması üçün böyüklər şərait yaradır, onlara kömək edirlər. Bunun üçün uşaqların birgə oyunlarını təqdir etmək, onlar üçün ümumi məhsulun hazırlanmasına istiqamətlənmiş müştərək fəaliyyət təşkil etmək lazımdır. Böyüklər uşaqlarda digər insana, ümumi işə, verdiyi sözə görə məsuliyyət hissinin inkişaf etməsinə kömək edir.

Böyüklər uşaqlarda kommunikativ bacarıqların inkişafına da xüsusi diqqət ayırır. Uşaqlara ətrafdakıların emosional vəziyyəti və hisslərini - sevinc, kədər, qorxu, pis və yaxşı əhvalı tanımaqda; öz emosional hisslərini ifadə etməkdə kömək edir. Bunun üçün böyüklər uşaqlarla birlikdə həyatdan, hekayələrdən, nağıllardan, şerlərdən olan müxtəlif situasiyaları müzakirə edir, şəkilləri nəzərdən keçirir və bu zaman uşaqların diqqətini digər insanların hisslərinə, hərəkətlərinə cəlb edir; teatrlaşdırılmış tamaşalar təşkil edirlər ki, bu tamaşaların gedişində uşaqlar canlandırdığı personajın əhvalını çatdırmaq, onun hisslərinə şərik olmağı öyrənir.

Böyüklər uşaqlarda sosial vərdişlərin: münaqişəli situasiyaların müxtəlif həlli yollarının mənimsənilməsinə, ümumi razılığa gəlmək, növbə gözləmək, yeni əlaqələr qurmaq bacarıqlarının yaranmasına kömək edir. Məktəbəqədər yaşlı uşağın sosial inkişafının mühüm aspektlərindən biri də elementar etiket qaydalarının (salamlaşmaq, təşəkkür etmək, masa arxasında özünü apara bilmək və s.) mənimsənilməsidir. Uşaqları evdə və küçədə təhlükəsiz davranış qaydaları ilə də tanış etmək lazımdır. Uşaqlarda ətrafındakı canlı və cansız aləmə qarşı məsuliyyətli, qayğıkeş münasibətin inkişaf etməsi üçün (bitki və heyvanlara qulluq etmək, təmizliyə riayət etmək, kitabları, oyuncaqları qorumaq və s.) şərait yaratmaq çox vacibdir [4, 66].

Sosial tərbiyə prosesinin təşkilinin əsas prinsipləri

- şəxsiyyətin sosial əlaqələrində, onun üçün həyati vacib münasibətlərin qurulmasında münaqişəli və kritik situasiyaların aradan qaldırılmasında individual yardım;
- əsas fəaliyyət formalarında insanda özünü kəşf etmək və yaratmaq tələbatlarının və bacarıqlarının tərbiyə olunması;
- özünü aləmlə vəhdət şəklində, onunla dialoqda dərk etmək bacarığının inkişaf etdirilməsi;
- bəşəriyyətin özünüinkişaf təcrübəsini qavramaq, mənimsəmək və təkrarlamaqla özünümüəyyənləşdirmə, özünüaktuallaşdırma bacarıqlarının inkişaf etdirilməsi;
- azad insanın hüquqları, humanistik dəyərləri və idealları əsasında ətraf aləmlə ünsiyyət qurmaq tələbatının və bacarığının inkişaf etdirilməsi.

Məktəbəqədər yaşlı uşaqların sosial-şəxsi inkişafı prosesinə aşağıdakı fəaliyyət növləri daxildir:

- Oyun fəaliyyəti uşağa özünü cəmiyyətin tamhüquqlu üzvü hiss etmək imkanını verir. Oyun zamanı uşaqda öz gücünə, real nəticə əldə etmək bacarığına inam yaranır.
- Tədqiqat fəaliyyəti uşağa müstəqil şəkildə öz təsəvvürlərinin həllini tapmaq və ya onları təkzib etmək imkanı verir.
- Təsviri fəaliyyət uşağa əmək və fantaziyanın köməyi ilə böyüklər aləminə öyrəşməyə, onu öyrənməyə və orada iştirak etməyə imkan verir.

- Əşyavi fəaliyyət müəyyən dövrdə uşaqların idraki maraqlarını təmin edir, ətraf aləmdə istiqamətlənməyə kömək edir.

- Müşahidə fəaliyyəti uşağın təcrübəsini zənginləşdirir, onun maraqlarının inkişafını stimullaşdırır, uşaqda sosial hisslər yaradır və möhkəmləndirir.

- Kommunikativ fəaliyyət böyüyü və uşağı birləşdirir, böyüklə emosional yaxınlıq zamanı uşağın müxtəlif tələbatlarını təmin edir.

- Proyekt fəaliyyəti uşağın müstəqil fəaliyyətini aktivləşdirir, müxtəlif fəaliyyət növlərinin birləşməsini və inteqrasiyasını təmin edir.

- Konstruktiv fəaliyyət yaradıcı təxəyyülü, öz davranışını idarə etmək mexanizmlərini formalaşdırmağa imkan verir [3, 56].

Beləliklə, hər bir fəaliyyət növü məktəbəqədər yaşlı uşaqların sosial-şəxsi inkişafı prosesində özünəməxsus rol oynayır.

İndi isə müxtəlif yaşlarda olan məktəbəqədər yaşlı uşaqların sosial-şəxsi inkişafının konkret məsələlərinə toxunaq.

Kiçik məktəbəqədər yaş dövründə: uşaqlarda yaxınlarına qarşı xeyirxah münasibət formalaşdırmaq; yaxınlarının, yaşıdlarının, nağıl qəhrəmanlarının və b. halına emosional reaksiya verməyi öyrətmək; gündəlik ünsiyyətdə, oyunda yaşıdları və böyüklərlə qarşılıqlı təsir üsullarını mənimsəməyə kömək etmək; elementar davranış qaydalarına riayət etməyi öyrətmək; müxtəlif emosional vəziyyətləri oyun vasitəsilə çatdırmaq, yaşıdlarının əhvalına şərik olmaq bacarığını inkişaf etdirmək; uşaqların insanlar, ailə haqqında olan təsəvvürlərini zənginləşdirmək.

Orta məktəbəqədər yaş dövründə: məktəbəqədər yaşlı uşaqlarda ətrafdakı insanları anlamaq, onlara qarşı xeyirxah münasibət nümayiş etdirmək, ünsiyyətə can atmaq bacarıqlarını inkişaf etdirmək; ətraf aləm haqqında təsəvvürləri genişləndirmək; davranış və ünsiyyət mədəniyyətinin norma və qaydalarına uyğunlaşmağı öyrətmək; emosional həssaslığı inkişaf etdirmək.

Böyük məktəbəqədər yaş dövründə: insanlar, onların qarşılıqlı münasibətləri, emosional və fiziki vəziyyətləri haqqında təsəvvürləri zənginləşdirmək; emosiyaları mimikadan, jestlərdən, intonasiyadan "oxumağı" öyrətmək; emosional həssaslığı aktiv şəkildə təzahür etdirməyi öyrətmək; davranış və ünsiyyət mədəniyyətini tərbiyə etmək; ailə, qohum münasibətləri haqqında təsəvvürləri dərinləşdirmək; yaxınlarına olan isti münasibəti aktiv şəkildə göstərməyi öyrətmək; salamlaşma, sağollaşma, təşəkkür etmə, xahişlə müraciət etmə formaları ilə tanış etmək; öz hərəkətləri üzərində özününəzarəti inkişaf etdirmək; özü, özz orqanizmi, fərdi keyfiyyətləri, imkanları, nailiyyətləri haqqında təsəvvürləri dərinləşdirmək; özünəhörmət, mənlik hissini inkişaf etdirmək; uşaqların idrak, hiss və hərəkətlərini humanist və ədalətli hərəkətlərin edilməsinə yönəltmək

**Mövzunun aktuallığı.** Şəxsiyyətin inkişafı həmin şəxsiyyətin davranış və

idrakında baş verən dəyişikliklərin ardıcıl və irəliləyən şəkildə baş verməsidir. Sosial-şəxsi inkişaf bir-biri ilə qarşılıqlı əlaqədə və qarşılıqlı asılılıqda olan və uşağın sosiomədəni mühitə daxil edilməsinə istiqamətlənmiş iki prosesin: sosiallaşma və interiorizasiya proseslərinin nəticəsi prosesidir. Həyat təhsil və tərbiyənin nəzəriyyə və təcrübəsi qarşısına ənənəvi - müasir şəraitdə nəyi və necə öyrətmək suallarından başqa, prioritet problem də çıxarır: tarixi inkişafın bu mərhələsində cəmiyyətin tələblərinə cavab verə biləcək insanı nə cür formalaşdırmalı? Bu səbəbdən də biz bu gün uşağın şəxsiyyətinə, onun formalaşmasına təsir edən proseslərin təhlilinə müraciət edirik.

**Elmi yeniliyi.** Müasir dövrdə məktəbəqədər yaşlı uşaqların sosial-şəxsi inkişafının müxtəlif parametrlərdən ilk olaraq nəzərdən keçirilməsi və qiymətləndirilməsi.

**Praktik əhəmiyyəti.** İctimai və mədəni həyatda aktiv iştiraka hazırlanması məqsədi ilə şəxsiyyətin məqsədyönlü, sistematik şəkildə formalaşdırılması prosesidir. İnteriorizasiya prosesi nəticəsində uşaq sosial reallıqdan mənimsədiyi yeni şəxsi keyfiyyətlər əldə edir.

## ƏDƏBİYYAT

1. Azərbaycan Respublikasında məktəbəqədər təhsil proqramı (kurikulumu) (3-6 yaş) Təhsil Nazirliyi 2012, 10 iyul

2. Azərbaycan Respublikasında məktəbəqədər təhsilin Dövlət standartı və proqramı. Bakı, 2010.

3. Əliyeva Ş. Məktəbəqədər pedaqogika. Bakı: ADPU, 2010.

4.Солодянкина О.В. Социальное развитие ребенка дошкольного возраста: Методическое пособие. Издательство: АРКТИ, 2006.

**Ш. Алиева**

## СОЦИАЛЬНО-ЛИЧНОСТНОЕ РАЗВИТИЕ ДОШКОЛЬНИКОВ

## РЕЗЮМЕ

В статье раскрывается сущность социального развития дошкольника, его включение в систему общественных отношений. Описывается процесс социально-личностного развития дошкольников, который включает различные виды деятельности, выделяются выдвигаемые требования, реализуемые в дошкольных образовательных учреждениях и обязательный минимум содержания программы (проекта стандарта дошкольного образования), выясняются задачи, стоящие перед педагогами.

**Sh.Alıyeva**

## PRE-SCHOOL ADULT SOCIAL PRIVATE DEVELOPMENT OF THE CHILDREN

## SUMMARY

This article deals with content of the social development of the pre-scool pupils, their including of the public relations. Process of the social-personal improvement, wich includes various types of activities is described in the article. Requiment realized in pre-scool proqrammes (standards of the pre-scool education), teachers aims are discussed in the article, too.

# TƏHSİL MÜƏSSİSƏLƏRİNDƏ VALEOLOJİ İŞİN TƏŞKİLİ VƏ DAXİLİ MÜHİTİN OPTİMAL MƏZMUNU

**Qüdsi Bayramov,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant,*
*ARTPİ*

**Rəyçilər:** *prof.* H.H. Əhmədov,
*dos.* M.S. Kazımov

***Açar sözlər:*** *tələbələrin sağlamlığı, valeoloji xidmət, valeoloji təhsil və tərbiyə, valeoloji inkişaf prosesi*

***Ключевые слова:*** *здоровье студентов, валеологическая служба, валеологическое образование и воспитание, процесс валеологического развития*

***Key words****: health of students, valeological service, valeological education and accomplishment, process of valeological development*

Müasir mərhələdə təhsilin surətlə modernləşdiyi bir dövrdə ali məktəb tələbələrinin sağlam fiziki, tibbi mənəvi... ruhda böyüməleri də strateji hədəflərdən hesab edilir ki, bu zaman bir çox amillər vacib əhəmiyyət daşıyır. İnsanı əhatə edən coğrafi mühitin şəxsiyyətin formalaşdırılmasına və inkişafına təsiri danılmazdır. Lakin müasir insanın cansağlığı və sağlamlığı yalnız xarici şəraitlə, xarici mühitin təsiri ilə deyil, həm də onun özünün şəxsi sağlamlığına məsuliyyətlə yanaşması, sağlam həyat tərzinə qayğılı münasibətilə şərtlənir. Məlumdur ki, insanın sağlamlığı fərdi deyil, həmçinin dövlət üçün də böyük sosial əhəmiyyət daşıyır. Belə ki, o, bazisin mühüm komponenti olan məhsuldar qüvvələrin aparıcı amili kimi, maddi nemətlər istehsalında bilavasitə iştirak edir və onun sağlamlığı, sağlam həyat tərzi əmək məhsuldarlığını 15-20% artırır. {4, 153}. Məhz buna görə də sosial əhəmiyyətli bir iş kimi sağlamlığın təmin olunmasına təhsilin bütün pillələrində dövlət siyasətini həyata keçirmək bacarığı və qabiliyyətinə malik olan səlahiyyətli və peşəkar təhsil, təlim-tərbiyə mütəxəssislərinin, əksər hallarda elmi dərəcələri (magistr, müvafiq sahələr üzrə fəlsəfə doktoru və elmlər doktoru) olan alimlərin fəaliyyət göstərdiyi tərbiyə institutundan - məktəbdən başlamaq lazımdır. Belə ki, ayrı-ayrı fərdlər və cəmiyyət üçün səmərəli motivlərin formalaşdırılmasını elmi pedaqoji, psixoloji baxımdan əsaslandırılmış, metodiki cəhətdən düşünülmüş, məqsədyönlü, sistemləşdirilmiş tədris-tərbiyə prosesinin vasitəsi və köməyilə həyata keçirmək mümkündür. Bu aspektdən sağlamlığın qorunması, təmin olunması və möhkəmləndirilməsində dövlət və ictimai tərbiyə institutu kimi məktəbin rolu əvəzsizdir.

Sağlamlıq kompleks anlayışdır. Sağlamlıq təhsilalanların ictimai-iqtisadi vəziyyətindən, onların yaşadıqları ekoloji şəraitdən, qidanın keyfiyyətindən, tibbi xidmətdən, tibb işçiləri və ali məktəb müəllimlərinin tələbələrlə apardıqları profilaktik işlərdən, sağlamlıq müəssisələrinin iş sistemindən daha çox asılıdır {5, 81}.

Təhsilalanların sağlamlığı bilavasitə sinir sisteminin tipləri və müvəffəqiyyət qazanmaq üçün start şəraitindəki hazırlıq səviyyəsi ilə şərtlənir. Belə təlim-tərbiyə müəssisəsində sağlam həyat tərzinin formalaşdırılmasının, təhsilalanların fərdi inkişafının, onların psixoloji-fizioloji və yaş-cins xüsusiyyətlərinin nəzərə alınmasına şərait yaradılması üçün təhsilin məzmunu və strukturunu, təlim prinsipləri və üsullarını dəyişmək zərurəti meydana çıxır.

Valeoloji xidmətin təşkili işinin mahiyyəti diferensiallaşdırılmış komponentin, yəni hər bir tələbənin fərdi olaraq valeoloji təhsili müşayiət olunmaqla valeoloji tədris prosesinin həyata keçirilməsindən ibarətdir.

Valeoloji fəaliyyətin əsas məqsədi insanın ona təbiət tərəfindən verilmiş bioenergetik imkanlarını, o cümlədən, şəxsi-intellektual bacarıq və vərdişlərini fəallaşdırmaqdan ibarətdir {9, 71}. Ali məktəb müəssisəsinin valeoloji fəaliyyət sistemi yalnız tələbələrin sağlamlığının

qorunması yox, həm də onlarda spesifik valeoloji biliklər sistemini formalaşdırmaq, sağlam həyat tərzinə motivasiya yaratmaq, orqanizmin bütün imkan və ehtiyatlarının fərdi cəhətlərinin üzə çıxarılması üçün hər cür şərait yaratmaqdır.

Ali məktəbdə valeoloji fəaliyyət sistemi tələbənin valeoloji fəaliyyətinin müşayiət olunması, valeoloji təhsil və tələbənin valeoloji inkişafını özündə birləşdirir.

Təhsilalanın valeoloji fəaliyyətinin müşayiəti-təhsil müəssisəsində tələbənin sağlamlığı üçün mövcud şəraitin yaradılmasına istiqamətləndirilmiş olan müəllimin fəaliyyətidir.

O, tibbi-sosial, pedaqoji-psixoloji yardım, tədris-tərbiyə komponentlər olan əsaslı ekoloji və valeoloji monitorinq kimi işində tələbənin psixoloji-fizioloji imkanlarını qeydə almaqla, yeni fəaliyyət növlərini özündə birləşdirir.

Valeoloji təhsil - tələbədə özünün şəxsi sağlamlığı və onu əhatə edən insanların sağlamlığı ilə bağlı məsuliyyət hissi yaratmaq, fərdi sağlamlığa istiqamətlənmiş dəyər meyillərinin formalaşdırılmasına və inkişafına istiqamətləndirilmiş məqsədəyönlü bir prosesdir.

Təhsilalanın valeoloji inkişafı - tələbənin ahəngdar inkişafına və onun fərdi sağlamlığının formalaşdırılmasına istiqamətləndirilmiş fəaliyyətdir. Onu müəllimin köməyi ilə təşkil olunmuş tələbənin özünüdərkini və özünü reallaşdırılmasını müəyyən edən özfəaliyyəti kimi nəzərdən keçirmək olar. Bu, həmçinin özünü nizamlanmanın nəticəsidir.

Valeoloji inkişaf mərhələ-mərhələ həyata keçirilir. Bu müəllimə təlim prosesindəki pedaqoji fəaliyyətini mərhələlər üzrə təşkil etməsinə imkan verir. Belə vəziyyət tələbəyə öz valeoloji qabiliyyətlərini formalaşdırmağa və inkişaf etdirməyə kömək edir. Nəticədə tələbə özünü özünüdərkə, özününəzarətə, özünürealizasiyaya və özününizamlamaya istiqamətləndirir {10,168}. Valeoloji inkişaf prosesi pedaqoji texnologiyaların tətbiqi ilə gedən məqsədəyönlü bir prosesdir.

Valeologiya üzrə mütəxəssis-pedaqoqun funksional vəzifələrinə aşağıdakılar aiddir:

1) ali təhsil müəssisəsində tələbə şəxsiyyətinin inkişafı və sağlamlığının təmin olunmasına istiqamətləndirilmiş pedaqoji-psixoloji işin aparılması;

2) tələbələrin və pedaqoqların sağlam həyat tərzinin formalaşdırılması ilə bağlı aparılan işə nəzarət, korreksiya və diaqnostikanın, o cümlədən metodik işin keçirilməsinin təşkili;

3) tələbələrin və müəllimlərin sağlam həyat tərzi üçün sağlam psixoloji şəraitin formalaşdırılması, təşkilati-pedaqoji təkliflərin işlənilib hazırlanması;

4) tələbələrin, valideynlərin, tərbiyəçilərin və müəllimlərin sağlam həyat tərzinin təbliği və formalaşdırılması üzrə məsləhət şəbəkələrinin təşkili;

5) ali məktəbdə şagirdlər arasında qrup və fərdi şəkildə valeoloji tədqiqatların aparılması;

6) tələbələrin fəaliyyətini, onların iş qabiliyyətinin dinamikasını müşahidə etmək məqsədilə auditoriyadankənar məşğələ və tədbirlərin təşkili;

7) fakültə və universitetin elmi şuralarında, kafedra iclaslarında qabaqcıl təcrübəni ümumiləşdirmək məqsədilə müzakirələrin keçirilməsi;

8) sistemli şəkildə valeoloji işi təşkil edən müəllimin peşəkar səviyyənin yüksəldilməsi ilə bağlı metodiki və təşkilati işlərin planlaşdırılması.

Yuxarıda qeyd etdiyimiz kimi, müvafiq təhsil, təlim-tərbiyə infrastrukturuna və maddi-texniki bazaya malik olan ali məktəb tələbənin sağlamlıq tələbatını ödəməyə qadirdir. Bu baxımdan ali təhsil müəssisəsinin fəaliyyəti valeoloji təhsil üzərində qurulmalıdır. Profilaktik tədbirin mahiyyəti tələbənin gündəlik həyatda xəstəliyin qarşısının alınmasının yollarını və vasitələrini yaxşı bilməsindən ibarətdir.

Əldə etdiyi bilgilərə tələbə həm də öz orqanizminin ehtiyatlarını fəallaşdırmağı bacarır və qazanılmış vərdişlər sistemini valeoloji vəzifələri icra edən müəllimin köməyi ilə öz orqanizminin inkişafı və möhkəmləndirilməsi proqramını inkişaf etdirir.

Beləliklə, təhsilalanların sağlamlıqla bağlı təlim-tərbiyə işinin təşkili həm də gələcəkdə onların zehni və fiziki inkişafının kəmiyyət və keyfiyyət göstəriciləri üçün də mühüm bazis yaratmaqla rəqabətqabiliyyətli şəxsiyyət olaraq fəal həyat mövqeyinin formalaşmasını təmin edir.

## ƏDƏBİYYAT

1. «Təhsil haqqında» Azərbaycan Respublikasının qanunu. Bakı: Qanun, 2009.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 1995.
3. Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmişdir. http://www.president.az
4. Cəfərov H.A. Şagirdlərin valeoloji tərbiyəsi (1-ci məqalə) // Pedaqoji tədqiqatlar (elmi məqalələr məcmuəsi), 2002, № 2- 3
5. Cəfərov H.A. Ümumi və pedaqoji valeologiyanın bəzi aspektləri (2-ci məqalə) // Psixologiya jurnalı, 2005, № 2
6. Cəfərova Aysel. Valeologiyanın əsas anlayışları. Pedaqoji tədqiqatlar. Bakı: Elm və təhsil, 2010, № 1
7. Əliyev C., Budaqov B. Türklər, azərbaycanlılar, ermənilər: Tarixi həqiqətin soyqrımı. Bakı, Azərbaycan, 2003.
8. Əliyev H.Ə. Müstəqil Azərbaycanın gələcəyi gənclərdir. Bakı, 1996.
9. Əliyev H.Ə. Həyəcan təbili. Bakı: Azərnəşr, 1983.
10. Əliyev P.B., Əhmədov H.H. Gənclərin milli-mənəvi dəyərlər əsasında tərbiyəsi. Bakı: Təhsil, 2006.
11. Брехман И.И. Валеология – наука о здоровье. 2-е изд. М.: Физкультура и спорт, 1990.
12. Вайнер Э.Н. Волынская Е.В. Валеология: Учебный практикум. Москва: Флинта: Наука, 2002.

**Г. Байрамов**

## ОРГАНИЗАЦИЯ ВАЛЕОЛОГИЧЕСКОЙ РАБОТЫ В УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ И ОПТИМАЛЬНОЕ СОДЕРЖАНИЕ ВНУТРЕННЕЙ СРЕДЫ

### РЕЗЮМЕ

В статье говорится о таких важнейших проблемах как организация валеологической работы в высших учебных заведениях, а также об оптимальном содержании внутренней среды. Указанные проблемы анализируются в контексте развития образования в Азербайджане на современном этапе.

**G. Bayramov**

## VALEOLOGICAL ORGANIZATION OF WORK IN SCHOOLS AND THE OPTIMAL CONTENT INTERNAL ENVIRONMENT

### SUMMARY

In this article most important problems, such as organization of valeological activity in high education schools and optimal content of internal surrounding is talked about. These problems are studied in context of Azerbaijan education process development.

# MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARDA MÜSTƏQİL DÜŞÜNMƏ QABİLİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİ

**Fəridə Səmədzadə,**
*məktəbəqədər təhsilin pedaqogikası*
*və metodikası ixtisası üzrə II kurs magistrantı*
*ADPU*
E-mail: faridesemedzade@box.az

**Rəyçilər:** *prof.* A.N. Abbasov,
*dos.* M.S. Kazımov

***Açar sözlər:*** *məktəbəqədər təhsil, müstəqil düşünmək, əqli inkişaf, yaş dövrləri, tərbiyə*
***Ключевые слова:*** *дошкольное образование, самостоятельное мышление, интеллектуальное развитие, возрастные периоды, воспитание*
***Keywords:*** *early childhood education, to think independently, intellectual development, age periods, education*

Bildiyimiz kimi, məktəbəqədər təhsil vahid təhsil sisteminin ilk pilləsi olmaqla uşaqların intellektual, fiziki və psixoloji inkişafında, onların bir şəxsiyyət kimi formalaşdırılmasında və məktəbə hazırlanmasında xüsusi əhəmiyyətə malikdir. Uşaqlarda müstəqil düşünmək qabiliyyətinin inkişaf etdirilməsi hələ kiçik yaşlarında formalaşmağa başlayır ki, bu zaman məktəbəqədər müəssisələrin üzərinə mühüm vəzifələr düşür. Bu vəzifələr öz əksini "Məktəbəqədər müəssisələrdə tərbiyə və təlim proqramı"nda da tapmaqdadır.

Uşaq altı yaşınadək müəyyən idrak yolu keçir, cəmiyyət və təbiət hadisələrini sadə formada dərk etməyə başlayır, yadda saxlayır, diqqəti daha çox cəlb edən prosesləri öyrənməyə səy göstərir. Lev Tolstoy beş yaşa qədərki dövrü "qızıl dövr" adlandırmışdır. O, yazırdı ki, məgər indi yaşayıramsa, bunların hamısını o vaxt əldə etməmişəmmi, həm də o qədər çox, o qədər sürətlə əldə etmişəm ki, bütün qalan həyatımda onun yüzdə birini belə əldə edə bilməmişəm. Doğulmağımla beş yaşım arasında uzun bir dövr keçib, beş yaşlı uşaqdan isə mənə yalnız bir addım var (1, 330).

A.S. Makarenko da bu məsələyə öz münasibətini bildirmişdir. Onun qənaətincə, insanın necə olacağı başlıca olaraq həyatının altı yaşına qədərki dövrdən məlum olur.

Pedaqoji, psixoloji, fizioloji axtarışlara əsaslanmaqla uşağın ilkin yaş dövrlərinə böyük əhəmiyyət verilməli, bu dövrə xüsusi qayğı ilə yanaşılmalıdır.

Müxtəlif yaş dövrlərində uşaqların düşünmə qalibiyyətlərinin inkişaf etdirilməsində ətraf aləmlə tanışlıq mühüm yer tutmaqdadır. Ətraf aləmlə tanışlıq kifayət qədər olmadıqda uşaqlar, xüsusilə ilk dövrlərdə orqanizmin gərginliyinin artması ilə qarşılaşırlar. Çünki onları əhatə edən aləmdə dərk edə bilmədikləri əşyaları , hadisələri və prosesləri qavramaqda, təfəkkürlərində canlandırmaqda çətinliklərlə qarşılaşırlar. Bu zaman uşaqlar ətraf mühitdə baş verən hadisələr haqqında sual verməkdən çəkinirlər və sonda ətraf aləmə qarşı laqeyd münasibət başlayır. Bu yaşlarda kifayət qədər sual verməyən uşaqlar yaş dövrlərinə uyğun bilik, bacarıq və vərdişlərə yiyələnməkdən geri qalırlar. Bu halların yaşanmaması üçün tərbiyəçi ilə valideynlərin üzərinə mühüm vəzifələr düşür. Uşaqların verdikləri suallara təmkinlə yanaşılmalı və onları cavablandıran zaman uşaqların anlaq səviyyəsini nəzərə almaq lazımdır. Uşaqlar həm məktəbəqədər təhsil müəssisələrində, həm də evdə ətrafında baş verən hadisələrə öz mövqelərindən yanaşacaqlar və öz düşüncələrini müstəqil formada söyləməkdən çəkinməyəcəklər.

Uşaqların düşünmə qabiliyyətlərinin inkişafında diqqətin rolu da mühümdür. Diqqətin inkişafı uşağın şəxsiyyətinin hərtərəfli təşəkkülü üçün: müşahidəçiliyi, vərdişlərin yaradılması, mütəşəkkil davranış tərbiyəsi əlverişli şərait olaraq lazımdır. Lakin uşaqlarda ixtiyari diqqətin inkişafı müəyyən vaxt və tərbiyənin aparılmasını tələb edir. Bu dövr tədricən inkişaf etməyə başlayır. İnkişafın

əsasında isə uşaqların maraq dairəsinin yaradılması durur. Ona görə də həmişə maraq üçün bir istinad, müsbət emosiya tələb olunur.

Emosional şəraitin yaradılmasında sözün rolu böyükdür. Uşağın sözün mənasını başa düşməsi məktəbəqədər, o cümlədən böyük məktəbəqədər yaşlı uşaqların əqli inkişafında son dərəcə mühüm rol oynayır. K.D. Uşinski yazırdı ki, əgər uşağa sözün məna və əhəmiyyətini başa düşməyə öyrədilməmişsə, o, bu köklü nöqsandan həmişə əziyyət çəkəcəkdir. Buradan belə bir məna əldə edirik ki, uşaqları sözləri mənaca qavramağa alışdırmaq, yəni onlara sözün konkret məzmununu, hansı hərəkət və keyfiyyət bildirdiyini öyrətmək lazımdır.

Yaşlıların, o cümlədən valideyn və tərbiyəçinin sözü, onların izahatı, uşağın hissi qavrayışını inkişaf edib təkmilləşməsinə, zənginləşməsinə, hüdudlarından kənara çıxmasına səbəb olur. Söz uşağın gördüyü hər bir əşyaların və hadisələrin arasında əlaqə və münasibətin başa düşməsinə səbəb olur. Sözün mənasını dərk etmək, onlardan şüurlu olaraq istifadə etmək, uşağa söz fikrini ifadə etməyə və ətrafdakı insanların da nitqini, istifadə olunmuş fikrini başa düşməyə kömək edir.

Məktəbəqədər müəssisələrdə uşaqların müstəqil düşünmək qabiliyyətlərinin formalaşdırılmasına yönəlmiş bir sıra işlər vəhdət halında həyata keçirilir. Tədqiqatlar göstərir ki, uşağın düşüncələrinin formalaşması müxtəlif proseslərdə gedir və formalaşır. Bunlara məşğələlər, ekskursiyalar, gəzintilər və s. aiddir. Müstəqil düşünmək yalnız ətraf aləmlə tanışlıq məşğələsi zamanı deyil, nitq inkişafı, sadə riyazi təsəvvürlərin inkişafı, oyun zamanı və s. formalaşır. Bu məşğələlər əvvəlcədən tərtib olunmuş plan əsasında gedir və il boyu davam edir.

Uşaqların bilik və təsəvvürlərinin dairəsini, əqli inkişafını nəzərə alaraq, onlara vətənimiz haqqında bir sıra müvafiq məlumat vermək mümkündür. Uşaq nə qədər zəngin məlumatların əldə edilməsi imkanı olan şəraitdə yaşasa da, onu əhatə edən mühit tərbiyəvi baxımdan birmənalı deyildir. Məhz buna görə də, uşaqların seyr etdiklərinin içərisində onları tanış ediləcək obyektlərin seçilməsi pedaqoji baxımdan mühüm əhəmiyyət kəsb edir. Məktəbəqədər yaşda uşaqları vətənimizin tarixi, məişəti, adət-ənənələri, milli bayram və dini mərasimləri, müasir ictimai-siyasi hadisələri ilə tanış etməklə gələcək həyatında hərtərəfli şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayacaqdır.

Son illər Azərbaycanın təhsil sistemin beynəlxalq standartlara uyğunlaşdırılması, dünya təhsilinə inteqrasiyası məqsədilə köklü islahatlar aparılır. İslahatın başlıca məqsədi çevik, dəyişən şəraitə tez uyğunlaşmağı, müstəqil düşünməyi bacaran şəxsiyyət formalaşdırmaqdır. Bu məqsəddən irəli gələn vəzifələrin uğurla həyata keçirilməsi üçün təlim prosesinə yanaşma da keyfiyyətcə dəyişilməlidir. Çünki müasir şəxsiyyət yalnız hafizənin gücləndirilməsinə və informasiya toplanmasına yönəldilməzsə, real həyatın tələblərini nəzərə almayan təlim şəraitində tərbiyə etmək mümkün deyil. Təlim prosesi uşaqda fəallığı, məntiqi düşünməyi, ətrafdakı hadisələrə tənqidi yanaşmağı, müstəqil bilik əldə etməyi, fərdi inkişaf etmək bacarığını formalaşdırmalıdır. Biliklər uşağa hazır şəkildə verilməməlidir, uşaq tədqiqat və axtarışların gedişində ona müstəqil şəkildə yiyələnməlidir. Vaxtı ilə İ. Kant qeyd edirdi ki, "uşaqlara fikir yox, fikirləşməyi öyrətmək lazımdır". Yəni tərbiyəçinin başlıca vəzifəsi uşaqlara "öyrənməyi öyrətməkdir". Məşğələlər zamanı tərbiyəçi elə metodlardan istifadə etməlidir ki, uşaq özü düşünməyi, onu maraqlandıran məsələ ətrafında müstəqil şəkildə fikir söyləməyi bacarsın. Çünki xarici aləm uşaqların qarşısına rəngarəng suallar qoyur, suallar isə onu təbiət və cəmiyyətdə baş verən hadisələrin mahiyyəti, səbəbləri haqqında düşünməyə təhrik edir. Bu zaman qabaqcıl tərbiyəçilər uşaqların təlimə həvəsini inkişaf etdirir, onlarda müşahidəçilik qabiliyyətinin formalaşmasına şərait yaradır. Uşaq yalnız fakt və hadisələri müşahidə etməklə kifayətlənmir, insanın ən qiymətli əqli zinəti adlandırılan müqayisədən istifadə edərək yeni biliklər dünyasına daxil olur.

Beləliklə, bütün öyrədici mühit yalnız uşağın məntiqi, tənqidi və yaradıcı təfəkkürünün inkişafına istiqamətlənməlidir. Bu tələbləri nəzərə alaraq tərbiyəçi elə təlim metodları seçməlidir ki, onların tətbiqi uşaqlarda təlimə maraq oyatsın, fikri fəallıq yaratsın və həyati bacarıqlar formalaşdırsın. Belə metodların seçilməsi uşaqların passivliyinin aradan qaldırılmasına, lazım olan təfəkkür xüsusiyyətlərinin, yaradıcılığın formalaşdırılması və təlim keyfiyyətlərinin yüksəldilməsinə şərait yaradır. Bu zaman uşaqların özünə inamı artır, şəxsiyyətlərarası münasibətlər

yaxşılaşır, məktəbəqədər müəssisəyə və öyrənməyə meyl marağı çoxalır. Tədris prosesinə bu cür yanaşma zamanı, təlim uşaqların yaddaşının yeni biliklərlə zənginləşməsinə deyil, düşünmə qabiliyyətinin və müstəqil olaraq bilik əldə etmək bacarığının inkişafına xidmət edir.

Yuxarıda qeyd olunanlardan məlum olur ki, məşğələ zamanı uşaqların idrak fəaliyyətinin idarə edilməsində birinci vasitə məşğələ boyu uşaqların diqqətinin səfərbər edilməsi və təlim materialına yönəldilməsidir. Biliklər görülən işlərin nəticəsində qazanılır. Uşaqlar hər hansı problemi həll etdikləri zaman onlarda məsuliyyət hissi formalaşır və müstəqil qərar vermə bacarığı inkişaf edir. Bu prosesdə tərbiyəçinin pedaqoji ustalığı ondan ibarətdir ki , uşaqların müstəqil mühakimə aparıb öz mülahizələrini söyləməyinə imkan yaratsın. Onların fikri lazımı istiqamətə yönəlsin. Belə ki, düzgün olmayan cavab rədd etməklə yox, uşaqları düşünməyə vadar edən münaqişə situasiyası yaratmaqla və səhv cavabı inandırıcı-əsaslandırıcı surətdə təkzib etməklə uşağı doğru nəticə çıxartmağa sövq edə bilsin. K.D. Uşinski yazırdı "Diqqət şüurumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər bir şey mütləq buradan keçir. Ona görə də uşaqları təlim prosesində həmin qapını açıq saxlamağa alışdırmaq lazımdır". Hər bir uşağın marağının təmin edilməsi, onların təlim prosesinin iştirakçısına çevrilməsinə nail olunması, tərbiyəçi-uşaq əməkdaşlığının düzgün təşkili onların idrak fəallığının artırılmasına və düzgün formalaşmasına səbəb olur.

**Problemin aktuallığı**. Hazırda təhsilin, o cümlədən məktəbəqədər təhsilin qarşısında duran mühüm vəzifələrdən biri də təhsil və tərbiyə olunanlarda müstəqilliyin inkişaf etdirilməsidir. Bu baxımdan müstəqil düşünmə qabiliyyətinin inkişaf etdirilməsi aktuallıq daşıyır.

**Problemin yeniliyi.** Məktəbəqədər yaşlı uşaqlarda müstəqil düşünmə qabiliyyətinin inkişaf etdirilməsi üzrə işin əhəmiyyəti əsaslandırılır.

**Problemin praktik dəyəri.** Məktəbəqədər yaşlı uşaqlarda müstəqil düşünmə qabiliyyətinin inkişaf etdirilməsi üzrə işin təşkili ilə bağlı tərbiyəçilərə zəruri məlumat verilir.

## ƏDƏBİYYAT

1. Л.Н. Толстой. Собранные сочинений. М., 1951.
2. M. İlyasov Müəllimin pedaqoji ustalığı: Ali məktəblər üçün dərslik. Bakı, 2013.
3.M.Ə. Həmzəyev. Yaş və pedaqoji psixologiyanın əsasları. Bakı: Adiloğlu, 2003.

**Ф.О. Самедзаде**

## РАЗВИТИЕ СПОСОБНОСТИ НЕЗАВИСИМОГО МЫШЛЕНИЯ У ДЕТЕЙ ДОШКОЛЬНОГО ВОЗРАСТА

## РЕЗЮМЕ

В дошкольных учреждениях проводится ряд работ, направленных на развитие способности независимого мышления. Исследования показывают, что формирование мышления ребенка происходит в различных процессах. К ним относятся занятия, экскурсии, прогулки и др. Независимое мышление формируется не только на занятиях по ознакомлению с окружающей средой, но и при развитии речи, простых математических представлений, во время игр и т.д. Эти занятия проходят на основе заранее составленного плана и продолжаются на протяжении года.

**F.O. Samadzadeh**

## DEVELOPMENT OF THE ABILITY OF INDEPENDENT THINKING IN PRESCHOOL CHILDREN


### SUMMARY

In preschools conducted a series of activities aimed at the development of independent thinking. Studies show that the formation of the child's thinking comes in different processes. These include lessons, excursions, et al. Independent thinking is formed not only in the classroom to familiarize with the environment, but also for the development of speech, simple mathematical representations, during games, etc. These classes are held on the basis of a pre-existing plan and continue throughout the year.

# ОСНОВЫ РАЗВИТИЯ ИНТЕЛЛЕКТА ДЕТЕЙ В МЛАДШЕМ ШКОЛЬНОМ ВОЗРАСТЕ

**Ульвия Сейфуллаева,**
*старший научный сотрудник ИПОАР*
E-mail: ulya_s85@mail.ru
**Мехрибан Алиева,**
*старший научный сотрудник ИПОАР*
E-mail: meri.aliyeva.71@mail.ru

**Рецензенты:** *доц.* Р. Гандилов,
*доц.* Э. Бейларов

***Ключевые слова:*** *интеллект, развитие, обучение, педагогический процесс, математика, мышление*
***Açar sözlər:*** *intellekt, inkişaf, tədris, pedaqoji proses, riyaziyyat, təfəkkür*
***Key words:*** *intellect, development, education on, pedagogical process, mathematics, thinking*

Начальная школа является самой важной и значимой ступенью в системе школьного образования, поскольку впервые ведущей деятельностью ребенка становится учебная деятельность. И от того, как будет сформирована эта деятельность, насколько будет привит ребенку интерес к процессу познания, созданы комфортные условия для учения и самореализации, зависит не только успешность обучения в основной и старшей школе, но и желание и умение совершенствовать свое образование всю жизнь.

Система развивающего обучения направлена на развитие у детей интеллектуальных способностей, желаний и умения учиться, навыков делового сотрудничества со сверстниками.

Анализ школьного обучения показывает, что развитие способностей у многих учащихся значительно отстает от темпов роста объема знаний. Одним из важных направлений в решении этой задачи, выступает создание в начальных классах условий, обеспечивающих полноценное умственное развитие детей, связанное с формированием устойчивых познавательных интересов, умений и навыков мыслительной деятельности, качеств ума, творческой инициативы. Мышление в умственном развитии занимает одно из главных положений. Поэтому для создания условий для развития интеллекта, нужно сделать упор на развитие мышления. На уроках в начальных классах при решении учебных задач у детей формируется такие приемы логического мышления как сравнение, связанное с выделением и словесным обозначением в предмете различных свойств и признаков обобщения. С помощью наглядно-действенного мышления удобнее развивать у детей такое важное качество ума, как способность при решении задач действовать целенаправленно, сознательно управлять и контролировать своими действиями. Это объясняется тем, что усилия учителей, как правило, направлены на усвоение знаний, хотя известно, что система знаний нужна ученику не сама по себе, а для решения самых разнообразных задач, так как развитие творческих способностей школьника не могло бы протекать и даже начинаться без постановки и решения самых простейших задач. Задача – это начало познавательного, поискового и творческого процесса. Однако в широкой практике школьного обучения в большинстве случаев используются репродуктивные задачи, ориентирующие на однозначные ответы, не активизирующие мыслительную деятельность ученика. Творческие способности школьников проявляются именно в решении познавательных задач.

Эффективность интеллектуального развития младших школьников зависит от деятельности учителя, его творческого подхода к обучению детей, когда учитель отдаёт предпочтение методам и приёмам обучения, стимулирующим сложные познавательные

процессы, способствует самостоятельной деятельности учащихся, ориентированной на их творчество.

Научить ученика развивать свои мысли – основная задача педагога. Ещё одной из основных задач педагогического процесса является формирование гармонического склада ума. Школьники обладают разными складами ума – у одних аналитический, у других преобладает наглядно – образный, у третьих образные и абстрактные компоненты развиты относительно равномерно. Поэтому необходимо как можно выше поднять планку как логического, так и абстрактного мышления. Для этого учителю необходимо преподносить материал более объёмно, с выделением в нём логической и образной стороны.

Для успешного обучения у учащихся должны быть сформулированы 3 составляющие мышления:

❖ высокий уровень элементарных мыслительных операций: анализа, синтеза, сравнения, обобщения, классификации, суждения, умозаключения;

❖ высокий уровень активности, раскованности мышления, которая заключается в возникновении нескольких вариантов решения проблемы, большого количества гипотез, идей;

❖ высокий уровень организованности и целенаправленности, в использовании обобщённых схем анализа явления.

Наиболее благоприятные условия для этого созданы в технологии развивающего обучения, так как, в ней ребёнок сам является субъектом учения в учебном процессе.

Формой цели, при которой ученик становится субъектом учебной деятельности, является задание. Задание должно быть сформулировано таким образом, чтобы оно могло выполнять функцию цели, а именно определять характер и способ деятельности. Учебный материал должен носить проблемный характер. Задания, предлагаемые учащимся, должны представлять проблемную задачу. Такая задача является искусственной педагогической конструкцией, поскольку в учебном процессе используются те проблемные задачи, которые уже решены обществом и это решение уже знает учитель.

Для ученика же задача выступает как субъективная проблема.

Если учебный материал имеет проблемный характер, а у детей нет базы для решения абстрактно-мыслительной творческой задачи, то в этом случае учитель так должен построить задание, чтобы условия задачи стали доступны непосредственному восприятию учащихся или могли быть ими зрительно представлены.

Представлю фрагмент урока математики во 2 классе.

Тема: Конкретный смысл умножения.

На доске помещается карточка с суммами:

| |
|---|
| 5+4+3 |
| 4+4+4+4 |
| 13+13+13 |
| 53+35 |
| 12+12+15 |
| 7+7+7+7+7 |

Учитель обращается к ученикам:

– Что записано на доске?

Дети:

– Суммы.

Учитель:

– Что вы можете сказать про них и какую работу можно выполнить с этими суммами?

Дети:

– Есть суммы, у которых все слагаемые одинаковые и поэтому их можно сгруппировать: в одну группу – с одинаковыми слагаемыми, а в другую все остальные.

1 группа:

| |
|---|
| 13+13+13, |
| 4+4+4+4, |
| 7+7+7+7+7. |

2 группа:

| |
|---|
| 5+4+3 |
| 53+35 |
| 12+12+15 |

Учитель вновь обращается к ученикам:

– Может быть кто-нибудь знает, как короче записать эти суммы? Или может, вы от взрослых слышали о других действиях, кроме сложения и вычитания?

Один из учеников отвечает, что слышал от старшего брата про умножение, но как оно обозначается, не знает.

Решение этой проблемы учитель предлагает найти в учебнике. Дети прочитав, приходят к заключению, что заменить сложение в 1 столбике можно другим действием – умножением.

– А можно ли это сделать с суммами 2 столбика? – обращается учитель к классу.

– Нет, потому что слагаемые не равны между собой.

Далеко не весь материал имеет проблемный характер. Однако и он должен быть представлен детям в форме заданий, выполняющих функциональную цель. Если нужные познавательные действия не сформированы у младших школьников, то задания предлагаются в игровой форме, в виде дидактической мини-игры. Следовательно, учителю необходимо специально планировать на уроке задания для учащихся, в которых они на новой информационной основе снова и снова бы выполняли аналогичные интеллектуальные действия. Выполнение задания постоянно расширяют информационную базу для новых знаний. Таким образом, знания и способы интеллектуальных действий приобретаются в процессе выполнения множества разнообразных заданий.

Используем творческие задания на каждом этапе урока.

Рассмотрим это на примере простой задачи.

Изучение нового материала. 5+4. Чему равно значение этой суммы? Дети нашли 5 подосиновиков и 4 лисички. Сколько всего грибов у детей?

Задаём вопрос классу:

- Чем похожи эти задания?

Дети:

- Числами 5 и 4.

- Чем отличаются?

- Отличается тем, что есть вопрос, которым заканчивается математический рассказ.

– В I-ом задании нужно найти только ответ, а во II-ом задании нужно догадаться, какие действия нужно выполнить.

Ученики правильно понимают смысл задания, потому что II-ое задание называется задачей. В ней никогда не указывается, каким действием её нужно решить.

Закрепление.

Дети нашли 5 подосиновиков и 4 лисички.

Ставим вопрос к условию задачи. Измените условие так, чтобы задача стала составной.

Теперь составим домашнее задание:

1) Сделайте рисунок, схему к задаче.

2) Составьте подобную задачу.

Основное требование технологии развивающего обучения это постановка цели урока в форме развивающих заданий, в которых определены интеллектуальные действия, приводящие к пониманию учебного материала.

Успех выполнения развивающих заданий вызывает сильные эмоциональные явления, в том числе так называемое чувство “умственной радости”. Технология развивающего

обучения приводит учащихся к пониманию изучаемого и выполняет корригирующую функцию. Благодаря этому предлагаемая технология обучения может быть использована при работе с детьми, имеющими высокий интеллектуальный потенциал, а так же с детьми со средним уровнем интеллекта.

Задания на развитие логического и творческого мышления, изменяя свое содержание в соответствии с темой урока, многократно повторяют способы выполнения действий, лишь постепенно наращивая уровень их сложности.

Очень целесообразно начинать урок с интеллектуальной разминки.

Например: Сколько пальцев на 2 руках?

Сколько недель в месяце?

Порядковый номер пятницы в неделе?

Наименьшее двузначное число?

Какого числа последний день года?

Провоцирующие задачи.

На 2 руках 10 пальцев. Сколько пальцев на 10 руках?

Крышка стола имеет 4 угла. Сколько будет углов у крышки, если один из них отпилить? 5.

У палки 2 конца. Сколько получится концов, если один из них отпилить? 4. Замените одну букву так, чтобы получились новые слова:

ВАТА (ФАТА), СОВА (СОФА), ОЛИВА (ОЛИФА)

С развитием и становлением отрасли психологии, получившей название “тестология”, появилось понятие “интеллектуальная одаренность”. Интеллектуально одаренные дети – это дети с высокими показателями по специальным тестам интеллекта. Хорошо обучающиеся в школе ученики, входят в группу “академическая одаренность”.

Среди детей с проблемами в учении есть большая группа учащихся, у которых просматривается интеллектуальная пассивность.

Её особенности:

- ❖ недостаточная сформированность интеллектуальных навыков и умений;
- ❖ отрицательное отношение к интеллектуальной деятельности;
- ❖ отсутствие познавательного отношения в действительности.

По широте проявления различают общую и частичную интеллектуальную пассивность. Выразительным показателем интеллектуальной пассивности является отсутствие инициативы в интеллектуальной деятельности. Существенным фактором, влияющим на возникновение интеллектуальной пассивности является познавательный климат семьи.

1 группа родителей воспроизводят в ребенке свои ограниченные познавательные интересы, создавая в семье атмосферу интеллектуального голода;

2 группа родителей своей неразумной помощью приучают ребенка к несамостоятельности, безынициативности, способствуя формированию “интеллектуального иждивенчества”;

3 группа родителей “перекармливают” их познавательной информацией, что приводит к притуплению познавательной потребности.

Особенности интеллекта каждого ребенка не являются застывшими, раз и навсегда данными, а подвержены прогрессивным изменениям при определенных условиях его обучения и отношения к нему. Решающая роль в обеспечении таких условий принадлежит, конечно же, учителю.

**Актуальность статьи.** В младшем школьном возрасте у ребёнка происходит интенсивное развитие интеллекта, играющего важную роль не только в психике человека, но и вообще в его жизни.

**Практическая значимость статьи.** Технология развивающего обучения предъявляет к заданиям, используемым на различных этапах учебного процесса, еще одно важное

требование – задания должны не только приводить учащихся к пониманию изучаемого, но и выполнять корригирующую функцию.

**ЛИТЕРАТУРА**

1. Т.А. Соловьева. Основы технологии развития интеллекта младших школьников в учебном процессе // Начальная школа, 1997, № 12

2. В.Н. Камышников. Структура и содержание системы заданий, направленных на развитие интеллекта младших школьников // Начальная школа, 2002, № 6

3. Л.В. Орлова. Что такое интеллектуальная пассивность? // Начальная школа, 1996, № 7

**Ü. Seyfullayeva, M. Əliyeva**

**İBTİDAİ SİNİF ŞAGİRDLƏRİNİN İNTELLEKT SƏVİYYƏSİNİN İNKİŞAFI**

**XÜLASƏ**

Məqalədə 2-ci sinif şagirdlərinin riyaziyyat dərslərində məntiqi təfəkkürün inkişaf etdirilməsi məsələləri, onların intellektual və yaradıcılıq qabiliyyətlərinin inkişafı sahəsində müəllimin fəaliyyətindən danışılır. Şagirdlərin məntiqi təfəkkürünün inkişafı riyazi təhsilin mühüm məsələlərindən birdir.

**U. Seyfullayeva, M. Aliyeva**

**DEVELOPMENT OF INTELLIGENCE YOUNGER STUDENTS**

**SUMMARY**

İn artikle it is spoken about problems of development of logical thinking of pupils of the sekond class at mathematics lessons, about aktivity of the teacher in the fild of development of their intellectual and creative skills. Development of student’s mathematical thinking is one of the most important issues in mathematics education.

# ÜMUMİ TƏHSİLİN TƏDRİS PLANI PEDAQOJİ MÜLAHİZƏLƏR MÜSTƏVİSİNDƏ

**Məhbubə Məmmədova,**
*"Tərəqqi" liseyinin direktoru*
E-mail: ms.mmahbuba@mail.ru

Rəyçilər: *dos.* Ə.M. Abbasov,
*dos.* İ.A. Cavadov

***Açar sözlər:*** *ümumi təhsilin məzmunu, bazis tədris planı, tədris proqramı, təhsil planı, məktəbin fəaliyyət istiqamətləri, regional tipli tədris planı*

***Ключевые слова:*** *содержание общего образования, основной образовательный план, план образования, направления школьной деятельности, образовательный плана регионального типа*

***Key words:*** *content of general education, basic education plan, plan of education, school activity directions, regional typed education plan*

Təhsil, onun məzmunu barədə danışan təhsilşünas alimlər, eləcə də bu sahədə araşdırmalar aparan mütəxəssislər onun düzgün təşkil olunmasını və reallaşdırılmasını vacib amil hesab edirlər. Eyni zamanda məzmunun idarə olunmasında, onun müvafiq qaydada sistemləşməsinə xüsusi önəm verirlər. Odur ki, təhsilin məzmunu anlayışından, onun mahiyyətindən söhbət açılarkən məzmunun ifadə olunduğu sənədlərin adını xüsusi olaraq qeyd edir, onların əhəmiyyəti barədə söhbət açırlar. Tədqiqatçılar bu sənədlərdən danışarkən tədris planı, tədris proqramı və dərslikləri önə çəkir, onların təhsil sisteminin formalaşmasında, təlim prosesinin səmərəliliyinin yüksəlməsindəki rolunu xüsusi qeyd edirlər. Göründüyü kimi, tədris planı təhsil məzmununun ifadə olunduğu sənədlərin içərisində birinci yerdə dayanır. Araşdırmalar onu göstərir ki, tədris planı mahiyyət və məzmununa görə elə bir aparıcı, başlanğıc missiya daşıyır ki, o elə məhz ön cərgədə dayanmaqla digər komponentlər – tədris proqramı, dərslik üçün əsas, bünövrə rolunu oynayır. Proqram və dərsliklərin konseptual əsasını təşkil etməklə onların formalaşması və inkişafı mexanizmləri üçün əvəzolunmaz dəstəyə çevrilir. Tədris planı olmadan proqram və dərsliklərin yaradılması sistemsiz qurulan işin qeyri-elmi yanaşmalara söykənən parametrlərini xatırladır. Belə şəraitdə nə qədər iş görülsə də, zəhmət sərf edilsə də, onun keyfiyyət baxımından göstəriciliyi inkişaf etmək əvəzinə, daha da tənəzzülə uğrayacaq, onu yüksəltmək barədə düşüncə imkanlarını məhdudlaşdıracaqdır.

Tədris plan didaktikanın problemləri ilə bağlı araşdırmalar aparan, demək olar ki, bütün alimlərin yaradıcılığında birmənalı şəkildə münasibət bildirilən pedaqoji anlayışlardan biri hesab edilir. Xüsusilə təlim nəzəriyyəsi ilə bağlı fikir söyləmiş tədqiqatçılar tədris planı barədə mülahizələrini bildirmişlər. Onlardan bəzilərinin fikirlərini nəzərdən keçirək: "Tədris planı təhsilin məzmununu və bir sıra digər cəhətlərini təyin edən başlıca sənəddir" (1, 87) , "Tədris planı məktəbin fəaliyyətini istiqamətləndirən normativ sənəddir" (2, 251; 3, 104), "Ümumi təhsil və ixtisaslaşmış peşə məktəbləri üçün öz məzmununda öyrənilən fənlərin siyahısını, illər üzrə onun bölgüsünü, eləcə də tədris olunan ayrı-ayrı siniflərdə hər bir fənn üzrə ayrılan saatları ehtiva edir" (4, s.116), "Tədris planı tədris müəssisələrinin sertifikatıdır" (5, 324; 6, 128) və s.

Tədris planı haqqında fikirlərin sayını artırmaq mümkündür. Göründüyü kimi, onların, demək olar ki, hamısında tədris planının tədris müəssisəsinə aid olması, orada keçilən fənlərin və onlara ayrılan saatların miqdarını əhatə etməsi xüsusi olaraq qeyd edilir.

Tədris planının əhəmiyyətli bir sənəd olması barədə pedaqoji araşdırmalarda belə qənaətə gəlirik ki, "o

1) tədris ilinin, rübünün və tətillərin müddətini;
2) tədris müəssisəsində öyrənilən fənlərin tam siyahısını;
3) təlim illəri üzrə fənlərin bölüşdürülməsini;

4) hər fənnin bütün təlim müddətində və hər bir sinifdə öyrənilməsinə ayrılan saatların miqdarını;

5) hər fənnin öyrənilməsinə verilən həftəlik saatların miqdarını;

6) praktikumların strukturunu, müddətini və s. müəyyən edir" (6, 128-129).

Tədris planı elə sənəddir ki, təhsilin bütün konseptual məqsəd və vəzifələrini, zəruri prinsip və tələblərini, eləcə də illər boyu yaranmış mütərəqqi ənənələri nəzərə almaq üçün potensial imkanlara malik olur.

Tədris planları zəruri və qeyri-zəruri məzmun komponentlərini əhatə edir. Demək olar ki, bütün dünyada tədris planları mərkəzi orqanlar tərəfindən təsdiq olunmaqla icra olunur. Orada müəyyən olunmuş faktları dəyişməyə, başqası ilə əvəz etməyə icazə verilmir.

Tədris planı təhsilin məzmununda sistemlilik baxımında möhkəmliyin formalaşmasına rəvac verir. O, demokratik idarəetmənin təminatçısı kimi çıxış edərək təhsil menecerlərini məzmunun keyfiyyətli tətbiqində fəal iştirakçı olmağa təşviq edir. Başqa sözlə, ümumi təhsilin idarə olunmasında zəruri prinsiplərdən istifadə olunması mexanizmlərinin didaktik əsası kimi çıxış edir.

Pedaqoji ədəbiyyatlarda tədris planı anlayışına birmənalı şəkildə yanaşılmır. Onun müxtəlif situasiyalarda müxtəlif növlərindən istifadə olunması barədə mənbələrdə məlumatlar verilir. Tədris planlarının növlərindən, onun təhsil sistemində əhəmiyyətli yer tutmasından və faydalarından danışılır.

İlkin olaraq "tədris planı" anlayışı barədə, onun mahiyyəti barədə danışarkən uzun illər istifadə edilən bu ifadənin, bu gün pedaqoji aləmdə dəyişikliklərin getdiyi hazırkı zamanda nə dərəcədə tələblərə cavab verməsi məsələsinə diqqət yetirilməsi mülahizələrimizi əsaslandırmaq baxımından maraqlıdır. Məlum olduğu kimi, "tədris" bilavasitə "öyrətmək" mənasını ifadə etməklə müəllim fəaliyyətinə aiddir. Bu sözdə yalnız müəllimin yanaşmaları ehtiva olunur. Ənənəvi olaraq "tədris planı" adı ilə istifadədə olan və pedaqogikada işlədilən bu anlayışın əhatə dairəsi yalnız müəllim fəaliyyətinə aid olmayıb, daha geniş məna daşıyır. Yuxarıda da göstərildiyi kimi, tədris planı müəssisənin sertifikatıdır. Yəni o təhsil müəssisəsində olan bütün fəaliyyətləri (öyrənmə, öyrətmə, idarəetmə) əhatə edir. Eləcə də konkret olaraq göstərilir ki, "tədris planı keçilən fənlərin tərkibini, onların illər üzrə öyrənilmə ardıcıllığını, fənlər üzrə ayrılan tədris saatlarının həftəlik və illik miqdarını, tədris ilinin strukturunu və davamlılığını müəyyən edir" (7, 129).

Göründüyü kimi, "tədris planı" adı ilə istifadə olunan bu sənəd təhsilin məzmunu, təşkili, idarə olunması, ona ayrılan saatların miqdarı, başqa sözlə, maliyyə məsələlərini ehtiva edir. Belə olan təqdirdə bu sənədin "tədris planı" deyil, "təhsil planı" adlandırılması daha məntiqi hesab edilir.

Bu müddəanın doğruluğunu həm də hazırkı zamanda təhsil anlayışına yeni yanaşmaların meydana gəlməsi də əsaslandırır. Belə ki, artıq təhsil yalnız nəticə deyil, proses, sistem, dəyər kimi yeni mənaları daşıyan pedaqoji anlayış olaraq istifadə edilməyə başlanmışdır. Ondan təhsil müəssisəsinin bütün fəaliyyətinin məzmununu əhatə edən bir sənədin adlandırılmasında istifadə olunması - "tədris planı"nın "təhsil planı" kimi işlənməsi təbiidir. Pedaqogika elmində ümumtəhsil məktəbinin tədris planı ilə bağlı yanaşmalar mövcuddur ki, hazırda həmin fikirlərdən təcrübədə geniş istifadə olunmaqdadır.

Tədris planı məktəbin fəaliyyətini istiqamətləndirən normativ sənəddir. Tədris planına tədris olunan fənlərin siyahısı və dərs ili üzrə fənlərin saat bölgüsü daxil edilir.

Tədris olunan fənləri müəyyən edərkən, onların ümumilikdə və ya mərhələlərlə öyrənilməsinə ayrılan vaxt, tədris planının təhsilin məzmununda məktəbin bilavasitə istiqamətləndiyi prioritet məsələləri, digər tərəfdən isə özünün reallaşması üçün zəmin yaradır.

Müasir ümumtəhsil məktəblərində tədris planlarının bu növləri məlumdur.

- ❖ Baza tədris planı.
- ❖ Regional tipli tədris planları.
- ❖ Hər hansı bir məktəbin konkret tədris planı.

Ümumtəhsil müəssisələrinin baza tədris planı dövlətin əsas normativ sənədi olaraq təhsil sahəsində dövlət standartlarının ən əsas və ya tərkib hissəsini təşkil edir. Dövlət standartının bir hissəsi olaraq, baza tədris planı ümumi orta təhsilin dövlət normalarını təşkil edərək, struktura,

məzmuna və təhsil alanların bilik səviyyəsinə aid tələbləri müəyyən edir. Baza tədris planı regional, nümunəvi-tipik və gündəlik tədris (iş) planlarının, eləcə də məktəbin maliyyələşməsi üçün sənədlərin hazırlanmasına xidmət edir.

Regional baza tədris planı təhsilin idarə olunması üzrə regional orqanlar tərəfindən dövlətin baza tədris planı əsasında işlənib hazırlanmışdır. Bu sənəd tövsiyə xarakteri daşıyır və Təhsil Nazirliyi tərəfindən təsdiq olunur.

Məktəbin (ümumtəhsil müəssisəsinin) tədris planı dövlətin baza və regional tədris planları əsasında uzunmüddətli dövr üçün hazırlanır. Sənəd konkret bir məktəbin xüsusiyyətlərini əks etdirir.

Məktəbin özünün tədris planı dövlətin baza tədris planı əsasında uzunmüddətli dövr üçün hazırlanır. Bu növ tədris planına nümunə olaraq, baza tədris planına əlavə kimi ibtidai siniflər üçün, əsas məktəblər üçün, orta ümumtəhsil məktəblər üçün azkomplektli və ya kənd məktəbləri üçün, ana dili, rus dili olmayan orta ümumtəhsil məktəbləri və s. daxil edilmişdir.

Ümumtəhsil məktəbləri üçün tədris planlarının hazırlanması və təkmilləşdirilməsi 2 istiqamət üzrə aparılır:

1. Yeni fənlərin (əvvəllər heç keçilməyən) daxil edilməsi.
2. Ənənəvi ( keçilən) fənlərin xüsusiyyətlərinin bir daha nəzərdən keçirilməsi.

Ümumi orta təhsil məktəbinin baza tədris planı-dövlət standartlarının bir hissəsi kimi bu normativləri əhatə edir:

a) Ümumtəhsilin hər hansı bir pilləsində təhsilin davamlılığı;
b) Ümumtəhsil pilləsində həftəlik dərs yükü;
c) Məcburi məşğələlərə ayrılan saatların miqdarı;
d) Dövlət tərəfindən maliyyələşdirilən yekun dərs saatlarının miqdarı.

Beləliklə, ümumtəhsil məktəblərinin baza tədris planı dövlət standartlarının bir hissəsi olaraq regional və məktəb (yerli) tədris planlarının əsasını durmaqla təhsil siyasətində varisliliyi təmin edir.

Təhsil müəssisəsi kimi məktəblər xüsusi struktura malik bir təşkilat kimi həmişə fəaliyyət göstərdikləri müddətdə müvafiq istiqamətlərə və tövsiyələrə ehtiyac hiss etmişdir. Heç şübhəsiz, müxtəlif zamanlarda tədris müəssisələrinin normal fəaliyyət göstərməsi üçün belə istiqamətlər olmuşdur. Pedaqoji fikir tarixini araşdıran F.A. Rüstəmovun qənaətinə görə, belə rəsmi sənədlər olmasa da, təhsilin tarixi boyu məktəblərin uyğun rejimləri olmuş, onlar öz fəaliyyətlərində müxtəlif prosedur qaydaları gözləmişlər. Uşaqların öyrəndikləri fənlər, onlara ayrılan vaxt, yaxud hər hansı elm sahəsi müəyyənləşdirilmiş, onlar üzərində iş aparılmışdır. Məsələn, eramızdan əvvəl Yunanıstanda sofistlər (yunan dilində "müdriklik müəllimləri" deməkdir) öz biliklərini başqalarına öyrətmiş, bununla daha çox dəlil və sübutları əsas götürmüş, əsaslandırmaya üstünlük vermişlər. "Sofistlər qrammatika, dialektika, mübahisə mədəniyyəti fənləri hesabına təhsilin məzmununu genişləndirirdilər. Zaman keçdikcə bu üç fənn, daha dördü (hesab, həndəsə, astronomiya, musiqi) əlavə edildi" (5, 73). Beləliklə, təhsildə öyrədilən fənlər konkretləşdirilir. Yaxud intibah və islahatlar dövründə Qərbi Avropada məktəbin inkişafında mühüm parametrlərdən biri təhsil planları sahəsində müşahidə olunan irəliləyişlər idi. Araşdırmalarda bu irəliləyişlər açıq-aşkar şəkildə qeyd olunurdu. Göstərilirdi ki, "İntibah dövründə klassik təhsil proqramı, təhsil planı yeni tədris fənlərinin hesabına zənginləşirdi" (5, 81). Bu məsələni öyrənən F.A Rüstəmov belə qənaətə gəlir ki, "müxtəlif dövrlərdə (XIV əsrə qədər İntibah dövrü – XIV-XVI əsrlər, XVII-XVIII əsrlər) öyrədilən fənlərin sayında çoxalma müşahidə olunmuşdur. Belə XIV əsrə qədər 7 fənn ( Qrammatika, Ritorika, Dialektika, Hesab, Həndəsə, Astronomiya, Musiqi), XIV-XVI əsrlərdə-intibah dövründə 11 fənn (Qrammatika, Ədəbiyyat, Tarix, Ritorika, Məntiq, Etika, Hesab, Cəbr, Triqonometriya, Həndəsə, Coğrafiya, Botanika, Zoologiya, Astronomiya, Mexanika, Fizika, Kimya, Musiqi) məktəblərdə öyrədilmişdir. Bu faktlardan da görünür ki, məktəblər özlərinin hüquq və vəzifələrinə uyğun olaraq fənlər müəyyənləşdirmiş, onların reallaşdırılması istiqamətində iş aparılmışdır (5, 281-282).

Eləcə də XVIII əsr məktəblərində xeyli irəliləyişlər müşahidə olunur: tədris olunan fənlərin adları , onların təhsil müddəti göstərilir (5, 389).

Göründüyü kimi, nümunə olaraq verilmiş bu epizodik faktlarda tədris olunan fənlərin sayının dövrü olaraq çoxalması diqqət mərkəzində saxlanır. Onların məktəblərdə öyrədilməsi işində zənginləşmə, daha çox diferensiyallaşdırma elementlərinin çoxalması müşahidə edilir. Yeri gəlmişkən, bu yanaşma tərzində həm də bir fundamentallığın olduğu aydın görünür. Daha çox uşaqların artıq yükdən azad olmaları prioritet hesab olunur. Bütün məqamlarda bu mülahizələr məqbul sayılmaqla inkişaf etdirilir.

Azərbaycan məktəb tarixinin tədqiqatçısı H. Əhmədov qeyd edirdi ki, "məktəb və mədrəsələrin müəyyən edilmiş nizamnaməsi yox idi. Ona görə də məktəb və mədrəsələrin nə quruluşu, nə fəaliyyəti və nə də onu təsis edənlərə heç bir faktik nəzarət olmadığı kimi, müəyyən təlim kursu da yox idi. Məktəb və mədrəsələrin tədris planı və proqramı məktəbi təsis edənlərin və ya ona rəhbərlik edən şəxslərin mülahizəsindən asılı idi" (8, 4). Həmin mülahizələr təhsil müəssisələrinin nümunəsində meydana çıxmaqla, faktik olaraq, tədris planına, onun əhatə etdiyi məsələlərə uyğun olan fikirlərin ifadəsi baxımından daha çox əhəmiyyət daşıyırdı. Rəsmi olaraq təhsil müəssisəsinin fəaliyyətini istiqamətləndirən normativ sənəd XX əsrin əvvəllərinə təsadüf edilir. Azərbaycan təhsilinin tarixinə aid araşdırmasında aydın şəkildə göstərilir ki, "1920-ci ilin payızında Azərbaycanın I və II pillə məktəbləri üçün ilk tədris planları tədris edildi" (9, 17). Burada fənlər, qruplar (siniflər) üzrə onlara ayrılan saatların miqdarı göstərilmişdir. Eyni zamanda həftəlik saatların cəmi qeyd olunmuşdur.

Araşdırmalar onu göstərir ki, ötən əsrin əvvəllərindən sonuna qədər tədris planlarının ümumi mənzərəsində üç mühüm cəhət diqqəti cəlb edir. Onlardan birincisi 20-ci illərdə qəbul olunmuş tədris planlarında fənlərin sayı 15-ə qədər olmaqla azlıq təşkil edir. İllər keçdikcə tədris planlarına yeni fənlər əlavə edilməklə onların sayı artır. İkinci cəhət əvvəlki tədris planlarında yalnız zəruri fənlər təqdim olunur. Yalnız son dövrlərdə əlavə məşğələlər üçün saatlara yer ayrılır. Nəhayət, Azərbaycanda hazırlanan və təsdiq olunaraq məktəblərin istifadəsinə verilən tədris planları nümunəvi xarakter daşıyır. Onlar Təhsil (Maarif) Nazirliyi tərəfindən təsdiq olunur. Yalnız 1999-cu ildə hökumət tərəfindən təsdiq olunmuş "Azərbaycan Respublikasında ümumi təhsilin Dövlət Standartı"nda ilk dəfə olaraq Bazis tədris planı öz əksini tapır. Bu tədris planı istər məzmununda, istərsə də quruluşuna görə əvvəlkilərdən fərqlənir. Hökumət tərəfindən təsdiq olunmuş Bazis tədris planı ümumi qaydada qəbul olunmaqla respublikanın ümumtəhsil müəssisələrinin istifadəsinə verilir.

Azərbaycanda aparılan təhsil islahatları elmi-nəzəri əhəmiyyəti ilə yanaşı, düzgün metodoloji özülü ilə fərqlənirdi. Ölkədə aparılacaq islahatlardan bəhs edən Ulu öndər Heydər Əliyev bu işlərin böyük əhəmiyyət daşıdığını nəzərə alaraq qeyd etmişdir ki, "indi bizdə təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycan dünya təhsil sisteminin standartlarına uyğunlaşsın" (8, 101). Göründüyü kimi, bu fikir bütövlükdə təhsil sisteminin, o cümlədən, ümumi təhsildə islahatçılıq tədbirlərinin həyata keçirilməsini mühüm vəzifə kimi qarşıya qoydu.

Məlum olduğu kimi, təhsildə aparılan dəyişikliklərin nüvəsini onun məzmunundakı yeniləşmələr təşkil edir. Ümumi təhsildə islahatçılıq tədbirlərinin həyata keçirilməsində də bu tələb əsas götürülmüş və ilkin olaraq "Azərbaycan Respublikasında ümumi təhsilin dövlət standartları" hazırlanaraq 1999-cu ildə təsdiq olunmuşdur. Orada təhsil sahələri üzrə ümumi nəticələrin və Bazis tədris planının əhatə olunması bu sənədi əvvəlkilərdən fərqləndirirdi.

2005-ci ildən etibarən Azərbaycanda ilk dəfə olaraq Milli Kurikulumun hazırlanmasına başlanılır, 2006-cı ildə "Azərbaycan Respublikasında ümumi təhsilin Konsepsiyası (Milli Kurikulumu) adı ilə həmin sənəd Respublika Nazirlər Kabineti tərəfindən təsdiq olunaraq qüvvəyə minir. Bu, ölkəmizin tarixində ilk nəticəyönümlü təhsil sənədi hesab olunurdu. Orada ümumi təhsilin kompetensiyalarının (milli standartlarının) verilməsi ilk hadisə idi. Sonradan bu sənəd "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununa uyğun olaraq yenidən işlənir və 2011-ci ildə "Ümumi təhsil pilləsinin dövlət standartı və proqramı (kurikulumu)" adı ilə təsdiq olunur. Bu sənəddə ümumi təhsilə aid dərs və dərsdən kənar məşğələlərə aid saatlar ümumi şəkildə göstərilir. Eyni zamanda burada ümumi təhsilin səviyyələrinin hər birinə aid olan saatlar da konkret olaraq müəyyənləşdirilir.

Bu məlumat tədris planı adlandırılmasa da, onu bazis tədris planı kimi qəbul etmək olar. Çünki oradakı dərs saatı ilə bağlı rəqəmlər ümumi təhsilin vaxt büdcəsini tənzimləməklə baza rolunu oynayır və bu baxımdan növbəti fəaliyyətləri istiqamətləndirmək xarakteri daşıyır.

Bütün bunlar onu göstərir ki, Azərbaycanda ümumi təhsil üçün tədris planları sonuncu yüzilliklərdə yaransa da, məzmun və mahiyyət etibarı ilə xeyli inkişaf edərək təkmilləşib. Qlobal dünyanın tələbinə uyğun olaraq inteqrativ bir xarakter alıb. Onun demokratik prinsiplər əsasında qurulması məktəblərin sərbəst olaraq ondan istifadə imkanlarını genişləndirib. Heç şübhəsiz, bu fəaliyyət gələcəkdə də davam etdiriləcək, "Azərbaycan Respublikasında təhsilin inkişafı uzrə Dövlət Strategiyası" baxımından onun keyfiyyətinin daha da yüksəldilməsi istiqamətində iş aparılacaqdır.

**Problemin aktuallığı.** Ölkədə aparılan təhsil islahatları təhsilin, o cümlədən ümumi təhsilin məzmununda dəyişikliklərin aparılmasını, xüsusilə tədris planlarını, tarixi və müasir aspektlərdə araşdırılması tələb edir.

**Problemin elmi yeniliyi.** İlk dəfə olaraq ümumi təhsilin məzmun komponentlərindən biri kimi tədris planlarının ümumi pedaqoji problemləri qloballaşma dövrünün tələbləri baxımdan tədqiq olunur.

**Problemin tətbiqi əhəmiyyəti.** Məqalədə irəli sürülmüş mülahizələrdən tədris planlarının müasir tələblər baxımından yeniləşdirilməsi zamanı istifadə oluna bilər.

## ƏDƏBİYYAT


1. Kazımov H.M., Həşimov Ə.Ş. Pedaqogika. Bakı: Maarif, 1996.
2. Qasımova L.N., Mahmudova R.M. Pedaqogika. Mühazirə kursu. Bakı, 2003.
3. Abbasov A.M. Pedaqogika: Orta ixtisas məktəbi üçün dərs vəsaiti. Bakı: Mütərcim, 2010.
4. Куписевич Ч. Основы общей дидактики. М.: Высшая школа, 1986.
5. Подласый И.П. Педагогика . Новый курс. 2 кн. Гуманитарный изд. центр. ВЛАДОС, 2000.
6. Paşayev Ə.X., Rüstəmov F.A. Pedaqogika. Yeni kurs. Bakı: Nurlan, 2007.
7. Л.П. Крившенко. Педагогика: учеб. М.Т.К. Велби. Проспект, 2006.
8. Azərbaycanın təhsil siyasəti (1998-2004) I kitab. Bakı: Çaşıoğlu, 2005.
9. www.president.az/files/future_az.pdf
10. http://www.president.az/articles/9779


**М. Мамедова**

## ПЛАН ОБЩЕГО ОБРАЗОВАНИЯ В ПЛАТФОРМЕ ЗАКЛЮЧЕНИЯ ПЕДАГОГИКИ

### РЕЗЮМЕ

В статье говорится о планах образования как об одной из важных проблем содержания общего образования. Подготовка образовательного плана школ Азербайджана и его будущее развитие рассматриваются в историческом контексте.

**M. Mammadova**

## GENERAL EDUCATION PLAN IN PEDAGOGY CONCLUSION PLATFORM

### SUMMARY

In this article is reported the plans of education as one of the important problems of general education content. It's researched its features, necessity of establish and role and importance in modern school. The preparation of the education plan is reviewed in a historical context and concluded about his future development at general education school of Azerbaijan.

# ƏLAMƏT BİLDİRƏN SÖZLƏRİN TƏDQİQİ TARİXİ

**Əsmər Hüseynova**,
*ADPU-nun magistrantı*
E-mail: esmerim0408@gmail.com

**Rəyçilər:** *dos.* K. Səmədova,
*dos.* A.X. Hacıyev

***Açar sözlər***: *əlamət anlayışı, nitq hissələri, sifət, zərf, feli sifət*
***Ключевые слова:*** *понятие знака, части речи, наречие, прилагательное, глагольные прилагательные*
***Key words:*** *the concept of the sign, parts of speech adjective, adverb, participle*

Uzun zamandan bəri dilçiləri nitq hissələri, onların spesifik əlamətləri, bir sözün bu və ya digər nitq hissəsinə aid edilməsindəki əsas prinsiplər çox maraqlandırmışdır. Əgər biz bu məsələnin tarixini M. Kazım bəydən başlamış olsaq, demək olar ki, bunun yüz əlli ildən çox tarixi vardır.

Nitq hissələri haqqında yazılmış əsərlərdə və ümumiyyətlə, bu günə qədər mövcud olan türkoloji ədəbiyyatda ən mübahisəli məsələ isim, sifət, zərf kateqoriyaları (F. Zeynalov "Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü") və onların təsnifi məsələsidir.

İnqilabdan əvvəl yazılmış türkoloji adlı əsəri xüsusilə fərqlənməkdədir. Müəllif türk dillərində nitq hissələrinin hələ formalaşmadığını, eyni bir sözün həm isim, həm sifət, həm də zərf vəzifəsində çıxış edə bildiyini qeyd edir.

Mirzə Kazım bəy zərflərin əmələ gəlməsindən bəhs edərək belə bir natamam nəticəyə gəlib çıxır ki, guya zərflər ancaq isim və sifətlərdən əmələ gəlir. Müəllif türk sistemli dillərdə bütün ərəb-fars sifətləri, ərəb-fars və osmanlı feli sifətləri və bütün feli adlar sifət mənasında işlənir.

Mirzə Kazım bəy sifətlərlə zərflərin bir-birindən fərqlənməsini xalis sintaktik bir hadisə hesab edərək, onların cümlədəki roluna əsaslanır. O, xüsusi bir qrup, "sifət-zərfləri" qrupu ayırır. Lakin onun bu qrupa aid verdiyi misalların əksəriyyətinin sifətlərlə heç bir ümumiliyi yoxdur. Bu sözlər xalis zərflərdən ibarətdir. Məsələn, *erkən, gec, yaxın, uzaq, tez* və s.

Müəllifin fikrincə bütün isimlər digər isimlərlə birlikdə işləndikdə sifət məzmunu alır. Onun fikrincə, ismin keyfiyyət və xüsusiyyətini təyin edən hər bir söz sifət kimi qəbul edilməlidir. O, misal olaraq "gümüş qaşıq", "dəmir qapı", "daş məscid" və s. birləşmələri göstərir.

Fikrimizcə, bu birləşmələrin birinci tərəfi sintaktik vəzifəsinə görə təyin olduğu halda, morfoloji quruluş cəhətdən isim olaraq qalır.

Bundan başqa Ə. Abbasov, D. Quliyev, S. Cəfərov "Azərbaycan dilinin qrammatikası", S. Cəfərov, Ə. Abbasovun "Azərbaycan dilinin sərfi" və Ə. Abbasovun "Azərbaycan dilinin sərfi" kitablarında əlamət bildirən sözlərin müəyyən nitq hissəsinə xidmət etməsi məsələsinə aydınlıq gətirilmişdir. Bu qrammatikalarda sifət əvvəllər ümumiyyətlə, əlamət və keyfiyyət bildirən söz qrupu kimi, sonralar isə konkretləşdirilərək əşyanın əlamət və keyfiyyətini bildirən söz qrupu kimi qaydaya salınır.

Sonrakı dövrlərdə isə Azərbaycan dilini elmi əsaslarla izah etməyə cəhd edən əsərlər yazılmağa başlandı. AMEA-nın Dil İnstitutunun hazırladığı "Azərbaycan dilinə aid tədqiqlər" adlı məqalələr məcmuəsində nitq hissələri haqqında maraqlı məlumatlara rast gəlirik.

Əsərin "Sifət" bəhsini Ə. Dəmirçizadə tədqiq etmişdir. Tədqiqdə sifəti məna əsası olmaq etibarı ilə onun keyfiyyət və əlamət bildirməsi göstərilir. Lakin onu da qeyd etmək lazımdır ki, bu əlamət və keyfiyyət əşyasız götürülür.

Dəmirçizadə sifət kateqoriyasının isimlərin sifətləşməsi nəticəsində yarandığını göstərərək qeyd edir ki, hər bir isim sifətləşincə mütləq üç mərhələ keçməlidir. Birinci mərhələ ismin təmiz

əşya mənasını ifadə edən mərhələdir, ikinci mərhələ qarışıq mənalılıq mərhələsidir(dəmir qaşıq) və nəhayət, üçüncü mərhələ isimlərin əşyavilikdən ayrılaraq sifətləşməsi mərhələsidir.

Müəllifin fikri ilə razılaşmaq düzgün istiqamət olmazdı. Fərhad Zeynalov "Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü" əsərində bu məsələyə belə aydınlıq gətirir: "Birinci mərhələ öz-özündən aydın olduğu kimi sifət mərhələsi deyil, ikinci mərhələdə isə isimlər təyin vəzifəsində çıxış etsələr də, yenə isim olaraq qalırlar. Üçüncü mərhələdə isə isimlər əşyavilikdən ayrılaraq sifətləşmir".

F. Zeynalovun fikri ilə razılaşmaq daha məqsədə uyğundur. Ən əsası ona görə ki, dil tarixinə nəzər saldıqda dilimizdə kifayət qədər əsli sifətlər mövcuddur. Digər tərəfdən bir sözün sifət olub-olmamasını xarici əlamətlərlə deyil, onun cümlədə yeri və vəzifəsi, daxili məzmunu və dərəcələnməsinə əsaslanaraq müəyyənləşdirmək olar.

1951-ci ildə nəşr olunan "Azərbaycan dilinin qrammatikası" kitabında Dəmirçizadənin sifətlə bağlı tədqiqatları daha geniş və aydın verilmişdir. Belə ki, müəllif "gözəl, yaxşı" və s. sözləri yalnız sifət hesab edirdisə, sonrakı kitablarda cümlədəki yerinə dəqqəti çəkir. Əgər bu tipli sözlər əşyadan əvvəl gələrək onun keyfiyyət və əlamətini bildirərsə sifət, iş-hərəkətin əlamətini bildirərsə, zərf adlanır. Əşyanın əlamət və keyfiyyətini bildirmək sifətin məna əsası hesab olunur və bu əlamətlə də o, isim, say və fellərdən fərqləndirilir.

Müəllif bunlardan başqa sintaktik əlamətləri də nəzərə almağı lazım bilir. Onun fikrincə, cümlədə əşyadan əvvəl gələrək onun keyfiyyət və əlamətini bildirən sözlər sifət, feldən əvvəl gələrək iş-hərəkətin əlamətini bildirən sözlər isə zərf olur.

F. Zeynalov isə nitq hissələrinin təsnifini onların leksik məzmun, xarici formal əlamətlər və sintaktik xüsusiyyətlərinə görə bölmüşdür. O, sifətlər haqqında danışarkən qeyd etmişdir ki, sifətlər də semantik cəhətdən əlamət bildirən və ancaq özünəməxsus forması, sözdüzəldici şəkilçiləri olan müstəqil nitq hissəsidir. Sifəti digər nitq hissələrindən ilk növbədə onun keyfiyyət bildirməsi və xüsusi müqayisə dərəcələrinin olması fərqləndirir.

Türkologiyada zərfin müstəqil nitq hissəsi kimi tədqiqinə ilk dəfə İ. Qiqanovun "Tatar dilinin qrammatikası" əsərində rast gəlirik. Müəllif zərfləri məna etibarı ilə 17 yerə bölmüş, onların ümumi siyahısını verməyə çalışmışdır. Lakin onu da qeyd etmək lazımdır ki, bu qrupa daxil olan sözlərin çoxu zərf deyildir. Müəllifin fikrincə guya əvəzlikləri keyfiyyətcə isim və sifətlərə bölmək olarmış. Bir çox məsələlərin yanlış və bəsit olmasına baxmayaraq, bu əsər ilk dövrlərə aid olmaq etibarı ilə sonralar istifadə edilmişdir.

Azərbaycan dilçilik ədəbiyyatında zərflərin sintaktik cəhətdən, əsasən, cümlə daxilində izah olunması onların uzun müddət digər nitq hissələri ilə qarışdırılmasına səbəb olmuşdur ki, bu qarışıqlıq indinin özündə də davam etməkdədir.

1951-ci ildə nəşr olunan "Azərbaycan dilinin qrammatikası" kitabında "zərf" bölməsi C. Əfəndiyev tərəfindən işləmişdir. Digər bölmələrə nisbətən zərf zəif tədqiq olunmuşdur. Müəllif zərflərin hələ formalaşmadığını, formal cəhətdən digər nitq hissələrindən az fərqləndiyini göstərir. O, zərfə belə tərif verir: "zərf hərəkətin (felin) və ya əlamətin əlamətini bildirən bir nitq hissəsidir".

Ümumiyyətlə, Azərbaycan dilçiliyində zərflər sifətlərlə, isimlərlə, az, çox, xeyli sayları ilə modal sözlərlə, qoşmalarla, qarışdırılmışdır.

Zərfin müstəqil bir nitq hissəsi kimi formalaşması və inkişafı başqa nitq hissələrinin inkişafı ilə sıx bağlıdır. Bu qrammatik kateqoriya dilin inkişafı prosesində müntəzəm olaraq yeni sözlər, söz birləşmələri və idiomatik ifadələr hesabına zənginləşir, inkişaf edir; başqa nitq hissələrinə məxsus sözlər, söz birləşmələri, ifadələr, hətta morfoloji əlamətlər ilk leksik-qrammatik mənasını qismən və ya tamamilə itirərək zərfləşir. Lakin başqa nitq hissələrindən ayrılaraq zərf kateqoriyasına keçən sözlər qeyri sabit olur və tərkib hissələrinə parçalanmayan bir kök söz kimi çıxış edir.

Əlamət bildirən sözlər sırasına feli sifətlər də daxildir.

Feli sifətlər özünəməxsus leksik mənasına morfoloji xüsusiyyətlərinə, sintaktik və üslubi vəzifələrinə görə türk dillərinin, o cümlədən Azərbaycan dilinin qrammatik quruluşunda xüsusi yer tutur. Bu qrup sözlər üzün müddət ayrıca bir qrup kimi fərqləndirilmiş, gah sifətlərin, gah da fellərin içərisində səciyyələndirilmiş bəzi dilçilər tərəfindən ayrıca nitq hissəsi kimi tədqim

olunmuşdur. İnqilabdan əvvəl türk dillərinə aid yazılmış əsərlər içərisində nəzəri cəlb edən İ. Qiqanovun "Tatar dilinin qrammatikası" adlı əsəridir. İ. Qiqanov əsərində tatar dili sözlərini aşağıdakı kimi nitq hissələrinə bölür: adlar, əvəzlik, fel, zərf, qoşma, bağlayıcı, feli sifət və nida. Maraqlı odur ki, müəllif feli sifətləri müstəqil bir nitq hissəsi kimi xarakterizə edir.

1917-ci il fevral inqilabına qədərki türkoloqların içərisində feli sifət tərkibləri demək olar ki, xatırlanmır. Onlar bu tərkiblərə budaq cümlə kimi yanaşmışlar.

Həmin türkoloqlar da səhvən belə hesab edirlər ki, türk dillərində birləşdirici elementlər mövcud deyil. Feli sifət tərkiblərinə belə münasibət, əvvələn, feli sifət tərkiblərinin ancaq məna tərəfinə istinad edilməsi, ikinci isə türk dillərinin spesifik xüsusiyyətlərinin inkar edilməsi ilə bağlı olmuşdur. Həmin dövrdə yaşamış xarici türkoloqlardan L. Fink, J. Nemeth, G. Veil, V. Banq həmin fikri müdafiə edərək feli sifət tərkiblərinin budaq cümlə olması qənaətinə gəlmişdir.

Felin təsriflənməyən formaları ilə bağlı filologiya elmlər doktoru professor H. Mirzəyevin apardığı tədqiqatlar da elmi maraq doğurur. Alimin çoxsaylı kitab və məqalələrində, xüsusən "Azərbaycan dilində fel" kitabında tədqiq etdiyimiz mövzunun öyrənilməsi üçün zəngin materiallar toplanmışdır. Həmin kitabda müəllif türkologiyada feli sifət problemləri, onu əmələ gətirən şəkilçilərin xüsusiyyətləri, feli sifətin tədqiqi tarixi və s. məsələlər barədə maraqlı elmi mülahizələr irəli sürülür və onların geniş təhlilini verir

Son olaraq qeyd edim ki, əlamət bildirən sözlər bu gün də öz aktuallığını qoruyur və tədqiqat mövzusu kimi işlənir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə əlamət anlayışı, nitq hissələrinin təsnifi prinsipləri, tədqiqi tarixi araşdırılıb, eyni zamanda Azərbaycan dili və digər türk sistemli dillərdə əlamət bildirən sözlərin dilin qrammatik quruluşundakı mövqeləri izah olunur.

**Məqalənin praktik əhəmiyyəti**. Məqalə dil tarixi və müqayisəli dilçiliyin tədqiqi tarixi ilə məşğul olanlar üçün ilkin baza rolunu oynaya bilər. Kurs işləri, mühazirə mətnləri və dissertasiyalar üçün yararlı mənbə hesab oluna bilər.

## ƏDƏBİYYAT

1. F. Zeynalov. Türk dillərində nitq hissələrinin ənənəvi bölgüsü. Bakı, 1957.
2. "Azərbaycan dilinə aid tədqiqlər". Bakı, 1947.
3. F. Zeynalov. Türk dillərinin müqayisəli qrammatikası. I cild. I hissə. Bakı: ADU-nun nəşri, 1974.
4. F. Zeynalov. Türk dillərinin müqayisəli qrammatikası. II cild. I hissə ADU-nun nəşri, 1974.
5. Azərbaycan dilinin qrammatikası. Bakı: ADU-nun nəşri, 1951.

**А. Гусейнова**

## ИСТОРИЯ ИССЛЕДОВАНИЙ СЛОВ, ОЗНАЧАЮЩИХ ПРИЗНАК ПРЕДМЕТА

## РЕЗЮМЕ

Группы слов в нашем языке объединены в определенных смыслах. Слова, обозначающие признаки предмета, объединяясь, образуют части речи. Это является предметом обширных исследований многих ученых.

**E. Huseynova**

## RESEARCH HISTORY OF SIGN WORDS

## SUMMARY

Words in Azerbaijan language combine in certain sense groups. Includes in, the words which signing name, indication, action and indication of action and etc. certain sense groups. The concept of the sign is a wide comment of research. Includes in a sign of things, a sign of action or a sign of sign.

# *YENİ PEDAQOJİ TEXNOLOGİYALAR*

## İBTİDAİ TƏHSİLİN MODERNLƏŞMƏSİ VƏ PEDAQOJİ İNNOVASİYALARDAN İSTİFADƏ

**Şəfa Kazımova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ADPU*
E-mail: shefa.kazimova@mail.ru

**Rəyçilər:** *prof.* İ. Cəbrayılov,
*dos.* P. Həsənova

***Açar sözlər:*** *təhsil, ibtidai təhsil, modernləşmə, innovasiya, pedaqoji innovasiya, təhsilin inkişafı*
***Ключевые слова:*** *образование, начальное образование, модернизация, инновации, педагогическая инновация, развитие образование*
***Key words:*** *education, primary education, modernization, innovation, pedagogical innovation, development of education*

İqtisadi cəhətdən inkişaf etmiş hər bir ölkənin aparıcı sahəsi kimi təhsil, daim cəmiyyətin tələblərinə uyğun yenilənir və müəyyən dəyişikliyə uğrayır. Yenilənmə hər bir sahədə olduğu kimi təhsildə də qanunauyğun məsələdir. Çünki zaman keçdikcə elm və texnologiya daha sürətlə inkişaf edir və informasiya cəmiyyətinin tələblərinə uyğun iqtisadi inkişaf və təhsil mühiti tələb olunur. Bu tələblərin həyata keçirilməsi özünü yeniliklərin tətbiqi ilə büruzə verir.

Azərbaycan Respublikasının ümummilli lideri Heydər Əliyev demişdir: “Təhsil sistemində islahatların məqsədi ondan ibarətdir ki, Azərbaycanın təhsil sistemi dünya təhsil sisteminin standartları ilə uyğunlaşsın” [2]. Təhsil sisteminin dünya təhsil sisteminin standartları ilə uyğunlaşması üçün dünya təcrübəsi ümumiləşdirilməli və yeniliklər təhsilə tətbiq olunmalıdır. Bu prosesə hələ 1998-ci ildən başlanmışdır və islahat uğurla tətbiq olunmaqdadır.

Təhsil yenilikləri öz təsdiqini əsasən normativ-hüquqi sənədlərdə tapır. Dövlətin təhsil sahəsində həyata keçirdiyi islahatlar Prezidentin və Nazirlər Kabinetinin qərarı ilə təsdiq olunmuş sənədlərdə əks olunur. Bu sənədlərə əsasən təhsil sistemində yeniliklərin həyata keçirilməsi planı qurulur və plana əsasən yenilik tətbiq edilir.

Təhsil dinamik prosesdir. Bu prosesə daxil olan tərəflər ictimai həyatın aparıcı qüvvəsi olmaqla, hər biri ayrılıqda cəmiyyətin fərqli xüsusiyyətlərə malik fərdləridir. Pedaqoji proses də sabit olmayıb cəmiyyətdə gedən inkişaf proseslərinə müvafiq dəyişikliklərə uğrayır. Texnoloji yeniliklər təhsil prosesinə gətirilir və mövcud şərait və sistemdə yeniliklər edilərək təhsil modernləşdirilir.

Təhsil sahəsində mövcud olan sənədlər nəzərdən keçirilərkən təhsil sisteminin ümumi strukturunda və məzmununda dünyanın inkişaf etmiş ölkələrinin təhsil modellərinin nümunələrinə rast gəlinir. Bu onunla bağlıdır ki, Azərbaycan təhsil sistemi yenidən qurularkən qabaqcıl ölkələrin təhsil sahəsində əldə etdiyi nailiyyətlər ümumiləşdirilmiş və ondan təhsil sisteminin qurulmasında istifadə olunmuşdur. Dünyanın müxtəlif ölkələrinin təhsil sistemləri quruluşca bir-birindən fərqlənsə də, məzmun etibarilə təhsilalanlara mənimsədilən bilik və bacarıqların məzmunu demək

olar ki eynidir. Yeni pedaqoji texnologiyalar mövcud şəraitə uyğunlaşdırılaraq dünyanın müxtəlif ümumtəhsil məktəblərində tətbiq edilir. Sədəcə, hər bir ölkənin regional xüsusiyyətləri, yerli şəraiti nəzərə alınmaqla müəyyən dəyişikliklərin həyata keçirilməsi məqsədəuyğun hal kimi qəbul olunur.

Azərbaycan Respublikası prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı əsasında təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" sənədində təhsil sisteminin başlıca vəzifələri göstərilmişdir.

Təhsil sisteminin başlıca vəzifələri aşağıdakılardır:

– ölkənin modernləşməsi üçün zəruri olan insan kapitalını inkişaf etdirmək və bununla Azərbaycan Respublikasının beynəlxalq rəqabət qabiliyyətini yüksəltmək;

– məsuliyyətini dərk edən, demokratiya prinsiplərinə və xalqının milli ənənələrinə, insan hüquq və azadlıqlarına hörmət edən, azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən vətəndaş və şəxsiyyət yetişdirmək;

– milli mənəvi və ümumbəşəri dəyərləri qoruyan və inkişaf etdirən, geniş dünyagörüşünə malik olan, təşəbbüsləri və yenilikləri qiymətləndirməyi bacaran, nəzəri və praktiki biliklərə yiyələnən, müasir təfəkkürlü və rəqabət qabiliyyətli kadrlar hazırlamaq;

– sistemləşdirilmiş bilik, bacarıq və vərdişlərin mənimsənilməsini və əlavə təhsili təmin etmək, təhsilalanları ictimai həyata və səmərəli əmək fəaliyyətinə hazırlamaq [6].

Yuxarıda qeyd edilən vəzifələr təhsilin modernləşməsini və yeni tələblərə cavab verməsini zəruri etmişdir.

Modernləşmə nədir və o necə həyata keçirilməlidir?

Təhsildə modernləşmə - yeni pedaqoji texnologiyaların və yeni sistemlərin mövcud təhsil sisteminə tətbiq olunması və təhsilin dünya tələblərinə cavab verən səviyyəyə çatdırılması deməkdir. Onun (modernləşmənin – Ş.K.) həyata keçirilməsi üçün mövcud şərait və sistem nəzərdən keçirilərək pedaqoji qiymət verilməli, yeniliyin tətbiqolunma mexanizmləri işlənilib hazırlanmalı, tətbiq olunacaq texnologiya yerli şəraitə uyğunlaşdırılaraq plan əsasında addım-addım həyata keçirilməlidir. Təhsilə hər hansı bir yeniliyi kor-koranə tətbiq edərək ona modernləşmə adı vermək məqsədəuyğun deyildir. Tətbiq olunan yenilik o vaxt modernləşmə adlana bilər ki, onun nəticəsində təhsildə uğurlu nailiyyətlər əldə olunsun. Prof. H. Əhmədovun "Qloballaşma, modernləşdirmə: yeni insan və təhsil problemləri" adlı məqaləsində modernləşmə haqında deyilir: "Modernləşmə dedikdə, müasir dövrün tələblərinə uyğunlaşmaq, yeni tələb və normalara, texnoloji proseslərə uyğunlaşmaq başa düşülür" [4].

Pedaqoji prosesi yeniləyən zaman texnoloji yenilikləri çox dərindən tədqiq etmək lazımdır. Elə texnologiyalar mövcuddur ki, onlardan istifadə etmək təhsil sisteminin olduqca inkişaf etməsinə səbəb olur. Lakin onu tətbiq etmək mümkün deyildir. Məsələn, xarici ölkələrin bir çoxunda geniş tətbiq olunan kompüterləşmiş təlim layihəsinin tələblərinə görə hər bir şagird dərs zamanı öz kompüteri ilə idarəçi kompüterə (müəllimin kompüterinə) bağlanır və təlim birbaşa kompüterlər vasitəsilə tədris edilir [5]. Bu zaman müəllim çox yorulmur və şagirdlər də təlim prosesində bərabərhüquqlu iştirak edə bilirlər. Hər hansı bir tapşırığın verilməsi üçün əlavə kağız, maker və vaxt itkisi problemi də öz həllini tapmış olur. Bu texnologiyanı hazırkı şəraitdə bizim çox az ümumtəhsil məktəblərimizdə tətbiq etmək mümkün ola bilər. Lakin texnoloji proses o vaxt səmərə verə bilər ki, o bir neçə məktəbdə deyil, mümkün ola bildiyi qədər məktəbdə tətbiq olunsun. Buna bizim məktəblərimizin nə maddi-texniki bazası, nə də müəllimlərimizin pedaqoji cəhətdən hazırlığı imkan vermir. Bu cür bir texnologiyanın bizim ölkəmizdə tətbiq olunması üçün bir neçə illər lazımdır.

İbtidai təhsil səviyyəsində modernləşməni həyata keçirmək hazırda təhsil sisteminin qarşısında duran əsas vəzifələrdən biridir. Bunu üçün mümkün olan bütün imkanlardan istifadə edilməlidir. İstər standartların yenilənməsi, istər maddi-texniki bazanın zənginləşdirilməsi, istər pedaqoji və texnoloji yeniliklərin (texnologiyaların – Ş.K.) tətbiq olunması, istər də pedaqoji kadr hazırlığı sahəsində modernləşməni həyata keçirmək mühüm əhəmiyyət kəsb edir.

İbtidai təhsil səviyyəsində modernləşməni həyata keçirmək məsuliyyətli və olduqca taleyüklü məsələdir. Nəzərə alsaq ki, ömür boyu fasiləsiz təhsilin başlanğıcı əsasən ibtidai siniflərdə qoyulur,

bu məsələnin mahiyyəti daha dərindən anlaşıla bilər. İbtidai təhsildə modernləşməni həyata keçirən zaman şagirdlərin yaş və fərdi xüsusiyyətləri nəzərə alınmalı, məsələnin pedaqoji və psixoloji tərəfləri diqqət mərkəzində saxlanılmalıdır. Tətbiq olunan hər hansı bir texnoloji yeniliyin uşağın sağlamlığına zidd olub-olmaması, diqqət və hafizənin yüklənməməsi, təfəkkürün inkişafı məsələləri, eləcə də texnologiyanın şagirdi öyrənmə prosesinə cəlbetmə xüsusiyyətləri dəqiq hesab-lanmalıdır. Pedaqoji prosesin tamlığını təşkil edən xüsusiyyətlərin təmin olunması da bu baxımdan diqqət mərkəzində saxlanmalıdır. Şagirdin təhsili, tərbiyəsi və inkişafı bir arada təmin oluna bilirsə və təhsildə daha çox nailiyyətlər əldə olunursa texnoloji yeniliyin uğuruna inanmaq olar.

"Təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları əsaslı təlim metodo-logiyasının tələblərinə uyğun infrastrukturun yaradılması, hər bir təhsil müəssisəsinin internetlə, ümumi orta təhsil səviyyəsində hər bir şagirdin elektron dərsliklərlə yüklənmiş kompyuter-planşetlə təmin olunması, səriştə əsaslı ümumi təhsil standartları və kurikulumlarının hazırlanması, 12 illik ümumi təhsilə keçidin təmin olunması üçün mövcud təhsil standart və kurikulumlarının yenilənməsi, tam orta təhsil pilləsində təlimin istiqamətlər üzrə bölünməsi, kurikuluma əsaslanan yeni dərsliklərin yaradılması, şagird və müəllimlərin müvafiq dərslik seçiminin təmin olunması" və s. hazırda təhsili modernləşdirməyə kömək edən başlıca vasitələrdir [6].

İnnovasiya prosesi iqtisadi-sosial, eləcə də təhsil sahəsində istifadə olunan yeniliklərin məcmusu kimi başa düşülür. İnnovasiyaların tətbiq olunması ölkəni dünya ölkələri səviyyəsinə qaldırmağa və inteqrasiya prosesinə qoşulmağa imkan verir.

Pedaqoji innovasiyaların tətbiqi təhsilin inkişafını şərtləndirən amillərdən biridir. Pedaqoji innovasiyaları tətbiq edərkən hər şeydən öncə eksperiment qoyulur və öyrədici və kontrol siniflər vasitəsilə yeniliyin özünü doğrultma səviyyəsi yoxlanılır. İnnovasiya bu baxımdan yeni tədris metodikası, yeni təlim texnologiyası, eləcə də texnoloji yeniliyin elm-tədris mərkəzinə - ümumtəhsil məktəbinə tətbiqi formasında ola bilər.

Pedaqoji innovasiya təhsilə birbaşa tətbiq olunmur. Onun mərhələləri mövcuddur. Bu mərhələlərə düzgün riayət edilməsi və innovasiyanın sınaqdan keçirilməsi müəyyən müddət tələb edən pedaqoji prosesdir. İnnovasiyanın mərhələləri haqqında dos. İ. Əhmədov yazır: "Hər bir innovasiya, yenilik, yeniliyin tətbiqi öz inkişafı prosesində müəyyən mərhələlər keçir: ideyanın yaranması, məqsədin formalaşması, yeni ideyanın konkretləşməsi (formalaşması), yeniliyin reallaşdırılması, yayılması, yeniliyin "adiləşməsi", "köhnəlməsi" [3]. Göründüyü kimi, heç bir innovasiya tətbiq olunduqdan sonra olduğu kimi "qalmır". O müəyyən dəyişikliyə uğrayır, tətbiq edilir, adiləşir və nəhayət köhnəlir. Bu baxımdan hər hansı bir yeniliyi tətbiq edərkən həmin yenilik müqavimətlə rastlaşa bilər. Lakin özünü təsdiq etdikdən və "vətəndaşlıq" qazandıqdan sonra innovasiya çoxluq tərəfindən istifadə edilən üsula çevrilir.

İslahatın ilkin mərhələsində tətbiq olunan yeni təlim üsulları, təlimin məzmununda edilən yeniliklər, təlimin nəticələrinin standartlar şəklində verilməsi, kompüterləşmiş sinif otaqları, elektron lövhə ilə tədris, bütün bunlar innovativ yeniliklər idi. Zaman keçdikcə onların çoxu adiləşdi və artıq gündəlik istifadə olunan vasitələrə çevrildi.

Pedaqoji innovasiyalardan istifadə təlimin səmərəliliyini artıran əsas vasitələrdən biridir. Ənənəvi üsulla dərs keçilən zaman yeni təlim üsullarından o qədər də geniş istifadə olunmurdu. Tək-tək novator müəllimlər dünya təcrübəsindən faydalanaraq öz dərsinə yenilikləri tətbiq edirdi. Lakin bu hadisənin geniş vüsət alması və hətta tələb kimi qarşıya qoyulması təhsil islahatlarının başlandığı dövrə təsadüf edir.

Pedaqoji innovasiyalardan istifadə etmədən müasir təlim mühitini təşkil etmək qeyri-mümkündür. İndi təhsil standartları həm müəllimdən, həm də şagirddən pedaqoji aktivlik tələb edir. Tədqiqatçılıq şəraitində aparılan dərs şagirdin təfəkkürünü yeniləyən və inkişaf etdirən pedaqoji ünsürdür. Standartların qoyuluşu və reallaşması müəllim və şagirdlərdən fəal təlim prosesinə qoşulmağı tələb edir. Verilən tapşırıqların müxtəlif təlim üsulları ilə həyata keçirilməsi, şagirdlərin müxtəlif formalarda (kollektiv, qrup şəklində, çütlər şəklində və fərdi) tədris əməkdaşlığı etməsi innovasiyaların istifadəsini labüd edir.

Pedaqoji innovasiyalar arasında ibtidai siniflərdə ən geniş yayılan texnologiya fəal təlim texnologiyasıdır. Bu texnologiyanın köməyi ilə şagirdlərdə tədqiqatçılıq, sağlam rəqabət aparmaq bacarığı, fəal əməkdaşlıq, sərbəstlik, düzgün qərar qəbul etmək, liderlik bacarıqları inkişaf edir. Şagirdlər müstəqil qərar vermək, öz qərarlarını müdafiə etmək, başqalarının fikrinə hörmət etmək, onları dinləmək, yoldaşlarına psixoloji dəstək olmaq kimi humanist xüsusiyyətlərə yiyələnirlər. İnnovasiyalardan istifadə şagirdin təfəkkürünü inkişaf etdirir. Fəal təlim mühitində təşkil olunan pedaqoji proses şagirdlərdə yaradıcılıq, hadisələrə başqa prizmadan yanaşmaq (yaradıcı təfəkkür), məsələlərə öz münasibətini bildirmək, doğrunu yanlışdan ayırmaq, dəyər vermək (tənqidi təfəkkür), eləcə də hadisələr arasında səbəb-nəticə əlaqələrini aydınlaşdırmaq və onlara məntiqi izah vermək bacarığı (məntiqi təfəkkür) formalaşdırır.

Pedaqoji innovasiyalardan istifadə etmək təhsilin inkişafı üçün mühüm əhəmiyyət kəsb edir. İnnovasiyaların istifadəsi inteqrasiya ilə şərtlənir [2]. Yenilikdən uzaq olan təlim və təhsil öz varlığını uzun müddət qoruya bilməz. Pedaqoji innovasiyaların uğurla tətbiq olunduğu məktəblər öz nailiyyətləri ilə seçilən təhsil ocaqlarıdır. Hansı müəllim öz üzərində daim çalışır, yenilikləri əxz edirsə, onun şagirdləri həyata daha açıq gözlə baxan şəxsiyyətlər kimi formalaşırlar. Yenilikçi müəllim, yenilikçi təhsil müəssisəsi, yenilikçi təhsil meneceri müvafiq olaraq azad və tədqiqatçı şagird, parlaq və uğurlu nailiyyət, sərbəst və demokratik təlim mühiti deməkdir. Daim öz üzərində işləyərək müxtəlif təlimlərdən keçən, öz peşəkar səviyyəsini artıran müəllimlər bu gün respublikamızda öz nailiyyətləri ilə seçilən novator müəllimlərdir. Ənənəvi təlim üsullarına üstünlük verən, mühafizəkar xarakterli müəllimlər isə nəinki yeniliklərin əleyhinə çıxış edir, hətta müstəqil şəxsiyyət yetişdirmək imkanına belə malik olmurlar. Pedaqoji innovasiyalardan istifadə etmək təhsil sisteminin dünya təhsil sisteminə inteqrasiyasını şərtləndirir və onu dünyanın inkişaf etmiş ölkələri ilə eyni standartlara malik bir sistem halına gətirib çıxarır.

**Problemin elmi yeniliyi.** Məqalənin elmi yeniliyi ibtidai təhsil səviyyəsində modernləşmənin mahiyyət və məqsədini aşkara çıxarmaqdan, eləcə də pedaqoji innovasiyalardan istifadənin əhəmiyyətini aydınlaşdırmaqdan ibarətdir.

**Problemin nəzəri və praktik əhəmiyyəti.** Məqalə nəzəri və praktik cəhətdən geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur. Məqalədən ibtidai sinif müəllimləri öz peşəkar fəaliyyətlərində istifadə edə bilərlər. Eyni zamanda, tələbələr, magistrantlar və maraqlanan digər oxucular məqalədən istifadə edə bilərlər.

## ƏDƏBİYYAT


1. Balayeva G. İbtidai təhsilin məzmununun nəzəri-pedaqoji problemləri. Bakı: Elm və təhsil, 2012.
2. Əhmədov A., Abbasov Ə. Ümumi təhsildə inteqrasiya: müasir yanaşmalar. Azərbaycan müəllimi, 10 may 2013-cü il, № 17
3. Əhmədov İ., Təhsil innovasiyalarının idarə edilməsi. Azərbaycan müəllimi, 31 yanvar 2014, № 4
4. Kazımov N. Seçilmiş əsərləri. XVI cild. Tətbiqi pedaqogika (və ya ibtidai təhsil pedaqogikası). Bakı: Çaşıoğlu, 2011.
5. http://www.almazhasret.com/?p=3518
6. http://education.stateuniversity.com/pages/2393/School-Facilities-MAINTENANCE-MODERNIZATION.html
7. http://www.president.az/articles/9779
8. http://www.tehsilproblemleri.com/?p=3064


**Ш. Кязимова**

## МОДЕРНИЗАЦИЯ НАЧАЛЬНОГО ОБРАЗОВАНИЕ И ИСПОЛЬЗОВАНИЕ ПЕДАГОГИЧЕСКИХ ИННОВАЦИЙ

### РЕЗЮМЕ

В статье исследуется система образования Азербайджанской Республики, особенно начальное образование. Рассматривается модернизация начального образования и ее влияние. В статье анализируется важность инновационных процессов в педагогической сфере. А также рассматривается процесс модернизации с помощью соотношения между образованием и педагогическими инновациями.

**Sh. Kazimova**

**MODERNIZATION OF PRIMARY EDUCATION
AND THE USE OF PEDAGOGICAL INNOVATIONS**

**SUMMARY**

The article examines the education system of the Republic of Azerbaijan, especially primary education. Next, we consider the development of modernization of primary education and its impact. The paper analyzes the importance of innovation processes in the field of teaching. And also clarifies the process of modernization with the help of the relation between education and pedagogic innovation and the development of primary education is brought to the attention of readers.

# İNTERAKTİV ÜSULLAR VƏ YENİ TƏLİM TEXNOLOGİYALARI BİOLOGİYANIN TƏDRİSİNDƏ. DİSTANT TƏHSİLƏ KEÇİD

**Zərövşən Babayeva,**
*Naxçıvan Dövlət Universitetinin dosenti*
E-mail: babayeva_z@yahoo.com

**Rəyçilər:** *prof.* Ə. Hüseynov,
*dos.* A. Axundov

***Açar sözlər:*** *pedaqoji texnologiyalar, yeni təlim texnologiyaları, online dərs, distant təhsil, kurikulum*
***Ключевые слова****: педагогическая технология, новые образовательные, онлайн урок, дистанционное обучение, учебная программа*
***Key words:*** *pedagogical technologies, NTT, online lesson, distant education, curriculum*

Biologiyanın tədrisində yeni pedaqoji texnologiyaların tətbiqi məsələsi son illər alim və metodistləri düşündürən məsələlərdən biridir. Bu sahədə bir sıra işlər görülsə də, hələ də müəyyən boşluqlar, formallıqlar qalmaqdadır. Bu, bəzən tədris edənin, bəzən məktəb rəhbərlərinin, bəzən isə şəraitsizliyin hesabına baş verir. Mühazirə, laborator və seminar məşğələlərində istifadə etdiyimiz interaktiv üsulların və yeni təlim texnologiyalarının tətbiqinə münasibəti ali məktəbdə müzakirə etdikdə fərqli, təzadlı fikirlərlə rastlaşırıq. Tələbələr baza təhsilini əsasən ənənəvi təlimlə aldıqları üçün üstünlüyü köhnə üsullara verirlər. Orta məktəb şagirdləri isə əksər dərslərini yeni üsullardan istifadə ilə keçdiklərinə görə interaktiv təlimi faydalı hesab edirlər. Müəllimlər arasında da təzadlı fikirlərə rast gəlirik. İstər ali, istərsə də orta məktəb müəllimləri arasında yeniliklərə açıq olan və mühafizəkar fikirliləri vardır. Bu üzdən hələlik təhsil prosesində az da olsa xaos, qarışıqlıq vardır. Ali və orta məktəblərdə kurikulumla tədris prosesinin təşkili də tamamlanmamış vəziyyətdədir. Müəyyən qrup müəllimlər bunun mahiyyətinə varmadan ya formal olaraq istifadə edir, ya da tamamilə rədd edirlər. Bolonya prosesinin ali məktəblərdə tətbiqi məsələləri də özünü yetərincə doğrultmur. Bəzi məsələlər formal xarakter daşıyır. Kredit borclarının ödənilməsi məsələlərində bəzən formallıq, mühafizəkarlıq hökm sürür. Bu səbəblə metodist-alimlərin üzərinə ağır yük düşür. Təhsil sahəsində yaranmış çatışmazlıqları və natamamlıqları aradan qaldırmaq üçün daha münasib dünya təcrübəsindən istifadə edərək cəmiyyətə yararlı təhsil sistemimizi qurmalı, tədrisin keyfiyyətini yüksəltməliyik.

Hazırda istifadədə olan interaktiv üsullardan, YTT-dan (yeni təlim texnologiyalarından) istifadəyə böyük imkanlar yaranmışdır. Tədris kabinələrinin YTT ilə zənginləşdirilməsi, yaradılmış imkanlar interaktiv təlimin tətbiqinə zəruri olan şəraiti istifadəmizə vermişdir. Biz tərəfdarı deyilik ki, biologiyanın tədrisində yerli-yersiz, formal olaraq interaktiv üsullardan, YTT-dan istifadə edilsin. Mövzunun məzmununun tələb etdiyi şəkildə tədris prosesində bir neçə metod, priyom və interaktiv üsuldan istifadə isə dərsin keyfiyyətini yüksəldər. Qeyd edək ki, bu metod və üsullar dərsin hər üç mərhələsində yerinə görə dəyişdirilməli, biri digəri ilə əvəz olunmalıdır. Bu, interaktiv üsullar və YTT-dan istifadədə gözlənilməsi zəruri olan prinsiplərdir. Hər bir metodist, müəllim bu prinsipləri nəzərə almağa borcludur.

*İnteraktiv üsullardan və YTT-dan istifadədə gözləniləcək prinsiplər; İnteraktiv üsulların tətbiqi hansı formada həyata keçirilməlidir?* - kimi sualları cavablandırmaq üçün hazırda daim dəyişən və inkişaf edən təlim texnologiyaları və dünya təcrübəsini izləyib tənqidi yanaşmaq və işlərində tətbiq etmək müasir müəllim-pedaqoq-metodistlərin qarşısında əsas məsələ kimi durmuşdur.

Ümumiyyətlə, mövzunun məzmunundan asılı olaraq bir neçə metod, metodik priyom və interaktiv üsullardan istifadə olunmalıdır. Bəzən tələbələrlə söhbət zamanı bəziləri interaktiv üsulu lazımlı hesab etmir, əlavə vaxt itkisi sayır, və gələcəkdə tədris prosesini ənənəvi üsulla keçirməyi planlaşdırırlar. Fikirlərini belə əsaslandırırlar: «dərs prosesində əgər müəllimlər gözümüzün içinə

baxaraq dərsi izah etməsəydi mövzunu anlamazdıq». Haqlı olaraq deyildiyi kimi, heç bir texnika müəllimi əvəz edə bilməz. Bu öz yerində. Ancaq müəllim izah etdiyi mövzunu müxtəlif pedaqoji texnologiyalardan istifadə etməklə təqdim edirsə, bu da fərqli effekt verir. Yəni bütün bu yeni metodikalar fənnin mənimsənilməsində müəllimə yardımçı vasitədir.

Tədris prosesi orta ümumtəhsil məktəblərindən başladığından orta məktəb müəllimləri tədrisi idarə etdiyini, gələcək tələbələri, müəllimləri hazırladığını nəzərə alaraq tərəfimizdən ali məktəb tələbələrinin pedaqoji təcrübələri zamanı orta məktəblərdə interaktiv təlimin prinsiplərinə əməl etmələrinə, YTT-dan istifadəyə nəzarəti gücləndirməkdəyik. Yeri gəlmişkən, qeyd edək ki, tələbələrin sərbəst işlərinin yerinə yetirilməsində interaktiv üsulların tətbiqinin prioritet istiqamətlərinin üzə çıxmasına da geniş şərait yaranır. Belə ki, I semestrdə müəyyən mövzuları verib, onların tədqiqatını tapşırmaqla tələbələri araşdırmaya, yaradıcılığa sövq etmiş oluruq. II semestrdə isə tələbələrin öyrəndikləri yeni metodlarla fənlərin tədrisini pedaqoji təcrübə zamanı necə yerinə yetirdiklərini şəxsən yoxlayırıq. Bu üsulla həm tələbələrin pedaqoji təcrübəsi artır, həm də orta məktəb şagirdləri yeni üsullarla dərs keçmiş olur. Bu zaman fənn müəllimi yeniliklərdən istifadə edirdisə təcrübə mübadiləsi yaranır, mühafizəkardırsa, şagirdlərin maraqlarını hiss edib yeniliklərlə barışmalı olacaqdır. Bunu eksperimentlərimiz zamanı müxtəlif məktəblərdə çox müşahidə etmişik.

Biliklərin möhkəmləndirilməsində istifadə olunan interaktiv üsulların mahiyyətinə gəldikdə deyə bilərik ki, bu üsullar öyrənənlərdə tənqidi və yaradıcı təfəkkürü inkişaf etdirməklə yanaşı, onlarda müstəqillik bacarıq və vərdişlərini yaradır ki, bu da yaradısı və həyati tətbiqetməyə hesablanmışdır. Yeni bilik verən dərslərdə istifadə olunan interaktiv üsullar *müəllim-şagird-şagird, tələbə-tələbə-müəllim* ünsiyyətinin daha dinamik şəklə salaraq mənimsəməni maksimuma çatdırır və diqqətin yayınmasının qarşısını alır. Məsələn, aşağıdakı cədvəldə göstərildiyi kimi, interaktiv üsulun, metod və priyomların interaktiv dərslərin hansı mərhələsində və hansı mövzularda tətbiqi zərurətini göstərməyə çalışmışıq. Belə bir cədvəldən istifadə edib interaktiv üsulların tətbiqi istiqamətlərinin öyrənənlər tərəfindən necə öyrənilməsini yoxlamaq olar.

| Üsullar | Tətbiq sahələri |
|---|---|
| İnsert | Çox mürəkkəb olmayan dərslərdə |
| Klaster | Yekunlaşdırıcı, təkrar dərslərində |
| Blum taksonomiyası | Yeni bilik verən, möhkəmlətmə, təkrar dərslərində |
| .. | .. və s. |

Ali və orta məktəblərdə interaktiv üsulların tətbiqi vəziyyəti, müəllimlərin yeniliklərə nə dərəcədə açıq olması və YTT-na münasibəti ilə tanış olduqda bəzi hallarda bu işin müəyyən mənada diqqətdən kənarda qaldığını gördük. Bəs hansı vasitə və yollardan istifadə edilməli, hansı işlər görülməlidir ki, interaktiv üsulların, YTT-nın tədrisə gətirilməsi, dərs prosesinə tətbiqi öz lazımi yerini tapsın.

Bunun üçün:

- YTT-nın biologiyanın tədrisinə tətbiqi», İnteraktiv üsul və vasitələr BTM-ə tətbiq edilməlidirmi?», «Yeni pedaqoji texnologiyaların tədrisə gətirilməsi» və s. mövzularda dərnək məşğələsi və biologiya gecələrini təşkil etmək;
- Sinifdənkənar məşğələlərdə multimedialı təqdimatdan istifadənin perspektivlərinin müzakirəsini keçirmək;
- Orta məktəb müəllimlərinin təlim kurslaına jəlb edib onların metodik bacarıqlarının artırılmasına nəzarəti gücləndirmək və s.

Bundan başqa, belə bir sxemlə interaktiv üsulları və onların tətbiqetmə mərhələlərini göstərmək və ya birlikdə müəyyənləşdirməklə auditoriyanı maraqlandırıb yeni metodikalara cəlb etmək:

İnteraktiv üsullar




Bundan başqa, test tapşırıqlarının verilməsi, yaxud öyrənilmiş mövzular üzrə test suallarının hazırlanması da faydalı olar. Əylənjəli krosvordların yaradılması isə hər semestrin, yaxud rübün sonunda öyrənilənlərin təkrarı və möhkəmləndirilməsində əvəzsiz rol oynaya bilər. Habelə maraqlı mövzuların cədvəl və sxemlə təqdimatı da interaktivliyə şərait yaradır. Məsələn:

Bitki orqanizmlərində tənəffüs və fotosintez proseslərinin müqayisəsi

| Müqayisə olunan əlamət | Fotosintez | Tənəffüs |
|---|---|---|
| Oksigen *(udulur/ xaric edilir)* | | |
| Karbon qazı *(udulur/ xaric edilir)* | | |
| Üzvi maddələr *(əmələ gəlir/ sərf olunur)* | | |
| Enerji *(toplanır/ xaric edilir)* | | |
| Hansı hüceyrələrdə baş verir *(bütün canlı hüceyrələrdə/ tərkibində xlorofil olan hüceyrələrdə)* | | |

Yaxud da:

**«HƏZMİN TƏNZİMLƏNMƏSİ»**

**Dərsin məqsədi:**

1. Pavlov tərəfindən işlənmiş mədə-bağırsaq traktının öyrənilməsində fistul metodundan istifadənin yeni imkanlarını göstərmək.
2. Şərti və şərtsiz reflekslərin öyrənilməsi tarixini şərh etmək.
3. Həzm orqanlarının sinir və humoral tənzimlənməsi arasında əlaqəni aydınlaşdırmaq.
4. Həzm orqanlarının əhəmiyyətini, quruluşunu, funksiya və öyrənilmə yollarını şagirdlərə öyrətmək.
5. Zoologiyadan heyvanların həzm orqanları haqqında öyrəndiyi bilikləri genişləndirib möhkəmləndirmək.

**Ləvazimat**: Həzm sisteminə aid tablolar, şəkillər, həzm orqanlarının mulyacı və mövzuya aid kino-filmlər, multimediyalı təqdimatlar.

**I. Biliklərin yoxlanılması**

1. Bağırsaqda ferment və mikroorqanizmlərin qida maddələrinin dəyişikliyə uğramasındakı rolunu sadalamaq.
**2.** Bağırsaq xovlarının sxemini çəkmək və qida maddələrinin onların vasitəsilə sorulması prosesini göstərmək.
3. Qanın tərkibinin sabitliyinin saxlanılmasında qaraciyərin rolunu açıqlamaq.
4. Nazik və yoğun bağırsaqların həzmdə iştirakı və appendisitin simptomlarından danışmaq.

**II. Yeni mövzu**

**«İ.P.Pavlov (bioqrafiya)» mövzusunda şagirdlərin məlumatları**.

**Həzm** – qidanın fiziki və kimyəvi çevrilmələri, xırdalanmaları olub onun daha sadə, həll olmuş birləşmə halında qana sorulması və orqanizm tərəfindən mənimsənilməsi prosesidir.

**Tüpürcək ifrazı mərkəzi və mədə şirəsi şöbəsi – uzunsov beyində.**

1. Şərtsiz reflekslər (anadangəlmə)
- Dilin və ağızın selikli qişasının reseptorlarının qidanın təsirindən qıcıqlanması

2. Şərti reflekslər

- Qidalanmaya qədər yeməyin qoxusu və görünüşünə görə mədə şirəsi və ağız suyunun ifrazı

3. Mədə şirəsi mərkəzinin humoral tənzimi

- mədə şirəsinin reflektor şöbəsi - 2 saat
- qidanın mədədə həzmi – 4-8 saat




"İ.P.Pavlovun itləri" mövzusunda şagirdlərin məlumatlarını dinləmək. Bəzi maraqlı məlumatları auditoriyaya çatdırmaq.

*Qadınlar şirin, kişilər duzlu yeməklərə üstünlük verirlər.*

*Ən uzunmüddətli hıçqırıq tutması Çarlz Osbornun həyatında baş vermişdir (1894 - 1991), 1922-ji ildən 69 il və 5 ay hıçqırdıl. O, iki dəfə evlianmişdi və 8 uşağı vardı. Ölənə qədər hər 1,5 saniyədən bir hıçqırırdı.*

*Qidasız və susuz ən uzun müddətli dözüm həddi – 18 gündür. Bir dəfə polislər bir məhbusu 01.04.79- 18.04.79 tarixlərdə kamerada unutmuşlar. O, artıq ölümcül vəziyyətdə imiş.*

*Ən yüngül adam L.Sarate doğulduğunda 1,1 kq. olmuş, 20 yaşında - 5,9 kq., boyu isə - 67 sm. idi.*

*Ən arıq adam - Edvard Xaqner Picon - Skelet adı ilə məşhur idi, boyu 170 sm., çəkisi 22 kq.*

**III. Biliyin möhkəmləndirilməsi:**

Şəkillər üzrə mövzuya aid ətraflı izahat vermək. Suallara cavab vermək.

1. Həzm orqanlarının əhəmiyyəti neçə qrupa ayrılır?
2. Həzm kanalının divarı neçə təbəqədən ibarətdir?
3. Ağız suyunun tərkibində hansı fermentlər və onlar hansı üzvi maddələrin parçalanmasında iştirak edirlər?
4. İnsanda dişlərin quruluş və funksiyası haqqında nələri öyrəndiniz?
5. Ağızda qida maddələri hansı çevrilmələrə məruz qalır.
6. Qida kütləsinin mədədən bağırsağa keçməsində hansı orqan daha mühüm rol oynayır?
7. Mədə-bağırsaq xəstəliklərinə səbəb olan amillərdən hansılarını öyrəndik?

**IV. Ev tapşırığı:**

İnfeksiyon xəstəliklər, botulizm, alkoqolun orqanizmə təsri haqqında ətraflı məlumat toplayıb multimedialı təqdimat hazırlamaq. Həzmə aid kinofilmlərə, videokadrlara baxmaq, mövzuya aid şəkillər çəkmək, paraqrafın sonundakı suallara yazılı cavablar hazırlamaq.

Tədqiqatlar zamanı bu üsulla keçirilən dərslərin eksperimental siniflərdəki göstəriciləri nəzarət sinifləri geridə qoymuşdur.

**YARADICI TƏTBİQETMƏ**

Müəllim elektron təqdimatdan (plakatlardan, iri şəkillərdən) istifadə edərək növbəti tapşırığı yerinə yetirməyi xahiş edir:

*– Üç şəkil arasında artıq olanı seçin. Seçiminizi izah edin. Qalan şəkilləri hansı ümumi adla adlandıra bilərsiniz?*

1. **Buğda,** kələm, zəngçiçəyi.
2. Yasəmən, üzüm, **günəbaxan.**

Tədqiqatlarımız zamanı bu tipli dərslərin tədrisi həmişə maraq və diqqəti cəlb etməsi ilə fərqlənmiş, fənlərarası əlaqədən istifadə isə təbiət elmlərinin qarşılıqlı öyrənilməsinə şərait yaratmışdır. Təbəit elmlərinin tədrisi zamanı fənlərarası əlaqə imkanlarından istifadə mənimsəməni yüksəltməklə yanaşı, hadisənin mahiyyətinin tam anlaşılmasına səbəb olur. Çünki özündə fiziki, kimyəvi və bioloji hadisələri cəmləşdirən mürəkkəb hadisə kompleks şəkildə öyrənildikdə rəngarəng təbiət hadisələri haqqında şagirdlərdə vahid bir fikir, ümumi bir təsəvvür yaranır, onların dialektik-materialist dünyagörüşü inkişaf edir. Yəni – refleksiya baş verir. **Refleksiya** – artıq başa çatmış prosesin şüurda inikasıdır. Təlim prosesinin refleksiyası biliklərin mənimsənilməsinin bütün mərhələlərini təhlil etməyə və dərindən başa düşməyə imkan verən başlıca mexanizmlərdən biridir.

Qeyd edək ki, yeni üsul və vasitələr haqda danışmaq yox, onu tətbiq etmək daha çox səmərə verir. Tələbələr gileylənirlər ki, müəllim əgər yeni üsul haqda danışır, özü bir nümunə göstərmirsə, biz tətbiqetməni kimdən öyrənməliyik? Və kimdən nümunə götürməliyik. Yerində deyilən iraddır. Hər bir yeniliyi müəllim öyrənməli və öz işində tətbiq etməlidir. «Elektron Universitet» layihəsi çərçivəsində yaxında həyata keçiriləcək ***online*** dərslər də pedaqoci ictimaiyyətimiz və tələbələrimiz üçün yenilikdir və öyrənənlər üçün fərqli öyrənmə imkanları verəcəkdir. Orta məktəbdə tətbiqinə başlanmış kurikulum da müəllimlər arasında birmənalı qarşılanmayıb. Bəzən cəmiyyətdə elə düşünürlər ki, təhsil islahatı adı altında yerli-yersiz dünya təjrübəsini tətbiq etməyə çalışılır. Sanki bir növ məktəbi, müəllimləri yükləyirlər. Məktəbin, müəllimlərin işinin artması fikri ilə razılaşırıq, lakin qloballaşan dünyada baş verən dəyişikliklərin, yeniliklərin cəmiyyətimizdə əksini tapmasının elmimizdə və həyatımızda müsbət inkişafa səbəb olduğunu da unutmayaq. Tarixən bir çox kəşflər ciddi iradlara rəğmən öz tətbiqini tapmasaydı indiki nailiyyətlərə çatmaq mümkün olmazdı. Elə biologiyanın inkişaf tarixi buna sübutdur.

Dünyada 1728-ci ildən formalaşan distant təhsil konsepsiyası əsasında 1892-ci ildə Amerikada Vilyam Reyni Harper Çikaqo Universitetində ilk dəfə olaraq distant təhsil mərkəzi açılmışdır. Bu üsul təhsilin distant səviyyədə verilməsi və alınmasıdır. Distant təhsilin qiyabi təhsillə oxşar və fərqli xüsusiyyətləri də cəmiyyətdə müzakirə edilərək indi hər kəsi düşündürür. Qiyabi təhsilin ləğv edilərək distant təhsilə keçmənin savadsızlığa gətirəcəyindən ehtiyat edənlər də çoxdur, əksini düşünənlər də yetərincədir. Fikrimizcə, hər iki təhsil forması əyani təhsil almaqdan fərqli olsa da, müəllimlərin rəhbərliyi və istiqaməti ilə müstəqil şəkildə özünütəhsilə, özünəinama, özünüinkişafa hesablanmış təhsildir. Eyni zamanda, bu zaman öyrənən tərəf paralel olaraq maddi durumunu yaxşılaşdırmaq və karyerasını qurmaq üçün də imkan qazanır. Düşünürük ki, bu formada təhsil müəllimlərə öz tədqiqat işlərini yerinə yetirməyə imkan yaradır və əyani şöbədə dərslərini daha keyfiyyətlə qurmağa kömək edər. Eyni zamanda, bu təhsil forması o zaman öz bəhrəsini verəcəkdir ki, ali təhsili diplom xatirinə deyil, elm naminə almaq istəsinlər.

Distant təhsilə gələcəkdə keçirilməsi nəzərdə tutulduğundan, bu işə hazırlıq mərhələsində olan respublikamızda yaxın gələcəkdə YTT-nın tədrisə tətbiqi qədər nailiyyət qazanacağıq. Hər şey təhsil alanın və verənin bu işə münasibətindən asılıdır. Əgər təhsil alanın (tələbə – qiyabi, əyani, istərsə də distant təhsil alan) psixologiyasında, məqsədində elmə maraq, öyrənmək yanğısı varsa, təhsilin formasının rolu o qədər də rol oynamamalıdır. Yetər ki, əmək sərf edərək məqsədə çatmaq meyli olsun. Bu səbəbdən də distant təhsilin gələcəkdə perspektivli forma olmasına inanırıq. Yaxın gələcəkdə distant təhsil üçün mühazirə və laboratoriya məşğələlərinin mövcud elektron variantlarının internetdə yerləşdirilməsi işinə başlayacağıq. Bu iş ona görə çətinlik törəytməyəcək ki, YTT-nın tədrisə tətbiqi ilə əlaqədar dərslərin elektron lövhələrdə keçirilməsi sayəsində artıq dərslərin elektronlaşdırılması mərhələsi arxada qalmışdır. Yenilik tərəfdarı əksər müəllimlər artıq dərslərini, kitablarını elektron variantda təqdim edir, auditoriyanın internetdən istifadəsinə də geniş şərait ya-

radır. Perspektivli təhsil forması kimi distant təhsil yaxın gələcəyin mühüm nailiyyətlərindən olmağa yaxındır.

**Məqalənin elmi yeniliyi** interaktiv üsulların, YTT-nın tədrisində tətbiqi nailiyyətlərinin ali və orta məktəblərdə sınaqdan keçirilməsinin göstəriciləri distant təhsilin prioritet istiqamətləridir.

**Məqalənin praktik əhəmiyyəti** ali və orta məktəb müəllimlərinin hazır dərs nümunələri və interaktiv üsulların tətbiqi təcrübəsindən istifadə imkanlarıdır.

## ƏDƏBİYYAT


1. Babayeva Z.Y. Biologiyanın tədrisində yeni təlim texnologiyalarından istifadənin perspektivləri. Bakı, 2009.
2. Babayeva Z.Y.. Biologiyanın tədrisində İKT-dən istifadə: interaktiv və ənənvi təlim. Ali məktəblər üçün dərs vəsaiti (şəkilli). Bakı: Təhsil NPM, 2011.
3. Paşayev P. Təbiət elmlərinin əlaqəli öyrənilməsi (biofizika materiallari əsasinda). Bakı: Maarif, 1977.
4. Ambruso, D. M. (2003). Challenging students experiments. The Science Teacher, *1*.
5. http://ctv.az/distant-t%C9%99hsil-biz%C9%99-n%C9%99-ver%C9%99c%C9%99k-video/
6. http://jef.nesibeaydin.k12.tr/jef/
7. http://yunus.hacettepe.edu.tr/~sadi/egitim/dergi.html
8. http://videoss.eu/fi4H62ML-gs_qiyabi-yoxsa-distant-thsil.html
9. www.kurikulum.az/files


**Z.Babaeva**

## ИНТЕРАКТИВНЫЕ МЕТОДЫ И НОВЫЕ ОЬРАЗОВАТЕЛЬНЫЕ ТЕХНОЛОГИИ В БИОЛОГИИ. ПЕРЕХОД К ДИСТАНЦИОННОМУ ОБРАЗОВАНИЮ

### РЕЗЮМЕ

Данная статья посвящена демонстрации приоритетов новых возможностей в обучении биологии в вышей и средней школе. Использование новых технологий обучения и интерактивные методы повышают эффективность учебного процесса, его влияние на развитие учащихся.

**Z. Babayeva**

## INTERACTIVE METHODS AND NEW TEACHING TECHNOLOGIES IN BIOLOGY. TRANSITION TO DISTANT EDUCATION

### SUMMARY

This article deals with the demonstration of priorities of new possibilities brought in teaching Biology by higher and secondary schools using New Teaching Technologies and interactive methods, the efficiency of teaching process, its effect on learners' development and the work to be done in this field brought to the attention. Priorities of distant and online education have been shown.

# METODİKA: FƏNLƏRİN TƏDRİSİ

## ИНФОРМАТИКА МЦЯЛЛИМИНИН МЕТОДИК ЩАЗЫРЛЫЬЫНА ДАИР

**Сейидаьа Щямидов,**
*pedaqogika üzrə elmlər doktoru, professor*
*АДПУ*
**Сяадят Мазанова,**
*АДПУ-нун досенти*
E-mail: saadat.mazanova@gmail.com

**Rяйчиляр:** *дос.* К.Ъяфяров,
*дос.* З.Таьыйева

***Ачар сюзляр:*** *информасийа, информатика, тялим, методик систем, модел, алгоритм*
***Ключевые слова:*** *информация, информатика, обучение, методическая система, модель, алгоритм*
***Key words:*** *information, information, training, methodical system, the model algorithm*

Тящсилин инкишафы илк нювбядя юлкянин игтисади гцдрятиндян асылы олса да, онун сцрятини тямин едян просесдахили факторлар мцщцм рол ойнайыр. Дахили факторлара ашаьыдакылары аид етмяк олар:

– Дцзэцн тяшкил едилмиш тящсил системи;
– Дюврцн мяктяб гаршысында гойдуьу тялябляр вя вязифяляр;
– Тялим просесинин дцзэцн вя оптимал методик системинин мцяййянляшдирилмяси;
– Тялим просеси вя онун вязифяляринин реаллашдырылмасыны тямин едян мцяллимляр.

Мцасир мяктяб тялиминдя шаэирд шяхсиййятинин инкишаф етдирилмяси, шаэирд-мцяллим мцнасибятинин мязмунунун дцзэцн мцяййянляшдирилмяси, тялим просесиндя шаэирдин субйект кими гябул едилмяси, йени тялим технолоэийаларын тятбиги вя тялим нятиъяляринин гиймятляндирилмяси кими мясяляляр мцасир тящсилин актуал проблемляридир. Бцтцн бу проблемлярин щяллиндя мцяллим апарыъы симадыр. Демяли, тящсилин кейфиййятини тямин етмяк цчцн мцяллимин щазырлыг сявиййяси йцксяк олмалыдыр. Бурайа ашаьыдакылары аид етмяк лазымдыр:

– Мцяллимин пешя щазырлыьы вя мцвафиг елми щазырлыьы;
– Мцяллим мцасир тящсил просесиня аид гарсысында дуран вязифяляри сямяряли шякилдя йериня йетирмялидир;
– Мцасир педагожи технолоэийалары йарадыъы шякилдя тятбиг етмяйи баъармалыдыр.

Тялим просесиндя мцяллимин фяалиййяти мцасир тялябляря уйьун олмалыдыр вя мцяллимин пешя щазырлыглынын цмуми мясяляляри бцтцн фянляр цчцн йарарлы ола биляр. О ъцмлядян мцасир информатика мцяллиминин методики щазырлыьы диггят мяркязиндядир. Мяктябдя тядрис олунан диэяр фянлярдян фяргли олараг, информатиканын тядриси йарым яср йа ясрин сяксянинъи иллярдян башлайараг, цмцмтящсил мяктябляри цчцн информатика мцяллимляринин щазырланмасына башланмышдыр вя бу просес давам едир.

Республикамызда информатика мцяллимляринин щазырланмасында, онларын методик щазырлыьынын тякмилляшдирилмясиндя вя юзцнц тящсилин щяйата кечирилмясиндя али педагожи мяктябляр, мцяллимляри тякмилляшдирмя институту вя онун филиаллары мцщцм вя бюйцк мигйаслы иш эюрцрляр. Тяърцбя эюстярир ки, республикамызын цмумтящсил мяктябляриндя дюврцн тялябляриня ъаваб верян информатика мцяллимляри чохдур.

Мцасир тящсил системиндя йени приоритет мясяляляр, о ъумлядян мяктяблярдя тялимин кейфиййятинин йцксялдилмяси бир нюмряли вязифя кими иряли сцрцлцр вя буна эюря дя педагожи кадрлар гаршысында йени тялябляр гойулур. Эцндямя шаэирд фяалиййяти иля йанашы, мцяллимин пешя фяалиййяти, онун интенсивляшдирилмяси эятирилир.

Мцасир мцяллимдян тяляб олунур:

– Тящсилин сцрятля инкишаф етдийи бир вахтда артан тядрис-методик информасийаны мцстягил тядрис етмя баъарыьы;

– Тядрис програмларына йарадыъы шякилдя йанашма;

– Пешя иля ялагядар вязифялярин щяйата кечирилмясиндя шаэирдлярин мотивасийа вя мцстягил идрак фяалиййятляринин эцъляндирилмяси диггят мяркязиндя олмалыдыр.

Ъямиййятин инкишаф тарихиндян мялумдур ки, информасийа мядянийяти ятраф алями вя щадисяляри дярк етмяк цчцн ян мцщцм васитя олмушдур. Компцтер мцасир щяйатын ян зярцри васитясиня чеврилмишдир. Информасийа тящсили мцасир шяхсиййятин формалашмасында, мянтиги вя ягли щазырлыьында мцщцм рол ойнайыр. Мяктяблилярдя мцасир ваъиб сосиал компотенсийаларын инкишаф етдирилмяси мцасир тящсилин башлыъа мягсядляриндян биридир. Бу компетенсийалары еркян йашларда, йяни ибтидаи синифлярдян башлайараг инкишаф етдирилмясиндя яввялляр педагог вя психологлар арасында бир-бириндян фяргли мювгелерин олмасына бахмайараг, информатиканын ибтидаи синифлярдя дя тядрис едилмяси идейасы ясасландырылды вя ясас мясяля – бу синифлярдя информатиканы тядрис етмяйи баъаран мцасир мцяллилярин щазырланмасыдыр:

– Информатика дярсляриндя няйи юйрятмяк лазымдыр?

– Информатика мцстягил фянн олмалыдырмы?

– Информатиканы ким тядрис етмялидир?

Информатиканын башланьыъ курсунун мягсядляри ашаьыдакы кими мцяййянляшдирилмишдир:

– Илкин компцтер савадыын вя вярдишляринин формалашдырылмасы;

-Мянтиги тяфяккцрцн инкишаф етдирилмяси;

-Мясяля щялли цчцн зярури олан алгоритмик вярдишлярин формалашдырылмасы вя инкишаф етдирилмяси. [2;4]

Ашкар мясялядир ки, ибтидаи синифлярдя информатиканы тядрис едян мцяллим бу синифлярин психоложи-методики хусусиййятляри иля таныш олмалыдыр.

Мялумдур ки, елмин сцрятли инкишафы информатика фянинин мязмунунун динамикасына да тясир едир. Бу ъящятдян информатика мцяллими юз пешякарлыг сявиййясини даим тякмилляшдирмялидир. Информатика фянни мязмунунун йениляшмяси йени информасийа технолоэийаларынын мейдана эялмяси иля ялагядар олуб, тялим просесиндя тякъя васитя дейил, щям дя юйрянмя обйекти ролуну ойнайыр.

Демяли, информатика мцяллиминин пешя фяаллиййяти даща интенсив характер алыр. Бу да информатика мцяллимляринин щазырланмасы вязифяляриня ашаьыдакылары дахил етмяйи актуал едир:

– Информатика мцяллимини инновасийа фяалиййятиня щазырламаг;

– Фяалиййятиня аид тядрис-методик ишлямяляри щазырламаг баъарыьыны формалашдырмаг;

– Яняняви тялим мягсядлярини муасир тялим мягсядляри иля явяз етмя вя онлары ясасландырма габилиййятини нцмайиш етдирмя- кими кейфиййятляри якс етмялидир.

Мцщазиря -30 саат

| | | |
|---|---|---|
| 1 | Информатиканын тядриси методикасы педагожи бир елм кими мягсяд вя вязифяляри | 2 саат |
| 2 | Информатиканын тядриси методикасы тядрис фянни кими мязмуну вя структуру | 2 саат |
| 3 | Информатиканын башланьыъ курсунун педагожи аспектляри:<br>– Нязяри мясяляляр;<br>– Компцтер тяминаты;<br>– Компцтер ойунлары (фярди, коллектив) | 2 саат |
| 4 | Компцтерин елементляри, онларын функсийалары вя имканлары | 2 саат |
| 5 | Информасийа вя информасийа технолоэийалары. Информасийа анлайышы курсун ясас елементи кими. Вериляnлярин компцтердя тясвир вя йа тягдим едилмяси | 2 саат |
| 6 | Електрон щесаблама машинларын архитектурасы - анлайышынын изащында методики йанашмалар | 2 саат |
| 7 | Информатиканын щазырлыг курсунда алгоритм анлайышы. бу анлайышын тягдим едилмяси методикасы. Ядяди ойунларын рийази тятбигляри | 2 саат |
| 8 | Мятнин щазырланмасы – база информасийа технолоэийасы кими. Мятн редактору – йарадыъы фяалиййят (хятт) кими. Информатиканын башланьыъ курсунда информасийа мятни щазырламаьын методик аспектляри | 2 саат |
| 9 | Информатиканын башланьыъ курсунда график васитяляр | 2 саат |
| 10 | Мусиги информасийасынын редактя едилмяси (мяктяб цмуми информасийа тящсилиндя) | 2 саат |
| 11 | Интернет вя ишлямя принсипи. Електрон почту вя интернет | 2 саат |
| 12 | Фасилясиз информасийа тящсили курсунда мянтиг дили вя онун йери. Рийази мянтиг елементляринтн юйрянилмясиня аид методик эюстяришляр. Билик вя баъарыглара верилян тялябляр | 2 саат |
| 13 | Ясас анлайышлар вя моделляшдирмя принсипляри. Формаллашдырма вя моделляшдирмя анлайышлары. Моделлярин тяйинаты. Моделлярин гурулмасынын ясас мярщяляляри. Моделлярин тяснифи | 2 саат |
| 14 | Моделляшдирмя иля ялагядар курсун ясас вязифяляри вя мязмун хятляри | 2 саат |
| 15 | Тядрис просесиндя компцтер коммуникасийаларынын актуаллыьы (зярурилийи) | 2 саат |

Эляъяк информатика мцяллиминин мцасир вя перспектив щазырлыьыны тямин етмяк цчцн али педагожи мяктяблярдя ашаьыдакы мязмунда мцщазиря мювзуларынын верилмясини мягсядяуйьун щесаб едярик. Тягдим етдийимиз вариант ибтидаи синифлярдя дярс дейян информатика мцяллимляри цчцн нязярдя тутулмушдур. Гейд едяк ки, ибтидаи синифлярдя дярс дейян информатика мцяллимляри Ы-ЫВ синифлярин рийазиййат курсу иля, щяйат билэиси курсу иля таныш олмалыдыр. Чунки информатика фянни ибтидаи синифлярдя рийазиййат иля сых интеграсийада тядрис олунур.

Йухарыда гейд етдийимиз мцщазиря мювзулары щям дя хариъи юлкя мяктябляри тяърцбяси ясасында тяртиб олунмушдур.

Гейд етдийимиз ъядвялдя иш просесиндя тякмилляшдирмя апармаг олар. Щяр бир мцщазиря мцасир тялябляр ясасында апарылмасы вя онун функсийалары дягигляшдирилмялидир. Мцщазирядя мултимедиа технолоэийалардан истифадя олунмалыдыр. Демяли, информатика мцяллимлярини инновасийа фяалиййятиня щазырламагла, фянни иля ялагядар методик системин щяр бир елементинин функсийа вя тялябляриni онлар айдын дярк етмялидирляр. Чунки тяърцбя эюстярир ки, щяля дя яняняви методикадан истифадя едян мцяллимляримиз вардыр.

Информатика цмумтящсил мяктябляриндя тядрис олунан ян мцщцм вя ваъиб фянлярдян биридир. Дунйанын яксяр юлкяляриндя бу фяннин юйрянилмясиня хцсуси диггят йетирилир. Информатика шаэирдин зещни инкишафына кюмяк едир, мянтиги тяфяккцрцнцн формалашмасында, мцщакимя вя дяркетмя габилиййятляринин йцксялмясиндя мцстясна рол ойнайыр [1].

Мялумдур ки, анализ, синтез, тяснифетмя, цмумиляшдирмя, мцъяррядляшдирмя, аналоэийа, конкретляшдирмя – тяфяккцр (мянтиги) ямялиййатлары щесаб олунур вя информатиканын тялиминдя бунлардан эениш истифадя олунур. Алгоритмляшдирмя,

формалашдырма, моделляшдирмя рийази анлайышлар олуб, информатикада эениш тятбиг олунур.

Информатикайа ашаьыдакы кими эениш вя йа изащлы тяриф верилир: «Информатика – компцтерляшдирилмиш информасийа системляри фяалиййятинин лайищяляшдирилмяси, ишлянилмяси, йарадылмасы вя тятбиги аспектлярини комплекс шякилдя юйрянян фянндир» [1].

Мащиййяти етибариля информатика просесляринин автоматлашдырылмасы йолларыны юйрянян фянн кими йаранмышдыр. Информатика елминин педагожи-психоложи тялябляря уйьунлашдырылмыш мязмуну информатика фянни кими тягдим олунур.

**Проблемин елми йенилийи.** Анализ, синтез, тяснифетмя, цмумиляшдирмя, мцъяррядляшдирмя, аналоэийа, конкретляшдирмя – тяфяккцр (мянтиги) ямялиййатлары щесаб олунур вя информатиканын тялиминдя бунлардан эениш истифадя олунур. Алгоритмляшдирмя, формалашдырма, моделляшдирмя рийази анлайышлар олуб, информатикада эениш тятбиг олунур.

**Мягалянин практик ящямиййяти вя тятбиги.** Мащиййяти етибариля информатика просесляринин автоматлашдырылмасы йолларыны юйрянян фянн кими йаранмышдыр. Информатика елминин педагожи-психоложи тялябляря уйьунлашдырылмыш мязмуну информатика фянни кими тягдим олунур. Гейд етдийимиз ъядвялдя иш просесиндя тякмилляшдирмя апармаг олар. Щяр бир мцщазиря мцасир тялябляр ясасында апарылмасы вя онун функсийалары дягигляшдирилмялидир.

## ЯДЯБИЙЙАТ

1. Цмумтящсил мяктябляринин Ы-ЫВ синифляри цчцн фянn курикулумлары. Бакы: Тящсил, 2008.
2. Рукина Т.В. Методика преподавания информатики в начальной школе. М.: Педагогика, 2008.
3. Щямидов С.С. Мяктябин ибтидаи синифлярдя рийазиййатын тядриси методикасы. Бакы: АДПУ, 2012.
4. Захарова Т.Б. Совершенствование методической подготовки учителей информатики в свете требований общего образования // Информатика и образование, 2014, № 5


**С. Гамидов, С. Мазанова**

## О МЕТОДИЧЕСКОЙ ПОДГОТОВКИ УЧИТЕЛЯ ИНФОРМАТИКИ

### РЕЗЮМЕ


В статье затронуты следующие вопросы:
- Информатика как наука и как научная дисциплина;
- Цели и задачи обучения информатике в начальных классах;
- Особенности пропедевтического курса информатики;
- Требования, предъявляемые к учителю информатики начальной школы;
- Таблица лекций о подготовке учителя информатики для начальной школы.


S.Gamidov, S.Mazanova

## ON THE METHODICAL PREPARATION OF TEACHER

### CUMMARY


The article addressed the following questions:
- Computer science and as a scientific discipline;
- Aims and objectives of teaching science in the elementary grades;
- Features a propaedeutic course of computer science;
- Requirements for informatics teachers of elementary school;
- Table of lectures on preparing teacher for elementary school

# FİZİKİ TƏRBİYƏ TƏLİMİNİN STİMULLAŞDIRILMASININ METOD VƏ VASİTƏLƏRİ

**Baloğlan Quliyev,**
*pedaqogika üzrə fəlsəfə doktoru, dosent*
ADPU

**Rəyçilər:** *prof.* Ə.Ə. Mehtiyev
*dos.* Y. Səmədov

***Ачар сюзляр:*** *стимул, метод, васитя, комплекс, темп, ритм, психомотор*
***Ключевые слова****: стимул, метод, средство, комплекс, темп, ритм, психомоторный*
***Key words****: stimulus, method, means, complex, temp, rhythm, psychomotor*

Ибтидаи тящсил пиллясиндя müəllim fiziki tərbiyənin təlimində nailiyyətlər qazanmaq üçün hər bir dərsə hazırlaşarkən pedaqoji qanunauyğunluqlara və təlim prinsiplərinə əsaslanmalıdır. Mövzuların tədrisinə yaradıcı yanaşmalı, uyğun variantlar seçib tətbiqinə nail olmalıdır. Təlimin təşkilində trafaretliyə, yeksənəkliyə yol verilməməli, mövzuya uyğun yeni forma, vasitə və metodlardan istifadə etməlidir. Fiziki tərbiyə prosesində uyğun variantların seçilməsini münasib vəzifə, məzmun, metod, vasitə və formaların seçilməsi kimi qəbul etməli təhsildə isə stimul yaradılmasının mənbəyi və nailiyyətlərin qazanılmasının əsası kimi qiymətləndirilməlidir. Qabaqcıl məktəb təcrübəsinə istinad edərək mövzuya müvafiq təlim variantlarının işlənməsinə nail olmalı, bunların yeri gəldikcə bir-biri ilə əlaqəliliyini təmin etməli və həyata keçirilməsinə lazımi səy göstərməlidir. Təlim üçün məqsədəuyğun şəraitin yaradılması da fiziki hərəkət komplekslərinin, müxtəlif növ hərəkətlərin, texniki fəndlərin templə, ritmlə yerinə yetirilməsini təmin edən mühüm pedaqoji psixomotor amillərdəndir.

Təcrübədən aydın olur ki, ümumtəhsil məktəbinin ibtidai təhsil pilləsində tədris prosesinə uyğun üsulların ayrı-ayrılıqda tətbiq edilməsi o qədər də səmərəli olmur. Pedaqoji üsul və vasitələrin sistemli olaraq, eyni zamanda onların əlaqəli tətbiqi təlimi üçün daha effektli sayılır. Bu, həm də təlimdə öyrədən və öyrənənin fəaliyyətinin vahidliyinin təmin olunması üçün də mühüm pedaqoji-psixoloji komponent hesab olunur. Bütün bunları nəzərə alıb fiziki təhsil və tərbiyədə mənimsəmənin ardıcıl aparılma üsul və vasitələrinin izahının şərhini verək.

Fiziki tərbiyənin təlimində kompleks planlaşdırma fiziki təhsilin, hərəki bacarıq və vərdişlərin konkretləşdirilməsi şagirdlərin tərbiyə olunması və inkişafı məsələsinə xidmət edir. Bu isə fiziki tərbiyənin tədrisinin ilk stimullaşdırıcı vasitəsidir. Kompleks vəzifə-məqsəd və vəzifələrin hər birinin ayrılıqda deyil bütövlükdə həyata keçirilməsi tədris fəaliyyətinin sürət və keyfiyyətlə başa çatmasına zəmin yaradır. Məsələn, əgər müəllim yalnız dərsin təhsil vəzifəsini yerinə yetirirsə, onda onun tərbiyəvi və inkişafetdirici vəzifələri icra olunmur. Təlimdə qarşıda qoyulmuş vəzifələrə bir tərəfli yanaşma, tədrisin səmərəliliyinin aşağı düşməsinə səbəb olur. Unutmamalı ki, dərsin kompleks vəzifələrinin növbə ilə və yaxud ayrı-ayrılıqda deyil, eyni vaxtda icra olunması çox vacibdir. Çünki, bu vaxt fiziki hərəkətlərin yerinə yetirilməsinə əlavə vaxtın sərf edilməsinə ehtiyac qalmır, vaxta qənaət olunur, oyun və hərəkətlər düşüncəli və səmərəli yerinə yetirilir.

Kompleks vəzifələrin yerinə yetirilməsində hadisə və faktlar qarşılıqlı kömək əsasında öyrədilir ki, bu da mühüm pedaqoji hadisələrdən sayılmaqla tədrisin lazımi səviyyədə təşkilinə daima öz müsbət təsirini göstərə bilir. Misal üçün, fiziki tərbiyə dərsinin qarşısında hərəkət və oyunların öyrədilməsi və bu sahədə hərəki qabiliyyətlərin inkişafına, tərbiyəyə təsiri vəzifələri qoyulur. Bu vəzifələri icra etmək məqsədilə müəllimin fəaliyyəti elə təşkil olunmalıdır ki, şagirdlər bu vəzifələri yerinə yetirə bilsin. Bunun üçün də müəllim müqayisə vasitəsilə tədris materiallarının mənimsənilməsini təmin edir. Şagirdlərdə müqayisə etmək bacarığı aşılayır. Yəni müqayisə etməkdən ötrü şagirdlər düşünüb təhlil edir, müəyyən qənaətə gəlir. Bunları isə dərsin əsas təhsil

vəzifələri və tərbiyələndirici ideyası əsasında təmin olunur. Qeyd etməliyik ik, dərsin təhsil-tərbiyəvi və inkişaf-vəzifələrini əvvəlki və gələcək fiziki tərbiyə dərslərinin həmin vəzifələri əlaqəli həyata keçirilməsi kompleks planlaşdırmanın nəticəsi kimi təliminin zəruri vasitəsi rolunda çıxış edir.

Fiziki tərbiyə təliminin lazımi səviyyədə qurulması şagirdlərin əsas xüsusiyyətlərini öyrənilməklə dərsin qarşısında duran başlıca vəzifələrin konkretləşdirilməsini də tələb edir. Vəzifələrin yaşa, cinsə, zehni və eləcə də fiziki inkişafa, fiziki hazırlığa uyğun təşkili şagirdlərin daha da fəallaşdırılmasına, tədris vəzifələrinin vaxtında, düzgün olaraq və icrasına şərait yaradır.

Müxtəlif vasitə və üsullardan yeri gəldikcə istifadə şagirdlərin fəallığına və tədris imkanlarına əsaslanır ki, bu da onların inkişafına və tərbiyəsinə daha müsbət təsir göstərməsi imkanını artırır. Pedaqoji üsul və vəzifələrin tətbiqi zamanı qarşıda duran başlıca tədris vəzifələrinin yerinə yetirilməsinə xüsusi diqqət yetirilməlidir. Tədris vəzifələrinin birinci və ikinci dərəcəliliyinə də fikir vermək yerinə düşərdir. Bununla bərabər, tədris vəzifələrinin icrasının şagirdlərin inkişafı çərçivəsində olması onun müvəffəqiyyətlə həyata keçirilməsinə önəmli imkan verir ki, bu da şagirdlərin fəallığına və tədrisə olan marağına səbəb olur.

Tədrisin stimullaşdırılmasının ikinci vasitəsi dərsin mahiyyəti və başlıca məzmununa təlim vəzifələrinin müvafiq şəkildə uyğunlaşdırılmasıdır. Təəssüf ki, bəzən müəllimlər dərsin birinci və ikinci dərəcəli vəzifələrini bir-birindən ayırmır və buna məhəl qoymurlar. Nəticə etibarı ilə dərsin başlıca məqsədinə kifayət qədər əhəmiyyət verilmir. Şagirdlərin diqqəti konkret tədris vəzifələrinə yönəldilmir, tədrislə bağlı ikinci dərəcəli işlərə həddindən artıq geniş yer verilir. Bəzən də hərəkətlər lüzumsuz olaraq həddən artıq təkrar edilir, hərəkət texnikası və taktiki hazırlıq diqqət mərkəzindən kənarda qalır. Bədən tərbiyəsinin tədrisi prosesində başlıca vəzifələrin icrasına çalışmalı, tədris materialları ilə şagirdlər həddindən artıq yüklənməməlidir.

Bədən tərbiyəsinin tədrisi layihələndirilərkən, təkcə şagirdlərə ənənəvi məlumatların mənimsədilməsi kifayət etmir. Şagirdlər ölkədə baş verən yeniliklərlə tanış olmalı, idman haqqında informasiya ilə təmin olunmalı və təlim dövründə: 1) yeni tədris materialının başlıca elementlərinin mənimsənilməsi; 2) nəinki xüsusi bacarıqlara, həm də ümumtədris səmərələşdirici xarakterli bacarıqların mənimsənilməsi 3) özünü idarəetmə, özünə nəzarət, ünsiyyət və s. yer ayrılmalıdır. Məqsəd və vəzifələrin, fəaliyyət növlərinin sistemlə əlaqələndirilməsi də təlimin stimullaşdırıcı şərtlərindəndir. Burada məqsədin düzgün qoyulması, vəzifələrin onun əsasında müəyyənləşdirilməsi təlimdə önəmli yerlərdən birini tutur. Fəaliyyət növlərinin uzlaşdırılması əsas məqsədə və vəzifələrə yönəldilməsi də ümumtəlim nəticələrinə nail olmaqda az əhəmiyyət kəsb etmir. Şagirdlərin tədris-idman fəaliyyətinin düzgün təşkili məqsəd və vəzifələrin reallaşdırılmasında pedaqoji təsisatlardan biri kimi özünəməxsus yer tutur. Ümumtəlim nəticələrinin yüksək səviyyəyə çatdırılmasında uğurlu dərs strukturunun seçilməsi və tətbiqi vacib stimullaşdırıcı şərtlərdəndir. Bura daxildir: müsahibənin ardıcıllığı, yeni materialların öyrənilməsi, zehni tapşırıqlar, möhkəmləndirmə, hərəkət və oyun ev tapşırıqları, ümumiləşdirmə işləri.

Tədrisin təşkilində istifadə olunan bu üsullar təlimdə sistemli və ardıcıllığı təmin edən prinsiplərə əsaslanır. Təlimdə lazımi stimul yaratmaqda müəllimin tədris-tərbiyə üzrə qarşıda duran vəzifələrin həlli üçün daha səmərəli metodlardan və təlim vasitələrindən istifadə etməsi mühüm yer tutur. Bunun üçün də bədən tərbiyəsi müəlliminin müxtəlif təlim metodlarının imkanlarını bilməsi zəruridir. Xüsusən, söz əyani, praktik, fəal, interaktiv, produktiv, axtarıcılıq, müstəqil işlər metodları, şagirdlərin fəallığının stimullaşdırılması, nəzarət, özünə nəzarəti misal göstərmək olar.

Fiziki tərbiyə və idman üzrə tədris materiallarının mənimsənilməsi çevikliyinin və surətliliyinin artırılmasında təlimdə şagirdlərə diferensial və fərdi yanaşmaq olduqca əhəmiyyətlidir. Bu təlimin ümumsinif, yarımqruplar üzrə və fərdi təlim formalarının optimal qurulmasının mühüm şərtlərindən biridir. Bunlar didaktik prinsiplərin tələblərinə istinad olunmaqla həyata keçirilir. Diferensial yanaşma şagirdlərin müxtəlif qabiliyyətlərinə, istedadlarına, bir-birindən fərqlənməsinə, yaddaş tiplərinə, ətraf mühiti qavramalarına, yüksək təfəkkür keyfiyyətlərinə malik olmasına görə və həm də əvvəlki təlim təcrübəsi zəruriliyindən irəli gəlir. Doğrudur, təlim-tərbiyədə bunlardan istifadə olunarkən müəyyən çətinliklərlə qarşılaşmalı olursan. Bu çətinliklər, hər şeydən əvvəl

uşaqların sinif daxili qruplara bölünməsində özünü büruzə verir. Uşaqların dərketmə qabiliyyətinə və fiziki imkanlarına görə siniflərə bölünməsi tədris ilinin əvvəlində, birinci sinifdən etibarən aparılır. Xarici ölkələrdə isə bu məsələyə başqa cür yanaşılır. Yəni şagirdləri adətən müvafiq testlər əsasında sınaqdan keçirir, siniflərə bölürlər. Məsələn A, B, V, və i.a. Və beləliklə, şagirdlər istedadlarına və qabiliyyətlərinə görə ayrı-ayrı siniflərə bölünürlər. Həmin siniflərdə zehni və fiziki qabiliyyətlər nəzərə alınaraq mürəkkəbləşdirilmiş və ya nisbətən asanlaşdırılmış tədris proqramları tətbiq olunur. Bu zaman hətta bəzi şagirdlər tam məqsədəuyğun təhsil almaq imkanlarından məhrum olurlar. Müəllim isə proqram materialının şagirdlər tərəfindən lazımi səviyyədə mənimsənilməsinə zəruri kömək göstərmir. Bu cür məktəbləri bitirən şagirdlər ali məktəblərə qəbul olmaq imkanlarını itirirlər. Bizim məktəblərdə belə diferensial təlimdən istifadə olunmur. Şagirdlər eyni proqram üzrə təhsil alır, (xüsusi tibbi qruplar istisna olmaqla). Onların ali məktəblərə daxil olması məqsədi ilə eyni məzmunu və həcmi olan proqramlar əsasında hazırlanmış test banklarından istifadə olunur. Bütün şagirdlər ümumtəhsil və ali təhsil alma hüququna malik olurlar.

Ümumtəhsil məktəblərində diferensial təlimə başqa cür yanaşılır. Diferensiasiyanın başlıca prinsipi təhsilin məzmununu sadələşdirmək deyil, müəllim tərəfindən şagirdlərin diferensiasına kömək göstərməkdir. Bəzi şagirdlərin köməyə böyük ehtiyacı var, digərlərinin adi qayda da (normada) köməyə ehtiyacı var. Üçüncü qrup şagirdlər isə köməyə ehtiyacı minimumdur. Köməyə daha çox ehtiyacı olanlarla iş daimi deyil, müəyyən vaxt ərzində aparılır. Şagirdlərin imkanları daxilində tədris işi aparılarsa, onların köməyə ehtiyacı az olur. Bu növ diferensiyada ən mürəkkəb tapşırıqlar müvəqqəti olaraq azaldıla bilər. O vaxta kimi müəllim tərəfindən göstərilən köməyə şagirdlər adaptasiya olmayıblar. Müəyyən vaxt keçdikdən sonra şagirdlərin təlimdə müstəqilliyini genişləndirmək məqsədilə göstərilən kömək yavaş-yavaş azaldılır.

Tədris prosesində daha yüksək hazırlıqlı şagirdlərə diferensial yanaşmaq xüsusi əhəmiyyət kəsb edir. Bu həmin şagirdlərin fərdi tapşırıqlar almaq vasitəsilə öz qabiliyyətlərini inkişaf etdirməyə xidmət edir. İstedadlı şagirdlər üçün fakültətiv məşğələlərin, idman bölmələri və idman siniflərinin təşkili də onların təlimdə daha sürətlə mənimsəmələrinə zəmin yaradır. Tədris işlərinin təşkilinin kollektiv formaları da mövcuddur. Ümumsinif, qruplar və fərdi formada təlimin təşkili şagirdlərin sayına əsaslanır. Belə formalardan istifadə edərkən təlim prosesi müəllimin təsiri altında keçir. Təlimin kollektiv formada təşkilində isə qrup və ümumsinif forma demək olar ki, şagirdlərin təsiri altında olur. Prosesin kollektiv formada təşkili şagirdlərin kollektivçilik qabiliyyətinin formalaşmasına kömək edir. Dərsin kollektiv qruplar, ümumsinif formada təşkilində fəaliyyətin məqsədi, onun inkişaf yolları seçilir. İşdə qarşılıqlı kömək göstərilir, onun nəticəsi kollektiv tərəfindən təhlil olunur, müvafiq nəticə çıxarılır, təkliflər irəli sürülür və həyata keçirilir.

Ибтидаи синифлярдя təlimin stimullaşdırılması, həm də sanitariya-gigiyena və tədris-idman bazasının müvafiq prinsiplərinə istinad etməklə həyata keçirilir. Mənəvi-psixoloji, estetik şəraitin yaradılması da bu işdə xüsusi rol oynayır. Bunlar gənclər və idman səhiyyə nazirliyinin, qurumların qərar və təlimatlarına əsaslanır. Müəllim və şagirdlərin tədris vaxtına qənaət etməsi və təlimin optimal tempinin seçilməsi də stimullaşdırıcı mahiyyət daşıyır. Vaxta qənaət edilməsi geniş mənada təlimdə stimul yaradan bütün üsullardan tədris prosesində səmərəli istifadə olunmasını əhatə edir. Bura tədrisin məqsəd və vəzifələrinin dəqiq müəyyənləşdirilməsi, əsas vəzifələrin konkretləşdirilməsi, təlim metodları və vasitələri seçilərkən diferensial və kompleks yanaşma, təlimin təşkili və s. daxildir.

Fiziki tərbiyə üzrə təlimin nəticəsinin təhlili, şagird və müəllimin fəaliyyətinin səmərəli keçməsini təmin edən meyarların seçilməsi və tətbiqinə sərf olunan vaxtın dəqiqliyi tədrisdə stimul yaradan üsullardandır. Həmin təhlilə təlim prosesində yekun nəticənin aşkara çıxarılması (ümumi təhsil nəticələrinə nail olma, tərbiyə olunma və inkişaf), müəllim və şagirdlərin fəaliyyətinin tənzimlənməsi, təlimata uyğun tədrisə vaxt sərf etmənin, fəaliyyətləri tənzimləyən və fəallığı yüksəldən real imkanların nəzərdən keçirilməsi və açıqlanması tədrisin optimal təşkili üsullarındandır. Təhsil prosesinin iki tərəfli xarakterə malik olması yəni təhsilalma (öyrənmə), fəaliyyətləri tənzimləyən və fəallığı yüksəldən, təlim prosesini surətləndirən onun keyfiyyətini

artıran üsullarla əlaqəsinə səbəb olur. Lakin şagirdlərin özünü təşkiletmə fəaliyyəti olmadan həmin üsulların faydalı olacağını düşünmək inandırıcı görünmür.

Təlimin göstərilən üsulla təşkili pedaqoji tədqiqatların diqqət mərkəzində olmuş və tədrisin müəllimin nəzarəti və təsiri altında keçməklə məktəblilərə bunları bilmək tövsiyə edilmişdir: qarşıya qoyulmuş başlıca vəzifələri və fəaliyyətlərində onları əsas rəhbər tutmağı; daima öz diqqətini mövzunun başlıca məsələsinə yönəltməyi; tədris üzrə qarşıda duran mühüm vəzifələri həll etmək üçün özünə nəzarəti operativ surətdə tətbiq etməklə ən səmərəli və düzgün yollar axtarmağı; öz fəaliyyətini həmişə tənzimləməyə səy göstərməyi; real tədris imkanları qənaətə yönəltməyi; vaxtı səmərəli sərf etmək və tədris işlərinin tempini surətləndirməklə eyni vaxtda tədrisin keyfiyyətini yüksəltməyi; öz işinə və ona təhlil verməyi başa çatdırmağı. Müəyyən olunmuşdur ki, müəllimin özünü təşkil tədris fəaliyyətini təlim vəzifələrinin icrasına yönəlməsi də öyrənmənin meyarının tələblərinə uyğun gəlir. Öyrənmənin tənzimlənməsi və fəaliyyətin yüksəldilməsinin təsiri nəticəsində təlimin bütövlülüyünü təmin etmək imkanı da yaranır.

Fiziki tərbiyənin tədrisi prosesində tətbiq olunan müxtəlif prinsiplərdən sinifdənxaric və məktəbdənkənar aparılan bədən tərbiyəsi-sağlamlıq tədbirlərində də istifadə olduqca zəruridir. Bu şərtlə ki, təhsil və tərbiyəedici vəzifələrin yerinə yetirilməsi üçün planlaşdırma işləri də konkret və kompleks şəkildə aparılmalı, tədbirin keçirilməsində valideyn və ictimai təşkilatların nümayəndələrinin yaxından iştirakı təmin olunmalıdır Bu prinsiplərdən istifadə edərkən aşağıdakı pedaqoji-psixoloji amillərin də nəzərə alınması onun fəallıqla, maraqla həyata keçirilməsinə imkan verir:

1. Şagirdlərin arzu, təklif və maraqlarının öyrənilib təhlil olunması, araşdırılması.

2. Diqqətin əsas məqsədə yönəldilməsi, əsas mövzu üzərində toplanması. Burada diqqət 2 cəhətə yönəldilməli: 1) mövzunun, məqsədin, mühüm vəzifələrin dəqiqliyi; 2) diqqəti toplamaqdan ötrü müxtəlif növ maraqlı fiziki hərəkətlərin, mütəhərrik və əyləncəli oyunların seçilib təlim prosesinə daxil edilməsi; 3) Məzmuna uyğun səmərəli metodların seçilməsi yeri gəldikcə tətbiqi; 4) Tədbirə hazırlıq məqsədi ilə şagirdlər arasında vəzifə bölgüsünün düzgün aparılması; 5) Tədbirlərin təhsil, tərbiyə və inkişaf etdirici təsirini öyrənmək üçün onu təhlil etməyi; araşdırmağı ümumiləşdirilməyi bacarmaq.

Sinifdənxaric və məktəbdənkənar işlərin lazımi səviyyədə keçirilməsi də nəzarətin düzgün qurulmasından mühüm dərəcədə asılıdır. Məktəb rəhbərliyi tərəfindən aparılan nəzarətdə bunları əsas götürməlidir: Müəllimlərin öyrənilməsinə diqqəti artırmalı, onların fəaliyyətindəki müsbət və zəif cəhətləri aşkara çıxarmalı, eləcə də çatışmazlığın aradan qaldırılması yollarını bilməli və onu həyata keçirməlidir. Fəaliyyətlərin tənzimlənməsi və təlim prosesinin stimullaşdırılmasında aşağıdakıların nəzərə alınması məqsədəuyğundur:

1. Müəllimlərin hərtərəfli və dərin bilik, bacarıq və vərdişlərə yiyələnməsi.

2. Əlverişli variantların seçilməsi müqayisə edilərək tətbiqinə nail olunması.

3. Uyğun üsul, metod, prinsip və vasitələrin seçilməsi kompleks planlaşdırma ilə tənzimlənməsi.

4. Mənimsəməyə ayrılmış vaxtın düzgün və optimal bölgüsünün aparılması, vaxta qənaət edilməsi və diqqətdə saxlanılması.

5. Qabaqcıl təcrübəyə istinad edilməsi, vaxtilə qazanılmış bilik, bacarıq və vərdişlərin əsasında yeni bilik, bacarıq və vərdişlərin aşılanması, möhkəmləndirilməsi və dərinləşdirilməsi.

6. Müəllim və şagirdlərin fəaliyyətinin gücləndirilməsi, tənzimlənməsi və stimullaşdırılması, diqqətin əsas məqsədə və vəzifələrə yönəldilməsi.

7. Təlimin məzmun, məqsəd və vəzifələrini stimullaşdıran tələb və prinsiplərdən məqsədyönlü istifadə. Bu zaman şagirdlərin təlim imkanlarının nəzərə alınması, tədris şəraitinin yaradılması, idman zalının, oyun meydançasının, atletika qaçış cığırlarının, atma və tullanma sahələrinin alət və avadanlıqlarla təmin olunması.

**ЯДЯБИЙЙАТ**

1. A. Əhmədov, Ə.Abbasov. Ümumtəhsil məktəblərinin I-IV sinifləri üçün fənn kurikulumları. Bakı: Təhsil, 2008.
2. Kazımov N.M. Pedaqoji prosesdə diferensiasiya və inteqrasiya. Bakı, “Azərbaycan müəllimi” qəz., 2011.
3. Ümumtəhsil məktəblərinin II sinifləri üçün yeni fənn kurikulumları üzrə təlim materiallarının təxmini planlaşdırılması. Bakı: Kövsər, 2011.
4. Quliyev B.S. Mütəhərrik və əyləncəli oyunlar. Bakı: ADPU, 2011
5. .Бабанский Ю.К. Оптимизация учебно-воспитательного процесса. М: Просвещение, 1982.

**Б. Кулиев**

**МЕТОДЫ И СРЕДСТВА СТИМУЛИРОВАНИЯ ПРИ ОБУЧЕНИИ ФИЗИЧЕСКОЙ КУЛЬТУРЕ**

**РЕЗЮМЕ**

В статье речь идет о повышении двигательной активности и познавательных чувств учеников начальных классов с учетом темпа их активности и учебных возможностей. Здесь разбираются такие вопросы как комплексное планирование, согласование учебных задач с содержанием и целями урока, координация видов деятельности с системой, удачный выбор учебной структуры, дифференциальный подход в учебе, стимулирующие методы и средства.

**B. Guliyev**

**STIMULATING METHODS AND WAYS OF THE PHYSICAL TRAINING STUDY**

**СУММАРЙ**

This article is about the improvement of pupils’ activity within primary classes, increasing of their cognitive feelings and physical activity by taking into account of education opportunities. In that order, complex planning, the approximation of training tasks to the context and subject of the lesson, association of activity types with the system, selection of successful lesson structure, the differential approach in the training and etc. stimulating methods and ways.

# ПЕДАГОГИЧЕСКАЯ ЭКСПЕРТИЗА В КУРРИКУЛУМЕ

**Нигяр Мурадова,**
*доктор философии по педагогике, доцент*
*ИПОАР*
E-mail: rita-nigar@mail.ru

**Рецензенты**: *проф.* А. Аббасов,
*докт. пед. наук* Г. Ахмедов

***Açar sözləri**: pedaqoji ekspertiza, kurikulum, ali məktəb tələbələri, təlim keyfiyyəti, müəllimlərin ixtisasını artırılması*

***Ключевые слова:** педагогическая экспертиза, куррикулум, студенты высших школ, качество подготовки, повышение квалификации учителей*

***Key words:** pedagogical expertise, curriculum, high school students, the quality of training, qualification of teacher training*

Система образования Азербайджана неустанно проводит реформы, основавшие национальную образовательную систему куррикулум, которая гармонизировано с мировым образовательным пространством.

В настоящее время куррикулум является одной из прогрессивных учебных моделей мира. В странах Европы его считают основой образования. Его содержание, как концептуальный документ, во всех деталях охватывает стандарты, необходимые минимумы и требования, предъявляемые к подготовке обучающихся, а также уделяет значительное внимание вопросам технологии и оценивания. Следует, что каждая из этих задач находит свое отражение в куррикулуме, как важный составляющий компонент. Взаимосвязь этих компонентов, дополнение одного из них другим, являясь их логическим продолжением, считается как главное требование к системе обучения и инструментам его реализации. Это: ожидаемые результаты обучения и содержание образования, их последовательность во времени, специфику учебного заведения, особенности процесса обучения (методы, ресурсы для обучения, включая учебники и новые технологии), принципы оценивания, квалификацию учителей и т. д.

Анализ зарубежной литературы показывает, что существует несколько групп, работающих над куррикулумом, и сравнительных исследований по куррикулумам имеются в малом количестве. Дисциплина «сравнительное образование» изучал и рассматривал куррикулум, как определение образовательной политики, структуры системы образования и тенденции школьного образования в мире. Однако в последние годы в наиболее развитых странах мира разработаны различные проекты по сравнительному исследованию учебных достижений студентов высших школ. Эти исследовательские программы следует рассматривать как основы создающие «международный оцененный курикулум. С другой стороны - сбор и анализ информации по курикулуму, предлагаемому преподавателям и тому, который преподают в учебных заведениях, не достаточно развиты. Для удовлетворения существующих потребностей в плане информации перед Международным бюро просвещения ЮНЕСКО поставлена новая задача. В рамках этой задачи является одним из источников, обеспечивающих доступ к информации о куррикулумах в современном мире и вносящих вклад в сравнительное образование» [1].

Таким образом, анализируя зарубежную литературу, становится ясно, что в Америке предмет курикулум называется «Сравнительный курикулум». Предназначен он для магистров и докторантов. Курикулум за рубежом изучают как методику и через каждый пять лет обновляют его содержание. Проходят его в вузах на факультете «Curriculum and

instruction» («Курикулум и инструкция») и преподают его преподаватели, имеющие опыт работы по методике преподавания этого предмета и еще преподавать его имеют право только выпускники этого факультета. «Все люди одинаково успешно могут овладеть любыми областями знаний. Дело не в способностях, а в организации процесса обучения» [2]. «…Метод преподавания можно изучить из книг или со слов преподавателя, но приобрести навык в употреблении этого метода можно только длительной и долговременной практикой…» [3].

В Азербайджане и странах СНГ, в Киргизии, Молдове ведутся работы по изучению и внедрению куррикулумов. В этих странах поставлена задача по внедрению общенациональных и предметных куррикулумов.

В этой связи интересен отечественный опыт, где процесс создания куррикулумов достаточно прозрачен. Начиная с 2005 года, перед Институтом проблем образования Азербайджана поставлена цель реконструкции содержания образования, доведение его технологий и систем управления до уровня развитых стран мира. Для осуществления этой цели в качестве главной задачи было принято решение об обращении к широко распространенным образовательным моделям современного мира, подготовить на их примере национальные куррикулумы. В настоящее время ведется работа по усовершенствованию проектов предметных куррикулумов для ступеней основного и среднего образования. По мнению ученых и методистов этих стран, существующие разработки далеки от желаемых результатов, они на порядок выше традиционных стандартов и учебных программ, в них предпринята попытка создать системный, взаимосвязанный, целостный подход к совершенствованию этих документов.

Следовательно, отечественное образование знает много образовательных реформ, направленных на различные составляющие государственной системы образования и педагогического процесса по всем его уровням. «Проведенные нами исследования в области предметного куррикулума показывают, что ожидаемые результаты этой области разработаны исключительно в широком плане» [4].

Несмотря на прогрессивные изменения, в основе государственной политики отечественного образования имеются системные недостатки, которые на сегодняшний день препятствуют преодолению проблем некачественной учебной литературы, неудовлетворительного уровня преподавания и недостаточной степени обучения.

Возникают вопросы: что же необходимо сделать, чтобы решить сложившуюся проблему? Как повысить качество обучения и качество повышения квалификации? Кто должен решить, являются ли услуги куррикулум качественными?

Причины постановки этих вопросов заключается в том, что взгляды производителя и потребителя не всегда совпадают. Часто случается, что превосходная и полезная продукция или услуги не воспринимаются потребителями как обладающие качеством. Особенно остро эта проблема стоит в области образования в сфере подготовки будущих учителей.

Ответ на эти вопросы подчеркивает, что необходим новый подход при разработке куррикулума. «На основе концепции куррикулума как продукта стала все больше и больше ассоциироваться с концепцией разработки куррикулума (как процесса)» [5]. «Второй проект по развитию образовательного сектора предусматривает, помимо подготовки новых учебных материалов, повышение профессионального уровня преподавателей, расширение возможностей органов управления образования, мониторинг и оценку самого проекта» [6]. Из этого следует, что цель этого проекта - иметь высококвалифицированные педагогические кадры, регулярно совершенствующие профессиональное мастерство и имеющие высокий статус в обществе. Следовательно, каждый настоящий преподаватель не только должен быть компетентным в своей области, но и обладать интегрированным знанием. Именно этими критериями руководствуются эксперты педагогической экспертизы, занимающиеся проблемами продолжения контрактов с преподавателями, претендующими на то или иное звание.

Следует, что новый подход при разработке куррикулум должен быть связан с изменением подходов к построению структуры экспертно-куррикулумской модели в области педагогической экспертизы в образовании.

Данную структуру целесообразно основывать на системно-деятельном подходе. В этом отношении системно-деятельный подход включает две составляющие: систему обеспечения контроля качества обучения и систему управления качеством подготовки кадров. В общем виде эти две составляющие создают усовершенствованный проект экспертно-курикулумской модели в области педагогической экспертизы в образовании. Педагогическая экспертиза относится к высоким технологиям в образовании и является убедительным механизмом воздействия на практику в плодотворном управлении качеством обучения и качеством в повышении квалификации.

Аксиома, что наука основана на критерий качества исследования. Однако эталон современного научного знания определяют критерии качества экспертизы. С этой позиции следует, что необходимо совершенствовать научные основы педагогической экспертизы в куррикулуме, с целью повышения оценку его качества. Мониторинг и оценивание являются разновидностью контроля куррикулум. Однако оценку качества результативности контроля определяется педагогической экспертизой.

В настоящее время в куррикулуме далеко не все проблемы, связанные с ее организацией и развитием в высших школах являются решенными. И этому может послужить, следующее:

- появилось большое количество вопросов по куррикулуму, требующих анализа и осмысления их источников и причин, объяснения их новизны и их связи с куррикулумом и с образовательной действительностью;

- произошло коренное изменение в характере связи науки с практикой (из-за введения в высшие школы куррикулум), которое приводит к необходимости инновазирования путей развития образовательной практики в высших учебных заведениях.

В соответствии с этим и «с современными методологическими воззрениями исследование характеризуется не только предметом, но и особыми процедурами, применением научных методов» [7]. Следовательно, в процессе организации педагогической экспертизы в куррикулуме необходимо различать ее основную идею, методику сбора и отбора фактического материала, с помощью которых определяются критерии качества будущих учителей, а именно степень его истинности, достоверности, соответствия действительности и обоснованности его результатов.

Следовательно, с позиции педагогической экспертизы следует, что куррикулум, основная идея его научной концепции не может полагаться на лишь очевидность результатов оценивания и мониторинга, что в педагогической экспертизе в качестве состоятельных признаются лишь те утверждения, которые выдерживают процедуру доказательства истинности или ложности, надежности или погрешности качества подготовки будущих учителей.

Следует, что экспертно-курикулумская модель в сфере подготовки будущих учителей является составляющей в структуре национальной образовательной системы и призвана обеспечивать высокое качество его уровней. Проект экспертно-куррикулумской модели в области педагогической экспертизы схематично изобразим следующим образом:

Основные методы педагогической экспертизы, с помощью которых осуществляется процесс оценивания качества **куррикулум по подготовке учителей**:

- ***индивидуальная экспертная оценка***, которая определяется экспертом в результате беседы по заранее сформулированным вопросам или анкете;

- ***морфологический экспертный метод*** предполагает выделение в исследуемом объекте основных структурных элементов и рассмотрение их различных комбинаций (например, при изучении качества педагогической подготовки будущего учителя);

- ***рейтинг определяют как экспертный метод*** косвенного наблюдения, состоящий в изучении явления через оценку экспертов-наблюдателей;
- ***метод самооценки*** предполагает оценку субъектом экспертизы своих способностей по заданной шкале (например, при помощи «Портфеля достижений»);
- ***метод педагогического консилиума*** является разновидностью методов рейтинга и самооценки, предусматривающий коллективное обсуждение результатов;
- ***метод групповых экспертных оценок*** коллективная экспертная оценка, широко используемая при внешней экспертизе (например, аттестация педагогических кадров, образовательного учреждения).

*Вывод*: с целью усовершенствования содержания куррикулум необходимо создание и внедрение в соответствии со Стратегией развития отечественного образования лаборатории педагогической экспертизы в куррикулум, которая будет способствовать интенсивному и эффективному изменению содержания высшего образования для его соответствия международным стандартам и стандартам куррикулум по подготовке учителей и их квалификации. Основная цель создания лаборатории педагогической экспертизы - обеспечить непрерывность полнофункционального мониторинга и оценивания качества курикулум в рамках ежегодного контроля как знаний обучающихся, так и преподавания учителей.

**Актуальность проблемы**. В настоящее время в системе образования Азербайджана осуществляются качественные перемены в сфере высших школ по подготовке будущих учителей и по повышению качества квалификации педагогических кадров. Эти перемены ориентируются на достижение европейских и мировых стандартов, направлены на всестороннее развитие структур отечественных куррикулум в этом направлении. Чтобы правильно и объективно оценивать качество этой сферы в этом направлении, необходима достоверная количественная и качественная информация о состоянии условий, в которых осуществляется механизм движения куррикулум в реализации всех его задач. Новая теоретическая разработка по куррикулумам является внесение в его систему значимых элементов педагогической экспертизы уровня и степень подготовки будущих учителей, повышения их квалификации, способствуя росту авторитета педагогических знаний.


Внутривузовская педагогическая экспертиза
оценивает
качество подготовки учителей:
содержание подготовки учителей
методы подготовки учителей
условия подготовки учителей
результаты качества оценивания
Условия и направления педагогической экспертизы к оцениванию уровня подготовки будущих учителей
Курикулум по подготовке студентов - будущих учителей:
Содержание (Чему учат?)
Методы (Как учат?)
Обучающая среда (В каких условиях учат?)
Оценивание (Как оценивают результат?)

**Новизна проблемы**. Вопрос педагогической экспертизы в системе куррикулум целесообразно рассматривать как специальный этап всеобщей экспертизы (ее новой научной идеи, концепции, теории и методологии). Современная педагогическая наука требует рассмотрения вопроса педагогической экспертизы как предмет научного познания, целью которого является формирование экспертного взгляда на совершенствование системы ее теоретических и практических основ в куррикулум, проектирования моделей в сфере оценки экспертного заключения и повышения его качества.

**Практическая значимость**. Педагогическая экспертиза в куррикулуме может стать не только полезным инструментом в повышении квалификации учителей, а также является рациональным подходом к созданию условий управления процесса и механизмов куррикулум для получения специальной педагогической подготовки, подтвержденную соответствующим документом.

## ЛИТЕРАТУРА

1. Браславски С. Обновление школ: навстречу новой парадигме в латиноамериканском образовании. Сантилана, 1999.
2. Сеймур Пейперт. Переворот в сознании: дети, коллективность и плодотворные идеи. М., 1989.
3. Ушинский К.Д. Собр. соч. Т. 5.
4. Abbasov A.N. Müəllim hazırlıgına yeni yanaşmalar. Bakı: Mütərcim, 2012.
6. Abbasov Э.М. news.day.az.
7. Валеев Г.Х. В поисках педагогической инноватики. М., 1999.
8. Джаббаров М.Ч. Баку, Fineko/abc.az.

**N. Muradova**

## PEDAQOJİ EKSPERTİZA KURİKULUMDA

### XÜLASƏ

Kurikulum məzmununu təkmilləşdirmək üçün pedaqoji ekspertizanı Milli təhsilin kurikulumu İnkişaf Strategiyasına uyğun olaraq yaratmaq və həyata keçirmək lazımdır. Belə yanaşma müəllim hazırlığı və təkmilləşdirməsi üzrə ali təhsilin beynəlxalq standartlara və kurrikulum standartlarına uyğun olaraq intensiv və səmərəli surətdə dəyişməsinə imkan yaradacaqdır.

**N. Muradova**

## PEDAGOGIKAL EXPERTISE IN CURRICILUM

### SUMMARY

In order to improve the content of Curriculum it is necessary to establish and implement, in accordance with the Strategy of Development of National Education Curriculum in pedagogical expertise. This approach will promote intensive and effective change in the content of higher education for its compliance with international standards and standards of curriculum and teacher training qualifications.

# ORTA MƏKTƏB RİYAZİYYAT KURSUNDA MƏSƏLƏNİN ŞƏRHİNƏ GÖRƏ TƏNLİK TƏRTİBİ

**Sevda İsmayılova,**
*Mingəçevir şəhər Texniki humanitar liseyin*
*riyaziyyat müəllimi*

**Rəyçilər:** *prof.* A. Adıgözəlov,
*ped. fəls. dok.* S. Məmmədov

***Açar sözlər:*** *məsələ, tənlik tərtibi, hesabi üsul, cəbri üsul, qarışıq üsul, şagird fəaliyyətinin inkişafı*

***Ключевые слова:*** *задача, составление уравнений, арифметический метод, алгебраический метод, комбинированный метод, развитие творческой деятельности учеников*

***Key words:*** *task, compiling equations, arithmetic method, algebraic method, the combined method, the development of creative activity of students*

Müasir dövrdə riyaziyyatın tədrisində məsələ həllinin şərhinə uyğun tənlik tərtibinin öyrənilməsinə böyük yer verilir. Məsələ həlli şagirdlərin bilik və bacarıqlarının möhkəmləndirilməsinə, dərinləşməsinə, riyazi fəaiyyətinin inkişafına, hər bir şagirdə vacib olan riyazi mədəniyyətin formalaşdırılmasına əhəmiyyətli dərəcədə təsir göstərir. M. Lomonosovun sözləri ilə desək: «Riyaziyyatı ona görə öyrənmək lazımdır ki, o insanın zehnini qaydasına salır». Bu səbəbdən məsələ həllinə riyaziyyatda hər bir təlim səviyyəsində geniş yer verilir. Məsələlər bilik və bacarıqların mənimsənilməsi ilə yanaşı, düşüncənin müəyyən istiqamələrinin: mühakimənin formal-məntiqi sxeminə əməl olunmasının, fikrin yığcam, dəqiq ifadə edilməsinin, daxil edilən simvolların dəqiqliyinə riayət olunması bacarıqlarının formalaşmasında da da müəyyən rol oynayır.

Tədris prosesində şagirdlərin əqli fəaliyyətinin inkişafı məsələ həllində qabarıq şəkildə ortaya çıxan və elmi araşdırmanın üsullrı kimi qəbul edilən düşüncə texnikasının (təhlil, sintez, mücərrədləşdirmə və s.) formalaşması ilə sıx bağlıdır. Burada qeyri-adi, standart olmayan, məktəb riyaziyyat kursunda əldə olunan biliklərə daha çox əsaslanan məsələlərin həlli xüsusi əhəmiyyət kəsb edir. Belə məsələlərdə məntiqi mühakimə yürütmə bacarıqları, öz bilik və bacarıqlarını yaradıcı olaraq tətbiq etmə və həmçinin fərasət, intuisiya, cəsarət kimi qabiliyyətlər inkişaf etdirilmiş olur.

Müəllim riyaziyyatın öyrənilməsi prosesində məsələ həllinin yerinə yetirilməsi zamanı şagirdin zehni əməyinin, yaradıcılığının, ixtiralarının nəticələrinin, əldə etdiyi qalibiyyətlərin sevincini yaşamaq hüququndan məhrum etməməlidir. Öyrənmə prosesi o zaman effektli olar ki, şagirdlər müxtəlif çətinlikli məsələlərlə tez-tez rastlaşsınlar, bu çətinlikləri dəf etdikcə onların əqli fəaliyyəti daha da inkişaf etmiş olur. D. Poyanın fikrincə: «Məsələ həlli şagirdlərdən xüsusi zəhmət tələb edə bilər, lakin bu məsələni həll etmək üçün şagirdin bazası olmalıdır, ən yaxşı motiv isə məsələnin həll edilməsinə oyanan maraqdır. Bu səbəbdən daha maraqlı məsələ seçməyə və onları cəlbedici etməyə səy göstərməliyik… . »

Beləliklə, riyaziyyatın öyrədilməsi metodikasında ən mühüm cəhətlərdən biri məsələnin həlli zamanı şagirdlərin bilik və bacarıqlarının formalaşdırılmasıdır. Məsələnin şərhi şagirdlərin yeni anlayışlarla tanışlığını, məntiqi düşüncələrinin inkişafını, fənlərarası əlaqələrin formalaşmasını təmin edir. Məsələlər insan həyatında rast gəlinən hadisələrin izahını riyazi biliklərin tətbiqi ilə anlamağa şərait yaradır. Məsələ həllinin mərhələləri əqli fəaliyyətin inkişafının formalaşmasına kömək edir. Məsələ həllinin yerinə yetirilməsində üç əsas üsuldan istifadə edilir: hesabi, cəbri və qarışıq üsul. Bu üsulların hər birini ayrı-ayrılıqda nəzərdən keçirək:

**I. Hesabi üsul**. Məsələ həllinin hesabi üsulla yerinə yetirilməsinin ilkin mərhələsində məsələnin şərti araşdırılır və onun həlli planlaşdırılır. Məsələnin həllinin bu mərhələsi əqli fəaliyyətin maksimum tətbiqi ilə müşaiyət olunur.

İkinci mərhələdə tərtib edilmiş plana əsasən məsələ həll edilir. Həllin bu mərhələsi şagirdlər tərəfindən asanlıqla yerinə yetirilir və əksər hallarda bu bir məşq xarakteri daşıyır.

Məsələ həllinin növbəti mərhələsi həllin doğruluğunun yoxlanılmasıdır. Cavabın yoxlanılması məsələnin şərtinə əsasən icra edilir. Burada nəzərə çatdırmaq lazımdır ki, məsələnin həllinin istiqamətlərinin yoxlamasının onun cavabının yoxlanması ilə əvəz edilməsi şagirdlərin məntiqi düşüncəsinin inkişafı prosesində məsələnin həllinin rolunu azaldır.

Məsələnin hesabi üsulla yerinə yetirilməsi zamanı bir sıra bilik və bacarıqlar formalaşdırılır. Onlardan bəziləri məsələ həllinin cəbri üsulla yerinə yetiriməsi zamanı da əldə edilmiş olur.

Hesabi üsulun tətbiqi ilə şagirdlər məsələnin şərtinin qısa yazılışını verməyi öyrənir, şərtə uyğun şəkil və ya sxem çəkir, düşüncənin məntiqi istiqamətlərinə: müşahidə və müqayisə, təhlil və sintez, konkretləşdirmə və təsəvvüretmə, ümumiləşdirmə və məhdudlaşdırma, induktiv və deduktiv mühakimə, analogiyaya uyğun olaraq mühakimə etmə bacarıqlarına yiylənirlər. Hesabi üsul zamanı şagirdlər kəmiyyətlər (ədədlər) üzərində hesab əməllərini, kəmiyyətlərin (ədədlərin) bir neçə dəfə dəyişməsini, onların müqayisəsini yerinə yetirirlər. Bu üsulla komponentlərin dəyişməsinin nəticənin necə dəyişməsinə təsiri öyrənilir, kəmiyyətin (ədədin) hər hansı hissəsinin tapılması, hissəsinə görə kəmiyyətin və ya ədədin tapılması icra edilir. Verilmiş kəmiyyətin faizinin tapılması, faizinə görə kəmiyyətin qiymətinin tapılması, tənasübün qurulmasını, düz və tərs mütənasiblik anlayışlarının izahı hesabi üsul zamanı daha aydın icra edilir. Hərəkət məsələləri, məsafənin, sürət və zamanın tapılması məsələləri, ərintinin, mayenin konsentrasiyasının təyininə aid məsələlər, gəlirin, ziyanın hesablanması məsələləri şagirdlərin yaradıcılıq fəaliyyətinin inkişafında böyük rol oynayır.

Məsələnin hesabi üsulla həlli prosesində formalaşan bilik və bacarıqları iki qrupa bölmək olar: birinci qrupa riyaziyyatın öyrənilməsinin sonrakı mərhələsində lazım olan bilik və bacarıqları aid etmək olar. Bunlar təqvim vaxtı üzərində hesab əməllərinin yerinə yetirilməsi, əvvəlki hadisənin, sonrakı hadisənin vaxtının müəyyən edilməsi, iki hadisənin baş verməsi arasındakı vaxtın müəyyən edilməsidir. Bu qrupa daxil olan məsələlərin həlli zamanı hər hansı cəbri hesablamaya ehtiyac olmur.

İkinci qrupa daxil olan bilik və bacarıqlar olmadan da hər hansı məsələnin həllini cəbri üsulla yerinə yetirmək mümkün olur və onları bilməmək şagirdlərin riyazi təlimində heç bir problem yaratmır. Buraya daxil olan bilik və bacarıqlara aşağıdakıları aid etmək olar: «hissə» anlayışının daxil edilməsi, hissələrin toplanması və ya çıxılması, hissənin ədədə vurulması və ya bölünməsi, böyük ədədlə kiçiyin və ya kiçik ədədlə böyüyün eyniləşdirilməsi, hissəsinə görə ədədin tapılması, kəmiyyətlərin hissələrinin müqayisəsi, toplanması və çıxılması, məsələnin həllinin ehtimal edilməklə yerinə yetirilməsi, məsələnin həllinin planlaşdırılması və s. Bu bilik və bacarıqlar şübhəsiz ki, şagirdlərdə maraq yaradır. Lakin onların demək olar ki, hamısı şagirdlərdə standart olmayan məsələlərin həlli zamanı istifadə edilən bilik və bacarıqları formalaşdırır.

**II. Cəbri üsul**. Cəbri üsul dedikdə, məsələnin həllində naməlum kəmiyyətin qiymətinin məsələnin şərtinə uyğun qurulmuş tənlik və ya tənliklər sisteminin, bərabərsizlik və ya bərabərsizliklər sisteminin həlli edilməsi ilə tapılması nəzərdə tutulur. Bəzən məsələnin cəbri üsulla həlli çətinlik yaradır.

Məsələnin cəbri üsulla həlli zamanı şagirdin əqli fəaliyyəti əsasən məsələnin həllinin birinci mərhələsində diqqət mərkəzində olur: məsələnin şərti araşdırılır və şərtə uyğun tənlik və ya bərabərsizlik qurulur. İkinci mərhələ tərtib olunmuş tənlik və ya bərabərsizliyin həlli vacib hesab edilir. Üçüncü mərhələ isə həll edilmiş məsələnin cavabının doğruluğunun şərtə uyğun olaraq yoxlanılması ilə davam etdirilir.

Məsələnin cəbri üsulla həlli zamanı şagirdlərdə bir çox bilik və bacarıqlar formalaşdırılmış olur. Onlardan bəzilərini diqqətinizə çatdıraq: bir, iki və ya üçdən çox məchulun daxil edilməsi, məchulların toplanması, çıxılması, vurulması və bölünməsi, kəmiyyətlər arasındakı asılılığın hərf və ədədlərlə verilməsi, xətti tənliklərin, bərabərsizliklərin həlli, kvadrat tənliklərin, kvadrat bərabərsizliklərin həlli, tənliklər və bərabərsizliklər sisteminin həlli, ikidəyişənli tənliyin və ya

bərabərsizliyin qurulması və həlli, məsələnin şərtinə uyğun ədədin seçmə yolu ilə təyin edilməsi, araşdırma məsələləri və s.

Bu gün məktəb riyaziyyat proqramına ali riyaziyyatın elementlərinin də daxil edilməsi, hesablama texnikasının inkişafı ilə əlaqədar olaraq müasir şagird elə bilik və bacarıqlara yiyələnməlidir ki, bu bilik və bacarıqlar onun riyazi təliminin sonrakı inkişafında müəyyən rol oynamış olsun. Bu bilik və bacarıqlar riyaziyyatda əsasən məsələlərin cəbri üsulla həlli zamanı formalaşmış olur.

**III. Qarışıq üsul**. Məsələnin həllində əvvəlki iki üsulun tətbiqi qarışıq üsul adlanır. Yəni, məsələnin bir hissəsi şərtə uyğun olaraq qurulmuş tənlik, tənliklər sistemi və ya bərabərsizik, bərabərsizliklər sistemi vasitəsilə yerinə yetirilir, müəyyən hissə isə hesabi üsulunun tətbiq edilməsi ilə davam etdirilir. Bu halda məsələnin həlli əhəmiyyətli dərəcədə sadələşdirilmiş olur.

Məsələ həlli zamanı şagirdlərin bir neçə sadə və ümumi tövsiyyəyə əməl etməsi məqsədəuyğun hesab edilir. Onlardan bir neçəsi diqqətinizə çatdırılır:

**1**. Məsələnin şərtini səthi deyil, diqqətlə oxuyub mənimsəməyin vacib olduğunu şagirdin diqqətinə çatdırmaq əsasdır. Şərtdə verilənləri müxtəlif üsullarla: şərtə uyğun şəkil çəkməklə, cədvəl, qrafik qurmaqla, məsələnin şərtini qısa, izahlı şəkildə yazılışını verməklə daha yaxşı mənimsəmək mümkündür.

**2**. Məsələnin şərtində verilmiş məchul kəmiyyətin düzgün müəyyən edilməsi başlıca istiqamətlərdəndir. Məsələn, hərəkətə aid məsələlərdə bu məchul adətən sürət, vaxt və ya məsafədir. «İş»ə aid məsələlərdə məhsuldarlıq məchul kimi qəbul edilir və s. Məchulların və qurulan tənliklərin sayının birdən çox olmasından narahat olmaq lazım deyil. Əsas odur ki, qurulan tənlik və ya bərabərsizliklər məsələnin şərtinə uyğun qurulmuş olsun.

**3**. Məsələnin həllinin «riyazi model»inin qurulması şagirdlərin riyazi təfəkkürünün inkişafında böyük rol oynayır. «Riyazi model»in qurulması zamanı şagird məsələnin şərtini diqqətlə oxumalıdır, belə ki, məsələnin modelindəki hər bir fikir, qəbul edilən məchul, bu məhculun üzərində qurulan riyazi ifadə, onlar üzərindəki riyazi əməllər məsələnin şərhinə uyğun olmalıdır.

Məsələnin şərhinə uyğun qurulan tənlik və ya bərabərsizliklərin doğru olması ilə yanaşı onların həllinin də düzgün yerinə yetirilməsi vacibdir. Əgər nəticə düzgün alınmırsa, məsələnin şərtini və ona qurulan yazılışları bir daha təhlil etmək lazımdır. Təhlil zamanı qurulan yazılışların doğru olması müəyyən olunarsa və mürəkkəb ifadələr alınırsa, digər məchul və ya məshullar qəbul edilməlidir (əgər mümkünsə), ola bilər ki, bu halda daha sadə ifadə əldə etmək olar.

**4**. Mürəkkəb məsələlərin həll edilməsi yaradıcı prosesdir. Bəzən dəfələrlə məsələnin şərhinin əvvəlinə qayıtmaq, alınan nəticələri təhlil etmək lazım gəlir. Məsələnin həlli zamanı qısa yazılışları cədvəl, şəkil və ya sxem vasitəsilə həyata keçirmək olar. Belə hallarda cədvəl daha universal vasitə hesab edilir. Lakin bu heç də o demək deyil ki, şəkil, qrafik və ya sxem daha az əhəmiyyətə malikdir.

Məsələni həll edərkən onun tipinə uyğun olaraq qarşıya çıxan müxtəlif suallara cavab verməklə həll üçün daha düzgün istiqamət seçmək mümkündür. Bu suallar şagirdin düşüncə fəaliyyətini inkişaf etdirmiş olur.

a) Məsələnin şərhində hansı prosesdən danışılır? Bu proses hansı kəmiyyətlərlə xarakterizə olunur? (məsələnin şərhinə uyğun qurulacaq cədvəlin sütunlarının sayı kəmiyyətlərin sayına uyğun olur).

b) Məsələdə neçə proses şərh edilmişdir? (psoseslərin sayı cədvəldəki sətirlərin sayına uyğun olur).

c) Hansı kəmiyyətlər məlumdur? Nəyi tapmaq tələb olunur? (Cədvəl verilənlərlə tamamlanır, məchul kəmiyyətin yerində «?», «-» və digər naməlumluğu bildirən işarə qoyulur.

ç) Məsələdəki kəmiyyətlər bir-biri ilə necə əlaqəlidir? (kəmiyyətlər arasındakı əlaqəni göstərən düstur və ya ifadələr cədvəldə uyğun yerdə yazılır).

d) Hansı kəmiyyətin və ya kəmiyyətlərin məchul olaraq qəbul edilməsi daha əlverişlidir? (daxil edilən məchullar cədvəldə yerləşdirilir).

e) Məsələnin şərhinə uyğun qurulan model hansı şərti ödəməlidir? («riyazi model» qurulur).

ə) Alınan modeli həll etmək asandırmı? (əgər çətindirsə, yeni dəyişənlər daxil etmək və kəmiyyətlər arasında olan digər münasibətləri istifadə etmək lazımdır).

***Məsələ həllinə nümunə:***

**Məsələ**. İki şəhər arasındakı məsafəni sürət qatarı yük qatarına nəzərən 4 saat, sərnişin qatarına nəzərən isə 1 saat tez qət edir. Yük qatarının sürəti sərnişin qatarının sürətinin $\frac{5}{8}$-ni təşkil edir, sürət qatarının sürətindən isə 50 km/saat azdır. Yük və sürət qatarlarının sürətini təyin edin.

***Həlli:*** Məsələnin həlli üçün tövsiyyə olunan suallara cavab verərək cədvəl qurulur və tamamlanır:

**1**. Məsələnin şərhində hərəkət haqqında danışılır. Burada 3 kəmiyyət: sürət, vaxt, məsafə istifadə olunduğuna cədvəl 3 sütundan ibarət olar:

**2**. Məsələdə 3 proses icra olunur: sürət, yük və sərnişin qatarlarının sürəti. Deməli, cədvəldə 3 sətir olar.

| **Kəmiyyət** / **Proses** | **Məsafə (km)** | **Sürət (km/saat)** | **Vaxt (saat)** |
|---|---|---|---|
| **Sürət qatarı** | | | |
| **Sərnişin qatarı** | | | |
| **Yük qatarı** | | | |

**3**. Cədvəl şərtə uyğun olaraq qurulur və tamamlanır.

**4**. Məchul kəmiyyətləri daxil edilir: yük qatarının sürəti - $x$, km/saat , yük qatarının hərəkətə sərf etdiyi vaxt- $t$, saat.

**5**. «Model» qurulur: $(x+50)y = \frac{8}{5}x(y+1)$ və $\frac{8}{5}x(y+1) = x(y+4)$.

**6**. $\begin{cases} (x+50)y = \frac{8}{5}x(y+1), \\ \frac{8}{5}x(y+1) = x(y+4). \end{cases}$ tənliklər sistemi həll edilərək $x$ və $y$ kəmiyyətlərinin qiyməti təyin edilir.

Beləliklə, məsələnin şərtinə uyğun qurulan cədvəl aşağıdakı kimi tamamlanır:

| Kəmiyyət<br>Proses | Məsafə (km) | Sürət (km/saat) | Vaxt (saat) |
|---|---|---|---|
| Sürət qatarı | $(x + 50)\cdot y$ | $x + 50$ ? | $y$ |
| Sərnişin qatarı | $\frac{8}{5}x\cdot(y + 1)$ | $\frac{8}{5}x$ | $y + 1$ |
| Yük qatarı | $x(y + 4)$ | $x$ ? | $y + 4$ |

Şərtə görə qatarlar eyni məsafəni qət edirlər. Onda aşağıdakı tənliklər sistemindən nəticə alınır:

$\begin{cases} (x+50)y = \frac{8}{5}x(y+1), \\ \frac{8}{5}x(y+1) = x(y+4). \end{cases}$ Şərtə görə $x>0$, $y>0$, onda $\begin{cases} 5(x+50)y = 8x(y+1), \\ 8(y+1) = 5(y+4). \end{cases} \Rightarrow \begin{cases} x = 50, \\ y = 4. \end{cases}$

alınır.

Beləliklə, yük qatarının sürəti 50 km/saat, sürət qatarının sürəti 50 + 50 = 100 (km/saat) olar.

***Məsələnin şərtinə görə yoxlama:***

**Yük qatarı**: 50 km/saat – yük qatarının sürəti, 4 + 4 = 8 (saat) – yük qatarının hərəkətə sərf etdiyi vaxtdır. 50 · 8 = 400 (km) – yük qatarının qət etdiyi məsafədir.

**Sərnişin qatarı:** $50 \cdot \frac{8}{5} = 80$ (km/saat) – sərnişin qatarının sürəti, 4 + 1 = 5 (saat) – sərnişin qatarının hərəkətə sərf etdiyi vaxtdır. 80 · 5 = 400 (km) – sərnişin qatarının qət etdiyi məsafədir.

**Sürət qatarı:** 50 + 50 = 100 (km/saat) – sürət qatarının sürəti, 4 saat – sürət qatarının hərəkətə sərf etdiyi vaxtdır. 100 · 4 = 400 (km) – sürət qatarının qət etdiyi məsafədir.

Qatarların eyni məsafə qət etdiyi əsaslandırıldı. Deməli, məsələ düzgün həll edilib.

***Cavab***: 50 km/saat, 100 km/saat.

Riyaziyyatda məsələ həllinin yerinə yetirilməsi bir tərəfdən əldə olunan bilik və bacarıqların praktik olaraq möhkəmləndirilməsinə gətirib çıxarır, digər tərəfdən şagirdlərin məntiqi düşüncəsini formalaşdırır, inkişaf etdirir, onların əqli fəaliyyətinin aktivləşdirirlməsi müşahidə olunur. İşin düzgün təşkili şagirdlərin fəaliyyətini, müşahidə bacarığını, ixtiraçılıq qabiliyyətini inkişaf etdirir, mücərrəd düşüncə bacarığı formalaşır, şagirdlər nəzəriyyədə əldə olunan bilik və bacarıqları konkret məsələlərin həllinə tətbiq etmək imkanı əldə etmiş olur.

**Məqalənin elmi yeniliyi**: Orta məktəb riyaziyyat kursunda standart və ya qeyri-standart şəkildə verilən məsələlərin həlli şagirdlər tərəfindən müəyyən qədər çətin qavranılır və onların bu istiqamətdə yaradıcı fəaliyyət göstərməsi labüd olur. Bu məqalədə məsələ həllinin öyrənilməsində qarşıya çıxan çətinlikləri dəf etməyə kömək edən bəzi tövsiyyələr verilib və həllin istiqamətləri müəyyən qədər sistemləşdirilib. Məqalədə məsələnin şərhinə uyğun modelin qurulması, tənlik tərtibi üçün istifadə olunan hesabi, cəbri və qarışıq üsullar araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti**: Məsələ həllinin şagirdlərin fəaliyyətinin inkişafında rolu araşdırılmış, lazımi tövsiyyələr verilmişdir.

## ƏDƏBİYYAT

1. Д. Поя. Как решать задачу. Москва, 1959.
2. Mordkoviç A.Q. Nikolayev N.P. Riyaziyyat: VIII sinif üçün dərslik. M.: Mnemozina, 2012.
3. Şneperman L.B. «Riyaziyyat» IX sinif üçün dərslik. Minsk: Narodnaya asveta, 2014.
4. S.İsmayılov, A.Hüseynova. Riyaziyyat: VI sinif üçün dərslik. Bakı: Şərq-qərb, 2013.
5. S.İsmayılov. Riyaziyyat: VII sinif üçün dərslik. Bakı: Şərq-qərb, 2014.
6.http://knowledge.allbest.ru/pedagogics/2c0b65635b3ac78b4c43b88521216c37_0.html.

**С. Исмайлова**

## СОСТАВЛЕНИЕ УРАВНЕНИЙ ПО УСЛОВИЮ ЗАДАЧИ В ШКОЛЬНОМ КУРСЕ МАТЕМАТИКИ

## РЕЗЮМЕ

В школьном курсе математики решение стандартных и нестандартных задач вызывает некоторые трудности у учеников. В статье даны некоторые рекомендации для преодоления трудностей, возникающих при изучении решений задач и в некотором уровне систематизированы аспекты решения. Исследованы арифметический, алгебраический и комбинированный метод создания моделей, составление уравнений по условию задач.

**S. Ismaylova**

## DRAWING EQUATIONS ON THE CONDITION OF THE PROBLEM IN SCHOOL MATHEMATIC COURSE

**SUMMARY**

In school mathematic course causes some difficulties for students solution of standard and non-standard problems and they inevitably reveal the creative activity in this direction. In this article we give some suggestions for overcoming the difficulties encountered in the study of the solutions of problems and in some level of systematized aspects of the decision. The article explores the arithmetic, algebraic and combined method of creating models, drawing equations on the conditions of the problem.

# BİOLOGİYANIN TƏDRİSİNDƏ KLASTER METODLARININ TƏTBİQİ

**Xudaşükür Əliyev,**
*biologiya üzrə fəlsəfə doktoru,*
*AMİ-nin Cəlilabad filialının kafedra müdiri*
E-mail: xudasukuraliyev@mail.ru

**Rəyçilər:** *prof.* R. Sultanov**,**
*dos.* H. Hacıyeva

***Açar sözlər**: klaster, metod, motivasiya, orqan, çiçəkli bitki*
***Ключевые слова:** кластер, метод, мотивация, орган, цветовое растение*
***Key words:** cluster, methods, motivation, organ, flowers plants*

Fənlərin, o cümlədən biologiyanın tədrisində fəal təlim metodlarının tətbiqi artıq ənənəyə çevrilmişdir. Fəal təlim metodları ilə dərslərin təşkili biliklərin şagirdlər tərəfindən müstəqil əldə olunmasına, tədqiqat yolu ilə problemin həllinə əsaslanır.

Müəllim tədris prosesində biliyi ötürən rolu ilə yanaşı şagirdlərin müstəqil bilik əldə etməsini istiqamətlənən bələdçi (fasilitator) rolunu həyata keçirir. Şagirdlər passiv seyrçi rolunu dəyişərək fəal "tədqiqatçı" olaraq axtarışlara qoşulur. Müəllim problemin həllinə şagirdləri təklikdə, cütlərlə, qruplar halında və ya kollektiv olaraq cəlb edir. Problem şagirdlərə tam aydınlığı ilə iş vərəqləri üzrə çatdırılır. İş vərəqlərində tədqiq olunacaq problem tam, aydın şəkildə qeyd olunur, tapşırıqların mərhələləri, lazımı şəkillər, mənbələr göstərilir, şagirdlərə problemin həllinə kömək edən, onu aydınlaşdıran məsələlər üzrə istiqamətverici təhlil, müzakirə, ümumiləşdirmə, sxemləşdirmə əməliyyatlarına dair məsləhətlər verilir. İş vərəqlərində verilmiş problemi şagirdlər həll edir, nəticələri ümumiləşdirir. Hər bir qrup aldığı nəticələri təqdim edir. Qrupların nəticələri arasında əlaqə yaradılır, ümumi bir nəticə çıxarılır. Şagirdlərin fəaliyyəti təhlil edilir, qiymətləndirilir.

Belə dərslərdə motivasiya yaradılaraq şagirdlərin dərketmə marağının mövzuya cəlb olunmasının əhəmiyyəti böyükdür. Motivasiyanın köməyi ilə tədqiqat sualı müəyyən edilir və ona cavab tapılması dərsin əsas vəzifəsi olur. Onun digər mərhələləri tədqiqat sualının cavablandırılmasına yönəlir. Mövzunun tədrisində klaster metodu tətbiq etdikdə mövzunun xüsusiyyətləri nəzərə alınır. Metodun tətbiqi qaydalarını yaxşı bilən müəllim onun əsasında şagirdlərin fəaliyyətini istiqamətləndirir.

Biologiyanın tədrisində BIBÖ, Venn dioqramı, insert, klaster, təlim xarakterli oyunlar, anlayışın çıxarılması, müşahidə, müzakirə, esse, layihələr kimi müasir metodların tətbiqi təlimin keyfiyyətnə müsbət təsir göstərir. Biologiyanın məzmun xətləri üzrə əsas və alt standartların reallaşdırılmasında daha çox tətbiq olunan metodlardan biri klaster metodudur. Klaster metodundan dərsin tədqiqatın aparılması, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə kimi mərhələlərində tətbiq edilir. Lakin ondan motivasiya mərhələsində istifadə edilməsi daha böyük əhəmiyyət kəsb edir.

***Klaster metodu*** təlimdə geniş istifadə olunan fəal təlim metodlarından biridir. "Klaster" sözü ingilis sözü olub "şaxələndirmə" kimi tərcümə olunur. Bu metodla işləməyin əsas məqsədi şagirdləri fəallaşdırmaq, mövzu ətrafında biliklərin yada salınmasına nail olmaq, diqqətini yeni mövzuya yönəltməkdir. Bəhslərarası, mövzulararası, fənlərarası əlaqələrin yaradılmasına da imkan yaradılır.

Klaster metodu həyata keçirilərkən mövzuya dair bir aparıcı termin lövhədə yazılır. Şagirdlər həmin sözlə bağlı fikirləri deyir və izah olunmadan lövhəyə şaxəli şəkildə yazırlar. Yazılan sözlər "açar" sözlə əlaqəli olmalıdır.

Klaster metodu dərsin birinci: düşünməyə yönəltmə və ikinci düşünmə mərhələsində istifadə oluna bilər, digər mərhələlərdə də tətbiqi yaxşı nəticə verir. Klaster və yaxud şaxələndirmə metodunun tətbiqində əsas məqsəd şagirdləri mövzu haqqında açıq və sərbəst düşünməyə sövq etməkdir.

Üsulun istifadəsi zamanı müəllim şagirdlərə mövzu verir. Həmin mövzuya dair şagirdlər öz fikirlərini söyləyirlər. Mərkəzdə əsas mövzü, kənarlara doğru sözlər yazılır. Yazılan sözlər növbəti firkin yaranmasına şərait yaratmalıdır.

Klasterdən istifadə fərdi, cütlərdə, böyük və kiçik qruplarda aparıla bilər. Metodu həyata keçirərkən mövzunun şagirdlərə tanış olması, obyekt haqqında məlumatlılığı əsas şərtlərdəndir. Klaster (şaxələndirmə) metodunun tərbiqində əsas məqsəd şagirdləri mövzu ətrafında açıq və sərbəst düşünməyə sövq etmək, verilmiş əsas anlayışa aid şagirdləri bacardıqları qədər söz assosiasiyaları tapmağa və ideyalar arasında əlaqələr barədə düşünməyə istiqamətləndirmək, mövzu barəsindəki əvvəlki təcrübələrini nəzərdən keçirmək, yeni assosiasiyaları stimullaşdırmaq, bilikləri sistemləşdirmək və əhatə dairəsini genişləndirməklə lüğət ehtiyatını zənginləşdirməklə hazırcavablığa yiyələndirməkdir.

Metoddan istifadə edilərkən aşağıdakı əməliyyatlar həyata keçirilir. Müqayisə olunacaq obyekt müəyyənləşdirilir. Mərkəzi anlayışı, kağızın və ya lövhənin ortasına yazıb şagirdlərə təlimat verilir. Öyrənilən mövzu ilə bağlı başlıca söz lövhədə yazılır, şaxələndirmə aparılır. Qeyd edilir ki, anlayış ilə bağlı ağlına gələn söz və ya ifadələri söyləsinlər. Mərkəzi sözün söylənilən sözlərlə əlaqəsi xətlərlə birləşdirilir və nəticəsində "hörümçək toru" na oxşar qrafik şəklini alır. Vaxt bitənə qədər mümkün qədər çox fakir, söz yazılır və əlaqələndirilir. Vaxt bitəndən sonra alınan klaster müzakirə edilir və ümumiləşdirmə aparılır. Bu metod əsasən obyekt və hadisənin əlamətlərinin, xassələrinin, digər obyektlərlə əlaqələrinin öyrədilməsində tətbiq edilir. Metodun tətbiqində mövzunun şagirdlərə tanış olması, obyekt haqqında məlumatlılığı əsas şərtləndəndir.

Biologiya fənn kurikulumunun məzmun standartlarına uyğun olaraq canlıların quruluşu və müxtəlifliyini əsaslandıran mövzuların klaster metodu ilə tədrisi imkanları genişdir. Belə ki, bitkinin, heyvanın, insanın xarici və daxili quruluşunun klasterin şaxələrinə hissələrin adlarının şagirdlər tərəfindən düşünülüb tapılması onların fəallığını artırır. Canlının qurluşuna və müxtəlifliyinə dair mövzuların tədrisində klasterdən motivasiya mərhələsində, tədqiqatın aparılması və ya ümumiləşdirmə və nəticə, yaradıcı tətbiqetmə mərhələlərində istifadə edilməsi məqsədəuyğundur.

Altıncı sinifdə adı çəkilən məzmun standartlarının reallaşdırılmasına xidmət edən mövzular çoxdur. Bunlardan biri "Çiçəkli bitkilərin əsas orqanları" mövzusudur. Şagirdlərin bitki orqanları haqqında müəyyən məlumata malik olduğunu bilərək motivasiya mərhələsində çiçəkli bitkilərin orqanlarını klaster metodu ilə yada salır. Lövhədə çiçəkli bitkilərin orqanlarının şəkilləri göstərilir. Onlar haqqında şagirdlərə suallar verilir:

- Bu şəkilləri necə adlandıra bilərik?
- Onlar bitkinin hansı hissəsində yerləşir?
- Şəkilləri ümumiləşdirən onların hansı xüsusiyyətləridir?

Tədqiqat sualı: Çiçəkli bitkilərin orqanları hansı xüsusiyyətlərə malikdir?

Tədqiqatın aparılması mərhələsində müəllim şagirdləri qrupa bölür. Onlara iş vərəqləri üzrə tapşırıq verir. Birinci qrupa bitkinin vegatativ orqanlarının quruluşunu, ikinci qrupa generativ orqanlarının quruluşunu, üçüncü qrupa bitki orqanlarının əhəmiyyətini, dördüncü qrupa bitki orqanlarının funksiyalarının klaster üzrə sxemləşdirməyi tapşırır. Şagirdlər tədqiqatı bitki orqanlarının lövhədə müşahidə edərək aparırlar. Qruplar işlərinin nəticələrini təqdim edirlər.

SXEM 1.

I Qrup




SXEM 2.

II Qrup




SXEM 3.

III Qrup




Üzvi maddələr Suyu Qazlar mübərkidir onda həll olmuş tumurcuqları saxlayır arasında hazırlayır buxarlan- badiləsi mineral maddələri əlaqə yaradır. Budaq və yarpaq- dırır. gedir, sorur, gövdəyə ötürür. Qida maddələrini ları işığa çıxarır toplayır

SXEM 4.




Qruplar bitki orqanlarını ayrı-ayrılıqda sxemləşdirirlər. Nəticə və ümumiləşdirmə mərhələsində qruplar sxemlərini birləşdirirlər və "Çiçəkli bitkilərin əsas orqanları" adlı ümumi sxemi (sxem 4.) alırlar. Klaster metodu ilə kiçik sxemlər (sxem 1,2,3) əsasında sonda ümumi sxemin işlənməsi şagirdlərdə bitki orqanları arasında əlaqələrin olduğunu dərk etməsinə şərait yaranır. Onlar bitki orqanlarının quruluşunu funksiyası ilə, funksiyalarını isə bir-biri ilə əlaqədə yerinə yetirdikləri fikrinə gəlirlər. Yaradıcı tətbiqetmə mərhələsində şagirdlərə "Çiçəkli bitkilərin orqanları" sxeminin (sxem 4.) tamamlanması tapşırılır.

Klaster metodu bir neçə variantda həyata keçirilir. Ondan şagirdlərin tanış olmadığı obyektlərin öyrədilməsində motivasiyanın yaradılması məqsədilə tətbiq edilməsi daha faydalıdır. Problemin həllinin axtarılması, ümumləşdirmə mərhələsində tətbiqi də yüksək nəticə verir. Klaster metodunun tətbiqi şagirdlərin də marağına səbəb olur, onların fəallığını təmin edir, təlimin keyfiyyətini yüksəldir.

**Problemin aktuallığı.** *Klaster metodu* təlimdə geniş istifadə olunan fəal təlim metodlarından biridir. "Klaster" sözü ingilis sözü olub "şaxələndirmə" kimi tərcümə olunur. Bu metodla işləməyin əsas məqsədi şagirdləri fəallaşdırmaq, mövzu ətrafında biliklərin yada salınmasına nail olmaq, diqqətini yeni mövzuya yönəltməkdir. Bəhslərarası, mövzulararası, fənlərarası əlaqələrin yaradılmasına da imkan yaradılır.

**Problemin elmi əhəmiyyəti.** Klaster metodundan dərsin tədqiqatın aparılması, nəticə və ümumiləşdirmə, yaradıcı tətbiqetmə kimi mərhələlərində tətbiq edilir. Lakin ondan motivasiya mərhələsində istifadə edilməsi daha böyük əhəmiyyət kəsb edir.

**Problemin praktik əhəmiyyəti və tətbiqi.** Klaster metodu bir neçə variantda həyata keçirilir. Ondan şagirdlərin tanış olmadığı obyektlərin öyrədilməsində motivasiyanın yaradılması məqsədilə tətbiq edilməsi daha faydalıdır. Problemin həllinin axtarılması, ümumləşdirmə mərhələsində tətbiqi də yüksək nəticə verir. Klaster metodunun tətbiqi şagirdlərin də marağına səbəb olur, onların fəallığını təmin edir, təlimin keyfiyyətini yüksəldir.

## ƏDƏBİYYAT

1. Seyidli Y., Əhmədbəyli X., Əliyeva N. Biologiya-6. Bakı, 2013.
2. Veysova Z. Fəal/interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007.
3. Ümumtəhsil məktəbləri üçün biologiya fənn kurkulumu. Bakı, 2012.

**Х.Алиев**

**ПРИМЕНЕНИЕ МЕТОДА КЛАСТЕРА В ПРЕПОДАВАНИИ БИОЛОГИИ**

**РЕЗЮМЕ**

Статья посвящена применению метода кластера в преподавании биологии. В ней представляются особенности, возможности применения кластера, являющегося одним из активных методов обучения. Показаны самые эффективные способы применения метода кластера. Для решения проблемы в статье разработаны методические рекомендации, интересные предложения для учителей.

**Kh.Aliyev**

**APPLICATION OF CLUSTER METHOD IN THE TEACHING OF BIOLOGY**

**SUMMARY**

The article was dedicated to the application of cluster method in the teaching of Biology. One of its active learning methods characteristics of a cluster, possibility of application were given there. The most effective ways of application of cluster method were shown. Sample on sixth class on the application of cluster method was given. Methodological recommendations, interesting suggestions on the solution of problem for teachers were used.

# TƏLİM PROSESİNDƏ MÜSTƏQİL İŞ VƏ ONA MÜXTƏLİF YANAŞMALAR

**Rövşən Həsənov,**
*Naxçıvan Dövlət Universitetinin dosenti*
E-mail: h_rovshan 51@ rambler.ru

**Rəyçilər:** *dos.* Y.Yaqubov
*f.e.d.* M. Hacıyev,

**Açar sözlər:** *təlim formaları, müstəqil iş, təsnifat, kredit sistemi, kollokvium*
**Ключевые слова:** *форма обучения, самостоятельная работа, классификация, кредитная система, коллоквиум*
**Key words:** *teaching forms, independent work, classification, credit system , colloqvuium*

Ali məktəbdə müasir həyatın tələblərinə cavab verən mütəxəssis hazırlığı məqsədilə müxtəlif fənlər tədris olunur. Müşahidələr göstərir ki, təkcə mühazirəni dinləməklə, seminar, praktik və laborator məşğələlərdə verilən müxtəlif tapşırıqları məlum qaydalarla icra etməklə, elmə dərindən yiyələnmək mümkün deyildir. Dərin elmi biliyi əldə etmək, praktikada qarşıya çıxacaq məsələləri həll etmək bacarıq və vərdişlərinə malik olmaq üçün, tədris materialı üzərində tələbənin müstəqil olaraq araşdırma aparması, yaradıcılıq fəaliyyəti göstərməsi, məntiqi təfəkkürlə müşayiət olunan elmi axtarışa ciddi şəkildə sövq edilməsi böyük əhəmiyyət daşıyır. Nəticədə tələbələrin müstəqil işinin ali məktəbdə təlim prosesinin vacib komponentinə çevrilməsi zəruri olur.

Müstəqil işin mahiyyəti və təlim prosesindəki mövqeyi ilə bağlı aparılan tədqiqatların nəticələrini əks etdirən çoxlu monoqrafiyalar çap olunmuşdur [3, 6, 7, 8].

Bəs müstəqil işin mahiyyəti nədir ?

Müstəqil işə müxtəlif təriflər və şərhlər verilmişdir [5]:

"A.V. Usova, Y.K. Babanski, L.V. Jarova müstəqil işi təlim metodu kimi izah etmişlər. Q.Ş. Pidkasistiy təlim vasitəsi, V.L. Şatunovski, O.V. Dolyenko təlim fəaliyyətinin formasının və idrak fəaliyyətinin təşkili vasitəsinin sintezi kimi, A.V. Petrovski bilikləri əldə etmə vasitəsi və təlim işinin növü kimi, V.A. Slastenin təlim forması kimi, A. Ayzenberq, Q.N. Serikov özünü təhsilin əsası kimi, biliklərin əldə edilməsi prosesi modelinin elementi kimi, F.Vaynert, L.Korno, D.Şink təlim strategiyaların toplusu kimi və s." şərh etmişlər.

Bir başqa kitabda tələbələrin müstəqil işləri təlimin təşkili forması sayılır. "Müstəqil iş tələbənin bilikləri və imformasiyaları fəal qavramaq, anlamaq, yenidən işləmək, dərinləşdirmək və möhkəmləndirmək məqsədi ilə istifadə olunan təlim formasıdır" [ 4, 259]. Göstərilir ki, tələbələrin müstəqil işlərinin təşkili zamanı əməl olunan əsas prinsiplər aşağıdakılardır: sistemlilik və ardıcıllıq prinsipi; sinergetik yanaşma prinsipi; məzmun, təşkili formalarına, iş üsulları və tərzlərinə görə tərbiyəvi xarakter daşıması prinsipi; vaxtdan düzgün istifadə olunması və yorğunluğa yol verilməməsi prinsipi; tələbə əməyinin elmi təşkili prinsipi; müstəqillik prinsipi.

Müstəqil işin mahiyyətini qısa şəkildə belə də ifadə edirlər [1, 136]. "təlimdə müstəqil iş tələbənin qarşıya qoyulmuş təlim məqsədini dərk edərək (1), müəyyən təhriklə zehni və əməli fəallıq, səy göstərərək (2), zəruri bilikləri və səmərəli yolları seçib tətbiq etməklə (3), bilavasitə kömək olmadan öz gücü ilə yerinə yetirməsində (4), habelə özünə nəzarət və qiymətləndirmədə (5) təzahür edən təlim – idrak fəaliyyətinin təşkili formasıdır" (6).

Pedaqoji ədəbiyyatda müstəqil işlər aşağıdakı məntiqi əsaslara görə təsnif edilir: "müstəqil işin mənbələrinə görə; tələbənin əhatə dairəsinə görə; icra yerinə görə; müstəqil işin funksional cəhətinə görə; zehni fəaliyyətin xarakterinə görə; fəlsəfi – qneseoloji əsasa görə " [1, 137].

İcra yerinə görə əsaslandırılan təsnifat müstəqil işin xarakterini və spektrini daha məzmunlu şəkildə ortaya çıxarır. Belə ki, bu cür əsaslandırmada müstəqil işlər iki qrupa bölünür:

1) auditoriyada müstəqil işlər – mühazirə, seminar və praktik məşğələlərdə tələbələrin mühakimə yürütməsi, plan və icmal tərtibi, çalışmaların icrası və s.;

2) auditoriyadankənar müstəqil işlər – referat, kurs işi, tədris tədqiqat işi, elmi – tədqiqat işi, klub və dərnək işləri, kitabla iş, internetlə iş, özünütəhsil və s. [1, 137].

Tələbələrin müstəqil işlərinin bir istiqaməti də elmi işlərdir. Bu cür işlər

tələbələrin elmi fəaliyyətə sövq edilməsi məqsədini nəzərdə tutur və onların elmi fəaliyyətlə məşğul olmasını reallaşdırır:

a) auditoriya məşğələləri ilə bağlı işlər; belə işlər tələbə tədris – tədqiqat işləri (TTİ) adlanır. Buraya kurs işi (layihəsi), buraxılış (diplom) işi (layihəsi), habelə mühazirə, seminar, laborator və praktik məşğələlərlə, pedaqoji və istehsalat təcrübəsi ilə əlaqədar, habelə xüsusi kurs və seminarlar üzrə tədqiqat xarakterli tapşırıqların icrası və s. daxildir;

b) tədris planından kənar elmi işlər; belə elmi işlər tələbə elmi-tədqiqat işləri (TETİ) şəkilində özünü göstərir. "TETİ-nin müxtəlif formalarını göstərmək olar: tələbə elmi dərnəkləri; elmi klublar; tələbə elmi laboratoriyaları; elmi konfranslar, seminar və simpoziumlar; fənn olimpiadaları; tələbə elmi işlərinin müsabiqəsi; təsərrüfat müqaviləsi üzrə tədqiqat işləri və s. " [1, 139- 140].

Qeyd edək ki, yuxarıda istinad etdiyimiz mənbədə TTİ auditoriya məşğələsi ilə bağlı işlər, TETİ isə auditoriyadankənar elmi işlər kimi qəbul edilir. TTİ-nin də auditoriyadankənar elmi iş olması aydındır. Ona görə də göstərilən şərh anlaşılmazlıq yaradır.

Bir başqa müəllifin kitabında müstəqil iş tədris planı üzrə auditoriyadan-kənar məşğələ növü hesab edilir, [2, 163]. Burada tələbə elmi – tədqiqat işlərinin müstəqil işlərin bir istiqaməti olması ifadə edilmir. "Tələbə elmi – tədqiqat işləri iki qrupa ayrılır: tədris planında nəzərdə tutulan elmi işlər və tədris planında nəzərdə tutulmayan elmi işlər " [2, 157].

Birinci qrup tələbə elmi – tədqiqat işlərinə referatlar, kurs işləri, buraxılış işləri, magistr dissertasiyaları aid edilir. İkinci qrup tələbə elmi işlərində tələbələrin iştirakı formaları aşağıdakı kimi göstərilir: "kafedraların tədqiqat işlərində tələbələrin iştirakı; tələbələrin tərcümə işində iştirakı; tələbələrin auditoriyadankənar vaxtlarda elmi – texniki yaradıcılığı; tələbələrin ayrı – ayrı dərnəklərdə fəaliyyətləri; tələbə elmi dərnəklərdə iştirak; elmi seminarlarda tələbələrin iştirakı; tələbə elmi konfranslarda iştirak; tələbə işlərinə baxışların təşkili və s." [ 2, 360].

Onu da qeyd edək ki, müstəqil işlərin birmənalı müəyyən və şərh edilməməsi, onun geniş spektrinin nəzərə alınmaması nəticəsində tələbələrin biliyinin çoxballı sistemdə qiymətləndirilməsi qaydasında bəzi anlaşılmazlıqlar meydana çıxır.

Azərbaycan Respublikasında ali təhsil sisteminin Bolonya prosesinə qoşulması ilə bağlı olaraq ölkənin əksər ali məktəblərində bütün ixtisaslar üzrə tədrisin təşkili kredit sistemi ilə həyata keçirilir. Azərbaycan Respublikası Təhsil Nazirinin 11.09.2008 tarixli 1060 saylı əmri ilə "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında Əsasnamə" təsdiq olunmuşdur. Əsasnaməyə görə, tələbələrin fənnin öyrənilməsində əldə etdikləri bilik və bacarıqlarının qiymətləndirilməsi çoxballı sistemlə aparılır. "Tələbənin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balların yarısı semestr ərzindəki fəaliyyətə, digər yarısı isə imtahanın nəticələrinə görə toplanılır.

Balların maksimum miqdarı aşağıdakı kimi müəyyənləşdirilir:

- 50 bal imtahanın nəticəsinə görə;
- 10 bal dərslərə davamiyyətə görə;
- 10 bal tələbənin sərbəst işinə görə;
- 20 bal seminar ( məşğələ) və ya laboratoriya dərslərinin nəticələrinə görə;
- 10 bal kurs işinin hazırlanması və müdafiəsinə görə"

Qeyd edək ki, fənn üzrə imtahana qədər toplanılan ballar ayrı – ayrı ali

məktəblərdə müxtəlif sxemlərlə müəyyən edilir. Məsələn, ADPU-da imtahana qədər toplanılan ballar aşağıdakı kimi müəyyən edilir.

- Dərsdə davamiyyətə görə maksimum – 10 bal.
- Tələbələrin müstəqil işinə görə maksimum – 5 bal.

- Seminar məşğələlərində fəallığa görə maksimum – 5 bal.
- Kollokviumların nəticələrinə görə maksimum – 30 bal.

(Əgər fənn üzrə kurs işi nəzərdə tutulubsa, onda kollokviumlara görə maksimum – 20, kurs işinin hazırlanması və müdafiəsinə görə maksimum – 10 bal verilir).

Naxçıvan Dövlət Universiteti, Naxçıvan Müəllimlər İnstitutunda həmin qaydaların müxtəlif modifikasiyaları əsasında imtahana qədərki balların hesablanması həyata keçirilir. Belə ki, üç dəfə keçirilən kollokviumda tələbəyə verilən qiymətlər seminar (praktik məşğələ) və laboratoriya məşğələsində verilən qiymətlərə aid edilir.

"Ali məktəb pedaqogikası" dərsliyində, [4, 359] bu məsələyə aşağıdakı kimi yanaşılır.

" Balların maksimum aşağıdakı kimi müəyyənləşdirilir :

- 50 bal imtahanın nəticəsinə görə;
- 10 bal dərslərə davamiyyətə görə;
- 10 bal mühazirə mətnlərinin tərtibinə görə;
- 20 bal seminar (məşğələ) və ya laboratoriya dərslərinin nəticələrinə görə ;
- 10 bal kurs işlərinin ( layihələrinin ) müdafiəsinə görə "

Qeyd edək ki, yuxarıdakı şərhlərdə bir sıra terminlərin işlədilməsində qeyri – dəqiqliyə yol verilib. Bunun aradan qaldırılması sistemli və anlaşıqlı şəkildə izah üçün vacibdir. Belə ki, yuxarıda yazılan şərhlərdə "dərs" əvəzinə "məşğələ" termini işlədilməlidir. Bu termin alında ali məktəbdə öyrədənlə öyrənənlərin auditoriyada həyata keçirdikləri pedaqoji prosesin təşkili forması nəzərdə tutulur. Məsələ burasındadır ki, dərs orta məktəbdə təlim prosesinin təşkili formasıdır və sinifdə həyata keçirilir.

Ali məktəbdə "Pedaqoji prosesin təşkili formaları tədris planı ilə bağlılıq dərəcəsinə görə iki böyük qrupa ayrılır: tədris planı üzrə məşğələlər və tədris planından kənar iş növləri. Tədris planı üzrə məşğələlər də iki qrupa ayrılır: auditoriya məşğələləri və auditoriyadankənar məşğələlər" [2, 155]. Mühazirə, seminar, praktik məşğələ, laborator məşğələ auditoriya məşğələsinin sadəcə növləridir. Pedaqoji ədəbiyyatda "praktik məşğələ" yerinə "dərs" [2, 155], "praktikum" [4, 246], "praktik iş" [1, 130] terminləri işlədilmişdir.

Məlumdur ki, təlim formaları məqsəd və vəzifəsinə görə üç qrupa bölünür , [1, 125]: 1) nəzəri məşğələ formaları; 2) praktik məşğələ formaları; 3) nəzarət formaları.

Praktik məşğələ formasına aid olan məşğələ növlərindən biri praktik məşğələdir. Eyni bir termininin iki anlamda işlədilməsindən yarana biləcək qarışıqlığı aradan qaldırmaq məqsədi ilə praktik məşğələ növünü dərs, praktikum, praktik iş adlandırmaq lazım deyildir. Elmi – pedaqoji ədəbiyyatda analoji situasiyaya rast gəlinmə halları mövcuddur. Bu zaman terminin mahiyyəti şərhin kontekstindən aydın olur.

Qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində kredit sistemi ilə tədrisin təşkili qaydaları" adlı sənədlə praktik məşğələyə göstərdiyimiz qaydada yanaşılır.

Lüğətdə göstərilir ki, [10, 547] kollokvium biliyi yoxlamaq məqsədilə tələbə ilə edilən söhbətdir. Onda kollokvium əsasında qiymətləndirmənin necə aparılması aydın olmur. Eləcə də, seminar (praktik məşğələ) və kollokviumda qiymətləndirmənin fərqli cəhətlərini görmək çətinləşir. Bununla bərabər, müstəqil iş (Təhsil Nazirinin əmrində sərbəst iş yazılıb) çox oriyentasiyalı olduğundan tələbənin müstəqil işinin balla qiymətləndirilməsi qeyri – müəyyəndir. Tələbə məsələ həll edirsə, mühazirədə tapşırılmış işi icra edirsə, referat və kurs işi yazırsa, o, müstəqil işi yerinə yetirir. Praktik məşğələdə tələbənin məsələ həll etməsi, kurs işinin yazılması müstəqil işlərdir. Kurs işinə, praktik məşğələyə görə məxsusi bal verilirsə, onda hansı müstəqil işə ayrıca bal verilir ?

Fikrimizcə, fənn üzrə imtahana qədərki balların maksimum miqdarının aşağıdakı kimi müəyyənləşdirilməsi məqsədəuyğundur :

- 10 bal tələbənin məşğələlərə davamiyyətinə görə ;
- 10 bal mühazirə mətnlərinin tərtibinə görə ;

- 30 bal kollokviumların (tələbənin seminar (praktik məşğələ) və ya laboratoriya məşğələsindəki qiymətlərini əsas götürməklə) nəticələrinə görə. (Əgər fənn üzrə kurs işi nəzərdə tutulubsa, onda kollokviumlara görə maksimum – 20, kurs işinin hazırlanması və müdafiəsinə görə maksimum 10 bal verilir).

Tələbə mühazirə mətnlərini tərtib edərkən, müstəqil işi yerinə yetirir. Mühazirə aparan müəllim bütün təklifləri isbat etmir, bəzilərinin isbatının icrasını tələbələrin audiotoriyadan kənarda həyata keçirməsini tapşırır. Belə tapşırıqlar elə seçilməlidir ki, onları icra etmək üçün tələbələrin bilikləri kifayət olsun və onları isbatı həyata keçirməyə yönəldə bilsin. Qeyd etmək lazımdır ki, dərslik və dərs vəsaitlərində belə müstəqil icra olunma ilə əlaqədar tapşırıqlar mövcud olur. Həmin tapşırıqlar "təklifin (teorem, xassə, düstur) isbatı oxucuya tapşırılır" kimi təqdim olunur. Məsələn, bax: [9, 163]. Tələbələr evdə həmin tapşırıqları yerinə yetirməklə mühazirə mətnini tam şəkildə tərtib edirlər:

Təcrübəmizdə müəyyən edilmişdir ki, mühazirə mətninin tərtibi çox əhəmiyyətli müstəqil işdir. Belə ki, bu, tələbənin bir tərəfdən təkcə mühazirə dinləməklə yox, həm də axtarış – tədqiqat aparmaqla yeni bilikləri mənimsəməsinə şərait yaradır. Digər tərəfdən, mühazirədə verilən informasiyaların dərindən və şüurlu surətdə mənimsənilməsinə zəmanəti və nəzarəti artırır.

Kollokviumların nəticələrinə görə verilən ballar söhbət (sual-cavab) aparılması ilə müəyyənləşdirilir. Belə ki, tələbə 3 dəfə (kurs işi olduqda 2 dəfə) praktik məşğələ (seminar) və ya laboratoriya məşğələsindən kollokviumda iştirak edir. Praktik məşğələ (seminar) və ya laborator məşğələlərdə əldə etdikləri aylıq (və ya yarımaylıq) ballar ilə kifayətlənmədikdə, aparılan kollokviumda (söhbətdə) tələbələrin biliyi yoxlanılır və həmin ballar saxlanılır və ya artırılır. Beləliklə, kollokviumun nəticələri, hər bir kollokvium üçün maksimum 10 bal olmaqla, müəyyən edilir.

Müstəqil iş haqqında isə belə hesab edirik ki, onun geniş spektrli olması ona fərqli münasibətlərin və baxışların yaranmasına gətirib çıxarmışdır. Auditoriyadankənar yerinə yetirilən müstəqil işlər (mühazirə mətninin tərtibi, referat, kurs işi, buraxılış işi və s.) təlim forması kimi təzahür edir.

Auditoriyada icra olunan bəzi müstəqil işlər (mühazirə və digər məşğələlərdə tələbələrin mühakimə yürütməsi, praktik məşğələlərdə çalışmaların icra edilməsi və s.) təlim fəaliyyəti növü kimi üzə çıxır.

Bir sıra hallarda, xüsusilə fəal təlim texnologiyaları tətbiq edildikdə, müstəqil iş təlim metodu kimi auditoriya məşğələsinin əsas komponentinə çevrilir və onu auditoriyada həyata keçirilən təlim formasından ayrı təsəvvür etmək olmur.

## ƏDƏBİYYAT

1. İsmixanov M.A., Bəxtiyarova R.Ə. Ali məktəb pedaqogikası: Mühazirə kursu. Bakı, 2010.
2. Kazımov N. Ali məktəb pedaqogikası. Bakı: Çıraq, 2011.
3. Mahmudova R. Ali məktəbdə tələbə müstəqil işinin imkanları və yolları. Bakı: Çaşıoğlu, 2005.
4. Rüstəmov F.A., Dadaşova T.Y. Ali məktəb pedaqogikası. Magistratura pilləsi üçün dərslik, Bakı: Nurlan, 2007.
5. Zeynalova N.E. Tələbələrin müstəqil işlərinə verilən pedaqoji tələblər // Pedaqoji Universitet Xəbərləri, Bakı, 2013, № 2
6. Анисимова О.С. Формирование у студентов способности к саморазвитию. Алма-Ата, 1989.
7. Васильева Э.К. Самостоятельная работа студентов. Л.: ЛГУ, 1989.
8. Вергасов В.М. Активизация познавательной веятельности студентов в высшей школе. Киев: Выша школа, 1985.
9. Куликов Л.Я. Алгебра и теория чисел: Учеб.пособие для педагогических институтов. М: Высшая школа, 1979.
10. А.А.Оруджева. Русско-Азербайджанский словарь, том 1, Баку: Элм, 1971.

**Р. Гасанов**

## САМОСТОЯТЕЛЬНАЯ РАБОТА В ПРОЦЕССЕ ОБУЧЕНИЯ И РАЗЛИЧНЫЕ К НЕМУ ПОДХОДЫ

### РЕЗЮМЕ

В данной статье изложены различные подходы к сущности самостоятельной работы в педагогической литературе и выражено отношение к ним. Была представлена схема классификации, показывающая отношение между самостоятельными работами, которые играют важную роль в процессе обучения.

**R. Hasanov**

## INDEPENDENT WORK IN TEACHING PROCESS AND DIFFERENT APPROACHES TO IT

### SUMMARY

This work deals with the statement of different views on the essnce of independent work in pedagogical literature and the attitude towards them has been commented on. The schematic classification has benn given showing the relations between undependent works which play an important role in teaching process.

# ORTA MƏKTƏBİN RİYAZİYYAT DƏRSLİKLƏRİNDƏ FAİZ ANLAYIŞININ TƏDRİSİNƏ DAİR

**Mübariz Əsədov,**
E-mail: mubariz.esedov.66@ mail.ru.

**Rəyçi:** *prof.* S. Həmidov,
*dos.* N. Abbasov

***Açar sözlər:*** *faiz, faizə aid məsələlər, faiz nisbəti, kəmiyyətlərin dəyişməsi, faizinə görə ədədin tapılması*

***Ключевые слова:*** *процент, задачи на проценты, процентное отношение, изменение величин, нахождение числа по его процентам*

***Key words:*** *persent, tasks of persent, persentages changes in the magnitude, finding the number on his persentade*

Faiz anlayışı insanların ixtisasından və peşəsindən asılı olmayaraq gündəlik həyatımızda geniş istifadə olunan anlayışlardan biridir. Bu anlayış haqqında ilkin olaraq orta məktəbin 5-ci sinfinin riyaziyyat kursunda məlumat verilir. Fizika, kimya, biologiya, coğrafiya və s. fənlərində faizlə əlaqədar kifayət qədər məsələlər həll olunur. Hətta bəzi nəzəri və praktik materialın öyrənilməsində faizə aid məsələlərdən istifadə olunur. Faiz anlayışı ədədin hissəsi anlayışı ilə sıx bağlıdır və bu anlayışın adı çəkilməsə də ibtidai siniflərin riyaziyyat dərsliklərində proqrama əsasən hazırlıq mərhələləri keçirilir. Hər hansı bir anlayışın tədris edilməsi üçün konkret və universal tədris metodu mövcud deyildir. Lakin anlayışın öyrədilməsi üçün ümumi pedaqoji və psixoloji qanunauyğunluqlar mövcuddur. Uzun müddət təkmilləşmiş və dünya təhsil sistemində mövcud müasir təlim metodlarından istifadə təhsilin məzmununa və keyfiyyətinə təsir edən əsas amillərdən biridir. Bununla birlikdə müəllimin tədrisetmə bacarığı daim inkişaf etməlidir və yeni texnologiya üsullarından bəhrələnməlidir.

Azərbaycan Respublikası Ümumtəhsil məktəbləri üçün riyaziyyatdan I-XI siniflər üzrə fənn kurikulumu məzmun standartlarını, fəaliyyət standartlarını, üsullarını və mexanizmlərini, fəndaxili və fənlərarası inteqrasiyanı müəyyənləşdirən və təlim texnologiyaları haqqında istiqamət verən sənəd kimi nəzərdə tutulub. Qeyd olunan sənədə müvafiq bu mövzunun tədrisi ilə əlaqədar məzmun standartları ümumi şəkildə verilmişdir.

Dərslik və onun hazırlanmasına dair tələbatların hansı şəkildə yerinə yetirilməsi həmişə diqqət və maraq doğuran məsələlərdən biridir. Bu mövzunun dərslik və metodik ədəbiyyatda yeri, rolu haqqında bəzi məsələləri nəzərdən keçirək.

Məzmun standartları 1.2.5 - Ədədin hissəsini və faizini tapırıq.

Şagird bacarıqları:

1. Adi kəsr, onluq kəsr və faizin bərabər hissələr ifadə etdiyini modellər üzərində təqdim edir;
2. Adi kəsr və onluq kəsrlərlə ifadə olunmuş hissələri faizlə ifadə edir;
3. Bütövü (tamı) və hissələri, 100% konsepsiyasını başa düşdüyünü modellər üzərində nümayiş etdirir, məsələ həllinə tətbiq edir.

Fəaliyyət: mühakimə yürütmə və isbatetmə, əlaqələndirmə, təqdim etmə [3,157].

Dərslik üçün yazılan metodik vəsait proqramı tam və məzmunlu şəkildə əhatə etməlidir. Dərslikdə verilən məsələlər şagirdlərin yaş və bilik səviyyəsinə uyğun olmalıdır. Hər bir anlayışın daxil edilməsində ümumpedaqoji qanunauyğunluqlar gözlənilməklə aşağıdakı tələblərə əməl olunmalıdır:

- sadədən mürəkkəbə
- asandan çətinə
- məlumdan məchula

Zamandan və məkandan asılı olmayaraq qeyd olunan bu prinsiplər həmişə aktualdır və tədrisin təşkilində nəzərə alınmalıdır. Lakin bunlarla yanaşı məlum anlayışların həddən çox təkrarına və müxtəlif adlar altında verilməsi şagirdlərdə "yoruculuq" əlaməti yaradır. Kurikulum əsasında yazılan riyaziyyat dərsliklərində mövzuların konkret, məzmunun və həcmin bir – birini tamamlaması prinsipinə qismən əməl olunub. Lakin yersiz təkrarlara və eyni bir anlayışın müxtəlif adlar altında verilməsi şagirdlərin riyazi nitqlərinin inkişafına mənfi təsiri qaçılmazdır. Məsələn, Məzmun standartlarında şagird bacarıqları qeyd edilərkən "Kəsr" anlayışı şagirdə metodiki cəhətdən düzgün və didaktik prinsiplər (müyəssərlik prinsipi) gözlənilməklə çatdırılarsa, şagirdlərə onluq kəsr və faiz anlayışlarının izah edilməsində heç bir çətinlik olmaz.

Riyazi anlayış, onun formalaşması, tərifi və tərifə verilən tələblər müəllim üçün aydın olmalıdır. Bu qeyd edilənləri nəzəri olaraq bilməyən müəllim hər hansı anlayış haqqında şagirddə təsəvvür yarada bilməz. Cins və növ anlayışları vasitəsilə adi kəsr, onluq kəsr, faiz anlayışlarını tətbiq etməyi bacaran müəllim bu anlayışları asanlıqla şagirdlərə mənimsədə bilər. Ədədin hissəsini, hissəsinə görə ədədin tapılmasını məntiqi şəkildə mənimsəyən şagird verilmiş ədədin faizini və faizinə görə ədədin tapılmasını öyrənməkdə çətinlik çəkməz.

Tamın (bütövün, yaxud vahidin) bərabər hissələrə bölmə prinsipi gözlənilməklə və bölmə zamanı alınan hissələrin sayına müvafiq qəbul edilən anlayışlar şagirdlərin məntiqi təfəkkürlərini inkişaf etdirir və bu məzmunlu digər məsələlərin həllinə onlarda maraq yaradır. Riyaziyyat təlimində tətbiq olunan əyaniliklərdən (təbii, təsviri, riyazi) istifadə anlayışın formalaşmasında xüsusi yer tutur.

Faizə aid məsələlər bir çox fənlərdə geniş tətbiq olunur və bunlar məsələlərin struktur və məzmununa görə müxtəlif üsullarla həll olunur. Bu geniş bir sahədir və bu məqalədə bu məsələləri tam əhatə etmək mümkün deyil. Müəllim üçün metodik vəsaitdə qeyd olunur:

"Faiz konsepsiyasını izah etməyin ən səmərəli yolu modellərdən istifadə etməkdir. Faiz ədədin yüzdə birini göstərir. Şagird başa düşür ki, faiz ədədin 100 bərabər hissəsindən müəyyən hissəni ifadə edir" [3,157].

Sual olunur: Faiz "konsepsiyası" nədir? Bunu şagirdə necə izah etmək olar?

Faiz 100 bərabər hissəyə bölünmüş tamın (bütövün) müəyyən bir hissəsini göstərir. Vahid anlayışın neçə konsepsiyası-seçimi ola bilər? Bu anlayış konkret müəyyən olduğundan burada əlavə sözün işlənməsinə ehtiyac yoxdur. Hər bir fənnin, o cümlədən riyaziyyatın özünəməxsus dili və terminləri var. Bunları təhrif etmək olmaz. Düzbucaqlı, dairə və ya digər münasib həndəsi fiqurları vasitəsilə faiz anlayışının şagirdlərə öyrədilməsi daha məqsədə müvafiqdir. Ənənəvi riyaziyyat dərsliklərində faiz anlayışı haqqında əsas məlumatlar 5-ci və 6-cı siniflərdə verilirdi. 5-ci sinifdə faiz anlayışının mənimsənilməsi üçün əvvəlcə vacib olan aşağıdakı anlayışlar uyğun saatlarla daxil edilmişdir.

1. Düstur - 2 saat
2. Dördbucaqlı, düzbucaqlı, kvadrat və onların perimetrləri -2 saat
3. Sahə, Düzbucaqlı və kvadratın sahəsi -3 saat
4. Sahə vahidləri - 2 saat
5. Yoxlama yazı işi - 1 saat

Sahə və onun ölçülməsi mövzularını bilmədən faiz anlayışını şagirdlərin öyrənməsi metodiki baxımdan mümkün deyil. 5-ci sinifdə faiz, ədədin faizinin tapılması mövzularının öyrənilməsinə cəmi 3 saat vaxt ayrılmışdır.

Hissə və adi kəsr anlayışı, onluq kəsr, onluq kəsrlər üzərində əməllər öyrənildikdən sonra proqrama uyğun perimetr anlayışı daxil edildikdən sonra faiz, ədədin faizinin tapılması mövzularının öyrənilməsi nəzərdə tutulub. Qeyd olunan mövzuların şagirdlər tərəfindən mənimsənilməsi, onların riyazi bilik və bacarıqlarının formalaşması üçün dərslikdə verilən nəzəri məlumatlarla yanaşı həll olunmuş məsələlərin verilməsi müsbət hal kimi qiymətləndirilə bilər. Doğrudur, dərslikdə təklif olunan məsələlərin heç də hamısı şagirdlərin məntiqi təfəkkürlərinin hərtərəfli inkişafına tam cavab verməsə də buna qismən nail olmaq mümkün idi. 6-cı sinfin ənənəvi

riyaziyyat proqramında və dərsliyində riyaziyyat fənninin strukturuna uyğun yenidən aşağıdakı mövzular müvafiq saatlarla daxil edilmişdir:

1. Ədədin faizinin tapılması - 2 saat
2. Faizinə görə ədədin tapılması - 2 saat
3. İki ədədin faiz nisbəti - 2 saat
4. Kəmiyyətlərin dəyişməsinin faizlə ifadəsi - 2 saat
5. Sadə faiz artımının düsturu - 2 saat
6. Mürəkkəb faiz artımının düsturu - 2 saat

Beləliklə, ənənəvi 6-cı sinif riyaziyyat dərsliyində faiz anlayışının öyrənilməsinə cəmi 12 saat vaxt ayrılmışdır. İndi kurikulum əsasında yazılan riyaziyyat proqramı və dərsliklərində faiz anlayışının daxil edilməsi ardıcıllığını nəzərdən keçirək. Riyaziyyat- 5 dərsliyində

1. Perimetr
2. Kvadrat və düzbucaqlının sahəsi
3. Düzbucaqlı prizmanın (paralelepipedin) həcmi
4. Faiz , faizin adi kəsrlə ifadəsi, adi kəsrin faizlə ifadəsi, faizin onluq kəsrlə ifadəsi, onluq kəsrin faizlə ifadəsi mövzuları göstərilən ardıcıllıqla daxil edilmişdir [2]. Ənənəvi Riyaziyyat-5 və yeni Riyaziyyat-5 dərsliklərində bu mövzunun daxil edilməsində ilkin əsas fərq ondan ibarətdir ki, ənənəvi Riyaziyyat-5 dərsliyində düzbucaqlı paralelepiped, kub və onların həcmi anlayışı faiz anlayışından sonra daxil edilir . Yeni Riyaziyyat - 6 dərsliyində qeyd olunan mövzular isə aşağıdakı ardıcıllıqla verilmişdir.

1. Faiz
2. Faizinə görə ədədin tapılması
3. İki ədədin nisbətinin faizlə ifadəsi (Qeyd: Ənənəvi Riyaziyyat - 6 dərsliyində - İki ədədin faiz nisbəti kimi işlədilir. Sonuncu adla verilmə daha məqsədə müvafiqdir.)
4. Kəmiyyətlərin dəyişməsinin faizlə ifadəsi.
5. Faizə aid məsələlər.

Bu mövzu ilə əlaqədar yeni Riyaziyyat - 6 dərsliyində sadə və mürəkkəb faiz artımının düsturları verilməyib. Lakin bu mövzular yeni Ryaziyyat-7 dərsliyində natural üstlü qüvvət anlayışı verildikdən sonra daxil edilib [5]. Sahə və həcm anlayışları, onların hesablanması Riyaziyyat-5 və Riyaziyyat-6 dərsliklərində verildiyindən bunlar ümumiləşdirərək sadə və mürəkkəb faiz artımı anlayışlarını 6-ci sinifdə vermək olardı. Nəzərə alsaq ki, mövzuların məzmununun açılmasında didaktikanın əsas prinsipləri gözlənilməklə mövzular daxil edilməlidir, onda konkret bu mövzu ilə əlaqədar təklif olunan üsulları qəbul etmək olar. Onda sual olunur. Nə üçün bütün mövzuların daxil edilməsində bu prinsip gözlənilməyib? Məsələn, Riyaziyyat - 6 dərsliyində "Düz xətlə çevrənin qarşılıqlı vəziyyəti" mövzusunda yazılıb: "Çevrəni kəsən düz xəttin çevrənin daxilində qalan hissəsi uc nöqtələri ilə birlikdə vətər adlanır. *AB və MN vətərləri K nöqtəsində kəsişərsə AK·BK=MK·KN".*

Məlumdur ki, düz xətt riyaziyyatın əsas anlayışlarından biridir. Müstəvi üzərində nöqtələrin və düz xətlərin əsas aid olma xassələrindən (aksiomlarından) biri belədir:

*1. Hər hansı düz xəttə aid olan nöqtələr və aid olmayan nöqtələr var.*

Düz xəttin "orta nöqtəsi", "uc nöqtəsi" və s. anlayışlar yoxdur. Olmayan anlayışa necə istinad etmək olar? *Deməli, dərslikdə vətər anlayışına verilən tərif elmi və metodiki baxımdan səhvdir.*

*AB və MN vətərləri K nöqtəsində kəsişərsə AK·BK=MK·KN".* Bu xassəni 6-cı sinif şagirdinə nə cür və hansı məlum anlayışa istinad etməklə izah oluna bilər?

Bəli, faizlə bağlı nəzəri, metodiki məsələlər və ya digər mövzuların dərsliyə daxil edilməsində didaktikanın əsas prinsiplərinə diqqət yetirmək lazımdır.

Yeni Riyaziyyat - 5, 6, 7 dərsliklərində faiz və onunla bağlı məsələlərin öyrənilməsinə cəmi uyğun olaraq 6 saat +9 saat + 4 saat = 19 saat vaxt ayrılmışdır. Ənənəvi Riyaziyyat dərsliklərində bu mövzulara 12 saat, yeni Riyaziyyat dərsliklərində isə 19 saat vaxt ayrılmasına baxmayaraq daxil edilən nəzəri materialın və praktik çalışmaların məzmununda bəzi istisnalar olmaqla əsaslı fərqlər yoxdur. Yeni riyaziyyat dərsliklərində hətta yersiz təkrarlara yol verilib. Hər iki dərslikdə təqdim

olunan məsələlərin məzmununda şagirdlərin yaş və bilik səviyyələri nəzərə alınmayıb. Məsələn, yeni Riyaziyyat - 6 dərsliyində səhifə 191-də verilən 95 saylı məsələni nəzərdən keçirək.

*Məsələ 1.* İçərisində 15 °C temperaturlu 78 l su olan vannaya temperaturu 100 °C olan 2 vedrə qaynar su tökdülər. Vedrənin tutumu 12 l olarsa, vannadakı qarışığın temperaturunu tapın.

Bu mövzu mövcud proqrama uyğun Fizika-8 dərsliyində "Termodinamikanın əsasları" bölməsində nəzərdə tutulub. Bu məsələ sırf fiziki məzmunlu məsələdir və istilik mübadiləsində olan iki cismin son temperaturu

$$T=\frac{c_1m_1t_1+c_2m_2t_2}{c_1m_1+c_2m_2}$$

İstilik mübadiləsində olan iki eyni maddədən ibarət cisimlərin son temperaturu isə

$$T=\frac{m_1t_1+m_2t_2}{m_1+m_2}$$ düsturları ilə hesablanılır.

8-ci sinif Fizika dərsliyində istifadə üçün tövsiyə olunmuş məsələni nəzərdən keçirək:

*Məsələ 2.* 20 °C temperaturlu 12 l su və 50 °C temperaturlu 24 l su ilə qarışdırılmışdır. Qarışığın son temperaturunu təyin edin. [6, 46]

İstilik miqdarı, istilik tutumu və xüsusi istilik miqdarı anlayışlarını bilməyən şagirdə bu mövzu ilə əlaqədar 6-cı siniflə hansı fənlərarası inteqrasiyadan məlumat vermək olar. Doğrudur, fiziki məzmunlu məsələləri həll edərkən bəzi məsələlər mücərrədləşdirilərək riyazi üsullarla həll etmək olur. Lakin, bu tip məsələlərin 6-cı sinifdə qeyd olunan üsulla həlli elmi və metodiki baxımdan düzgün deyi. Bu baxımdan müəllim üçün metodik vəsaitdə riyaziyyat-6 da yuxarıda qeyd olunan *məsələ 1.*-in həllinə dair heç bir metodik göstəriş verilməmişdir. Metodik vəsait adlanan [4] vəsaitdə bəzi məsələlərin həlli verilib. Məsələlərin həllinin verilməsi həmin vəsaitin metodik vəsait olması demək deyil. Dərslik haqqında metodiki vəsaitə qoyulan tələblərə tam əməl olunmadığı üçün xüsusilə gənc müəllimlərin pedaqoji fəaliyyətində müəyyən problemlərin mövcudluğu qaçılmazdır.

Dərslikdə olan məsələlər bəzən proqramı əhatə etmir. Bu səbəbdən Tələbə Qəbulu Üzrə Dövlət Komissiyasının illik nəticələrinin təhlili də dərsliklərdə olan bəzi elmi və metodiki nöqsanların mövcudluğunu təsdiqləyir.

*Məsələ 3.* Sinifdə "5"-lə oxuyan şagirdlərin faizi (3,5% , 4% ) aralığında olarsa, sinifdə ən azı neçə şagird ola bilər? [8, 133]

Bu məsələ faizlə əlaqədar olsa da, şagirdlərin riyazi və məntiqi təfəkkür səviyyələrini müəyyənləşdirən ehtimala aid məsələdir. Dərslik və metodiki ədəbiyyatlarda bu məzmunda məsələlər demək olar ki, yox dərəcədədir. Məsələni şərti və təhlili analiz edilərkən bəzi riyazi və məntiqi anlayışlara istinad olunmalıdır. Məlumdur ki, məsələnin həlli zamanı kəmiyyətlərin verilmiş qiymətlərinə və onlar arasında sözlərlə ifadə olunan asılılıqlara əsasən məlum olmayan kəmiyyətin ədədi qiyməti hesablanılır. Qeyd olunan asılılıq bu məsələdə açıq şəkildə verilməyib. Məsələnin şərtini analiz etdikdə aşağıdakı hallar nəzərə alınmalıdır:

1. Sinifdə əla oxuyan şagird var və məntiqi olaraq onun sayı ən azı bir nəfərdir.
2. Əla oxuyan şagirdlərin sayının ümumi şagirdlərin sayına nisbətinin faizlə ifadəsi 3,5% -dən çox, 4%-dən az olduğu məlumdur.

Bu hallar şagirdlər tərəfindən mənimsənildikdən sonra onların mühakimə yürütmə və alınan fikirlərin təhlil olunmasına cəhd göstərmələri məsələnin qismən həll olmasına şərait yaradır.

Müəllim "ən azı", "ən çoxu", "hamısı" sözlərinin hansı hallarda işlədilməsi haqqında şagirdlərin fikirlərini dinlədikdən sonra, bəzi məsələlərə özü aydınlıq gətirməlidir. Çünki, məzmun xətləri arasında inteqrasiya bəzi hallarda açıq şəkildə verilmədiyindən bəzi şagirdlər burada çətinlik çəkirlər. "Ən azı", "ən çoxu", "hamısı" sözlərinin faizlə əlaqələndirilməsi məsələdə verilənlərin və axtarılanların təhlil olunmasına, məsələnin həllinə şüurlu şəkildə yanaşılmasına şərait yaradır. Şagirdlərə qeyd olunan anlayışları izah etdikdən sonra faizlə bağlı bu tip məsələlərin həllində çətinlik hiss etməyəcəklər.

Məsələnin təhlili və həlli aşağıdakı mühakimə əsasında icra oluna bilər:

- Şagirdlərin ümumi sayını ifadə edən ən kiçik natural ədəd yeganədir və bu ədədin ən kiçik natural ədəd olması məsələnin şərtində “Sinifdə əla oxuyan şagidlərin faizi (3,5% , 4% ) aralığında olması” ilə verilib.

-Şagirdlərin ümumi sayının ən az olması üçün əla oxuyan şagirdlərin sayının faizlə ifadəsi 3,5% -dən çox, 4%-dən az olmaqla bir şagird olmalıdır.

- Fərz edək ki, əla oxuyan şagirdlərin sayı bütün şagirdlərin ümumi sayının 4 % -ni təşkil edir. Onda 4%-i 1 olan ədəd 25-dir. Bu ola bilməz. Çünki, əla oxuyan şagirdlərin sayının faizlə ifadəsi 3,5% -dən çox, 4%-dən azdır.

- Əla oxuyan şagirdlərin sayının 4%-dən az olması üçün şagirdlərin ümumi sayının 25-dən çox olmalıdır.

25-dən böyük ən kiçik natural ədəd isə 26-dır. Yəni sinifdə ən azı 26 şagird olmalıdır. Məsələnin şərtində axtarılan kəmiyyətin natural olmayan ədədlə verilməsi şərti olarsa, bu məsələnin həllinin yeganəliyi ödənilməyəcək.

Göstərilən nümunələri təhlil edərək belə nəticəyə gəlmək olar ki, faizlə bağlı məsələlərin həllinə yalnız 5-ci və 6-cı siniflərin dərsliklərində yox, hətta 10 və 11-ci siniflərdə də baxmaq məqsədə müvafiqdir. Faizə aid müxtəlif tip məsələlərin həlli yollarının araşdırılması və fənlərarası inteqrasiyanın təşkil edilməsi konkret məsələlər üzərində həyata keçirilməlidir. Bura sırf fiziki məzmunlu, kimyaya, coğrafiyaya aid riyazi yolla həll olunan məsələlər daxildir.

## ƏDƏBİYYAT

1. M. C. Mərdanov. Riyaziyyat - 6: Dərslik, Bakı, 2007.
2. N. Qəhrəmanova. Riyaziyyat - 5: Dərslik, Bakı, 2012.
3. N. Qəhrəmanova. Riyaziyyat - 5: Müəllim üçün metodik vəsait, Bakı, 2012.
3. S. İsmayılova. Riyaziyyat - 6: Dərslik, Bakı, 2013.
4. S. İsmayılova. Riyaziyyat -6: Müəllim üçün metodik vəsait, Bakı, 2013.
5. S. İsmayılova. Riyaziyyat - 7: Dərslik, Bakı, 2014.
6. M. Murquzov. Fizika-8. İş dəftəri. Bakı, 2011.
7. S. Rüstəmov. Fizika: Abituriyentlər üçün vəsait. Bakı, 2009.
8. Abituriyent, 2013, № 1

**М. Асадов**

## О ПРЕПОДАВАНИИ ПОНЯТИЯ ПРОЦЕНТА В УЧЕБНИКАХ ПО МАТЕМАТИКЕ

### РЕЗЮМЕ

Данная статья посвящена обучению понятию процента и его постановке в учебниках по математике в средней школы. Разбивка часов по данной теме, а также методика ее изучения были анализированы и в старых, и в новых учебниках. При изучении этой темы учтены интеграции между предметами.

**M. Asadov**

## ABOUT PERCENT ANALYSIS IN THE MATHEMATICS TEXT-BOOK AT THE SECONDARY SCHOOL

### SUMMARY

This article about the percent item and his teaching method which was included the mathematics textbooks of the secondary school. The oliwision of the time for this task and the teaching ways analysised in tradicional and new textbooks. The process from it was carefully looked for the including time

# RİYAZİYYAT VƏ FİZİKA DƏRSLƏRİNDƏ ŞAGİRDLƏRİN İDRAK FƏALLIĞININ ARTIRILMASINDA OYUNLARIN ROLU

**Mətanət Sultanova,**
*Avropa Azərbaycan məktəbinin riyaziyyat müəllimi*
E-mail: s_metanet@rambler.ru
**Cəmalə Balaqadaşova,**
*Avropa Azərbaycan Məktəbinin fizika müəllimi*
E-mail: cemale@mail.ru

**Rəyçi:** *p.f.d.* A. Nəbiyev,

***Açar sözlər:*** *idrak fəallığı, oyunlar, tədqiqat, tədris prosesi, riyaziyyatın tədrisi*
***Ключевые слова:*** *познавательная деятельность, игры, исследования, учебный процесс, преподавание математики*
***Key words:*** *cognitive activity, games, research, teaching process, mathematics teaching*

Müasir dövr təhsilin qarşısında daha məsuliyyətli vəzifələr, yeni məqsədlər qoyur. Daim yeniləşən və Avropaya inteqrasiya olunan Azərbaycan məkanında məktəbdə keçilən fənlərin tədrisinə də yeni münasibət tələb olunur. Məlumat bolluğu, informasiya texnologiyalarının inkişafı, fənn proqramlarının müasirləşməsi ortaya bir sual çıxarır: uşaqların bu həcmdə informasiyanı yadda saxlaması, anlaması, lazım olduqda istifadə etməsi bacarığını formalaşdırmaq üçün müəllim hansı imkanlara malikdir?

Dərslərin müntəzəm olaraq eyni ənənəvi ssenari üzrə aparılması (ev tapşırıqlarının yoxlanılması, sorğu, yeni mövzunun izahı, möhkəmləndirilməsi və nəhayət ev tapşırıqlarının verilməsi) şagirdlərin dərsə marağının azalmasına, onların diqqətinin yayınmasına gətirib çıxarır. Buna görə də, fənn müəllimlərini daim bir məsələ düşündürür: dərsi necə qurmalı ki, hər bir şagird üçün maraqlı olsun, hamı öyrənmə prosesinə qoşulsun və sinifdə bir nəfər də olsa tədris prosesindən kənar qalmasın. Buna interaktiv təlim metodlarından istifadə etməklə nail olmaq olar. Bildiyimiz kimi interaktiv təlimdə təfəkkürün inkişafı, biliklərin müstəqil əldə olunması və yaradıcı tətbiqi, ətrafdakılarla əməkdaşlıq, daim dəyişən şəraitə uyğunlaşma bacarıqları əsas amillər kimi nəzərdə tutulur.

Şagirdlərin dərsdə idrak fəallığını artırmaq, onlarda fənnə maraq yaratmaq üçün təlimdə oyunlardan istifadə etmək olar. Dərsdə oyunlardan istifadə tədris prosesini maraqlı və cəlbedici etməklə, həm də şagirdlərdə ruh yüksəkliyi yaradır, onların tədris materialını öyrənməyə marağını artırır. Oyunlar zamanı uşaqlarda fikrini cəmləmə, öyrənməyə can atma artıq vərdişə çevrilir, uşaqlar oyuna aludə olaraq daha maraqla öyrənirlər. Təbii oyun mühitində şagirdlərin utancaqlığı aradan qalxır, hər bir şagird üçün təşəbbüs göstərməyə, sərbəst olmağa, uğur qazanmağa əlverişli imkan yaranır.

Oyunların şagird şəxsiyyətinin inkişafında formalaşdırdığı aşağıdakı psixi nailiyyətləri qeyd etmək olar:

- kommunikativlik,
- özünütəsdiq,
- müxtəlif çətinlikləri dəf etmə,
- diaqnostika (davranışlardakı normadan sapmaları aşkara çıxarmaq).

Lakin oyunları sadəcə əyləncə hesab etmək olmaz. Oyunlar təlim və tərbiyə vasitəsidir. Onların dəqiq qurulmuş strukturu, gözlənilən nəticələrə xidmət edən dəqiq müəyyən olunmuş məqsədləri olmalıdır. Tədris prosesində oyunlardan istifadə edərkən, müəyyən qaydalara əməl etmək lazımdır:

- oyunların keçirilmə qaydaları sadə olmalı və dəqiq fomalaşdırılmalıdır,
- çalışmaq lazımdır ki, şagirdlərin hər biri oyunlarda fəal iştirak etsin,

• oyun zamanı komandalar yarışırsa, şəffaflığın təmin olunması üçün, yarışın keçirilməsinə nəzarət və nəticələrin qeydiyyatı ya bütün sinif, ya da seçilmiş şagirdlər qrupu tərəfindən aparılmalıdır,

• hər bir oyun bir dərs müddətinə yekunlaşmalı və nəticələr elan olunmalıdır. Bu məqalədə oxucuları bir neçə oyun, onların aparılma qaydası, həmin oyunların 7-ci sinif riyaziyyat və fizika dərslərində tətbiqinə aid nümunələrlə tanış edəcəyik.

“ Kələm yarpaği ”

Müəllim qabaqcadan hazırladığı sualları vərəqə yazır. Vərəqlər “əzilərək” kələm formasında bükülür. Müəllim “kələmi” şagirdlərdən birinə təqdim edir. Sagird “kələmin”ın üst qabığını açır, oradakı sualı oxuyur və cavablandırır. Sonra “kələm” yoldaşlarından birinə atılır və oyun suallar qurtarana (kələm soyulana) qədər davam edir. Sualı cavablandıra bilməyən şagird “pas” deyərək “kələmi” yoldaşına ötürə bilər.

| Cəbr fənnindən “Birdəyişənli tənliklər” mövzusuna aid sual nümunələri: | | Fizika fənnindən “Atmosfer təzyiqi” mövzusuna aid sual nümunələri: | |
|---|---|---|---|
| **1** | Hansı tənliklərə eynigьclь tənliklər deyilir? | **1** | Atmosfer nədir? |
| **2** | 3 · x = 0 və x + 7 = 7 tənlikləri eynigьclьdьrmь? | **2** | Atmosfer təzyiqi ilk dəfə kim tərəfindən ölçülmüşdür? |
| **3** | (x+5) · (x-3) = 0 tənliyinin kökləri cəmi neçədir? | **3** | Atmosfer təzyiqi hansı vahidlərlə ifadə olunur? |
| **4** | x-in hansэ qiymətlərində $|x| = x$ bərabərliyi doprudur? | **4** | Atmosfer təzyiqini ölçən cihaz necə adlanır? |
| **5** | a və b-nin hansэ qiymətlərində ax=b tənliyinin həlli yoxdur? | **5** | Normal atmosfer təzyiqi nəyə deyilir? |
| **6** | a və b-nin hansэ qiymətlərində ax=b tənliyinin yeganə həlli var? | **6** | Havanэn sэxlэpэ hьndьrlьkdən necə asэlэdэr? |
| **7** | x-in hansэ qiymətləri $|x| = -x$ tənliyinin kцkьdьr? | **7** | Yüksəkliközlçən cihaz necə adlanэr? |

“Domino”

Bu oyunda komandalar yarışır. Müəllim əvvəlcədən düzbucaqlı formasında, ortadan xətlə iki hissəyə ayrılmış “dominolar” hazırlayır. Dominonun sol tərəfində ***sual (məsələ, misal)***, sağ tərəfində isə ***cavab*** yazılır. Belə ki, sual və onun cavabı eyni domino daşında deyil, müxtəlif domino daşlarının sol və sağ tərəflərində verilir. Daşlar bir-birinin ardınca (hər sualın solundan öz cavabı qoyulmaqla) düzülür və axırda dövrə qapanır.

Dövrəni ən tez qapayan komanda qalib gəlir. Bu oyunu iki və ya daha çox komanda ilə aparmaq olar. Komandalara eyni sayda domino daşı və tapşırığı yerinə yetirmək üçün eyni qədər vaxt verilir. Oyunun səmərəli alınması üçün domino daşlarının sayı komanda üzvlərinin sayından asılı olaraq artırıla bilər.

Bu oyunu müxtəlif fənlər üçün tətbiq etmək olar. Məsələn, fizikada dominonun sağ tərəfində məsələ, düstur, sual, qrafik, sol tərəfində isə onların cavabları yazıla bilər.

Cəbr fənnindən “Funksiyalar” bölməsinə aid hazırlanmış “domino” nümunəsi:






| | | | |
|---|---|---|---|
| ***y=kx+b*** ***(k<0; b>0)*** |  | ***y=kx+b*** ***(k=0; b>0)*** |  |
| ***y=kx+b*** ***(k>0; b>0)*** |  | ***y=kx+b*** ***(k=0; b<0)*** |  |
| ***y=kx+b*** ***(k>0; b=0)*** |  | ***y=kx+b*** ***(k<0; b<0)*** |  |

Fizika fənnindən "Hərəkət və qüvvələr" fəslinə aid nümunə:

| | | | |
|---|---|---|---|
| $\ldots = g\rho_m V_C$ | ***sürtünmə qüvvəsi*** | $\ldots = \mu F_t$ | ***elastiklik qüvvəsi*** |
| $\ldots = -kx$ | ***cismin sıxlığı*** | $\ldots = \frac{m}{V}$ | ***cismin mayedəki çəkisi*** |
| $\ldots = P_0 - g\rho_m V_C$ | ***bərk cismin təzyiqi*** | $\ldots = \frac{F}{S}$ | ***təcil*** |
| $\ldots = \frac{\Delta\upsilon}{t}$ | ***ağırlıq qüvvəsi*** | $\ldots = mg$ | ***Arximed qüvvəsi*** |

" Yaşıllaşan ağac "

Bu oyunda da komandalar yarışır. Sinif bir neçə komandaya bölünür. Müəllim hər komanda üçün eyni səviyyəli, eyni sayda suallar hazırlayır. Lövhəyə komandaların sayı qədər yarpaqsız ağac modelləri asılır və müəllim komandalara müraciət edir:

- Təsəvvür edin ki, qış qurtarır. Günəşin ilıq şüaları hər tərəfi isitməyə başlayır. Payızdan yarpaqları tökülmüş bu ağaclar da canlanmaq, yaşıllaşmaq istəyir. Lakin onun sizin köməyinizə ehtiyacı var.

Komandalara təqdim olunacaq tapşırıqları həll etmək üçün vaxt və hər bir doğru həll üçün "mükafat" olaraq yaşıl yarpaq verilir. Öz ağacına daha çox yarpaq yapışdıran komanda qalib olur.

| "Müxtəsər vurma düsturları" bölməsinə aid tapşırıqlar: | | Fizika fənni üçün tapşırıqlar: | |
|---|---|---|---|
| **1** | $77^2 – 76^2$ ifadəsinin qiymətini hesablayən. | **1** | Cisim 1 dəq ərzində 0,2 km, sonra 2 dəq ərzində 0,7 km yol getmişdir. Cismin orta sürətini hesablayın. |
| **2** | $\frac{53^2 - 23^2}{76}$ ifadəsinin qiymətini hesablayın. | **2** | Aşağıda sadalanan kəmiyyətlərdən hansı vektorial kəmiyyətdir?<br>1.Yol 2.Yerdəyişmə 3.Sürət |
| **3** | ▯ işarəsinin yerinə elə birhədli yazın ki, $(5x^2 - ▯)(5x^2 + ▯) = 25x^4 – 4y^2$ bərabərliyi eynilik olsun. | **3** | Xətkeşlə aparılan ölçmələrin mütləq xətası nə qədərdir?<br> |
| **4** | $(x-1)(x+1)(x^2+1)(x^4+1)(x^8+1) – x^{16}$ ifadəsini sadələşdirin. | **4** | Atom hansı zərrəciklərdən təşkil olunmuşdur? |
| **5** | $(a+5)^2 – (a-3)^2$ fərqini vuruqlara ayırın. | **5** | Yod damcısının suda yayılmasına hansı hadisə səbəbdir? |
| **6** | $a^3+27b^3$ ifadəsini vuruqlara ayırın. | **6** | Mayelərin həcmini hansı cihazla ölçürlər? |
| **7** | ▱ işarələrinin yerinə elə ifadələr yazın ki, $\square\frac{\square}{28 - 7b} = \frac{7 \cdot \square}{\square \cdot (4 - b)} = \frac{b}{\square}$ bərabərlikləri doğru olsun. | **7** | $72\frac{km}{saat}$ -ı $\frac{m}{san}$ ilə ifadə edin. |

"Balıq ovu "

Bu oyun bütün siniflə aparılır. Müəllim əvvəlcədən "akvarium" hazırlayır. Şagirdlər növbə ilə "akvariuma" yaxınlaşıb, kartondan hazırlanmış balıqlardan birini tutur. Hər bir balığın arxa tərəfində mövzu ilə bağlı bir termin (anlayış və s.) yazılır. Şagird mümkün qədər az söz işlətməklə (terminin adını çəkməmək şərti ilə) bu termini təsvir etməli, digər şagirdlər isə söhbət gedən termini tapmalıdırlar. Bu oyun zamanı şagirdlərin həm fikrini az sözlə, konkret və ifadəli izah etmək, həm də diqqətli olmaq, analiz və sintez etmək bacarıq və vərdişləri təkmilləşdirilir.

Riyaziyyat dərsi üçün terminlər, məsələn, bunlar ola bilər: *Üçbucaq, median, tənbölən, hündürlük, bərabəryanlı üçbucaq, bərabərtərəfli üçbucaq, perimetr və s.*

Fizika dərsi üçün bu terminlər ola bilər: *Bərabərsürətli hərəkət, dəyişənsürətli hərəkət, yerdəyişmə, yol, təcil, qüvvə, trayektoriya, maddi nöqtə və s.*

"Kim daha diqqətlidir? "

Bu oyunda şagirdlər fərdi yarışırlar. Adından da göründüyü kimi bu oyun zamanı şagırdlərdə diqqətli olmaq və sürətli işləmək vərdişləri formalaşır.

V və VI siniflərdə əvvəlcədən 1-dən 25-ə qədər ədədlərin ardıcıl olmayaraq yazıldığı bir neçə cədvəl hazırlanır. Şagirdlər iki hissəyə bölünür: iştirakçılar və nəzarətçilər. Eyni vaxtda 3 və ya 4 şagird yarışa bilər. İştirakçılar arxası lövhəyə dayanır, bu zaman cədvəllər lövhəyə asılır və iştirakçılar müəllimin komandası ilə lövhəyə tərəf çevrilərək eyni anda oyuna başlayırlar. Yarışan şagirdlər lövhəyə asılmış cədvəllərdən 1-dən 25-ə qədər ədədləri ardıcıl olaraq tapmalı və üzərindən xətt çəkməlidirlər. (Ədədlərin sayını artırmaq da olar, məsələn, 1-dən 36-ya qədər və ya ədədlərin ardıcıllığını dəyişmək olar, məsələn, 26-dan 50-yə kimi). Nəzarətçilər isə bu prosesə nəzarət edirlər.

Bu işi ən tez bitirən şagird yarışanlar arasında ən diqqətli şagird elan olunur. Sonra iştirakçılarla nəzarətçilər yerlərini dəyişirlər.

Bu oyunun məqsədi şagirdlərdə diqqəti inkişaf etdirməkdir.

Cədvəlləri aşağıdakı nümunələr əsasında hazırlamaq olar.

| | | | | |
|---|---|---|---|---|
| 14 | 3 | 16 | 21 | 10 |
| 5 | 24 | 19 | 7 | 23 |
| 18 | 8 | 1 | 13 | 17 |
| 11 | 22 | 9 | 20 | 25 |
| 2 | 15 | 6 | 4 | 12 |

| | | | | |
|---|---|---|---|---|
| 1 | 16 | 9 | 20 | 6 |
| 23 | 13 | 4 | 2 | 11 |
| 7 | 21 | 25 | 14 | 18 |
| 19 | 15 | 8 | 24 | 3 |
| 12 | 5 | 22 | 17 | 10 |

| | | | | |
|---|---|---|---|---|
| 4 | 21 | 14 | 7 | 25 |
| 23 | 16 | 20 | 19 | 12 |
| 8 | 13 | 1 | 9 | 5 |
| 11 | 3 | 18 | 15 | 24 |
| 17 | 6 | 22 | 10 | 2 |

Tədrisin oyunlar vasitəsilə aparılması fənnə marağı artırır, tədris prosesinə rəngarənglik qatır, yorğunluğu və monotonluğu aradan qaldırır. Yaddan çıxarmayaq ki, müəllim şagirdin inkişafında və özünütəkmilləşdirməsində onun dostu və köməkçisidir!

**Məqalənin aktuallığı.** Orta məktəblərdə təlimin keyfiyyətini artırılmasında müasir təlim texnologiyalarından istifadənin vacibliyi və onun ən optimal üsullarla həyata keçirilməsi üçün səmərəlidir.

**Məqalənin elmi əhəmiyyəti.** Tədris prosesində oyunlardan istifadə müasir təlimin keyfiyyətini artırılmasında innovativ yanaşmadır. Məqalədə təlim prosesində idrak fəallığının artırılması üçün oyunlardan istifadənin elmi əsasları verilmişdir.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədə irəli sürülən müxtəlif oyun təklifləri nümunələr şəklində verilmişdir. Belə nümunələrə baxaraq digər fənləri tədris edən müəllimlər də öz yanaşmalarını edə bilər və ya oyunlardan olduğu kimi istifadə edə bilərlər. Belə oyunlar istənilən yaş səviyyəsi üçün tətbiq oluna bilər.

## ƏDƏBİYYAT

1. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti. Bakı, 2006.
2. Uchitmatematika.ucoz.ru/avatar/didakticheskie_igri.doc
3. Н.Я. Виленкин, В.А. Жохов, А.С. Чесноков, С.И. Щварцбурд. Математика 5. М., 1997.

**М. Султанова, Дж. Балакадашова**

## РОЛЬ ИГР В ПОВЫШЕНИИ ПОЗНАВАТЕЛЬНОЙ АКТИВНОСТИ НА УРОКАХ МАТЕМАТИКИ И ФИЗИКИ

### РЕЗЮМЕ

В статье анализируется возможность использования на уроках игровых ситуаций с целью повышения познавательной деятельности и стимулирования интереса к исследованиям у учащихся, функции, реализуемые в становлении личности и организация игровых ситуаций. Приводятся примеры нескольких игр проводимых на уроках математики и физики для 7-го класса.

**M. Sultanova, J. Balagadashova**

## THE ROLE OF GAMES IN DEVELOPMENT OF COGNITIVE ACTIVITY IN MATHEMATICS AND PHYSICS

### SUMMARY

The opportunities to use games at the lessons in order to involve students in research, to increase the students` cognitive activity, the roles of games in personality development and their organization issues are analyzed in the article. The rules of a few games and examples of their application at math and physics in grade 7 are given.

# DİDAKTİK OYUNLARIN MƏKTƏBƏQƏDƏR YAŞLI UŞAQLARIN RİYAZİYYAT TƏLİMİNDƏ ROLU

**Mətanət Mirzəyeva,**
*Bakı Sosial Pedaqoji Kollecin*
*Tədris işləri üzrə direktor müavini*
E-mail: mirzeyeva-metanet@mail.ru

**Rəyçilər:** *ped. fəls. dok.* L. Cəfərova
*ped. fəls. dok.* T. Sadıqova

***Açar sözlər:*** *didaktik oyun, tərbiyəçi, məntiqi təfəkkür, ölçü, həndəsi fiqurlar*
***Ключевые слова:*** *дидактические игры, воспитатель, логическое мышление, мера, геометрические фигуры*
***Keywords:*** *didactic games, educator, logical thinking, measure, geometrical figures*

Didaktik oyunlar uşağın hiss üzvlərini inkişaf etdirir, əşyaların ayrı-ayrı xassələrini dərk etməyə xidmət edir, başlıca olaraq əqli fəaliyyətin daha mürəkkəb proseslərini, yəni iradi diqqətin, məntiqi təfəkkürün inkişafına və xarakterin tərbiyə olunmasına təsir göstərir.

Didaktik oyun təlim prosesinin daha da asan və əyləncəli keçməsinə səbəb olur. Oyunda qarşıya qoyulmuş bu və ya digər təlim-tərbiyə vəzifələri uşaqları maraqlandıran və onlara müvafiq olan fəaliyyət formasında yerinə yetirilir.

Didaktik oyunun mühüm cəhəti onun məqsədli olmasıdır. Oyunun məqsədi çox vaxt oyunun öz adında ifadə olunur. Məsələn, “Fiqurları yığ” oyununda məqsəd müxtəlif formada fiqurları saymaqdan ibarətdir.

Oyun qaydasının uşaqlar tərəfindən mənimsənilməsi və onların tətbiq edilməsi oyunda müstəqil olmağa, özünə nəzarət və qarşılıqlı nəzarət vərdişlərinin tərbiyə olunmasına təsir edir.

Didaktik oyun təcrübi fəaliyyətdir. Burada uşaqlar məşğələlərdə aldıqları bilikləri tətbiq edirlər. Bu cəhətdən didaktik oyunların rolu böyükdür. Oyun zamanı biliklərin müxtəlif şəkildə tətbiq edilməsi, onların bir-biri ilə uyğunlaşdırılması, əqli fəaliyyətlərin fəallaşması üçün həyati şərait yaradır. Bu zaman uşaqlar səhvlərə də yol verə bilər, çətinliklərə də rast gələrlər. Tərbiyəçi onları düzəltməkdə və aradan qaldırmaqda uşaqlara kömək etməlidir.

Bir çox didaktik oyunlar uşaqlara yeni bilik vermir, lakin uşaqlara biliklərini yeni şəraitdə tətbiq etməyi, əqli fəaliyyətin müxtəlif formalarının təzahürünü tələb edib, əqli vəzifələri yerinə yetirməyi öyrədir. Məsələn, “Fəsilləri öyrən” didaktik oyununda uşaqlardan ilin fəsillərinə görə bu və ya digər hadisələri fərqləndirmək, eyni konkret hadisələri ümumiləşdirmək və yaz, yay, payız, qış kimi ümumiləşdirilmiş anlayışlarla müəyyən etmək tələb olunur.

Oyuna rəhbərlik uşaqların yaşlarından asılı olaraq müxtəlif olur, həm də bu tərbiyəçidən böyük pedaqoji məharət və takt tələb edir, çünki bir sıra tapşırıqları oyunda və oyun vasitəsilə icra edərkən tərbiyəçi oyunu uşaqlara yaxın, onları sevindirən, maraqlı fəaliyyət kimi qurmalıdır.

Tərbiyəçi uşaqlarla aparacağı tərbiyə işini planlaşdırarkən, məşğələdə və eləcə də oyun saatında keçiriləcək didaktik oyunları nəzərdə tutmalıdır.

Proqram məzmununa müvafiq oyunlar seçdikdən sonra, tərbiyəçi bu didaktik oyunlar vasitəsilə nə kimi nəticə əldə edəcəyini dəqiq müəyyənləşdirməlidir.

Kiçik yaşlı uşaqları oyun əməliyyatı cəlb edir, onlarda tormozlaşma oyanmaya nisbətən zəifdir, bilavasitə əyanilik sözə nisbətən qüvvətli təsir edir. Ona görə də oyun qaydasının izah edilməsini əməliyyatın göstərilməsi ilə əlaqələndirmək lazımdır. Əgər oyunda bir neçə qayda varsa, onları eyni zamanda uşaqlara bildirmək məsləhət görülmür. Oyunu elə keçirmək lazımdır ki, o uşaqlarda şən əhval-ruhiyyə və gümrahlıq yaratsın, oynayarkən bir-birinə mane olmadan, tədricən kiçik qruplarla oynamağı və ikilikdə oynamağın daha maraqlı olmasını dərk etməyi öyrətsin. Bu

yaşda didaktik oyunlar ətrafdakı əşyaları formasına, rənginə görə fərqləndirmək və adlandırmağı uşaqlara öyrədir. Onlar ölçü, məkana bələdlik, forma anlayışı haqqında sadə biliklərə yiyələnirlər.

Kiçik qrup uşaqları ilə oyuna tərbiyəçi özü də qoşulmalıdır. Əvvəlcə uşaqlar didaktik vəsaitlərlə oynamağa cəlb edilir (dələ, matryoşka). Tərbiyəçi onları uşaqlarla birlikdə söküb yığmalıdır. Beləliklə, uşaqlarda didaktik materiala maraq və onlarla oynamaq həvəsi oyanır. Məsələn, matryoşkalarla. Matryoşkaları bir-birinin içindən çıxardaraq böyüyündən balacasına doğru düzməyi öyrətməklə uşaqlarda bu oyun vasitəsilə "böyük-kiçik-ən kiçik" anlayışı möhkəmləndirilir.

Oyunun gedişində tərbiyəçi bir iştirakçı kimi müəyyən rolu ifa edir, bununla yanaşı o, oyuna rəhbərliyi də davam etdirir. O, uşaqlara oyun zamanı istifadə edilən əşyaları düzgün yerləşdirməyi öyrədir. Məsələn: sağ əllə götürüb və soldan sağa doğru qoymaq. Əgər söz iki çoxluqdan gedirsə - dovşanlar yolkalar qədərdir, onların sayı bərabərdir,- deyirik. Bəs, oyun üçün bizə nə qədər dovşan və yolka lazımdır?

Orta qrup uşaqlarının kollektiv oyunda təcrübələri olmasına baxmayaraq, tərbiyəçi yenə də didaktik oyunda iştirakçı olur. Tərbiyəçi oyunun rəhbəri və iştirakçısı olmaqla onların diqqətini oyuna cəlb edib, yoldaşlarının hərəkətlərini, sözlərini və s. izləmək, oyunun gedişi ilə maraqlanmaq bacarığını tərbiyə edir. Elə oyunlar seçilir ki, keçmişdə mənimsənilmiş biliklərin yeni biliklərlə əlaqələndirilməsi tələb edilsin. Burada hafizənin, təfəkkürün, təxəyyülün, düşüncənin böyük rolu vardır. Didaktik oyunların məqsədi uşaqların forma, rəng, böyüklük, məkana bələdlik, miqdar və say haqqında təsəvvürlərini nizama salmaq və ümumiləşdirməkdir.

Böyük qrup uşaqlarının əqlinin inkişaf səviyyəsi onlarda əyani hissi təsəvvürlərin, sadə anlayışların, oyun təcrübəsinin mühüm dərəcədə olduğundan bu qrupda şifahi oyunlar və əqli gərginlik tələb edən oyunlardan geniş istifadə olunur. Nadir hallarda əyanilikdən istifadə olunur.

Böyük qrup uşaqlarının kollektiv surətdə qarşılıqlı əlaqələr yaratmaq təcrübəsi göstərmişdir ki, oynayanları qruplara ayırmaq və oyuna yarış elementi daxil etmək mümkündür.

Böyük uşaqlarla ümumi qrup oyunları, kiçik-kiçik qruplarla oyunlar və cüt-cüt uşaqlarla "şaşki" tipli oyunlar keçirilə bilər. Bu yaşda olan uşaqlarda oyunu məzmununa və tipinə görə seçmək marağı yaranır ki, bunlar da uşaqları az və ya çox vaxt dostluq kollektivində birləşdirir.

Uşaqlarda məkana bələdlik anlayışını möhkəmləndirmək məqsədilə "Hara getsən, nə taparsan" oyununu keçmək olar. Əvvəlcədən tərbiyəçi qrupun müxtəlif yerlərinə oyuncaq və ya əşyalar gizlədir. Sonra o, tapşırığı izah edir: "Bu gün siz gizlədilmiş oyuncağı tapmağı öyrənəcəksiniz. O, uşağı çağırıb deyir: Qabağa getsən ayını, arxaya getsən dovşanı taparsan. Bəs sən hara getmək istəyirsən və orada nə taparsan?"

Uşaq istiqamət seçməli, onun adını deməli və həmin istiqamətdə getməlidir. O, oyuncağı tapıb, hansı oyuncağı və haradan tapdığını deyir. Oyun getdikcə mürəkkəbləşdirilir, əgər ilin əvvəli tərbiyəçi ancaq iki istiqamətdən (irəli-geri, sağa-sola) istifadə edirdisə, indi artıq 4-5 istiqamətdən istifadə edərək gizlədilən oyuncaqların da sayını artırır.

Didaktik oyunun dəyəri tərbiyəçinin oyunu düzgün seçməsindən, oyunun məqsədinin və məzmununun tədricən mürəkkəbləşməyindən və məqsədə çatmaq üçün uşaqları düzgün istiqamətləndirməyindən asılıdır.

Didaktik oyunlar - təlim oyunlarıdır. Ona görə də məşğələnin proqram məzmununu nəzərə alaraq diqqətlə oyunu seçmək lazımdır, nəinki tərbiyəçi bildiyi hər hansı oyunu və ya qrupda olan stolüstü çap oyunlarını oynamalıdır.

Təcrübə göstərir ki, bütün yaş qruplarında ay ərzində 16-20 didaktik oyun planlaşdırmaq və müvəffəqiyyətlə keçirmək olar. Əlbəttə ki, didaktik oyunu hər məşğələdə planlaşdırmaq olmaz, ancaq lazım olanda və vaxt imkan verəndə bu mümkündür.

Əsasən təlim ilinin IV rübündə didaktik oyunlara daha çox yer verilir. Bu zaman məşğələ keçirilmir, əsasən təkrar materiallarla uşaqların aldıqları biliklər möhkəmləndirilir. Didaktik oyunları keçirərkən əsas diqqəti bağçaya uzun müddət gəlməyən uşaqlara vermək lazımdır.

Uşaqlar – indinin və gələcəyin yaradıcılarıdırlar. Didaktik oyunlar müxtəlif pedaqoji məsələlərin həllinə oyun formasında daxil olur ki, bu da uşaqlar üçün daha asan və maraqlıdır.

Oyuna tələbat və məktəbəqədər yaşlı uşaqların oyuna olan həvəslərini nəzərə alaraq tərbiyəçi müəyyən tərbiyəvi məsələlərin həllini irəli sürür. Lakin bu məsələlər məktəb müəllimlərinin qarşıya qoyduğu məsələlərdən əhəmiyyətli dərəcədə fərqlənir: bu material uşaqların təxəyyülünün inkişafı üçün şərait yaradaraq, onların ancaq zehni inkişafına deyil, həm də emosional mühitinə təsir edir.

Oyunda uşaq yaşlılara çoxdan məlum olan şeyləri özü üçün kəşf edir. Uşaqlar oynayarkən qarşılarına oyundan başqa heç bir məqsəd qoymurlar.

Məktəbəqədər yaşlı uşaqlar üçün oyun son dərəcə böyük əhəmiyyət daşıyır: oyun onlar üçün təlim, oyun onlar üçün əmək, oyun onlar üçün ciddi tərbiyə növüdür. Oyun uşaqlar üçün ətraf aləmi dərk etmə vasitəsidir.

Oyun o vaxt tərbiyə vasitəsi ola bilər ki, o tamlıqda pedaqoji prosesə qoşulsun. Oyunun təşkili və ona rəhbərlik etməklə tərbiyəçi uşaq şəxsiyyətinin hərtərəfli inkişafına təsir edir: hissə, idraka və bütövlükdə əxlaqına. Oyunda uşaq yeni bilik, bacarıq, vərdişlər əldə edir.

Uşaqlarda sadə riyazi təsəvvürləri formalaşdırmaq üçün aşağıdakı oyunlardan istifadə etmək olar. Məsələn, uşaqları rəqəmlərlə tanış etmək üçün “Gildən rəqəm yap”, “Bu rəqəm nəyə oxşayır” və s. Həndəsi fiqurların təliminə aid, “Tayını tap”, “Hansı fiqur artıqdır”, “Qutuların qapağını tap”, “Kolumb yumurtası”, “Tanqram”, “Həndəsi loto” və s. Məşğələlərdə say çöplərilə də oyunlardan istifadə etmək olar. Məsələn, 7 çöpdən 2 bərabər kvadrat qur.

“Ölçmə” anlayışını uşaqlara öyrədərkən hamımıza məlum olan oyun metodlarından istifadə etmək olar(barmaqlarla ölçmək, addımla, gözəyarı ölçmə və s.)

“Miqdar və say” bölməsində “Ardını say”, “Tülkü və xoruz”, “Ayıları yedirdək”, “Hansı rəqəm buraxılmışdır”, “Qonşu ədədi de” və s.

Böyük və məktəbə hazırlıq qruplarında uşaqlarla məntiqi çalışmalarla oyunlar oynanılır. “Məntiq” yunan sözü olub, mənası “ağlın məharəti”, “düzgün düşünmə haqda elm”, yəni hərfi mənası, məntiq-düşüncə, nitq, ağıl deməkdir. Hər bir valideyn bilməlidir ki, ən uğurlu insanların müvəffəqiyyəti onların təhsilində deyil, həm də düşünmək və təhlil etmək bacarığındadır. Uşaqların məntiqi təfəkkürünün inkişafına o, məktəbə gedənə qədər, yəni məktəbəqədər yaş dövründə başlamaq lazımdır. Məsələn, ”Bu gün gecə saat 12-də yağış yağırdı. Bir neçə gündən sonra bu vaxt günəşli hava ola bilərmi? Qrup otağında altı uşağı əyləşdirmək üçün iki stul çatmırdı. Otaqda neçə stul var idi?”

Didaktik oyunların təşkilində və keçirilməsində tərbiyəçinin qarşısında aşağıdakı məsələlər durur:

1. Məktəbəqədər yaşlı uşaqlarda sadə riyazi fəaliyyətə marağın məqsədyönlü formalaşdırılması.
2. Uşaqların asudə vaxtlarında nəinki təkcə onlar üçün maraqlı olan, həm də əqli gərginlik tələb edən, intellektual oyunları oynamağa tələbatı tərbiyə etmək.

Riyaziyyatdan didaktik oyunlar aşağıdakı bölmələrə ayrılır:

1. Miqdar və saya aid oyunlar.
2. Zamana bələdliyə aid oyunlar.
3. Məkana bələdliyə aid oyunlar.
4. Həndəsi fiqurlarla oyunlar.
5. Məntiqi oyunlar.

**Problemin aktuallığı.** Məktəbəqədər yaşlı uşaqların ümumi inkişafında didaktik oyunlar mühüm rol oynayır. Məktəbəqədər müəssisələrdə tərbiyəçilərə uşaqlarla birlikdə oynamaq, onların diqqətini mərkəzə cəlb etmək bacarığı tövsiyə edilir.

**Problemin elmi yeniliyi.** Məktəbəqədər yaşlı uşaqların didaktik oyunlar vasitəsilə tərbiyə edilməsi yolları göstərilir.

**Problemin praktik əhəmiyyəti.** Məktəbəqədər tərbiyə müəssisələrində didaktik oyunlar vasitəsilə uşaqların diqqətini müəyyən əşyalara doğru yönəltməyi, böyük-kiçik fiqurları, rəngləri fərqləndirməyi, saymağı, məkan, zaman anlayışlarını mənimsətməyi tövsiyə edir.

## ƏDƏBİYYAT

1. Л.Б. Фесюкова. «300 развивающих игр» (для детей 4-5 лет). Харков, 2008.
2. Е.В. Колесникова. Математика для детей 3-4 лет. М., 2012.
3. Е.В. Колесникова. Математика для детей 4-5 лет. М., 2011.
4. Интернет «Влияния дидактических игр в детском саду и школе на обучение математике и развитие математических способностей»

**М. Мирзоева**

## РОЛЬ ДИДАКТИЧЕСКИХ ИГР В ПРЕПОДАВАНИИ МАТЕМАТИКИ ДЕТЯМ ДОШКОЛЬНОГО ВОЗРАСТА

### РЕЗЮМЕ

Статья раскрывает суть дидактических игр. Высоко оценивается роль дидактических игр в развитии внимания, логического мышления у детей дошкольного возраста. Посредством разных дидактических игр, детям младших, средних и старших групп прививают умение играть коллективно, помогать друг другу и общаться.

**M. Mirzayeva**

## THE ROLE OF THE DIDACTIC GAMES IN TEACHING MATHEMATICS TO CHILDREN OF PRESCHOOL AGE

### SUMMARY

The article exposes essence of didactic games. The role of the didactic playing is highly estimated development of attention, logical thinking for the children of preschool age. By means of different didactic games, ability to play collectively is inoculated the children of junior, middle and senior groups, to help friend of to communicate.

# ORTA MƏKTƏBDƏ NƏCİB FAZİL QISAKÜRƏYİN "SAKARYA TÜRKÜSÜ" ƏSƏRİNİN TƏDRİSİ ÜSULLARI

**Veli Aydın,**
*Bakı Slavyan Universiteti*
E-mail: velibeye@gmail.com

**Rəyçilər:** *dos.* T. Paşayev,
*ped. fəls.dok.* X. Talıbova

***Açar sözlər:*** *milli qürur, Vətən məhəbbəti, şeirin tədrisi, müasir tədris üsulu, yeni dərs nümunəsi*
***Ключевые слова:*** *национальная гордость, любовь к Родине, современный метод обучения, образец нового урока*
***Key words:*** *national pride, love of country, poetry teaching, modern teaching method, a new teaching method of the lesson*

Böyük Türk şairi, yazıçı və dramaturqu, bir sıra dini-fəlsəfi əsərlərin müəllifi olan Nəcib Fazil Qsakürəyin yaradıcılığından müxtəlif əsərlərin orta məktəbdə tədrisi çox vacib məsələdir. Burada önə çəkilən əsas ideyalar böyüməkdə olan nəslə Vətən sevgisi aşılamaqla yanaşı, onun qarşısında Vətəninə, ailəsinə faydalı və layiqli vətəndaş olmaq kimi vəzifələri də qoyur.

Bu baxımdan Nəcib Fazilin poetik düşüncə tərzinin məhsulu olan "Sakarya türküsü" şeirinin aşağı siniflərdən öyrədilməsi diqqət mərkəzində saxlanıla bilər. Sakarya zəfəri Mustafa Kamalın rəhbərlik etdiyi Türk Qurtuluş Mübarizəsinin əsas mərhələlərindən biridir. O, 1921-ci ilin avqustun 23-dən sentyabrın 13-dək olan müddətdə davam etmişdir. Sakarya zəfərindən sonra 19 sentyabr 1921-ci ildə Türkiyə Böyük Millət Məclisi Mustafa Kamala Marşal rütbəsi və Qazi titulu vermişdir. Qurtuluş Mübarizəsi 24 iyul 1923-cü ildə imzalanan Lozanna müqaviləsi ilə sona çatmışdı. Beləliklə, Sakarya döyüşlərində qazanılan qələbə nəticəsində Sevr müqaviləsi ilə parçalanması nəzərdə tutulan, türk xalqına 5-6 vilayət böyüklüyündə ərazi verilən Türkiyə torpaqları üzərində, milli birliyə əsaslanan yeni türk dövlətinin qurulması üçün heç bir əngəl qalmadı.

Ədəbiyyat dərsinin maraqlı və Nəcib Fazilin "Sakarya türküsü" şeirin fəal idraki fəaliyyət əsasında tədris olunması üçün aşağıdakı cəhətlərə əsaslanaraq dərsi aparmağa çalışmışıq:

- İdraki problem vəziyyətinin yaradılması;
- Əsərin öyrədilməsində, didaktik problemin həlli prosesində şagirdlərin fəal tədqiqatçı mövqeyinin stimullaşdırılması;
- Şagirdlərin yeni və zəruri olan biliklərin müstəqil, əldə edilməsi və mənimsənilməsinə şərait yaradılması.

Bu istiqamətləri həyata keçirmək üçün Nəcib Fazil Qısakürəyin "Sakarya türküsü" əsərinə dair dərsi aşağıdakı nümunədə hazırlamağa çalışmışıq:

**Fənn:** Ədəbiyyat

**Sinif:** VI sinif

**Mövzu**: Nəcib Fazil Qısakürəyin "Sakarya türküsü" şeirinin təhlili

**Məqsəd:**

1. Nəcib Fazil Qısakürəyin həyat və yaradıcılığı haqqında şagirdlərə ətraflı məlumatın verilməsi;
2. Nəcib Fazil Qısakürəyin "Sakarya türküsü" şeiri haqqında məlumatın verilməsi;
3. Şeiri təhlil etmək, anlayışları izah etmək, sözlərin düzgün tələffüzünə nail olmaq;
4. Şagirdlərdə vətənə məhəbbət, Türk torpaqlarını qorumağa hər an hazır olmaq hislərinin yaranmasına nail olmaq;
5. Şagirdlərin müstəqil və qruplarla işini təşkil etməklə onlarda əməkdaşlıq vərdişlərini və düşüncələrini sərbəst, düzgün ifadə etmək bacarıqlarını inkişaf etdirmək.

**İş forması:** Qruplarla iş, kollektivlə iş, fərdi iş;

**Metod:** Əqli hücum, Venn diaqramı, Disputlar;

**Fənlərarası inteqrasiya:** Türk dili, Türkiyə tarixi;

**Resurslar:** İnteraktiv lövhə, işçi vərəqələri, ədəbiyyat dərsliyi, izahlı lüğət

**Dərsin gedişi:** (bu hər müəllim tərəfindən müasir tələblərə uyğun olaraq özünəməxsus şəkildə aparılır)

**Sinfin təşkili:** Şagirdlərlə salamlaşır, onları qrup şəklində əyləşdirir, davamiyyəti yoxlayır və dərsə başlayıram.

**Motivasiya:** Mübarizə necə və nə üçün aparılır?

Şeirin tədrisinə başlamazdan əvvəl dərsin qarşısına aşağıdakı məqsədləri qoyulmuşdur:

1. Vətən, millət, şəhid ifadələrinin mənasını başa düşməyi öyrənirik.
2. Vətən sevgisiylə bağlı "Sakarya türküsü"nü sinifdə oxuyuruq;
3. Həmin şeirin yaranma tarixi və aid olduğu hadisələr haqqında məlumat toplayırıq;
4. Qurtuluş Mübarizəsində qələbənin necə qazanıldığını sinifdə aydınlaşdırırıq.

Beləliklə, Vətən, millət anlayışlarını başa salan "Sakarya türküsü" cəsurların şəninə himn oxuyan sənət əsəridir. Əsərin öyrədilməsi böyük Türk Mustafa Kamal Atatürkün bu sözləri ilə başlamaq yaxşı olardı: "Ey Türk gəncliyi! Birinci vəzifən, Tük istiqlalını, Türk Cümhuriyyətini hökmən mühafizə və müdafiə etməkdi. Yaşamanın və azadlığın yeganə təməli budur. Bu təməl sənin ən qiymətli xəzinəndir" (1, 2).

Müəllim şeirin yaranma tarixi və həsr olunduğu mövzu haqqında məlumat veməklə, onun ilk və ifadəli oxusunu həyata keçirir. İdeyasına gorə Türk ədəbiyyatının ən yaxşı əsərlərindən olan bu şeirin incəliklərinin duyulmasına elə oxu prosesində nail olmaq mümkün olur. Bu, sonrakı mərhələlərdə aparılan işlər üçün əhəmiyyətlidir. Şagirdlər növbəli şəkildə şeiri hiss-hissə oxumağa başlayırlar:

**I şagird:** İnsan, bu su misali qıvrım-qıvrım axar ya,
Bir yanda axan mənəm, o biri yanda Sakarya.
Su enər yoxuşlardan basamaq-basamaq,
Mənimsə alın yazım yoxuşlarda susamaq. (296)

**II şagird:** Hər şey axar: su, tarix, insan və fikir,
Oyuqlar cüt: birindən nur axar, o birindən kir.
Axışda dəstələnmiş böyük, kiçik, kainat,
O çıxan buluda bax, bu enən suya inad… (3, 298)

Şeir beləliklə, parçalara bölünür. Sonra əsərdə qoyulan ideyanı daha dərindən başa düşmək üçün suallar hazırlanır və onlara cavab verilməsi yolları təklif edilir. Məsələn,

1. Hər torpaq Vətənmidir? Dostlarınızla aydınlaşdırın.
2. Vətən sevgisi hansı davranışlarda özünü ifadə edir? Sinifdə dostlarınızla fikrinizi bölün.
3. "Sakarya türküsü" Sizdə hansı hissləri oyadır? Fikirlərinizi bölüşün.
4. Nəcib Fazil Qısakürək şeirdə "Belinə Sakaryanın Türk tarixi vurular" ifadəsi ilə nə demək istəmişdir? Yoldaşlarınza izah edin?
5. Şeir Vətənimiz və millətimiz qarşısında hansı vəzifələrin olmasını başa salır: Fikirlərinizi bölüşün: və s.

Əsər oxunarkən tanış olmayan sözlərin mənasının aydınlaşdırılması aparılır. Qruplarda iş zamanı ona diqqət yetirilir ki, hər bəndin məzmununa uyğun intonasiya calarının düzgün müəyyənləşdirilir.

İnsan üç-beş damla qan, çaysa üç-beş damla su,
Bir həyata çatdıq ki, həyata qurmuş pusqu.
Cəld ölümlü yalan, getdi ölümsüz gerçək,
Siz həyat sürən leşlər, sizi kim dirildəcək? (3, 297)

Birinci dərs saatında icra edilmiş işlərin səviyyəsi aşağıdakı cədvəldə göstərilə bilər:

| Təlim nəticələri yüksək olanlar | Təlim nəticələri zəif olanlar |
|---|---|
| 1. Əksər misralarda ifadə olunmuş fikrin mənasını açıqlayır | 1. Misralarda ifadə olunmuş fikirləri qismən acıqlayır |
| 2. Şifahi təqdimat hazırlayır | 2. Şifahi təqdimatı qismən hazırlayır. |
| 3. Əsərlə bağlı fikirlərini numunələr əsasında aydın şərh edir | 3. Əsərlə bağlı fikirlərini orta səviyyədə şərh edir |

Qruplarda şagirdlərinin işinin qiymətləndirilməsi üçün fərqli məzmuna və formaya malik meyar cədvəlləri hazırlanır. Aşağıdakı cədvəl əsasında qiymətləndirmə aparılır.

| **Meyarlar** | **I qrup** | **II qrup** | **III qrup** | **IV qrup** |
|---|---|---|---|---|
| Əsərin ideyasını müəyyənləşdirir, əsaslandırılmış münasibət bildirir. | Cavab verməkdə fəaldır | Cavablar orta səviyyəlidir | Cavablar bir qədər zəifdir | Cavablar zəifdir |
| Obrazların xarakterindəki başlıca xüsusiyyətləri aydınlaşdırır. | Cavab verməkdə fəaldır | Cavablar orta səviyyəlidir | Cavablar bir qədər zəifdir | Cavablar zəifdir |
| Əsərlə bağlı fikirlərini səciyyəvi nümunələr seçməklə şərh edir. | Şərh etmə də fəaldır | Cavablar orta səviyyəlidir | Cavablar bir qədər zəifdir | Cavablar zəifdir |
| Ümumi nəticə | Əsərlə bağlı fikirlərini nümunələr əsasında aydın şərh edir. | Əsərlə bağlı fikirlərini aydın şərh edir. | Əsərə münasibətini bir qədər gec bildirir | Əsərin təhlilini gec qavrayır, mətnin məzmununu nağıl edə bilmirlər |

Qeyd etmək lazımdır ki, “müəyyənləşdirilmiş təlim məqsədləri müxtəlif metod və tərzlərin tətbiqini zəruri edir. Fəallaşdırmaya da fərqli yollarla nail olmaq mümkündür.” (2, 115) Dərslikdəki mətnlərin (“Hatırlayalım”, “Not edelim”, “Listeleyelim”, “Yazalım”, “Düşünelim” bölmələr üzrə) mənimsənilməsi üzrə işin təşkili, sonda qısa müsahibənin aparılması bu yollardan biri kimi seçilə bilər.”

Sinifdə şagirdlərin fəallığından və evə verilən tapşırıqların yerinə yetirilmə səviyyəsindən asılı olaraq onların qiymətləndirilməsi həyata keçirilir. Qiymətləndirmə zamanı şagirdlərin maraq və imkanları da nəzərə alınır.

Nəcib Fazil Qısakürəyin "Sakarya türküsü" şeirinin tədrisi zamanı qiymətləndirmə üçün bir sıra sual və tapşırıqlar tövsiyə olunur. Belə sual və tapşırıqları aşağıdakı nümunədə göstərə bilərik:

1. "Sakarya türküsü" şeirinin məzmunu üzrə plan tərtib edin.
2. Sakarya döyüşündə fərqlənən Türk əsgərinə verilən əsas cəhət hansıdır?
4. Əsərdə şeirə xas olan xüsusiyyətləri yazın.
5. Misralarda hansı bədii təsvir vasitəsi işlənmişdir?
6. Əsərdə Sakaryada gedən döyüşlərdən hansı məqsədlə söz açılır?
7. Bu əsərdən hansı nəticə əldə olundu?

Sual və tapşırıqların üzərində işləyən şagirdlər əsərə müraciət etmək, nümunələr seçmək, mülahizələrini əsaslandırmaq tələbi ilə üz-üzə qalırlar. Bu, qazanılmış bilik və bacarıqların tətbiqini, ümumiləşdirmənin həyata keçirilməsini zəruri edir.

Bələliklə dərsin müasir təhsil sisteminin tələblərinə uyğun şəkildə təşkil edilməsi şagirdlərdə vətəndaş şəxsiyyətinin formalaşmasına, milli dəyərləri qiymətləndirmək kimi hisslərin tərbiyə olunmasına şərait yaradır. Tədris olunan mətnə uşaqların məntiqi və yaradıcı yanaşması onlarda təfəkkür hissinin, milli ideya düşüncə tərzinin yaranmasına səbəb olur.

**Problemin aktuallığı** özünü günümüzdə daha çox vacib olan vətənpərvərlik, Vətənə məhəbbət hissinin gənc nəslə aşılanması üçün ədəbiyyat dərslərində Nəcib Fazil Qısakürəyin əsərlərinin tədrisi zamanı istifadə olunan vasitə və metodlarda özünü göstərir.

**Məqalə elmi yeniliyi** Azərbaycan pedaqoji elminə tamailə yeni olan bir mövzunun-Nəcib Fazil Qısakürəyin yaradıcılığında tərbiyə məsələlərinin işlənilməsi və onun orta məktəblərdə tədrisi məsələlərinin həllində üzə çıxır.

Məqaləni ədəbiyyat müəllimləri və tədqiqatçı-alimlər istifadə edə bilərlər. Bu da onun təcrübi əhəmiyyətidir.

## ƏDƏBİYYAT

1. Din Kültürü ve Ahlak Bilgisi. İlkögretim. 5-ci sınıf. İstanbul, 2010.
2. Həsənli B., Hüseynoğlu.S., Səfərova,Ə., Quliyev, Ə. Ədəbiyyat. 5-ci sinif: Müəllim üçün metodik vəsait). Bakı, 2012.
3. Qısakürək N.F. Seçilmiş əsərləri. Bakı, 2011.

**В. Айдын**

## ПУТИ ПРЕПОДАВАНИЯ ПРОИЗВЕДЕНИЯ НАДЖИБ ФАЗИЛ КЫСАКЮРЕКА «ПЕСНЯ САКАРИИ»

## РЕЗЮМЕ

Современная система образования требует использования на уроках литературы новых методов и способов преподавания. Это относится и к творчеству, а также стихотворению "Песня Сакарии" Неджиба Фазила Кысакюрека. Это стихотворение написано с позиции гражданства и любви к Отечестве и поэтому, является ценным для молодого поколения.

**V. Aydın**

## WAYS OF TEACHING WORKS FAZIL NAJIB KYSAKYUREKA "SONG OF SAKARYA"

## SUMMARY

As in all subject, modern education system requires new methods and ways, demands more creative approaching to analyze works in the literature. This concerns talented master mind in the field of literature, well known poet Najib Fazil Kisakurek. “Sakarya folk song” which is educated in the secondary schools, vaccinates to the children to love and to be proud of country. For young generation it is important to present his works with new techniques.

# ИСПОЛЬЗОВАНИЕ ПЕДАГОГИЧЕСКИХ МЕТОДОВ В ПРЕПОДАВАНИИ КУРСА РАСТЕНИЙ ПО АЗЕРБАЙДЖАНСКОЙ ФЛОРЕ

**Наргиз Караева,**
*старший научный сотрудник*
*ИПОАР*
E-mail: nargiz_666@hotmail.com

**Рецензенты:** *проф.* Р. Султанов,
*доц.* Г. Гаджиева

***Key words:*** *plants course, flora of Azerbaijan, pedagogical methods new pedagogical technologies, natural resources*

**Ключевые слова**: *растения, конечно, флора Азербайджана, педагогические методы, новые педагогические технологии, природные ресурсы*

Стремительное развитие науки и техники, распознавание естественных богатств, в том числе растений, использование их в требуемом порядке, заботливый и внимательный подход к ним, порождает необходимость приложить усилие к их увеличению. Растения имеют очень большую значимость для природы, общества и людей. При преподавании предметов учащимся возможно предоставление необходимой информации, относительно флористических растений, в особенности богатой флоры Азербайджана. Этой области открывается широкая возможность в содержании предметов общеобразовательной школы, в особенности предмета биологии. Говоря о преподавании флоры Азербайджана учащимся, в сущности, не предусмотрено привлечение к изучению всех богатых образцов флоры. Это невозможно. Обучению курса растений в минимальной программе отведено 105 часов, в максимальной программе же 230 часов. За этот период за один урочный час может быть изучен один вид растений. Поэтому для преподавания должны быть выбраны более необходимые виды растений. При выборе образцов растений следует отдавать предпочтение территории расположения школы, растительному покрову региона. Существует необходимость держать в центре внимания информацию о наиболее используемых, вызывающих интерес и стремление у учащихся полезных для декорации, украшения, лекарств, озеленения видов растений, жизнь которых находится в опасности и которые требуется защищать.

В нашей планете флора охватывает 50 тысяч высших видов растений. Из них взращиваются на землях Азербайджана 0,84 процента, а это улучшает условия жизни населения. Растительный покров в нашей республике состоит из 125 видов, 930 сортов, из которых 370 видов, свойственных данной местности (2, с3). Растения азербайджанской флоры преподаются учащимся поэтапно: 1) заводится разговор о внешних приметах растений и показывается их часть; 2) раскрываются их биологические свойства и территории распространения; 3) определяется место растения в классификации; 4) показывается роль и экономическая значимость в природе; 5) разъясняется порядок защиты и размножения растения.

В мире существует 560 тысяч разновидностей растений, из них 300-350 тысяч составляют культурные растения. Учитель, доводящий все это до сведения школьников, затем изучает мнение школьников о значимости растений. Школьники узнают, что запасы растений в Азербайджанской Республике по видам сильно различаются и выше чем в других регионах Кавказа и составляют 69% состава видов Кавказа. Здесь объединяются в себе 930 произрастающих видов и 125 разновидностей растений. На не очень большой территории нашей страны встречается, можно сказать, большинство всех существующих в мире крупных видов растений. Наравне с разновидностями растений, широко распространившимися на Кавказе и в других регионах во флоре Азербайджана известно довольно много, иногда даже

присущих Азербайджану и его маленьким регионам древних видов растений (более 270 разновидностей). Учитель обращается с вопросами к школьникам, для того, чтобы выявить, как они усваивают пройденную тему.

В материалах о важности растений в жизни человека принято рациональным связывание декоративного растения с гвоздикой. Потому что в учебнике отмечается, что люди используют растения в различных целях, а также в целях декорации. В декоративных целях учитель поручает ученикам самостоятельно выучить материалы, относительно свойства гвоздики, широко возделываемой в нашей республике и отправляемой в другие страны. Отмечается, что гвоздика широко возделывается в Азербайджане как декоративное растение. Отметьте в вашей тетради ее биологические свойства. Для выполнения задания учитель задает ученикам вспомогательные вопросы.

Двудомное растение расцветает в марте-апреле. Ягода созревает в сентябре-октябре месяце и частично остается на дереве всю зиму. Плод бывает мелким, с маленьким черенком, желтого и немного розового цвета. Его цвет белеет под воздействием солнца, в связи с тем, что он длительное время остается на дереве. Семена бывают покрыты сочной, кислой, вкусной и мясистой частью. Плод плотно расположен на ветке, он расположен в окутанном виде. Произрастает в долинах рек, по берегам озер, в руслах рек, на высоте 1400 метров над уровнем моря на песочно-каменных равнинах. Самая широкая область распространения облепихи в Азербайджане начинается с территории Шемахинского района и распространилась на территорию района Агсу и в долине Галачай Балакенского района, в Шеки до бассейна Киш и Шинчай. Преподаватель показывает на карте регионы, названия которых были приведены. Он отмечает, в плоде облепихи имеется 10,9% каротина, 0,035 мг витамина $B_1$, 0,056 мг витамина $B_2$, 14,3 мг витамина E, 272,5 мг витамина C.

Использование педагогических приемов при преподавание темы дает возможность учащимся освоить детальную информацию о нескольких видах растений из флоры Азербайджана. Школьники отмечают в тетради под названием «флора Азербайджана» основные вопросы, касающиеся изучаемого материала. В тетради приводятся наглядные примеры по образцам растения. Преподаватель в то же время пользуется электронными средствами обучения, касающегося материала о флоре. Так учащиеся хорошо изучают биологические свойства растения, территорию произрастания.

Использование на уроке новых педагогических технологий, интерактивных методов обучения повышает качество обучения. Учащиеся узнают о природных богатствах нашей страны, в том числе растениях, осваивают их защиту, обслуживание, размножение. Летом учащиеся вновь вспоминают названия растений флоры Азербайджана, говорят, в каких регионах республики они распространены. В этих целях используется таблица. Школьники, обобщая и систематизируя приобретенные знания, советуются с другими товарищами. Это еще больше укрепляет их сотрудничество, углубляет знания ботаники.

Заключение. Преподавание знаний о растениях флоры Азербайджана помогает узнать и защитить находящиеся в опасности растения, род которых иссякает. Знание учащихся о местной флоре создает основу для повышения качества знаний, формирования их как личности, защиты естественных богатств страны.

## ЛИТЕРАТУРА

1. Гасанов Х.Н. Зеленые охранники нашей жизни. Баку: Азернешр, 1979.
2. Гасанов Х.Н. Мысли о природе. Баку: Азернешр, 1992.

**N. Qarayeva**

**USE OF PEDAGOGICAL METHODS IN TEACHING OF AZERBAIJAN FLORA PLANTS COURSE**

**SUMMARY**

Significance of pedagogical methods in teaching of Azerbaijan flora used by teacher in the plants course are dealt in the article. Author states that, it is necessary to draw the students' attention to the information related with the plant types which are considered important to protect, to the plants in their dangerous condition, necessary for planting of greeneries, medicine, ornaments and decorations.

**Н. Караева**

**ИСПОЛЬЗОВАНИЕ ПЕДАГОГИЧЕСКИХ МЕТОДОВ В ПРЕПОДАВАНИИ ФЛОРЫ АЗЕРБАЙДЖАНА КУРС РАСТЕНИЯ**

**РЕЗЮМЕ**

Значение педагогических методов в преподавании флоры Азербайджана, используемых учителем в ходе растений рассматриваются в этой статье. Автор утверждает, что это необходимо обратить внимание студентов к информации, связанной с типами растений, которые считаются важными для защиты, для растений в их опасном состоянии, необходимо для посадки закрытом грунте, медицина, орнаменты и украшения.

# О ФЕНОМЕНЕ МУЗЫКИ

**Лачин Гасанова,**
*доцент* АГПУ

**Рецензенты:** *проф.* Ж. Кадымова,
*доц.* Э. Эфендиева

***Ключевые слова**: культурная полифункциональность, культурогенез, инновации, педагогический процесс*
***Açar sözlər:** mədəni polifunksionallıq, mədəni genesis, innovasiyalar, pedaqoji proses*
***Key words:** cultural polyfunctionality, cultural genesis, innovation, pedagogical prosess*

Музыке принадлежит особая роль в духовном мире человека, поскольку она стремится воссоздать гармонию мира видимого и осязаемого путем организованного сочетания тончайших звукоимпульсов – образов, сообщающих о бесконечном богатстве духовной жизни человека и его связях с природой и космосом. По выражению А.Ф.Лосева: «Музыка есть искусство становления: ее мелодическое движение непосредственно воспроизводит движение души» (1). Многообразная музыкально-художественная образность скрывает в себе определенную эволюцию самого отношение к природе – от простого «подражания» до эстетизации и стилизованных форм. Отношения музыкального и природного организуют особый уровень познания.

Сама морфология искусства основана на полемическом противопоставлении способности – неспособности подражать природе. Ими как утверждает романтический мыслитель Новалис, «в музыкальных пропорциях можно увидеть формулу универсума, а сами музыкальные пропорции есть не что иное, как основные соотношения природы» (2).

Известно, что между музыкой и другими видами искусства нет прямых аналогий в силу ее специфической образности, средств выразительности и воздействия на слушателя. Поэтому характер творческих сопряжений разных видов искусства, влияний и воздействий следует раскрывать не прямолинейно, а опосредованно, пользуясь методом аналогий и ассоциативных связей, что позволит достигнуть более глубокого, полного и целостного понимания музыки в системе художественных явлений на протяжении всей ее истории развития.

Феномен музыки в аспекте индивидуального-универсального уникален для человеческой культуры. С одной стороны, музыка – индивидуальна в смысле способов творчества и восприятия. С другой стороны музыка универсальна. В социальном плане это означает историчность, способность лучших представителей музыкального мира в наиболее характерных интонациях отражать мироощущение эпохи. Музыка также природно-универсальна: математические, семиотические, искусствоведческие анализы музыкальных форм свидетельствуют об общности музыкальных и природных структур, грамматик музыкального и словесного языка. Согласно платоновскому «Тимею» - пифагорейцы считали, что четыре дисциплины ведут к высшему знанию – математика, геометрия, музыка и астрономия. Причем все четыре представляли различные аспекты абстрактной реальности, порождаемой при помощи понятия числа: математика – число само по себе, геометрия – число в пространстве, число во времени, а астрономия – число в пространстве и времени. С когнитивной точки зрения, наглядный символизм в математике и звуковой – в музыке можно рассматривать как показатели мышления типа художественного (3).

Таким образом, первостепенное значение в разработке роли и места взаимодействия искусств в контексте музыкальной педагогики приобретает именно вопрос о том, какими выразительными средствами в процессе художественной интерпретации можно утверждать

высокие духовные ценности, воплощать всю многогранность человеческих переживаний и характеров.

В силу специфики музыки как вида искусства изучение ее в рамках высших учебных заведений приобретает особую, интегративную окраску, нуждающуюся в постоянном подкреплении со стороны еще одной контекстной сферы: погружения в художественные миры других искусств.

Музыка, как и культура в целом, по своей природе семиотически неоднородна. Обмениваясь своими информационными ресурсами с другими видами искусства и разными сферами культуры, она вступает с ними в диалог, вовлекая в него эмоциональную, рациональную, сенсорную и вербальную сферы. И эти аспекты представляют собой особый интерес в педагогическом процессе. На наш взгляд, разностороннее, контекстное, межвидовое освоение музыкального искусства следует позиционировать как инновационное. Так, например, философско-культурологическая характеристика музыкальной культуры достаточно сложна, но она определяет единство музыки с контекстом искусства; подчеркивает ее культурную полифункциональность. Можно определенно утверждать, что музыка является аккумулятором и транслятором актуальных, социально значимых ценностей, помогающим человечеству совершенствовать свой образ жизни. Таким образом, можно говорить о более широком понятии, в структуру которого входит музыка. Это культурогенез, т.е. способ освоения действительности, создания ценностей, процесс раскрытия способностей и дарований людей. Иными словами культурогенез «это сложный, постоянно развивающийся, интегративный процесс, способный к возобновлению, рождению новых форм и интеграции их в социальную практику, это – процесс, обладающий собственными имманентными особенностями, но развивающейся на одном общем фундаменте, построенном в результате формирования нации и ее культуры» (4).

Все выше сказанное делает необходимым в исследовании музыки последовательный переход от культурно-исторического и системно-исторического анализа к философским и культурологическим подходам, поскольку музыка уже давно признана эквивалентом философии и математики (5).

В исследованиях, посвященных общим проблемам эстетики и искусствознания все чаще отмечается, что существующая сегодня многокомпонентная система искусств отмечается двумя противоположными тенденциями – тяготением к синтезу, взаимопроникновению отдельных ее видов и стремлением к автономности, отражающими сложность и многогранность современной общественной жизни и эстетических, художественных потребностей человека. Известно, что как творческий синтез, там и суверенность искусств сопровождали едва ли не всю историю художественной культуры. Разделение искусств и их синтетическое взаимодействие обусловлены тем, что разнообразные стороны мира не могут быть полностью раскрыты средствами какого-либо одного из них, а потому вполне естественны тенденции к взаимодействию между отдельными видами художественного творчества. Исходя из инновационных подходов к современной педагогики, постижение целостной научно-синтетической и художественно-синтетической картины мира формирует интегративное начало в искусстве, а инновации приобретает ведущее значение. Ассоциирующая деятельность человеческой психики устанавливает бесчисленные аналогии между сходными характеристиками разных предметных явлений. И конкретизация данных параметров в учебном процессе, безусловно, динамизирует познание.

Взаимодействие искусств в художественном образовании формирует новое, интенсивное развивающееся направление педагогики искусства – полихудожественное развитие личности. И выдвижение его в качестве инновационного представляется нам как целесообразным, так и весьма перспективным.

Согласно Концепции культуросообразного образования нового типа, созданной в ИХО РАО, основными положениями стратегии модернизации художественного образования на сегодняшний день являются:

1. Овладение художественной культурой есть равноценная область знания наряду с гуманитарным, естественно научным и математическим, что обусловлено единым процессом поиска истины в научном и художественном творчестве.

2. Центральным в художественном образовании выступает процесс создания образа как концептуальное психологическое основание искусства, где образ является формообразующим фактором культуры, ее всеобщим языком.

3. Единая природа всех видов искусства предполагают их взаимодействие и охват всех видов художественной деятельности в опоре на полихудожественные возможностью каждого учащегося.

Термин «полихудожественный подход» появился в 1987 году в научных разработках и публикациях лаборатории комплексного взаимодействия искусств ИЦЭВ РАО. Термин предложен профессором Б.П.Юсовым, который так определял его основные цели: «Вектор будущего – воображение, фантазия, мечта» (6).

Полихудожественный подход прослеживает внутренние, образные, духовные связи слова, звука, цвета, пространства, движения, формы, места – на уровне творческого процесса, раскрывает внутреннее родство разнообразного художественного проявления. Взаимодействие искусств – явление многоуровневое, включающее собственно взаимосвязь искусств, взаимосвязь искусств с природными объектами.

Полихудожественный подход акцентирует внимание педагогов на образной природе искусства, которая определяет значимость воображения художественной деятельности. В этом заключено основное отличие полихудожественного подхода от профессионально-искусствоведческого, обращенного к развитию практических навыков деятельности и получению знаний о фактах искусства прошлого.

Сегодня особенное место приобретает необходимость системного освоения культурологического подхода к музыкальному искусству с позиции воздействия на этот процесс, прежде всего различных сторон духовной культуры, в центре которых стоят разного рода ценности человеческого духа – этические, нравственные, религиозные, мировоззренческие и пр.

Культурологический подход к образованию как единственная модель адекватного обучения, включающая в себя эстетическое отношение, ассоциативно-образную способность обобщения восприятия содержательных образов разных искусств, эстетическую эрудицию и общехудожественную компетентность – это не желательное дополнение к музыкальному образованию, а необходимый интегрирующий, системообразующий ее компонент.

Воздействие комплекса искусств в теории инновационного обучения рассматривается нами многофункционально – как условие, принцип, форма и метод развития личности. Инновационная ориентация современной педагогики убедительно высвечивает колоссальный диапазон «связей музыки с человеком, со всеми веками его жизни, ступенями мышления, проявлениями эмоциональных отношений» (7).

Поэтому в качестве объема музыкального образования следует рассматривать не только отдельные элементы художественного организма музыки, но и все то, из чего она естественно вырастает и с чем тесно связана.

Сегодня особое место приобретает необходимость системного освоения инновационного подхода к музыкальному искусству с позиции воздействия на этот процесс, прежде всего различных сторон духовной культуры, в центре которых стоят разного рода ценности человеческого духа – этические, нравственные, религиозные, мировоззренческие и пр.

Известно, что за время существования человечества художественная культура формировалась как система элементов, основную позицию в которой занимает искусство.

Искусство сродни художественной культуре – они многомерны и многоэлементны. Каждая новая эпоха предлагала свои виды искусства. Происходила их трансформация, углубление, расширение выразительных средств, языка искусства. Параллельно шло их слияние, взаимодействие и взаимовлияние.

Сегодня этот процесс под влиянием компьютерной технологии, становится более интенсивным. Так, изобразительное искусство, и это доказано многими современными учеными, теряет черты пространственной определенности, в него вторгается временной элемент. Визуализация пластических искусств испытывает воздействие аудиальных средств. В музыке характерно стремление к визуализации, преодолению пространственной ограниченности и т.д.

Таким образом, музыка как сегмент активно формирует новые средства выразительности, которые опираются на интегративные параметры в педагогике.

**Актуальность проблемы.** Изучение музыки в высших учебных заведениях, как одного из вида искусств, носит особо интегративное значение, что является одной из актуальных направлений в области образования.

## ЛИТЕРАТУРА

1. Лосев А.Ф. Музыка как предмет логики // Из ранних произведений. М., 1990.
2. Музыкальная эстетика Германии XIX века. М., 1981.
3. Волошинов А.В. Пифагор. Союз истины добра и красоты.
4. Лях В.И. Культурогенез как проблема теории культуры. Автореф. дисс. на соискание ученой степени доктора философских наук. М., 1999.
5. Чередниченко Т. Музыка в истории культуры. М., 1994.
6. Письмак Г.А. Педагогические условия реализации полихудожественного подхода в гимназическом образовании учащихся.
7. Холопова В.Н. Музыка как вид искусства. М., 1990.

**L. Həsənova**

## MUSİQİ FENOMENİ HAQQINDA

## XÜLASƏ

Məqalədə inteqrativ təzahür kimi musiqi fenomenindən söhbət gedir. Qeyd olunur ki, musiqi pedaqoji prosesdə çoxtərəfli aspektdən, kontekstə uyğun və hərtərəfli şəkildə öyrənilməlidir. Musiqinin özəlliyi onun xüsusi informasiya resurslarına malik olmasındadır ki, bu resurslardan da pedaqogikada istifadə etmək zəruridir.

**L. Hasanova**

## ABOUT PHENOMENON OF MUSIC

## SUMMARY

This article deals with phenomenon of music as an integrative occurrence. It is noted that study of music in the pedagogical process demands versatile and contextual, inter-specific mastering. Specificity of music-within its special information resources, which potential ought to use in pedagogic.

# AZƏRBAYCAN DİLİ TƏLİMİNDƏ MƏTN SEÇİMİNƏ VERİLƏN METODİK TƏLƏBLƏR

**Aygün Zamanova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*ADPU*
E-mail: aygun_zaman@mail.ru

**Rəyçilər:** *prof.* Ə. Tanrıverdi,
*dos.* A. Hacıyev

***Açar sözlər:*** *dil, təlim, mətn, tələb, bacarıq*
***Ключевые слова:*** *язык, обучение, текст, требование, умение*
***Key words:*** *language, learning, text, requirement, ability*

**Məsələnin qoyuluşu.** Ümumtəhsil məktəblərində həyata keçirilən kurikulum islahatı "Azərbaycan dili" fənninin yeni metodik tələblər əsasında tədrisinə şərait yaratdı. Təlimdən gözlənilən nəticələrin reallaşmasına imkan verən məzmunun işlənilməsi üçün müxtəlif mülahizələr irəli sürüldü ki, bunlardan mətn üzərində iş daha səmərəli variant kimi özünü doğrultdu.

**İşin məqsədi** şagirdlərin dinləyib-anlama, danışma, oxu, yazı bacarıqlarına yiyələnməsi və ən zəruri dil qaydalarını mənimsəməsi üçün istifadə edilən mətn nümunələrinin hansı metodik tələblər əsasında həyata keçirilməsinə bir aydınlıq gətirməkdir.

Müasir mərhələdə ümumtəhsil məktəblərində dil dərslərindən gözlənilən nəticələrin keyfiyyəti şagirdlərin müxtəlif situasiyalarda fikrini sərbəst, aydın ifadə etmək, tərəf müqabili və ya kollektiv üzvləri ilə qoyulan mövzu ətrafında fikir mübadiləsi aparmaq, düşündüklərini məntiqi ardıcıllıqla yazıya köçürmək bacarıqları ilə müəyyənləşir. Artıq linqvistik qaydaların mənimsənilməsinə son hədəf kimi deyil, şagirdlərin hərtərəfli nitq qabiliyyətlərinin formalaşmasında mühüm rol oynayan vasitə kimi yanaşılır. Bu isə təlimin məzmununda köklü dəyişikliklər edilərək tədris vahidlərinin, seçilən mövzuların, mətn nümunələrinin, tapşırıqlar sisteminin tamamilə yeni meyarlar əsasında tərtib edilməsini zəruriləşdirir. Müəllim-şagird münasibətləri üzərində qurulmuş ənənəvi təlimdən fərqli olaraq, şagird-şagird, şagird-qrup münasibətləri üzərində qurulan müasir dərs modeli ümumi təhsilin bütün səviyyələrində tətbiq edilir. Dərsin mərhələləri biliklərin müəllim tərəfindən şərh edilərək verilmə mexanizmini deyil, müəyyən problem ətrafında məqsədyönlü işin təşkili, məlumat mübadiləsi, müzakirəsi və alınmış nəticələrin ümumiləşdirilməsi dinamikasını əks etdirir. Beləliklə, mətn üzərində iş nitq və təfəkkürün qarşılıqlı əlaqədə inkişafını təmin edən ən səmərəli vasitə kimi aktuallıq qazanır.

Dil və nitq vahidi kimi linqvistikada ətraflı tədqiq edilməsinə baxmayaraq, metodik baxımdan mətn olduqca məhdud səviyyədə araşdırılmışdır. Bunun nəticəsidir ki, istər dərsliklərdə, istərsə də metodik vəsaitlərdə verilən mətn nümunələri mövzu, həcm və üslubuna görə birmənalı qarşılanmamış, onların seçimində hansı meyarlara istinad edilməsi məsələsi açıq qalmışdır. Araşdırmalar göstərir ki, mətnə məxsus xüsusiyyətləri nəzərə almadan onun üzərində iş metodikasını qurmaq təlim zamanı müəyyən çətinliklərlə müşahidə olunur. İ.R. Qalperin həmin xüsusiyyətləri yığcam şəkildə belə ümumiləşdirir: "Mətn yazılı sənəd şəklində obyektləşən, həmin sənədin, əsərin tipinə uyğun ədəbi baxımdan işlənilən, addan (başlıqdan) və bir sıra xüsusi vahidlərdən (ifadə fövqü vahidlərdən) təşkil olunmuş, müəyyən məqsədyönlü məzmuna və praqmatik quruluşa malik, müxtəlif leksik, qrammatik, məntiqi, üslubi əlaqələr şəklində birləşən nitq yaradıcılığı prosesinin bitkin məhsuludur" (2, 18). Bədii və digər üslublarda yazılmasından, monoloji və dialoji nitq formasında qurulmasından, təsviri, nəqli və mühakimə xarakteri daşımasından asılı olaraq, mətn zəngin xüsusiyyətləri özündə ifadə edir. Lakin onun "möhkəm daxili struktur-semantik əlaqələri olan cümlələr birliyi" kimi səciyyələndirilməsi (4, 433) mətnin

başlıca xüsusiyyətidir. Mətnin məna, məqsəd, üslubi-qrammatik baxımdan bütövlük təşkil etməsi kommunikativ dil vahidi kimi təlim prosesində müstəsna yer tutmasını şərtləndirir. Söz və cümlə ilə müqayisədə daha geniş imkanlara malik olduğu nəzərə alındıqda dil dərslərində mətn üzərində iş öz rəngarəngliyi də seçilir. Ona görə də şagirdlərin nitq və dil bacarıqlarının formalaşmasında, idrak qabiliyyətlərinin inkişafında mətn müstəsna vasitə rolunda çıxış edir. Lakin müvafiq didaktik və metodik tələbləri gözləmədən hər hansı bir mətn üzərində işin qurulması gözlənilən kompetensiyaların qazanılmasını təmin etmir. Odur ki ilk növbədə mətn seçiminə verilən tələblər müəyyənləşdirilməli və bu əsasda təlimin məzmununa gətirilməlidir.

Fikrimizcə, dil təlimində həm dərslik müəllifləri, həm də müəllim tərəfindən mətn seçimi aşağıdakı tələblərə əsasən həyata keçirilməlidir:

1. İlk növbədə, fənn proqramında nəzərdə tutulmuş məzmun standartlarının reallaşması gözlənilməlidir.

Azərbaycan təhsil sistemində aparılan kurikulum islahatına müvafiq olaraq, ana dilinin məzmunu nitqin fəaliyyət növlərinin (dinləyib-anlama, danışma, oxu və yazı) ən zəruri dil qaydaları ilə inteqrasiyasını əks etdirən fəaliyyətlər üzərində qurulmuşdur (5, s. 6-13). Təlim prosesində həyata keçirilən istiqamətlərin məzmun xətləri, şagird fəaliyyətinin isə sinifdən sinfə dəyişən alt standartlar kimi ifadə olunması bədii, bədii-publisistik və elmi-kütləvi mətnlərdən müntəzəm istifadə olunmasını tələb edir. Həmin standartlar, əsasən, şagirdlərin müəyyən informasiya daşıyıcısı olan mətni dinləmək, onu anlamaq, yenidən ifadə etmək bacarıqları ilə bağlıdır ki, onları bu şəkildə qruplaşdırmaq mümkündür:

- mətndə qaldırılan problemi və onun mahiyyətini anlamaq;
- mətnin məzmunun təhlil edib əsas fikri müəyyənləşdirmək;
- mətndə aşılanan fikrə münasibət bildirmək;
- mətni tərkib hissələrinə ayırıb onlar arasında məntiqi əlaqəni aydınlaşdırmaq;
- mətnin planını qurmaq;
- tanış olmayan söz və ifadələrin mənasını izah etmək;
- fakt və hadisələri əlavə materiallarla zənginləşdirmək;
- şəxsi mövqedən yanaşmaqla mətni yeni məzmunda ifadə etmək və s.

Təcrübə göstərir ki, mətn üzərində iş şifahi və yazılı şəkildə yerinə yetirilməklə şagirdlərin ədəbi tələffüz, orfoqrafik və punktuasiya bacarıqlarının formalaşmasına və inkişafına da xidmət edir. Bu proses zamanı şagirdlərin lüğət ehtiyatı zənginləşir, dil fakt və hadisələrinin müşahidəsi, müqayisəsi, ümumiləşdirilməsi yolu ilə linqvistik bilikləri dərinləşir. Bundan əlavə, mətn üzərində iş şagirdin təlimə olan marağını, onun öyrənmək istəyini gücləndirir. Şagird özünün və yoldaşlarının buraxdığı səhvləri müəyyənləşdirib, dərsdən dərsə hansı kompetensiyalara yiyələndiyini əyani şəkildə görə bilir. Ardıcıl iş prosesində qazanılan özünü və yoldaşlarını dəyərləndirmək bacarığı şagirdlərin bir şəxsiyyət kimi yetişməsində mühüm amilə çevrilir. Müəllimin nəzarəti və istiqamətləndirici fəaliyyəti ilə həyata keçirilən bütün bu işlər dərsin canlı və yaradıcı təşkilini təmin edir ki, göstərilən xüsusiyyətlər onu ənənəvi dərs modelindən əsaslı şəkildə fərqləndirir.

2. Mətnin məzmunu şagirdlərin anlam səviyyəsinə uyğun olmalıdır.

Didaktikanın müvafiqlik prinsipi əsasında müəyyənləşdirilən bu tələb mətn seçimində və ya tərtibində sinif səviyyəsinin nəzərə alınmasını önə çəkir. Əgər mətnin məzmunu, onun aşıladığı ideya, üslubu və qrammatik quruluşu şagirdin yaş və bilik səviyyəsinə uyğun gəlmirsə, o, gözlənilən təlim nəticəsinin alınmasına gətirib çıxara bilməz. Dil dərsliklərinin təhlili göstərir ki, bəzən müəlliflər mövzunun aktuallığını daha əhəmiyyətli sayaraq, onun şagird tərəfindən mənimsənilmə səviyyəsini arxa plana çəkirlər. Bu isə təlimin yüklənməsinə zəmin yaratmaqla şagirddə məzmunu ona çatmayan mövzunu öyrənmək hissini zəiflədir. Ən mühüm faktlardan biri də budur ki, mətnin dil aydın və anlaşıqlı olmalıdır. Birmənalı şəkildə, çətin mətinlərə müraciət olunmamalıdır. Əgər mətndə qaldırılan problem olduqca aktual sayılıb mənimsənilməsinə ehtiyac duyulursa, onda şagirdin anlam səviyyəsinə uyğun olaraq üzərində adaptə əməliyyatı aparılmalıdır.

3. Mövzu müxtəlifliyi diqqətdə saxlanılmalıdır.

Dil təlimində qarşıya qoyulmuş başlıca vəzifələrdən biri də şagirdlərin milli və bəşəri ruhda tərbiyə olunmasıdır. Şagird milli əxlaqi dəyərlərə yiyələnməklə yanaşı, müasir dünyanın öz rəngarəngliyi ilə seçilən dəyərlərinə də sahib olmalıdır. Ona görə də müraciət edilən təlim materialları eyni tipli olmayıb, müxtəlif baxışları, münasibətləri, dəyərləri təbliğ eləməlidir. Şagird dərk etməlidir ki, cinsindən, irqindən, dinindən, milliyyətindən, sənətindən, yaşından asılı olmayaraq, bütün insanların yaşamaq haqqı var. Bunun üçün görkəmli şəxsiyyətlərin həyat və yaradıcılığını əks etdirən mətn nümunələrinin verilməsi daha məqsədəuyğundur. Mövzu müxtəlifliyi həm də dərslərin bir-birindən fərqli formalarda təşkil olunması üçün müəllimə material verir. Şagirdlərin mədəni səviyyələri, elmi dünyagörüşləri artır, fərd, cəmiyyət, təbiət haqqında məlumat dairələri genişlənir.

4. Üslubi variantlılığa əməl olunmalıdır.

Aydın məsələdir ki, dil bədii mətnlər vasitəsilə daha zəngin çalarlarda ifadə oluna bilir. Dilin bütün gözəlliyi, fonetik, leksik, qrammatik xüsusiyyətləri məhz bədii dil nümunələrində daha qabarıq təcəssüm olunur. Ona görə də dil dərslərində bədii və bədii-publisistik mətnlərə geniş yer verilməsi təbiidir. Lakin fikrin ifadəsində dəqiqlik, konkretlik, yığcamlıq kimi keyfiyyətlərin formalaşması üçün elmi-kütləvi mətnlərə müraciət olunması da səmərəli metodik vasitə kimi dəyərləndirilir. Bundan başqa, dialoji və monoloji nitq nümunələrinin verilməsi də üslubi variantlığı yaradan göstəricilərdəndir. Bu üsullar təlimin kommunikativyönümlü təşkilində olduqca böyük əhəmiyyət kəsb edir. Xüsusilə şəxsi dəyişməklə məzmunun yeni üslubda bərpa edilməsi təlim prosesini canlandıran amillər sırasında qeyd olunur.

5. İnformativ dolğunluq təmin olunmalıdır.

Məlumdur ki, istənilən mətn müəyyən informasiyanı əks etdirir. Mətn seçimində informativ mahiyyət daşıyan məlumatların dolğun, tam olması ona görə vacibdir ki, hər şeylə maraqlanan müasir şagirdin bilik dairəsi geniş və hərtərəfli olsun. Mətn vasitəsilə ötürülən informasiya şagirdi axtarıcılığa sövq edir, ona tədqiqatçılıq bacarığı aşılayır. Mətndə diqqətə çatdırılan problemin əlavə faktlar əsasında daha məzmunlu ifadəsi üçün şagirdlərin informasiya-kommunikasiya vasitələrindən yararlanması dərsdə müstəqil yerinə yetirilməsi vacib olan tapşırıqlardandır və bu istiqamətdə aparılan işlər şagirdlərin təlimə fəal qoşulmasında müstəsna rol oynayır.

Metodik ədəbiyyatda şərh olunan bu və digər metodik tələblərin şərhi göstərir ki, dil təlimində mətn seçimi təlimin keyfiyyətinə həlledici təsir göstərən amillərdəndir. Nitqin fəaliyyət növlərinə uyğun olaraq mətn üzərində aparılan işlər həm də o zaman səmərəli nəticə verir ki, müvafiq dil qaydalarının mənimsənilməsi ilə əlaqələndirilsin. Sözlərin, cümlələrin, abzasların semantik-qrammatik əlaqəsində qurulan mətn dilin daxili quruluşunu əks etdirən ən sadə fakt və hadisələrin şüurlu mənimsənilməsinə münbit zəmin yaradır. Mətnin bu xarakterik xüsusiyyətini nəzərə alan N.A. İppolitova yazır: "Bütün dil vahidlərinin əhəmiyyəti bu vahidlərin mövcudluğu və özünü göstərməsi üçün mətndə gerçəkləşir. Məhz kommunikativ əsasda müəyyən sistemdə birləşən bütün dil vahidləri mətndə kommunikativ əhəmiyyət kəsb edir ki, onların hər biri mahiyyət əlamətlərini daha geniş şəkildə göstərir və bundan əlavə, yeni, mətnyaradıcı xüsusiyyətlərini büruzə verir" (3, 9). Deməli, mətn üzərində iş səs, söz və cümlə kimi əsas dil vahidləri ilə qarşılıqlı əlaqədə yerinə yetirilməli və şagirdlərdə fonetik, leksik, qrammatik (morfoloji, sintaktik) bacarıqların formalaşmasına xidmət edən tapşırıqlar sistemi ilə müşayiət olunmalıdır. Şagirdlərin fonetikaya dair biliklərə söykənən orfoqrafik bacarıqları mətndə məqsədyönlü şəkildə buraxılmış səhvlərin müəyyənləşdirilməsi və aradan qaldırılması, orfoepik bacarıqları isə yazılışı ilə deyilişi arasında fərq olan, eləcə də tələffüz zamanı vurğusu çox zaman dəqiq qoyulmayan sözlərin seçilməsi yolu ilə həyata keçirilir. Leksik bacarıqlar mətndə tanış olmayan sözlərin mənasını anlamaq üçün şagirdin müxtəlif lüğətlərdən istifadəsi, eləcə də kontekstdə kəsb etdiyi semantika ilə bağlı fikir mübadiləsinə girişməsi, irəli sürdüyü mülahizələri sübut etməsi yolu ilə aşılanır və möhkəmləndirilir. Qrammatik bacarıqlar isə cümlələr üzərində sadə və geniş olmaqla morfoloji və sintaktik təhlil nümunələrinin tətbiqi yolu ilə yaradılır. A. Hacıyev bunu nəzərə alaraq yazır:

"Linqvistik bacarıqların aşılanması elə bir prosesdir ki, mətn üzərində müşahidə ilə başlayıb, mətnin dil və üslub xüsusiyyətlərinin səciyyələndirilməsi ilə tamamlanmalıdır. Bu proses mətn→cümlə→söz→cümlə→ mətn sxemində həyata keçirilməlidir" (1, 36). Müasir dil dərslərinin təhlili göstərir ki, mətn üzərində iş prosesini əks etdirən bu sxem müəyyən düzəlişə möhtacdır. Fikrimizcə, mətn üzərində aparılan başlıca işlərdən biri, bəlkə də, ən önəmlisi şagirdin lüğət ehtiyatını zənginləşdirməyə xidmət edən sözlə bağlıdır. Məlumdur ki, dil vahidləri sırasında səs və cümlə ilə müqayisədə söz daha mühüm yer tutur. Şagirdin sözlə işləmək bacarığı ilk növbədə onun mənasını açıqlamaqla mümkün olur. Bu işdə sözün sinonim qarşılığının dəqiqləşdirilib tapılması vacib elementdir ki, bu da onun digər sözlərlə məna əlaqəsini tələb edir. Ona görə də verilmiş sxemi mətn→cümlə→söz→söz→cümlə→mətn şəklində verməyi prosesin daha düzgün ifadə forması sayırıq. Göründüyü kimi, kommunikativyönümlü müasir dərs mətnlə başlayıb, mətnlə də tamamlanır. Lakin onlar arasında böyük fərq var. Belə ki, ilkin mətn informativ məlumatın mənbəyi rolunda çıxış edib hər hansı bir müəllifə məxsusdursa, son mətn variantı şagirdin əqli, hissi fəaliyyəti ilə tərkib hissələrinə ayrılan, özünəməxsus şəkildə dərk olunan və şəxsi yanaşma əsasında yeni formada bərpa edilən mətndir. Bu proses həm dilin daxili quruluşunu əks etdirən qaydaların tətbiqi yolu ilə, həm də şagirdin tənqidi, məntiqi və yaradıcı təfəkkürünün iştirakı yolu ilə yerinə yetirilmiş olur. Təlim prosesində şagirdlərin idrak fəallığı ilə həyata keçirilən müasir dil dərsləri məhz bunu tələb edir ki, mətn vasitəsilə oxu və yazı bacarıqlarının, xüsusilə də linqvistik bacarıqların formalaşmasına ən optimal imkanlar açmış olur.

**Tədqiqatın elmi yeniliyi.** Dil dərslərində istifadə edilən mətn nümunələrinin seçim imkanları müəyyənləşdirilir və bununla da istər dərslik müəllifləri, istərsə də fənn müəllimləri üçün metodik əsaslanma bazası yaradır.

**Tədqiqatın praktik əhəmiyyəti.** Dərslik və dərs vəsaitlərində mətn nümunələrinin işlənilmə səviyyəsini yüksəltməyə xidmət edir.

## ƏDƏBİYYAT

1.Гаджиев А. Вопросы разработки содержания обучения азербайджанскому языку в общеобразовательных школах // Azərbaycan dili və ədəbiyyatı tədrisi, 2014.

2.Гальперин И.Р. Текст как объект лингвистического исследования. Изд. 4-е, стереотипное. М.: КомКнига, 2006.

3.Ипполитова Н.А. Текст в системе обучения русскому языку в школе: Учеб пособие для студентов пед. вузов. М.: Наука, 1998.

4.Kazımov Q. Müasir Azərbaycan dili. Sintaksis: Ali məktəblər üçün dərslik. Bakı: Elm və təhsil, 2010.

5.Ümumi təhsilin fənn standartları (I-XI siniflər). Bakı: Mütərcim, 2012.

**А. Заманова**

## МЕТОДИЧЕСКИЕ ТРЕБОВАНИЯ, ПРЕДЪЯВЛЯЕМЫЕ К ВЫБОРУ ТЕКСТА В ОБУЧЕНИИ АЗЕРБАЙДЖАНСКОМУ ЯЗЫКУ

### РЕЗЮМЕ

Реформа куррикулума, проводимая в общеобразовательных школах, положила начало преподаванию предмета Азербайджанский язык в новом содержании. Это содержание позволяет реализовать ожидаемые от обучения результаты. Для разработки нового содержания были выдвинуты различные подходы, один из которых связан с работой над текстом. В статье раскрываются методические требования, предъявляемые к выбору текста.

**A. Zamanova**

# METHODOLOGICAL REQUIREMENTS FOR SELECTION OF THE TEXT IN TEACHING OF THE AZERBAIJANI LANGUAGE

## SUMMARY

Curriculum reform in secondary schools started beginning of teaching the subject of the Azerbaijani language in new content. This content allows you to realize expecting outcomes from the content of teaching. For the development of new content different approaches had been put forward, one of which is associated with the work on the text. The article describes the methodological requirements for selected text.

# RİYAZİYYATIN TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ TƏDQİQATÇILIQ FƏALİYYƏTİNİN İNKİŞAF ETDİRİLMƏSİNİN İMKANLARI

**İsmət Məmmədova,**
*ARTPİ-nin elmi işçisi*
E-mail: məmmədova@mail.ru

**Rəyçilər:** *dos.* A. Hacıyev,
*dos.* M. İbadova

***Açar sözlər:*** *tədqiqatçılıq, təhsil, təlim prosesi, idrak fəallığı*
***Ключевые слова:*** *исследование, образование, учебный процесс, познавательная активность*
***Key words:*** *research, education, learning process, cognitive activity*

Müasir dünyada Azərbaycanın dünyəvi, demokratik və hüquqi dövlət kimi formalaşdığı bir şəraitdə onun təhsil sisteminin inkişaf etmiş ölkələrin təhsil sisteminə inteqrasiya edilməsi mühüm rol oynayır və təhsildə dəyişikliklərin aparılmasını bir zərurət kimi qarşıya qoyur. Gənc nəslin vətəndaş kimi yetişdirilməsində milli-mənəvi və ümumbəşəri dəyərlərdən istifadə edərək, təkamül yolu ilə təhsil müstəvisində islahatlar həyata keçirir. Ölkəmiz özünün təhsil sistemini dünyanın ən mütərəqqi ölkələrinin təhsil prinsiplərindən istifadə etməklə təkmilləşdirir, insanın həyati bacarıqlara malik bir şəxsiyyət kimi formalaşması istiqamətində səmərəli fəaliyyət göstərir.

Müasir dövrün inkişaf vüsətinə uyğun olaraq, məktəb gənc nəslin həyata hazırlığını elə təmin etməlidir ki, onlar nəinki müasir dövrdən baş çıxara bilsin, hətta gələcək dövr üçün lazım olan bilik və bacarıqlara müstəqil yiyələnməyə xüsusi səy göstərsinlər. Bu, təlim prosesində şagirdlərdə idrak fəallığının inkişaf etdirilməsi ilə bilavasitə bağlıdır. Şagirdlərdə təlimə maraq oyatmadan, ona məsuliyyətli münasibət formalaşdırmadan demokratik cəmiyyətdə yaşamağa qabil olan vətəndaş yetişdirmək mümkün deyildir. Deməli, bu gün müəllimlər qarşısında duran mühüm vəzifələrdən biri məhz ilk növbədə şagirdlərdə təlimə maraq oyatmaqdır.

Riyaziyyata maraq oyatmaq üçün əvvəlcə onun öyrənilməsinin zəruriliyini şagirdlərə dərk etdirmək lazımdır.

Riyaziyyat təliminin səmərəliliyi və keyfiyyəti şagirdlərin yalnız proqram materialını dərindən mənimsənilməsi ilə deyil, həm də şagirdlərin riyazi inkişaf səviyyəsi ilə müəyyən edilir. Riyaziyyat təlimi təfəkkür inkişafı ilə bilavasitə bağlıdır. Akademik M.M. Mehdizadə göstərmişdir ki, "şagirdlərin idrak fəallığı mövqeyi heç də kortəbii surətdə özbaşına formalaşmır. O, həm təlim-tərbiyə prosesində: təlimin müxtəlif metodları və priyomlarını, növləri və təşkilat formalarının mükəmməl və yüksək səviyyədə istifadə edilməsi nəticəsində, həm təlim prinsiplərini ardıcıl tətbiqi nəticəsində, həm də şagirdin "daxili" imkanlarının, o cümlədən maraq və tələbatının istifadə edilməsi nəticəsində formalaşır".

İnkişaf etmiş ölkələrin təhsil təcrübəsi göstərir ki, şagirdlərin tədqiqatçılıq, axtarıcılıq və digər bacarıqlarını inkişaf etdirmək üçün mükəmməl bir sistemin tərkib hissələri olmalıdır. Bu sistemdə isə şagirdi sinifdə təlimin obyekti kimi yox, subyekti kimi qəbul etmək tələb olunur. Şagirdyönümlü təlim metodlarına təlimin inteqrativlik prinsipinə istinad etmək lazım gəlir. Təsadüfi deyildir ki, tərbiyəyönümlülük, nəticəyönümlülük, şagirdyönümlülük prinsiplərinə əsaslanan Azərbaycan Respublikasında ümumi təhsilin Milli Kurikulumu (Nazirlər Kabinetinin 30 oktyabr 2006-cı il tarixli 233 nömrəli qərarı ilə təsdiq olunmuşdur) həmin istiqamətlər üzrə bir sıra baza kompetensiyasının yerinə yetirilməsində mühüm rol oynayır.

Yaradıcı aktlar məhz riyaziyyatla bağlı problem məsələlərin həllində daha çox zahirə çıxır. Problem onunla fərqlənir ki, onun həlli təkmənalı deyildir, onu yaradıcı surətdə axtarmaq lazımdır.

Müəllimin problemlər və problemli məsələlər qoyaraq şagirdləri onların həllinə cəlb etməsi, şagirdlərin isə zərurətə görə onları yaradıcı həll etməsi tədqiqat metodu adlanır. Riyaziyyat

dərslərində problemlər müəyyən məsələlər-mətnlər, praktik və əyani materiallar üzərində qurula bilər.

Problem məsələlərin özündə riyazi biliklər həllin məzmununu, fəaliyyətin istiqamətini müəyyən edir. Fəaliyyətin özünün yaradıcı olması lazımdır. Tədqiqatçılıq metodu problem məsələlərin şagirdlər tərəfindən bütövlükdə həllini nəzərdə tutur.

Tədqiqatçılıq metodunun tətbiqi müəllimdən yüksək səviyyədə pedaqoji ustalıq tələb edir. Bu prosesdə müəllimin məharəti ondan ibarətdir ki, şagirdlərin müstəqilliyini kənar etmədən, onların fikrini lazımi istiqamətə yönəltsin.

Prof. Y. Kərimov təlim prosesində, o cümlədən ayrı-ayrı fənlərin tədrisi prosesində tədqiqatçılıq metodunun mahiyyətini həyatı mövqedən nəzərə çatdırması da xüsusi maraq doğurur: "Tədqiqatçılıq metodu hər hansı tədqiqatçılıq tapşırığı ilə əlaqədar problem şəraiti yaradılanda həlli şagirdlər tərəfindən tapılması mümkün olan problemin qoyulmasını tələb edir.

Problemli şərh və qismən axtarıcılıq metodlarından fərqli olaraq tədqiqatçılıq metodunda elə bir şərait yaranır ki, şagirdlərin hamısı problemin mahiyyətini başa düşür və tədqiqata qoşulur".

Riyaziyyat təlimi prosesində şagirdlərin yaradıcı fəallığının gücləndirilməsi həmişə aktual problem olmuşdur. Riyaziyyat dərslərində istənilən məsələ tipini şagirdlərə təqdim etmək olar. Burada müəyyən bir metodiki sistemə əməl etmək lazımdır.

Riyazi biliklərin şagirdlər üçün həyati əhəmiyyət kəsb edən bacarıqlara çevrilməsi, təlimin inkişafetdirici xarakter daşıması, onun ilk növbədə şagirdin intellektual inkişafına idrak fəallığının artmasına kömək göstərə bilməsi və s. müasir riyaziyyat dərsinin vacib aspektləridir.

Təlim prosesində şagirdyönümlülük şagirdi tədqiqatçı mövqeyinə çıxarır.

Şagirdlərə bilik verməklə yanaşı "öyrənməyi öyrətmək" onları müstəqil iş bacarıqları ilə silahlandırmaq, şagirdləri tədqiqatçılığa alışdırmaq lazımdır.

Sinifdənxaric məşğələlər, ayrı-ayrı tədbirlər proqram materiallarının daha dərindən öyrənilməsini təmin etməklə bərabər, həm də şagirdlərin müstəqilliyini və fikir fəallığını inkişaf etdirir. Onları müəyyən təşəbbüslərlə çıxış etməyə, tədqiqatçılıq fəaliyyəti göstərməyə ruhlandırır.

Tədqiqatçılıq fəaliyyətinin inkişaf etdirilməsi imkanlarından biri riyaziyyat dərnəyinin müxtəlif bölmələrində aparılan işlərdir. Şagirdlərə verilən elmi –tədqiqat xarakterli işlərin onların tədqiqatçılıq qabiliyyətlərinin inkişafında rolu böyükdür. Çünki, şagirdlərin yerinə yetirdiyi tədqiqat xarakterli tapşırıqlarda problemin qoyuluşu, tədqiqatın məntiqi hissəsinin inkişafı kimi məsələlərə toxunulur.

Təhsilin pedaqoji mahiyyətini şagirdlərin məqsədəuyğun tədqiqatçılıq fəaliyyəti təşkil edir. Yeni texnologiyaların elmidə yaratdığı inqilablar, kəşflər sübut edir ki, artıq həyatımızı kompyuter texnologiyasız təsəvvür etmək qeyri-mümkündür. Ən əsası isə İKT təbiət elmləri sahəsində mikroaləmdən makroaləmə qədər olan bütün hadisələrlə bağlı məsələlərə müvəffəqiyyətlə tətbiq olunur. İnternet isə müasir elmi məlumat bazalarına və elmi arxivlərə qısa vaxt ərzində daxil olmağa, müxtəlif istiqamətlərdə axtarışlar aparmağa imkan verir. Müəllimlərin işində metodiki priyomların və şagirdlərlə iş zamanı müxtəlif təşkilatçılıq və tədqiqatçılıq formalarının həyata keçirilməsində ənənəvi metodlarla müqayisədə texnologiyaların üstünlükləri daha çox nəzərə çarpır.

Tədqiqatçılıq fəaliyyətinin inkişafı şagirdləri aşağıdakıları bilməyə sövq edir:

a)öz fikirlərini, mülahizələrini sistemli şərh etməyi, lazım gəldikdə fakt və dəlillərlə onları müdafiə etməyi, müqayisələr, ümumiləşdirmələr aparmağı, hər bir hadisənin şərhinə yaradıcı yanaşmağı;

b)məsələni analiz-sintez etmək qabiliyyətinə malik olmalı, ona verilmiş məsələnin necə həll edildiyini müstəqil araşdırmağı, mühakimə yürütməyi, nəzəri biliklər əsasında proqramlaşdırılmış, kombinə edilmiş məsələlər qura bilməyi;

c)deduktiv əqli nəticələrə gəlmək, fərziyyələr irəli sürməyi, onu elmi cəhətdən əsaslandırmağı, nəticə çıxarmağı və ümumiləşdirmə aparmağı bacarmalı.

Şagirdlərin tədqiqatçılığını səciyyələndirən cəhətlərdən biri də onun müstəqilliyi və fəallığıdır. Fəallığın yaradıcı forması tədqiqatçılıqdır. Verilən tapşırığı yerinə yetirmək üçün yollar

axtarıb tapmaq, bəzən orijinal vasitələr müəyyənləşdirmək bacarığı tədqiqatçılıq üçün səciyyəvi xarakter daşıyır. Yaradıcı fəallıq şagirdin bir şəxsiyyət kimi formalaşmasında mühüm rol oynayır.

Müstəqil işlərin düzgün təşkili təlim məşğələlərinin səmərəli aparılması üçün mühüm şərtlərdən biridir. Müstəqillik şagirdləri tədqiqatçılığa sövq edir, onların yaradıcı qüvvəsini, təşəbbüskarlığını artırır, diqqətini və iradəsini tərbiyə edir.

Tədqiqatçılıq şagirdlərin idrak fəaliyyətini gücləndirir, qarşıya qoyulan problemi araşdırıb həll etmək bacarığı aşılayır.

Yeni texnologiyaların elmdə yaratdığı inqilablar, kəşflər sübut edir ki, artıq həyatımızı kompüter texnologiyalarsız təsəvvür etmək qeyri mümkündür. İnternet müasir elmi məlumat bazalarına və elmi arxivlərə qısa vaxt ərzində daxil olmağa, müxtəlif istiqamətlərdə axtarışlar aparmağa imkan verir.

Şagirdlərlə iş zamanı tədqiqatçılıq formalarının həyata keçirilməsində ənənəvi metodlarla müqayisədə texnologiyaların üstünlükləri daha çox nəzərə çarpır.

**Məqalənin elmi yeniliyi.** Məqalədə riyaziyyat fənninin tədrisində tədqiqatçılıq fəaliyyəti elmi-metodik cəhətdən şərh olunur.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Ümumtəhsil məktəblərində təlim prosesinin səmərəli təşkilində nəzərə alına bilər.

## ƏDƏBİYYAT

1. Mehdizadə M. Ümumtəhsil məktəblərində təlim-tərbiyə prosesinin təkmilləşdirilməsi yolları. Bakı: Maarif, 1982.

2. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı: Nasir, 2007.

**И. Мамедова**

## ВОЗМОЖНОСТИ РАЗВИТИЯ ИССЛЕДОВАТЕЛЬСКОЙ ДЕЯТЕЛЬНОСТИ У УЧАЩИХСЯ В ПРОЦЕССЕ ПРЕПОДАВАНИЯ МАТЕМАТИКИ

### РЕЗЮМЕ

В статье вопросы исследования по курсу математики раскрываются в научно-теоретическом аспекте. Также рассматриваются вопросы влияния исследовательских умений на повышение познавательной активности учащихся в процессе обучения.

**İ.Mammadova**

## OPPORTUNITIES FOR THE DEVELOPMENT OF RESEARCH ACTIVITES OF STUDENTS IN THE TEACHINING OF MATHEMATICS

### SUMMARY

The study of mathematics is investigatcd in the scientific and theoretical aspects in the article. And also the article deal with the impact of rescarh to cognitive activity of students in the learning process.

# СОВРЕМЕННЫЙ ПОДХОД К ШКОЛЬНЫМ УЧЕБНИКАМ

**Динара Асадова,**
*научный сотрудник ИПОАР*
E-mail: sulamif44@rambler.ru
**Инара Джафарова,**
*старший научный сотрудник ИПОАР*
E-mail: inara-asadova@mail.ru

**Рецензенты:** *доц.* А.Х. Гаджиев,
*доц.* М.А. Ибадова

***Ключевые слова:*** *подход, учебник, принцип, куррикулум, содержание, учащиеся*
***Açar sözlər:*** *yanaşma, dərslik, prinsip,kurikulum,məzmun,təhsilalanlar*
***Key words:*** *approach, textbook,principle,curiculum,content,pupil*

Компетентный подход в образовании определяет необходимость существенного обновления научно-методического обеспечения образовательного процесса школы. Необходима работа по созданию нового поколения учебников и учебных пособий, ориентированных не только на информативную составляющую, но, в большей степени, на разработку содержания организации самостоятельной работы учащихся, на использование интерактивных форм образовательного процесса.

Современный учебник – это, прежде всего, инструмент организации учебной деятельности учащихся. Учебник должен быть ориентирован на технологию поэтапного освоения и углубления знаний. В учебнике следует учитывать методологию самостоятельного освоения знаний.

Учебник должен представлять собой единство научно-аналитического, дидактического и методического начал. Он дает учащемуся свод базовых знаний по всему кругу общественной проблематики, утвержденной государственным образовательным стандартом, включает научный и методический аппарат, призванный с помощью задач и упражнений закрепить пройденный материал, творчески усвоить понятия и теории, применить их к решению конкретных жизненных ситуаций.

Современный учебник должен быть ориентирован на компетентный подход, т.е. четко указывать, какие фундаментальные знания, в каком объеме и в каких разделах читатель приобретает, какие практические навыки и умения он развивает в процессе работы по этому пособию. Работа над учебником должна начинаться не с определения объема фактов и теоретико-методологических положений, составляющих концептуальную основу текста, а с решения вопроса о том, чему может научить эта книга и какими средствами можно достичь запланированной цели.

Следующим подходом, который следует учитывать при составлении учебника, является личностно ориентированный подход. Он предполагает учет индивидуальных особенностей школьников, что обеспечивает учет социокультурных особенностей, эмоционального состояния, организацию самостоятельной работы, в ряде случаев ограничение роли учителя. Все это отражается в заданиях, представленных в учебнике.

Эффективным научным методом, способствующим целостному познанию окружающей действительности, является системный подход. В процессе движения познания «от простого к более сложному», от «конкретного к абстрактному» происходит его углубление и содержание.

Традиционным для системы обучения является и структурный подход, при котором система разбивается на функциональные подсистемы, которые в свою очередь делятся на подфункции, подразделяемые на задачи и т.д.

Современные учебники должны соответствовать требованиям курикулума и отбор содержания обучения должен проводиться с учетом образования, ориентированного на результат. Только многоуровневые учебники и учебно-методические комплексы, сконструированные в компетентностном ключе, позволяют организовать разноуровневое и дифференцированное обучение.

Учебник - книга или другой носитель информации, в которых содержится систематический учебный материал, необходимый для организации образовательного процесса по определенному учебному предмету. Это важнейший организатор образовательной деятельности.

Традиционно учебник выполняет две основные функции: 1) является источником учебной информации, раскрывающей в доступной для учащихся форме предусмотренное образовательными стандартами содержание; 2) выступает средством обучения, с помощью которого осуществляется организация образовательного процесса, в том числе и самообразование учеников.

Задачи учебника заключаются в следующем: а) обучить школьников правилам пользования научными инструментами, теориями и методами, б) сформировать аналитическое мышление школьника способность самостоятельно разбираться в существе вопроса, подготовиться к будущей профессиональной деятельности, в) воспитать социально активную личность, имеющую гуманистическое мировоззрение и способную отстаивать демократические идеалы и защищать патриотическую позицию, г) подготовить ребенка к жизни во взрослом мире, предоставив исчерпывающую информацию об окружающем обществе.

Современный учебник – это прежде всего инструмент организации учебной деятельности школьников. Учебник должен быть ориентирован на технологию поэтапного освоения и углубления знаний. В учебнике следует учитывать методологию самостоятельного освоения знаний.

В нем должны присутствовать три составляющие: дидактика, психология, методика:

- учебник излагает фундаментальные знания по предмету (чему учить);
- учебник соответствует психологическим и возрастным особенностям школьника.
- разнообразные виды деятельности.

В учебнике должно быть использовано проблемное изложение материала, соблюдено оптимальное соотношение между научностью и доступностью.

В соответствии с требованиями принципа научности все проводимые в учебнике факты должны быть достоверными, знакомить с методами научного познания окружающего мира.

В учебнике должна быть изложена система знаний по учебному курсу, дано критическое осмысление материала, ценностные представления о фундаментальных научных понятиях. Должен быть сбалансирован теоретический и практический материал, показано, как полученные знания могут быть использованы на практике.

Знания в учебнике должны быть представлены в определенной логической системе, удовлетворяющей принципам преемственности и последовательности.

Для осуществления принципа систематичности обучения необходимо изложение в учебнике научных фактов, гипотез, теорий в определенной логической системе, определения с помощью учебника обоснованной последовательности овладения умениями и навыками.

Учебник должен быть доступен для обучающегося конкретного возраста, соответствовать достигнутому уровню знаний, умений и навыков, сформированных у обучающегося к моменту использования учебника. Он также должен быть пригоден к применению современных методов и организационных форм обучения.

Структурными компонентами учебника должны быть текст (основной, дополнительный, пояснительный) и внетекстовые компоненты (иллюстративный материал, аппарат организации усвоения, аппарат ориентировки).

Число незнакомых терминов на единицу текста (устного или письменного) не должно превышать определенной, эмпирически установленной величины. Считается, что в предложении должно быть не более 15-20 слов. Для повышения понятности предложений целесообразно уменьшать в них число придаточных предложений, причастных и деепричастных оборотов, а также определений и наречий. Связанные между собой слова следует помещать в предложении ближе друг к другу.

При использовании специализированных терминов следует давать их четкое и правильное определение, а также перевод иностранных слов, составить указатель терминов, разработать систему вопросов и заданий для работы с терминами.

Учебник нового поколения - это учебник для компетентностно- ориентированного обучения. Он должен быть направлен, прежде всего, на ребенка: учитывать, с одной стороны, его возрастные возможности, с другой – требования современности. Учебник должен стать книгой, созданной самим учеником в процессе открытия и получения знаний: это значит, что «пустые страницы» в учебнике ученик будет заполнять своими собственными «открытиями». Для личностного развития школьник должен быть постоянно включен в исследовательскую деятельность. В связи с этим необходимо совершенствовать дидактическую систему учебника, в ней должны быть отражены интерактивные методы обучения. Необходимо изменить вид заданий: отказаться от системы репродуктивных упражнений, основу содержания учебника должно составлять решение практических задач и жизненных ситуаций, развивающие личностный опыт ученика.

Современный учебник должен быть направлен на коммуникацию ученика не только с одноклассниками, но и с людьми, живущими с ним в одной стране. Для этого нужно предусмотреть задания с использованием ресурсов Интернета.

Я считаю, что учебник должен способствовать развитию ключевых компетентностей учащихся – готовности учащихся использовать усвоенные знания, умения и способы деятельности на уроках в реальной жизни для решения практических задач. Информация в нем должна быть научно – достоверной и соответствовать современным требованиям науки, должно осуществляться проблемное изложение материала, обучение должно быть развивающим, т.е. должен осуществляться деятельностный подход.

Конечно же, современные учебники должны стать настоящим помощником ученику в овладении новыми знаниями и навыками, в которых будут воплощены идеи модернизации образования. Хотелось бы, чтобы такой учебник способствовал развитию ключевых компетенций учащихся - готовности учащихся использовать усвоенные знания, умения и способы деятельности на уроках, в реальной жизни. Хотелось бы, чтобы в учебниках была как обязательная часть, так и вариативная, чтобы были предусмотрены проверочные работы, тренинговые упражнения и, чтобы учебный материал был нацелен на создание образовательной среды, способствующей социально - личностному, познавательному развитию каждого ребёнка и сохранению его индивидуальности. А ещё - учебник должен быть в удобном формате для детей.

В учебнике должен быть сбалансирован теоретический и практический материал. Учебник должен быть пригоден к использованию современных методов обучения, направлен на развитие коммуникативных умений и навыков обучающихся, критического мышления. Изложение материала должно иметь личностно-ориентированный характер.

**Актуальность проблемы.** Современные учебники должны соответствовать требованиям курикулума и отбор содержания обучения должен проводиться с учетом образования, ориентированного на результат. Только многоуровневые учебники и учебно-

методические комплексы, сконструированные в компетентностном ключе, позволяют организовать разноуровневое и дифференцированное обучение.

**Новизна проблемы.** Школьный учебник должен включать характеристику методов получения и использования знаний в конкретной области, методологические основания базовых законов и закономерностей функционирования и развития отраженной в нем области знания или сферы деятельности, ключевые проблемы и важнейшие тенденции развития этой науки или сферы деятельности.

**Практическая значимость.** Учебник должен способствовать развитию ключевых компетентностей учащихся – готовности учащихся использовать усвоенные знания, умения и способы деятельности на уроках в реальной жизни для решения практических задач.

## ЛИТЕРАТУРА

1.Журавлев И.К. Дифференциация обучения средствами учебника// новые исследования в педагогических науках, 1990.

2. Зуев Д.Д. Школьный учебник. М.: Педагогика, 1983.

3. Кондратенко Е.В. проблема школьного учебника // Педагогика.

1999, № 4

4. Хуторской, А.В. Место учебника в дидактической системе // Эйдос 2005. http://www.eidos.ru/journal/2005/0608.htm

**D. Əsədova, İ. Cəfərova**

## ORTA MƏKTƏB DƏRSLIKLƏRINƏ MÜASIR YANAŞMALAR

## XÜLASƏ

Məqalədə orta məktəb dərsliklərinə müasir yanaşmalar öz əksini tapmış, dərsliyin hazırlanmasında kurikulumun tələblərinin nəzərə alınmasınının vacibliyi qeyd olunmuş, onun vazifələri, tərtibi prinsipləri açıqlanmışdır.

**D. Asadova, I. Djafarova**

## MODERN APPROACHES TO SECONDARY SCHOOL TEXTBOOKS

## SUMMARY

The article deals with modern approaches to textbooks. It notes the importance of taking into consideration the curriculum content while preparing the textbook and describes its tasks and principles.

# RİYAZİYYATIN TƏLİMİ PROSESİNDƏ FƏNLƏRARASI ƏLAQƏLƏRİN REALLAŞDIRILMASI

**Xalidə Həsənova,**
*dosent*
**Məftun Heydərova,**
*riyaziyyat üzrə fəlsəfə doktoru*
**Könül Bədəlova,**
*assistent*
*Sumqayıt Dövlət Universiteti*
E-mail: novreste1982@box.az

**Rəyçilər:** *prof.* A.S.Adıgözəlov,
*dos.* N.R. Abbasov

***Açar sözlər:*** *fənlərarası əlaqə, tədris predmeti, təlim işləri*
***Ключевые слова:*** *межпредметная связь, учебный предмет, учебная деятельность*
***Key words:*** *intersubject communications, academic subject, learning activities*

Elmlər arasında əlaqələrin olması, o cümlədən, ibtidai siniflərdə öyrədilən riyaziyyat və digər tədris fənləri arasında əlaqənin varlığı çoxdan məlumdur. Elmlər arasında qarşılıqlı təsir və əlaqələrin mövcudluğu onların əsası olan məktəb fənlərinin əlaqəsinə zəmin yaradır. Məktəbdə tədris olunan bütün fənlər, o cümlədən, riyaziyyatın ibtidai kursu, həyat bilgisi, Azərbaycan dili, və s. fənləri arasında əlaqənin varlığı və əhəmiyyəti şübhəsizdir. Hal-hazıra kimi problemlə bağlı konkret olaraq tədqiqat aparılmamışsa da, amma digər tədris fənləri arasındakı əlaqəyə həsr olunmuş xeyli pedaqoji və metodiki ədəbiyyat var. Təlim-tərbiyə prosesinin qarşılıqlı əlaqədə olan komponentlərinə həm ayrılıqda, həm də sistemli, əlaqəli şəkildə diqqət yetirilməsi, bunun üçün müxtəlif forma və üsulların tətbiqinin əhəmiyyətinə aid fikirlərə Y.A. Komenski, Con Lokk, A.V. Disterverq, İ.F. Herbart, K.D. Uşinski, A.S. Makarenko və b. əsərlərində rast gələ bilərik. Məsələn, didaktikanın əsasını qoymuş dahi çex pedaqoqu Y.A. Komenski deyirdi: “Qarşılıqlı əlaqədə olan hər şey bu cür əlaqədə də öyrədilməlidir”. Predmet və hadisələrin üzvi əlaqədə öyrənilməsi, araşdırılması məzmunun açılmasını reallaşdırır. Con Lokkun fikrincə, “bir predmetin məzmununun digər predmetin element və faktları ilə doldurulması üsulu nəinki elmlərin əsasına yiyələnməyə, həm də uşağın hiss və hərəkətlərinin formalaşmasına, bacarıq və vərdişlərin inkişafına, həyatın müxtəlif sahələri haqqıda biliklərin hərtərəfli olmasına kömək edir”. Y.A. Komenskinin və Con Lokkun bu ideyaları İ.Herbart, A. Disterverq və K.D. Uşinski tərəfindən inkişaf etdirilir. Belə ki, Herbart fənlərarası əlaqə zəruriliyini psixoloji amillərlə əsaslandırmağa cəhd göstərmişdir. A. Disterverq məktəbdə bütün tədris olunan predmetlərin sistematik, əsaslı öyrənilməsində fənlərarası əlaqələrin zəruriliyini qətiyyətlə qeyd edir. Fənlərin əlaqəli tədrisi probleminə klassik pedaqoqlardan olan K.D. Uşinski daha böyük əhəmiyyət vermiş, ana dilinin başqa fənlərlə əlaqəli tədrisi hələ çox-çox əvvəllər onun diqqətini cəlb etmişdir. Uşağın təhsili və inkişafında ana dilinin rolunu düzgün qiymətləndirən K.D. Uşinski bu problemə xüsusi diqqət verirdi. Sxolastik tərzdə gedən təlim işlərini tənqid edərək, o qeyd edirdi ki, belə təlimin nəticəsində şagirdin başında hərc-mərclik əmələ gəlir, öyrənilmiş anlayışlar, hətta ideyalar “onun başında elə cansız şəkildə düzülür ki, elə bir rəvayətə görə donub qalmış qaranquşlardır”; onların biri o birinin yanında yıxılıb qalıb, amma birinin o birindən xəbəri yoxdur; bunun kimi də bir-birinə çox həmcins olan ideyalar, əslində, belə tutqun başda on illərlə qalır və bir-birini görmürlər.

K.D. Uşinski təkidlə məsləhət görürdü ki, tədris sistemində sistemsizliyə qarşı, başqa biliklərlə əlaqəsizliyə qarşı mübarizə aparılsın, sistemlə öyrətmək təmin olunsun. Fənlərin

sistematik surətdə öyrənilmə zəruriyyəti ideyasını irəli sürməklə yazırdı: "Əlbəttə, ancaq səmərəli, fənnin öz mahiyyətindən doğan sistem biliklərimiz üzərində bizim tam hakimiyyətimizi təmin edə bilər. Pərakəndə, əlaqəsiz biliklərlə doldurulan baş elə bir anbara bənzəyir ki, orada hər şey qarma-qarışıq haldadır və onun sahibi belə istəyini tapa bilmir; biliklə deyil ancaq sistemlə yüklənən baş isə elə bir dükana bənzəyir ki, orada hər yeşik üzərində əşyanın qiyməti yazılmış, amma yeşiklər boşdur". Belə bir vəziyyətdən uzaq olmaq üçün Uşinski görün nə məsləhət verir: "Həqiq pedaqogika bu hər iki ifratçılıqdan qaçaraq şagirdlərə bilik verir və onu topladıqca da sistemə salır. Bilik nə qədər çox çeşiddə toplanarsa, sistem də bir o qədər yüksək olur və nəhayət, məntiqi və fəlsəfi müddəaların mücərrədlik dərəcəsinədək çıxır, şagirdlərin başında belə dünyagörüşünün əmələ gəlməsində, əlbəttə, fənn müəllimlərinin hamısı iştirak edir..."

Fənlərarası əlaqənin əhəmiyyətinə dair Uşinskinin bu açıq fikrinin heç bir izahata ehtiyacı yoxdur. Aydın olur ki, müxtəlif mənbələrdən alınan biliklər arasında sıx əlaqə yaratmaq, bilikləri səmərəli sistemə salır, onları "məntiqi fəlsəfi müddəalara" çatdırır, şagirdlərin başında "dünyagörüşü yaranmasını" təmin edir və bu işdə bütün müəllimlərin iştirakı tələb olunur.

Lakin bu prosesdə Uşinski, təbiət fənlərinin, o cümlədən riyaziyyatın digər fənlərlə əlaqəli tədrisinə toxunmur, fənlərarası əlaqədə mühüm rolu ana dilinin tədrisi üzərində: "şagirdlərə verilən bütün bilikləri xülasə etmək, onları müntəzəm məntiqi sistemə salmaq vəzifəsi düşür, çünki doğma dil, elə bir mənəvi libasdır ki, insan şüurunun həqiqi mülkiyyəti olmaq üçün, bütün biliklərin boyuna biçilir".

Hələ vaxtilə bu problem məşhur Azərbaycan maarifçisi Həsən Bəy Zərdabinin də diqqətini cəlb etmiş, o göstərmişdir ki, məktəbdə əl əməyi təlimini başqa elmlərin tədrisi ilə paralel aparmaq lazımdır. Bu iki proses bir-birini tamamlamalıdır.

A.S. Makarenko tədris fənləri arasında əlaqənin süni xarakter daşıdığını qeyd etmiş və onun əleyhinə çıxmışdır. O, hətta təlimin istehsalatla əlaqələndirilməsi üçün xüsusi səy göstərməyin zəruri olmadığını bildirirdi. Kompleks proqramların əleyhdarı olan A.S. Makarenkoya elə gəlirdi ki, hər cür əlaqə səyi "kompleksin qalığıdır". O, əlaqənin şagirdlərin şüurunda öz-özünə yaranacağını söyləyərkən təlim və iş zamanı bu sahədə xüsusi təşəbbüs göstərməyi yersiz hesab edirdi.

A.S. Makarenkonun bu ideyası pedaqoq M. Muradxanovun diqqətini cəlb etmiş və o göstərmişdir ki, fənlərarası əlaqə problemini nəzərən qəbul etməyən A.S. Makarenko öz nəzəriyyəsinin əleyhinə olaraq, F.E. Dzerjinski adına komunada belə əlaqə xatirinə tədris planına xüsusi fənlər (hidrodinamika, aerodinamikavə s.) daxil edilmişdir.

A.S. Makarenkonun bir fənnin təliminin başqa fənlərlə süni şəkildə əlaqələndirilməsi əleyhinə çıxması pedaqoji cəhətdən əhəmiyyətli olsa da, hər cür əlaqəni inkar etməsi, politexnizm ideyasına aid idi.

XX əsrin 60-cı illərindən başlayaraq fənlərarası əlaqə problemi yeniden gündəmə gəlir. Sovet pedaqoqları A.K. Qonçarov, İ.F. Yesipov, İ.T. Oqorodnikov, M.N. Skatkin, N.A. Loşkaryeva, L.V. Zankov, P.R. Atuşov, K.L. Korolyova, İ.D. Zveryev, Q.F. Federes, V.N. Fyodrova, V.M. Korotov və b. tədris planının tətbiqi ilə bağlı, orada fənlərin yeri və əlaqəsi haqqında qiymətli fikirlər söyləmişlər. M.N. Skatkin və L.V. Zankov şagirdlərin bilik və bacarıqlarından qarşılıqlı əlaqəli və münaqişəli şəkildə istifadəyə onların biliklərindən formalizmin aradan qaldırılmasında bir vasitə kimi baxılır. Q.F. Federes yazır: "Fənlərarası əlaqələr probleminə maraq 60-cı illərdən başlayaraq aşağıdakı səbəblərdən yenidən artır:

a) 60-cı illərdə meydana gələn elmi-texniki inqilab insan fəaliyyətinin bütün tərəflərinə o cümlədən xalq təhsilinə və pedaqoji elmlərə qarşı yeni tələblər irəli sürür;

b) Elmin, texnikanın, istehsalatın intensiv, yeyinləşən və qarşılıqlı nüfuzu baş verir;

c) İstehsalat, elmi və sosioloji problemlərin həllinə kompleks yanaşma tətbiq olunur;

ç) Bir neçə elmin kəsişməsində tez-tez yeni kəşflər edilir;

d) İctimai və təbiət elmlərinin növbəti qarşılıqlı qovuşması və qarşılıqlı zənginləşməsi baş verir;

e) Elmi biliklərin diferensiasiya və interqasiya prosesi dərinləşir.

Müasir rus pedaqoji ədəbiyyatında (Z.A. Şamsutdinova, N.N. Sotnikova, Q.F.Federes, R.N. Novikov və E.E. Minçenkov) fənlərarası əlaqələr əsasında tədris fənninin məzmununa yiyələnmənin 3 yanaşma tərzi nəzərə çarpır:

1) fənlərarası əlaqədar tədris materialının ardıcıllığının öyrənilməsinin və məzmununun təyin olunmasının əsasını təşkil edir;

2) tədris predmetinin məzmunu fənlərarası əlaqələrdən yaranmış olur;

3) tədris prosesində fənlərarası əlaqələr həyata keçirilir.

Q.F. Federes, E.E. Minçenkov və P.N. Novikovun fikrincə, "birinci və ikinci yanaşmalar tədris predmetinin məntiqini və məktəbin tədris planının məzmununun sistemi pozur, fənlərarası əlaqələr ideyasını fetişləşdirir". Q.F. Federes yazır: "Daha perspektiv üçüncü yanaşmadır. Bununla bərabər, burada da böyük əkəriyyət tədris materialının hərtərəfi öyrənilməsi problemini fənlərarası əlaqələrin tədris predmetindəki obyektiv, zəruri, əhəmiyyətli, aparıcı ideyaların köməyi ilə həll etmir, özlərini həm yaxın məqsədlərlə, həm də həcm və qohumlu fənlərarası əlaqələr cərəyanı ilə məhdudlaşdırırlar".

Göstərilən müəlliflərin ideyalarının təhlilindən görünür ki, fənlərarası əlaqələrin əhəmiyyəti aşağıdakı mövqelərdən irəli gəlir: a) tədris fənlərinin məzmunundakı müxtəlif əlaqələr gerçək aləmin prosesləri, hadisələri və obyektləri arasında real mövcud olan əlaqələrin əksini təşkil edir; b) məktəbdə elmi biliklərə yiyələnmə hazırda hər tədris fənninin sonradan tədris mövzularına parçalanan tədris məzmununu predmet quruluşuna əsaslanır; c) tədris məzmununu hər bir sistem vahidi özünün əsaslı mövqeyinə malikdir.

Bu barədə başqa mənbələrə də müraciət etmək olardı, lakin buna ehtiyac yoxdur. Pedaqoji elmdə fizikanın, riyaziyyatın, kimyanın və s. digər fənlərlə əlaqəli tədris problemi çoxdan məlumdur. Mütərəqqi klassik pedaqogikanın ən böyük xidmətlərindən biri də ondan ibarət olmuşdur ki, həmin problemi vaxtında irəli sürüb, onun əhəmiyyətini çox açıq və aydın şərh etmişdir. Lakin, vaxtaşırı yeniləşən təhsilin, o cümlədən ibtidai təhsilin məzmunu riyaziyyatın digər fənn bilikləri̇lə əlaqəli tədrisi problemini tədqiq etmənin perspektiv yollarını işləyib tam şəkildə hazırlaya bilməmişdir. Çünki problemin aktuallığına baxmayaraq nə sosial şərait, nə də metodika elminin özünün səviyyəsi bunun üçün lazımi şərait yarada bilməmişdi. Fənlərarası əlaqə həmişəyaşar problem olaraq qalmış və qalmaqdadır.

Hazırki tədris prosesində isə fənlərarası əlaqə imkanlarına yenidən nəzər salmanın vacibliyi ibtidai siniflərdə riyaziyyat ilə digər tədris fənləri, o cümlədən həyat bilgisi, Azərbaycan dili və s. arasındakı problemin mahiyyətinə daha obyektiv diqqətin yetirilməməsi ilə əlaqədardır. Ona görə də biz, ilk növbədə növbəti yarımfəsillərin birində ibtidai məktəb riyaziyyat kursunun digər fənn bilikləri̇lə əlaqəli tədrisinin mahiyyətini açmağa, onun ədəbiyyatda öz əksini necə tapmasını araşdırmağa çalışacağıq.

Müasir pedaqogika bu problemin həlli ilə istər təbii, istərsə də anlayışlar arasında dialekt əlaqənin mövcud olmasına istinad edərək məşğul olmağa başladı. Beləliklə, orta məktəb fənnləri arasında olan əlaqə az-çox işıqlandırılmış oldu (A.K. Abbaszadə, M.M. Mehdizadə, Ş.T. Tağıyev, Q.B. Bəylərov, Q.B. Bəylərov, Q.T. Tağıyev və b.).

Biz bu problemin sovet pedaqogikası və metodikasında həll olunması tarixi üzərində dayanmaq istəmirik, çünki bunu işıqlandıran xüsusi icmallar da mövcuddur.

Bu icmallardan məlum olurdu ki, sovet məktəbinin inkişafının müxtəlif mərhələlərində fənlərarası əlaqə məktəbin qarşısında duran əməli və nəzəri məsələlərin həllinə xidmət etmişdir.

Milli istiqlaliyyət qazandıqdan, məktəblərimizdə təhsilin yeni məzmununa keçdikdən sonra isə son illərdə fənlərarası əlaqə problemi bütün varlığı ilə pedaqoji ictimaiyyətin qarşısına qoyulmuş, bu sahədə müəyyən rol oynamağa nail olmuşdur. Lakin bu gün onu ibtidai siniflərdən başlayaraq daha da təkmilləşdirməyə ehtiyacı vardır. Bu da çox aydındır, ona görə ki, təlimin millilik və müasirlik baxımından ideya-nəzəri səviyyəsini yüksəltmək üçün bütün ehtiyatda olan imkanlar, o cümlədən 1-ci siniflərdən başlayaraq riyaziyyatın tədrisində fənlərarası əlaqənin təkmilləşdirilməsi səfərbər edilməlidir.

**Problemin elmi yeniliyi.** Məqalədə elmlər arasında əlaqələrin olması, ibtidai siniflərdə öyrədilən riyaziyyat və digər tədris fənləri arasında əlaqənin varlığı göstərilmişdir.

**Problemin praktik əhəmiyyəti.** Məqalədə tədris predmetinin məzmunu fənlərarası əlaqələrdən yaranmış olur.

**Problemin aktuallığı.** Fənlərarası əlaqələr tədris materialının ardıcıllığının öyrənilməsinin və məzmunun təyin olunmasının əsasını təşkil edir.

## ƏDƏBİYYAT


1. Həmidov S.S., Səmədzadə F.N. Azərbaycanda ibtidai riyazi təşkilin inkişaf mərhələləri. Bakı: ADPU, 2005.
2. Əlizadə Ə.Ə. Təxəyyül. Dərslik. Bakı: ADPU, 2006.
3. Əlizadə Ə.Ə., Bayramov Ə.S. Psixologiya, Bakı: BDU, 2006.
4. Цветкова Л.С. Актуалные пролбемы нейропсихология детского возроста. Учебно-методическое пособие. М.: Просвещение, 2001.


**Х. Гасанова, М. Гейдарова, К. Бадалова**

## ПЕДАГОГИЧЕСКИЕ-ПСИХОЛОГИЧЕСКИЕ ОСНОВЫ УВЕЛИЧЕНИЯ ПОЗНАВАТЕЛЬНЫХ СПОСОБНОСТЕЙ УЧАЩИХСЯ

### РЕЗЮМЕ

В статье говорится о давно известной связи между обучением математики в начальных классах и другими учебными предметами. Взаимное влияние и связь между науками создает почву для взаимосвязи школьных предметов. Несомненно, связь между всеми предметами, преподаваемыми в школе, в том числе начальный курс математики, познание мира, азербайджанский язык, имеет большую значимость.

**Xh. Hasanova, M. Heydarova, K. Badalova**

## INCREASE STUDENTS' COGNITIVE ABILITIES PEDAGOGICAL-PSYCHOLOGICAL BASES

### SUMMARY

The relationship between mathematics and other subjects taught in primary school teaching has long been known of the existence of the article. Scientific relations and mutual influence between school subjects is ground into existence the basis of their relationship. All subjects taught in courses in mathematics, the azerbaijani language, and other subjects, life skills is no doubt the existence and importance of the relationship between the schools, including primary.

# MƏKTƏB KİMYA EKSPERİMENTİNİN KOMPONENTLƏRİ

**Bəhruz Məmmədov**,
*Naxçıvan Dövlət Universitetinin dosenti*

***Açar sözlər**: məktəb, kimya, eksperiment, komponent*
***Ключевые слова**: школа, химия, эксперимент, компонент*
***Key words**: school, chemistry, exsperiment, komponenis*

**Rəyçilər**: *prof.* Ş. Əlizadə,
*dos.* M. Fərəcov

Məktəb kimya eksperimenti şagirdlər üçün praktik bacarıq və vərdişlər qazanması naminə idrak prosesinin tərkib hissəsidirsə, müəllimlər üçün təlim prosesinin vasitəsidir. Kimya təlimi prosesində eksperimentdən daha effektli istifadə etmək üçün təcrübənin təşkili məqsədi ilə müəllim müəyyən sistem tədbirlər, xüsusilə, nümayiş eksperimentinin təşkilində aşağıdakı tədbirlər sistemini həyata keçirir [1, 27]:

1) müəllim psixoloji və pedaqoji tədbirləri ciddi və ardıcıl surətdə yerinə yetirir;

2) eksperiment keçirərkən şagirdləri şüurlu fəaliyyətə cəlb etmək üçün düzgün metod seçir.

Əgər birinci sistem tədbirlər (görünüşlük, əyanilik, cəlbedicilik) nümayişin təşkilinə və nümayiş qurğusuna aiddirsə, ikinci sistem tədbirlər bilavasitə təcrübənin rolu və məzmunu ilə bağlıdır. Laboratoriyada eksperimentin keçirilməsi zamanı müəllim tərtib edilmiş təlimat əsasında şagirdlər tərəfindən işin müstəqil yerinə yetirilməsini təşkil edir və lazım gələrsə kömək göstərir. Bu təşkilati tədbirlərlə yanaşı, müəllim təcrübənin effektli aparılması üçün tədris prosesində eksperimentin yerini müəyyənləşdirir və şagirdlərdə elmi-axtarıcılıq qabiliyyətlərini inkişaf etmək məqsədilə müxtəlif üsullardan istifadə edir.

Deyilənlərdən aydın olur ki, tədris prosesində eksperimentdən istifadə etmək üçün, onun təşkili ilə yanaşı yeri, rolu və quruluşu metoduna dair məsələlər də həll olunmalıdır.

Məktəb kimya eksperimenti aşağıdakı kimi qurulur:

a) öyrədilən tədris materialında eksperimentin rolu və yerini müəyyənləşdirərək seçilmiş tədris metodlarına uyğun olaraq onu şərh etmə sisteminə daxil etmək;

b)seçilmiş şəraitdə şagirdlərin inkişaf səviyyəsinə uyğun olaraq eksperiment vasitəsi ilə öyrənilən hadisəni ayırd etmək.

c) öyrəniləcək hadisəni tədqiq etmək üçün tətbiq edilən metodun məzmun və məqsədini müəyyənləşdirmək;

ç) cihazları qabaqcadan qurğuda yerləşdirməklə eksperimenti ardıcıllıqla aparmaq və təhlükəsizlik texnikası qaydalarına riayət etmək;

d) eksperimentin yekunlarını təhlil etmək və nəticə çıxarmaq.

Kimyanın tədrisində eksperimentdən, xüsusilə laboratoriya işlərindən düzgün istifadə etdikdə şagirdlərdə şüurlu intizam, əməyə məhəbbət, məsuliyyət hissi, kollektivçilik və yoldaşlıq həmrəyliyi, inadkarlıq, iradə möhkəmliyi, səliqəlilik, diqqətlilik, əmək mədəniyyəti və estetik zövqün tərbiyə edilməsində böyük rol oynayır.

Eksperimentin məktəbdə müvəffəqiyyətlə təşkili bir sıra şərtlərdən asılıdır. Ən başlıcası müəllimin eksperimentin təşkilinə hazır olmasıdır. Təsadüfi deyildir ki, D.Tindal demişdi: «Eksperimentin aparılması məharəti təbii qabiliyyət deyildir. O, təmrin nəticəsində təkmilləşir». Eksperimentdən məharətlə istifadə vərdişi ardıcıl təmrin zamanı yaranır və inkişaf edir. Ona görə də hər bir kimya müəllimi kimyanın tədrisində məharətlə eksperiment nümayiş etdirmək üçün təmrindən çox istifadə etməlidirlər.

Kimya eksperimenti zamanı şagirdlərdə müşahidəçilik qabiliyyətini və təfəkkürü inkişaf etdirməkdən ötrü müqayisə metodundan istifadə edilməsi məqsədəuyğundur. Kimya eksperimenti

böyük dərk etmə əhəmiyyətinə malik olub, istehsalatın öyrənilməsi prosesidir. Bu məzmunda bütün məktəb təcrübələri iki qrupa bölünmüşdür: 1) bilvasitə istehsalat məzmunlu təcrübələr; 2) bilavasitə istehsalat məzmunlu təcrübələr.

Birinci qrup təcrübər üzrə kimya istehsalatı ilə əlaqəsi olmayan təsəvvür və anlayışlar formalaşır. Həmin təsəvvür və anlayışlar kimya istehsalatını öyrənmək üçün baza rolunu oynayır.

Bu cür təcrübələri iki qrupa bölmək olar: 1) kimya istehsalatına uzaq münasibətdə olan təcrübələr; 2) kimya istehsalatına yaxın münasibətdə olan təcrübələr.

Bu təcrübələr əsasında kimya istehsalatının qanunauyğunluqları müşahidə edilir. Birinci və ikinci qrup təcrübələr arasında müəyyən əlaqə mövcuddur. Şagirdlər mövzunu yadlarına salmaq məqsədilə birinci növ əlaqədən istifadə edirlər. Kimya istehsalatını öyrənərkən dolayı yolla əlaqəsi olan kimya istehsalat məzmunlu təcrübələrdir ki, əvvəllər özləri icra etmiş və ya müəllim tərəfindən nümayiş edilərək yada salınır. Sonra müəllim kimya istehsalatı ilə əlaqəsi olan bilavasitə həyat məzmunlu təcrübə nümayiş edir.

İkinci növ əlaqə dolayı yolla aparılmış təcrübə ilə bilavasitə həyat məzmunlu təcrübələr arasında meydana çıxır. Belə təcrübələrdən o vaxt istifadə edilir ki, şagirdlər həyat məzmunlu təcrübələri əsaslı şəkildə unutmuş olsunlar. Bu təcrübələr vasitəsi ilə şagirdlər kimya istehsalatında gedən kimyəvi prosesləri öyrənmək üçün təcrübə qazanırlar.

Üçüncü növ əlaqə bilavasitə təcrübədən kimya istehsalatının öyrənilməsi üçün həyat məzmunlu təcrübələrə keçməkdən ibarətdir. Bu halda, şagirdlər kimya istehsalatı haqqında çox da dərin olmayan bilik qazanmış olurlar. Nöqsanı aradan qaldırmaqdan ötrü kimyəvi prosesləri göstərən əlavə təcrübələr aparılmalıdır.

Beləliklə bilvasitə həyat məzmunlu təcrübələr nümayişi ilə şagirdlər kimya istehsalatı üzrə keyfiyyətli bilik və kimya üzrə yaxşı nəzəri bilik qazanırlar.

Kimyəvi eksperiment tərbiyəvi əhəmiyyətə də malikdir. Kimyəvi eksperiment şagirdlərin elmi-dünyagörüşünün formalaşdırılmasında dəyərli vasitədir. Təlim prosesində şagirdlər əmin olurlar ki, kimyəvi eksperiment əsasında qazanılmış yeni faktlar, yeni fərziyyə və nəzəriyyələr yaranır. Kimya tədrisinin ilk mərhələlərindən şagirdlərin nəzərinə çatdırılır ki, nəzəri mülahizələr eksperimental yoxlanılmış faktlar əsasında formalaşır.

Beləliklə, şagirdlər bu qənaətə gəlirlər ki, kimyəvi eksperiment yalnız mühakimənin yoxlanması metodu deyil, eyni zamanda yeni biliyin mənbəyidir.

Kimyəvi eksperiment eyni zamanda şagirdlərin məntiqi təfəkkürünün və mücərrəd düşünmək qabiliyyətinin inkişafında böyük rol oynayır.

Təfəkkürün fəallaşdırılması prosesi o vaxt baş verir ki, şagirdlər eksperimentin bütün mərhələlərində: a) eksperimentə hazırlıq; b) eksperimenti müşahidə etmə prosesində; c) eksperiment əsasında nəticənin formalaşdırılması, kimyəvi tənliyin tərtibi,hissi dərk etmədən müəyyən dərəcədə mücərrədləşdirmə prosesində bilvasitə iştirak etsin [2, 49].

Kimyəvi eksperiment emosional təsir göstərməkdə böyük əhəmiyyətə malikdir. Eksperiment şagirdə təsir göstərərək onda xarici və daxili effekt kimi maraq oyadır.

Beləliklə, qeyd edilənlər MKE-nin (Məktəb kimya eksperimenti) tərifini verməyə əsas verir:

Məktəb kimya eksperimenti - təlimin didaktik funksiyasına uyğun olaraq kimyəvi hadisələrin cihaz və qurğularla yenidən öyrənilməsi prosesidir.

Tərifdən görünür ki, MKE-i özü də dörd komponentli bir sistemdir. Bu sistem təlimin didaktik funksiyasından, kimyəvi təcrübələrdən, eksperimental metod və təlim texnikası komponentlərindən ibarətdir (sxem 1)




***Sxem 1***

Ümimiyyətlə, eksperiment biliyin möhkəm mənimsədilməsini təmin edir, onun tez unudulmasının qarşısını alır, uzun müddət yadda qalmasına,şagirdlərdə praktik bacarıq və vərdişlərin formalaşmasında kömək edir. Həm də proqramda nəzərdə tutulmuş mövzular üzrə praktik bacarıq və vərdişlərin aşılanmasında, şagirdlərin yaradıcılıq və tədqiqatçılıq qabiliyyətini, elmi-texniki təfəkkürünü və ümumi əmək mədəniyyətini inkişaf etdirməklə nəzarət ölçmə texnikası, istehsalat proseslərini tənzim və idarə edən, habelə hadisələrin dərk edilməsi və insan şüurunda modelin yaradılmasında məktəb kimya eksperimentinin rolu böyükdür.

Beləliklə, bu qənaətə gəlirik ki, ümumtəhsil məktəblərdə kimyanın tədrisi nəzəri təhlillə yanaşı eksperimentlə təsdiqləmə üzərində qurulmalıdır. Yəni, hər bir fundamental elmi anlayış əvvəlcə nəzəri olaraq təhlil edilməli, sonra isə eksperimentlə yoxlanılmalıdır.

Eksperimentin nəticəsində nəzəri təhlil sübuta yetirilir. Məktəbdə eksperiment bu və ya digər kimyəvi hadisəni nümayiş etdirmək üçün yalnız əyanilik vasitəsi olmayıb, biliklərin mənbəyi və kimyəvi hadisələrin, nəzəriyyələrin və qanunların öyrədilməsi yoludur.

Buradan aydın olur ki, eksperiment elmi metodlardan biri olub təlimin məzmununa üzvi surətdə daxil olur. Ona görə də o, məktəb kimya kursunun metodoloji əsasını təşkil edən faktorlardan biridir.

MKE-ni həyata keçirmək üçün nümunəvi kimya kbineti və cihazları olan şərait yaradılır. Məktəb cihazları isə elm və istehsalat cihazlarının ən sadə variantıdır. Məktəbdə kimyəvi təcrübənin icra vaxtı məhduddur. O, təlimin məqsəd və metodunun diktəsi ilə həyata keçirilir. Beləliklə, təlimin eksperimental metodu MKE-nin ilk komponenti hesab edilir. Fikri eksperiment, nümayiş eksperimenti, laboratoriya eksperimenti: 1) tədqiqat xarakterli laboratoriya işləri, 2) illüstrasiya xarkterli laboratoriya işləri; 3) problem situasiyalı vəziyyət yaratmaq üçün laboratoriya işləri, praktik məşğələ, kimya praktikumu, dərsdən xaric və sinifdənkənar eksperimentlər eksperimental metodun növləridir. Təlimin eksperimental metodu təcrübənin tətbiqi ilə həyata keçirilən metod deməkdir. Onun əsasını biliyin verilməsi, praktik bacarıq və vərdişlərin formalaşdırılması, yaradıcılıq qabiliyyətlərin inkişaf etdirilməsi, informasiyanın qəbulu və metodun həyata keçirilməsi təşkil edir.

Məlumdur ki, kimyəvi cihazlar eksperimentin tərkib hissəsidir. Deməli, kimya kabinetinin avadanlığı, kimyəvi cihazlar və təcrübənin quruluşunu təmin edən bütün vasitələr daxil olmaqla təlim texnikası adlanır. Bu MKE-nin ikinci komponenti «Ümumtəhsil məktəbləri üçün nümunəvi əyani vəsait və tədris avadanlıqların siyahısı»na daxil edilmiş təlim texnikasıdır [3, 67].

Fikrimizcə, ikinci komponentə mövcud olan «Ümumtəhsil məktəbləri üçün əyani vəsait və tədris avadanlıqların siyahısı»na informasiya texnologiyasını, telekamera, videomaqnitafon və televiziyanı əlavə etmək lazımdır.

Laboratoriya şəraitində kimyəvi hadisələri öyrənmək məqsədilə xüsusi cihaz və qurğuların tətbiqi ilə müşahidə və ölçmə aparılır. Beləliklə, kimyəvi təcrübələr ilə qarşıya qoyulmuş vəzifə reallaşır. Kimyəvi təcrübə MKE-nin üçüncü komponenti olur.

Kimya eksperimentinin didaktik funksiyasını əyaniliyə əsaslanan öyrətmə təşkil edir. Eksperimentin öyrədici, inkişafetdirici və tərbiyəedici funksiyaları əlaqəli şəkildə şagirdlərin biliklərinin formalaşdırılmasına səbəb olur, onların yaradıcılıq qabiliyyətlərini, təcrübi bacarıq və vərdişlərini inkişaf etdirir.

Beləliklə, didaktik funksiya MKE-nin dördüncü komponenti olur. Deməli, MKE həm bilik mənbəyi, həm təlim metodu, həm həqiqət meyarı, həm də əyanilik rolunu oynayır.

Ədəbiyyat

Babayev R.A. VII-VIII siniflərdə kimyadan laboratoriya işlərinin təşkili və keçirilməsi. Bakı, 1976.

# *PSİXOLOGİYA VƏ KORREKSİYA PEDAQOGİKASI*

## ŞÜURLULUQ VƏ FƏALLIQ PRİNSİPİNDƏN İSTİFADƏNİN PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Xəzangül Ramazanova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*AMİ-nin Zaqatala filialının dekanı*
E-mail: x.ramazanova@gmail.com

***Rəyçilər**: prof.* A.n. Abbasov,
*prof.* H.H. Əhmədov

***Açar sözlər**: şüurluluq və fəallıq prinsipi, tədris materialınının şüurlu öyrənilməsi, pedaqoji prosesin səmərəliliyi, şüurluluq və fəallıq prinsipindən istifadənin psixoloji məsələləri, təhsilin keyfiyyəti*

***Ключевые слова**: принцип сознательности и активности, сознательное изучение учебного материала, эффективность педагогического процесса, психологические вопросы использования принципа сознательности и активности, качество образования*

***Keywords**: principle of consciousness and activity, consciously learning teaching material, the effectiveness of the pedagogical process, the psychological issues of using the principle of consciousness and activity, the quality of education*

İstər təlimin keyfiyyətinin yüksəldilməsi, istərsə də təlimdə kiçik yaşlı məktəblilərdə şüurluluq və fəallığın inkişaf etdirilməsi, başqa sözlə, dərslərdə, müxtəlif fənlər üzrə məşğələlərdə təlimin şüurluluq və fəallıq prinsipinin diqqət mərkəzində saxlanması psixologiya elmindən kənarda nəzərdən keçirilə bilməz. Daha səhih desək, hər şeydən əvvəl tədqiqata cəlb edilən problemin psixoloji əsaslarına münasibət bildirilməlidir.

İ.P. Pavlovun yazdığına görə, sinir sisteminin fəaliyyəti həm orqanizmin bütün hissələrini bir-biri ilə əlaqələndirməkdən, başqa bir tərəfdən orqanizmlə mühit arasında əlaqəni yaratmaqdan ibarətdir.

Həmin sözlərdə dərin həqiqət vardır. Bildiyimiz kimi, sinir sisteminin fəaliyyəti şərti olaraq ibtidai və ali sinir fəaliyyəti kimi nəzərdən keçirilir. İbtidai sinir fəaliyyəti onurğa beyni, arxa, orta və ara beyinlərlə bağlı olaraq, adətən orqanizmin bu və ya digər üzvünün fəaliyyətini tənzim etməkdən ibarətdir. Ali sinir fəaliyyəti, ilk növbədə ibtidai sinir fəaliyyəti ilə sıx şəkildə əlaqədardır və orqanizmlə mühit arasında mürəkkəb münasibətin yaradılmasında öz əksini tapır.

İ.P. Pavlovun düzgün qənaətinə görə, baş beyin qabığı olmadan insan mühitin təsirinə uyğun, eyni zamanda tez və asan bir şəkildə cavab verməyi, varlıqdan baş çıxarmağı bacarmaz.

Lakin bu da bir həqiqətdir ki, ali sinir fəaliyyəti təkcə orqanizmlə mühit arasında daha zərif və mürəkkəb münasibət meydana gətirməsində yox, eyni zamanda həmin münasibətə nəzarətin həyata keçirilməsində təzahür edir. Psixologiya dərsliklərində göstərildiyi kimi, şəxsiyyətin psixi həyatı baş beyin qabığının fəaliyyətilə - ali sinir fəaliyyəti ilə sıx şəkildə əlaqədardır.

Tədris materialının şüurlu öyrənilməsi kiçik yaşlı məktəblilərin həmin materiala marağından, ümumiyyətlə, təlimə, dərsə, biliklərə yiyələnməyə həvəsindən xeyli dərəcədə asılıdır. Bu həvəs, bu maraq olduqda tədris materialına, mövzuya yanaşma şüurlu şəkil alacaqdır. Yəni kiçik yaşlı şagird proqram materialını əzbərləməyə çalışmayacaq, səy göstərəcək ki, başlıca ideyanın nədən ibarət olduğunu anlasın, suallar meydana çıxanda onlara cavab verə bilsin. Əla və yaxşı bilik nümayiş etdirən şagirdlər çox yaxşı anlayırlar ki, mexaniki əzbərlənən material tez bir zamanda unudulur, belə materialın tətbiqi də mümkün olmur. Sinif müəllimi də, kiçik yaşlı məktəblilər də başa düşürlər

ki, təlimin keyfiyyətinin yüksəldilməsinə materialı əzbərləməklə deyil, şüurlu olaraq öyrənməklə nail olmaq mümkündür. Yalnız bu halda şagirdlərin fəallığı təmin olunur.

“Öyrənmə insanın həyatda qazanılmış xüsusiyyətlərindən, xüsusilə onu gələcəyə istiqamətləndirən hərəkətlərindən nəşət edən davamlı, məqsədəuyğun bir prosesdir. …İnsanlarda öyrənmə müəyyən situasiyada müəyyən hərəkət və fəaliyyətlə şərtləşən biliklərin mənimsənilməsi prosesidir. Əgər öyrənmə müəyyən stimulun və reaksiyanın mənimsənilməsi ilə əlaqədarsa, belə öyrənmə reflektor səviyyəli öyrənmə hesab edilir və o, əsasən, heyvanlara aiddir. Əgər öyrənmə müəyyən bilik və hərəkətlərin mənimsənilməsi ilə nəticələnirsə, belə öyrənmə koqnitiv (dərketmə, bilikalma) səviyyəli öyrənmə adlanır və o, ancaq insanlara məxsusdur” (1, 41-44).

Qeyd etdiyimiz kimi, proqram materialının, ayrı-ayrı mövzuların şüurlu mənimsənilməsində, məktəblilərin idrak fəallığının, müstəqilliklərinin və təşəbbüskarlıqlarının inkişaf etdirilməsində, eyni zamanda təlimin keyfiyyətinin yüksəldilməsində maraq özünəməxsus rol oynayır.

Psixologiyadan dərsliklərdə və tədqiqat əsərlərində maraqdan söz açılarkən onun insanın, o cümlədən kiçik yaşlı məktəblilərin ətraf aləmi dərk etməyə, bu və ya digər fəaliyyət növünə, müvafiq bilik sahəsinə yiyələnməsində, özü də müəyyən dərəcədə yönəlməsində öz əksini tapan fərdi psixoloji xüsusiyyət anlaşılır.

“Maraq (emosiya kimi) şəxsiyyətin istiqamətini, onun öz fəaliyyətinin məqsədini dərk etməsini; şəxsiyyətin idrak tələbatlarının emosional təzahürünü təmin edən idrak fəallığının təzahür formasıdır. Maraq fundamental təbii emosiyalardan biri kimi nəzərdən keçirilir və normal sağlam insanın bütün emosiyaları arasında üstünlük təşkil edir. Belə güman edilir ki, məhz maraq idrak strukturları və yönəlmələrlə idrakı və fəaliyyəti istiqamətləndirir. Şüurda mənfi emosiyalar olduqda müstəsna hallar baş verir” (2).

Məlum olduğu kimi, İ.P. Pavlov fizioloji baxımdan bələdləşmə refleksi adlanan bir refleks kəşf etmişdir. Maraq həmin bələdləşmə refleksi ilə qırılmaz tellərlə əlaqədardır. Deməli, maraqların fizioloji əsasında bələdləşmə-tədqiqat refleksləri dayanır. Bu refleks ətraf aləmdə meydana gələn yeni, təsadüfi dəyişikliklər vaxtı yaranır, qıcıqlandırıcının daha aydın və nisbətən tam inikasını, hərtərəfli başa düşülməsini nəzərdə tutur. İ.P. Pavlovun qənaətincə, ətraf mühitdə hər kiçik bir dəyişiklik baş verdiyi zaman insanlar da, heyvanlar da müvafiq reseptor aparatını bu dəyişikliyi törədən qıcığa doğru yönəldirlər. Maraqlar idrakın daimi təhrikedici mexanizmi kimi yaranır.

Şəxsiyyətin psixi həyatı nə qədər mürəkkəb xarakterə malik olsa da, özünün mexanizminə görə reflektor fəaliyyətidir. Maraq bu və ya digər obyekti, məsələn, ibtidai siniflərdə hər hansı mövzunu şüurlu olaraq öyrənməkdən, onu daha möhkəm və dəqiq dərketmə həvəsindən irəli gəlir. Maraq şəxsiyyətin xüsusi səy göstərmədən arzusuna rəğmən və xüsusi zövq alaraq hər hansı fəaliyyətə yönəlməsidir.

Amerika psixoloqu Kerrol İzarda görə, maraq anadangəlmə emosiyadır. K. İzard marağın inkişafında sosializasiyanın rolunu, insan şəxsiyyətinin formalaşmasında onun əhəmiyyətini xüsusi vurğulayırdı (3). Fəaliyyət, o cümlədən təlim fəaliyyəti zamanı maraqlar xüsusi rol oynayır.

Marağı bu və ya digər insanın, kiçik yaşlı məktəblinin özü və ətrafındakılar tərəfindən qəbul edilmiş davranışları kimi də nəzərdən keçirmək mümkündür. Maraq daxili və xarici təsir əsasında təşəkkül tapır. Hər hansı bir səbəbə görə maraqların fərddən fərdə dəyişməsi də mümkündür. Fərdin maraq dairəsi vaxtaşırı dəyişir. Bu dəyişkənlik daha çox yeniyetməlik illərində baş verir.

Maraqlar şəxsiyyətdə, o cümlədən kiçik yaşlı məktəblidə meydana gələn öyrənmək və başa düşmək cəhdini təmin etdiyindən onu fəal surətdə yollar və vasitələr axtarmağa təhrik edir. Sabit əhəmiyyətə malik obyektə marağın təmin olunması onun (marağın) sönməsinə gətirib çıxarmır. Əksinə, onu daxilən yenidən qurmaq, zənginləşdirmək və dərinləşdirmək hesabına idrak fəaliyyətinin nisbətən yüksək səviyyəsinə uyğun olan yeni maraqların yaranması ilə nəticələnir.

Maraq-məqsədlərin müxtəlif vaxtlarda fərqli olması mümkündür. Oğlanlarla müqayisədə qızların maraqları hər bir yaş dövründə daha fərqli olur. Bu, onunla əlaqədardır ki, qızlar bioloji baxımdan oğlanlardan həm fərqlənir, həm də ruhi-psixoloji nöqteyi-nəzərdən daha tez yetkinləşirlər.

Marağın bir sıra növləri vardır: təlim maraqları, şəxsi maraqlar, sərbəst vaxt maraqları, sənət maraqları. Təlimin keyfiyyətinin yüksəldilməsində, şagirdlərdə öyrənilən materiala şüurlu yanaşmanın və onların dərsdə, sual-cavabda, təkrarlar, yeni dərsin mənimsənilməsi, evə verilmiş tapşırığın icrası zamanı fəallıq göstərmələrinin təmin olunmasında təlim motivlərinin hansı səviyyədə formalaşdırılmasının rolu da böyükdür.

Məzmun nöqteyi-nəzərindən motivlərin səciyyəsinə aşağıdakılar aiddir:

1. Təlimin şagird, o cümlədən kiçik yaşlı məktəblidən ötrü şəxsi məna daşıması;

2. Motivin fəallığı – dərs, tədris materialı məktəblidən ötrü şəxsi mənaya malik olduqda, motiv fəal xarakter alır; o, səylə oxuyur. Əks təqdirdə, motiv təlimin gedişinə lazımi təsir göstərə bilmir.

"Motiv – insanın davranışını idarə edən, onun istiqamətini, mütəşəkkilliyini, fəallığını və səbatlığını müəyyən edən fizioloji və psixoloji planda dinamik prosesdir" (4, 13).

Başqa sözlə, motiv dedikdə, tələbatların təmin olunması ilə bağlı şəxsiyyəti (şagirdi) fəaliyyətə təhrik edən amillər başa düşülür.

Professorlar Ə.S. Bayramov və Ə.Ə. Əlizadə yazırlar: "Təlim motivlərini, adətən idrak motivləri və sosial motivlər olmaq etibarilə iki böyük qrupa bölürlər. Əgər şagirdin fəallığı ayrı-ayrı fənlərin tədrisi prosesində öyrənilən obyektlərə yönəlmişdirsə, bu zaman idrak motivlərindən danışırlar. İdrak motivlərinin aşağıdakı növləri vardır:

1. Geniş idrak motivləri (şagird bütün fənlərdə yeni faktlar, nəzəri məsələlər, deduktiv nəticələr və s. ilə maraqlanır və s.).

2. Tədris-idrak motivləri (şagirddə bir və ya bir neçə fənnə maraq əmələ gəlir, o, müvafiq fənləri daha ətraflı öyrənməyə başlayır).

3. Özünütəhsil motivləri (şagird maraqlandığı fənlər üzrə müstəqil surətdə yeni biliklər əldə etməyə başlayır) (5, 122).

Əgər təlim prosesində şagirdin fəallığı başqa adamlarla münasibət sahəsinə yönəlirsə, bu zaman sosial motivlər fərqləndirilir. Onları da üç növə bölürlər:

1. Geniş sosial motivlər (şagird Vətənə, cəmiyyətə faydalı olmaq... üçün əla və yaxşı qiymətlərlə oxumağa səy göstərir).

2. Dar sosial motivlər – bunlara başqa sözlə mövqe motivləri deyirlər (şagird ailədə və məktəbdə yaxşı mövqe tutmaq üçün əlaçı olmağa çalışır).

3. Sosial əməkdaşlıq motivləri (şagird özünün müəllimlər və sinif yoldaşları ilə münasibətlərini təhlil edir. Onları daha da yaxşılaşdırmağa çalışır)" (5, 122-123).

Şəxsiyyətin fəallığının mənbəyini tələbatlar təşkil edir Tələbat geniş anlayış olub şəxsiyyətin konkret həyat şəraitindən asılılığını ifadə edən, bu şəraitdə onun fəallığını şərtləndirən psixi halətdir. Fərd öz tələbatlarını, o cümlədən təlimə və biliyə olan tələbatlarını təmin etməlidir. Tələbatlar konkret istiqamətə malikdir. Hər bir şəxs, məktəbli onları, o cümlədən təlimə olan tələbatlarını təmin etmək üçün müvafiq üsul və vasitələr axtarır. Şəxsiyyətin tələbatları ilə onun fəaliyyətinin məqsədi arasında əlaqə motivlər vasitəsilə reallaşır. Eyni bir tələbatın müxtəlif üsulların köməyi ilə təmin olunması mümkündür.

Tədris materialının şüurlu mənimsənilməsi və bu əsasda fəallığın təmin olunması həm də kiçik yaşlı məktəblilərin həmin materialın dərsdə müəllim tərəfindən şərhi zamanı və yaxud da evdə mövzunu öyrənərkən hansı səviyyədə diqqətli olmasından çox asılıdır. Psixoloji ədəbiyyatda qeyd olunduğu kimi, psixi fəaliyyətin bu və ya başqa əşya, cisim və hadisəyə yönəlməsi və onun üzərində mərkəzləşməsi diqqət kimi qəbul edilir. K.D. Uşinski təsadüfi olaraq yazmırdı: "Diqqət ruhumuzun elə bir yeganə qapısıdır ki, şüurumuzda olan hər şey mütləq buradan keçir; deməli, təlimin hər bir kəlməsi bu qapıdan keçmədən uşağın ruhuna daxil ola bilməz. Aydın məsələdir ki, uşağı bu qapını açıq saxlamağa alışdırmaq birinci dərəcəli əhəmiyyətli bir işdir, təlimin bütün müvəffəqiyyəti buna nail olmaq üzərində qurulur" (6, 183-184).

Sinif müəllimləri böyük rus pedaqoqunun yuxarıdakı dəyərli fikirlərini yadda saxlamalı, kiçik yaşlı məktəblilərin diqqətli olmalarına fikir verməlidirlər. Bildiyimiz kimi, diqqət də, şəxsiyyətin

bütün psixi həyatı kimi, baş beyin yarımkürələri qabığının fəaliyyəti ilə qırılmaz tellərlə əlaqədardır. Diqqət zamanı baş beyin qabığında oyanma şöbəsi ilə bərabər ləngimə sahəsi də vardır. Odur ki, bədəndə bəzi dəyişikliklər özünü göstərir. Bu, artıq diqqətin xarici inikasıdır. Diqqət gərginliklə müşahidə olunduqda artıq hərəkətlərə ara verilir, insan, o cümlədən ibtidai sinif şagirdi diqqət etməkdən ötrü müvafiq vəziyyət alır və s.

Psixologiyadan dərsliklərdə və psixoloji əsərlərdə diqqətin həcmi, paylanması, davamlılığı, keçirilməsi, yayınması və tərəddüdü kimi başlıca xüsusiyyətləri; ixtiyari və qeyri-ixtiyari növləri üzərində dayanırlar.

Sinif müəllimləri və valideynlər şagirdlərdə diqqətin inkişafına qayğı ilə yanaşmalıdırlar. Prof. Ş.S. Ağayev kiçik yaşlı məktəblilərdə diqqətin inkişaf etdirilməsi ilə bağlı yazırdı: "Məktəbə daxil olduqdan sonra uşaqda ixtiyari diqqət daha sürətlə inkişaf etməyə başlayır. Uşaq öz diqqətini idarə etməyə, istənilən obyekt üzərinə yönəltməyə çalışır. Diqqətin davamlılığı kiçik məktəblidə 10-15, orta məktəb yaşlıda 15-20, böyük məktəb yaşlıda isə 25 dəqiqəyə çatır. Bu dövrdə qeyri-ixtiyari diqqətin də davamlılığı çox olur. 3 yaşlı uşağın qeyri-ixtiyari diqqəti oyun zamanı 20-25 dəqiqə davam etdiyi halda, 7 yaşında bu müddət 40-45 dəqiqəyə çatır. Oyun, yazı və hesablama vərdişlərinin inkişafı diqqətin paylanmasında mühüm rol oynayır. Lakin kiçik məktəb yaşlı uşaq hələ bu sahədə çətinlik çəkir. ... şagirdlərə daim diqqətlə işləmək tələbi verildiyindən və buna həmişə əməl edildiyindən ibtidai məktəbdə tədricən diqqətli olmaq adəti yaranır ki, bu adət nəinki təlimdə, həm də əmək prosesində böyük əhəmiyyətə malikdir" (7, 102).

Tədris materialının şüurlu mənimsənilməsi və fəallığın təmin olunması eyni zamanda əsas hafizə proseslərinin hansı səviyyədə müəllim və valideyn tərəfindən nəzərə alınmasından, o cümlədən öyrənmənin necə təşkil olunmasından asılıdır.

Tədris materialını möhkəm, tələb olunan səviyyədə və uzun vaxt ərzində yadda saxlamaq üçün o (material) dönə-dönə təkrar edilməli, öyrənilməlidir. Yaddasaxlamanın möhkəm olması də dəqiq yerinə yetirilməsi öyrənmə üzrə işin necə təşkil olunmasından asılıdır. Sinif müəllimi təlimin keyfiyyətinə nail olmaq, kiçik yaşlı məktəblilərin şüurluluğunu və fəallığını təmin etmək üçün proqram materialının səmərəli şəkildə düşünərək öyrənilməsinin aşağıdakı başlıca tərzlərini diqqət mərkəzində saxlamalıdır: qarşıya məqsəd qoymaq, anlama, müstəqil çalışma, təxəyyüldə canlandırma, "öz sözləri ilə" danışmaq, təkrar etmək, öyrənmə vaxtı xatırlama, tam və hissələrlə öyrənmə və s.

Şüurlu mənimsəmədən danışdıqda bu sahədə təfəkkürün oynadığı rolu diqqət mərkəzinə gətirməmək qeyri-mümkündür. Məktəbli məhz təfəkkür əməliyyatlarının köməyi ilə tədris materialını öz malına çevirir. O, mövzunu öyrənərkən istər-istəməz fikirləşir və bəzi fikri əməliyyatları yerinə yetirməli olur. Belə ki, təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, konkretləşdirməyə müraciət edir, təsnifat aparır. Kiçik yaşlı məktəbli proqram materialını şüurlu öyrənmə zamanı əşya, cisim və hadisəni fikrən hissələrinə ayırır, başqa sözlə təhlil edir. Prof. Ə.S. Bayramovun yazdığı kimi, "Məsələn, savad təlimi dövründə birinci sinif şagirdi ayrı-ayrı hərflərlə tanış olur, hər bir hərfi tərkib hissələrinə ayırır, əvvəlcə hərfin hissələrini yazmağı öyrənir" (5, 142). Şagird "sonra onları birləşdirib tam hərf kimi yazır. Buna da tərkib deyilir. Deməli, təhlil cismi, hadisəni fikrən hissələrinə ayırmaqdırsa, tərkib həmin hissələri fikrən birləşdirməkdən ibarətdir" (5, 142).

Sinif müəllimi, valideynlər uşaqlarda təfəkkürün inkişafına xüsusi fikir verməlidirlər. Bu, bir həqiqətdir ki, prof. Ə.S. Bayramovun yazdığı kimi, uşaq təfəkkürünün coşqun inkişafı məktəb dövrü ilə, yeni fəaliyyət növü – təlimlə əlaqədardır. Təlim əməyi, tərbiyə işləri təfəkkürü inkişaf etdirən yeni təkan olur. Təlim prosesində təfəkkürün formaları, xüsusən müxtəlif məfhumlar təşəkkül etməyə başlayır. Şagirdlər bir sıra elmi məfhumlara yiyələnir, bu məfhumlar məzmunca zənginləşir, cisim və hadisələrin ümumi və mühüm əlamətlərini daha dəqiq əks etdirir. Şagirdlər hökmün müxtəlif növlərindən yerində və dəqiq surətdə istifadə etməyi öyrənirlər; onlarda istidlalın bütün formaları inkişaf edir".

Təlim zamanı kiçik yaşlı məktəblilərdə fikri əməliyyat formalaşmağa başladığından onlar təhlil, tərkib, müqayisə, ümumiləşdirmə, mücərrədləşdirmə, sistemləşdirmə, tutuşdurma, qruplaşdır-

ma və müəyyən nəticəyə gəlmə kimi çox dəyərli fikri əməliyyatları aparmağı bacarırlar. Bundan başqa, ağlın keyfiyyətləri (ağlın müstəqilliyi, ağlın tənqidiliyi, ağlın dərinliyi, ağlın çevikliyi, fikrin sürəti, fikrin müstəqilliyi və s.) inkişaf edir. Nəticədə şagirdlər tədris materiallarını başa düşür, asanlıqla və məqsədəuyğun şəkildə qavraya və mənimsəyə bilirlər.

**Problemin aktuallığı**. Bəzi şagirdlər tədris materialını əzbərdən öyrənməyə çalışır. Bu zaman o, yaradıcılıq, idrak fəallığı göstərə bilmir və öyrəndiklərini tez unudur. Ona görə də məktəblilərin biliyi şüurlu mənimsəməsi və şərh edərkən fəal olması tələb olunur.

**Problemin yeniliyi.** Məqalədə didaktikanın mühüm prinsiplərindən olan şüurluluq və fəallıq prinsipi diqqət mərkəzinə gətirilir və bu prinsipdən istifadənin psixoloji məsələləri üzərində dayanılır.

**Problemin praktik dəyəri.** Şüurluluq və fəallıq prinsipindən istifadənin psixoloji məsələlərini aydın dərk etməkdə pedaqoji kollektivlərə, fənn müəllimlərə kömək edəcəkdir.

**ƏDƏBİYYAT**

1. Məmmədov A.Ü. Təlimin psixoloji əsasları. Bakı: Maarif, 1993.
2. Maraq. http://psyznaiyka.net/view-emocii.html?id=interes
3. Фундаментальные эмоции (по К. Изарду) http://murzim.ru/psihologija/psihologija-jemocij/10587-fundamentalnye-emocii-po-k-izardu.html
4. Мотив http://ru.wikipedia.org/wiki/Мотив
5. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Maarif, 1989.
6. Veysova Z.A., Məcidova A.Ə., Adıgözəlov S.M., Həşimova, İ.M., S.A. Əliyeva. Ana dili -1: müəllim üçün vəsait. Bakı: Çaşıoğlu, 2008.
7. Psixologiya: Ali məktəblər üçün dərslik. Bakı: Azərtədrisnəşr, 1964.

**Х. Рамазанова**

**ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ ИСПОЛЬЗОВАНИЯ ПРИНЦИПА СОЗНАТЕЛЬНОСТИ И АКТИВНОСТИ**

**РЕЗЮМЕ**

Изучение программного материала сознательно и с пониманием предотвращает зубрежку и обеспечивает активность школьников на уроке. Учителя и родители должны учитывать эту особенность и создавать условия для независимости, инициативности и познавательной деятельности учащихся. Школьникам необходимо объяснить, что учебный материал, выученный наизусть, быстро забывается и по этой причине невозможно применить знания на практике. В статье говорится не только о пользе принципа сознательности и активности, в то же время рассматриваются психологические вопросы использования этого принципа.

**X. Ramazanova**

**PSYCHOLOGICAL ISSUES USING THE PRINCIPLE OF CONSCIOUSNESS AND ACTIVITY**

**SUMMARY**

The study program material consciously and with understanding to prevent cramming and the active students in the classroom. Teachers and parents need to take into account this feature and create conditions for the independence of initiative and learning of students. Schoolchildren should be explained that the training material learned by heart, quickly forgotten and for this reason it is impossible to apply the knowledge in practice. The article says not only about the benefits of the principle of consciousness and activity, while at the same time is considered psychological issues using this principle.

# ИНТЕЛЛЕКТУАЛ ИНКИШАФЫ ПРОБЛЕМЛИ КИЧИКЙАШЛЫ МЯКТЯБЛИЛЯРИН ХЦСУСИЙЙЯТЛЯРИ

**Диларя Достузадя,**
*педагоэика цзря фялсяфя доктору*
*АРТПИ*
Е-маил: д.достузаде@маил.ру

**Ряйчиляр:** *дос.* А. Щажыйев,
*дос.* С. Щясянова

***Ачар сюзляр:*** *тяфяккцр, идрак просеси, ягли инкишаф, щафизя, интеллект*
***Ключевые слова:*** *познавательный процесс, интеллектуальное развитие, мышление, память, интеллект*
***Key words:*** *process cognitive, intellectual development, thinking, memory, intelligence*

Республикамызда нормал ушагларла йанашы саьламлыг имканлары мящдуд ушагларын орта тящсил алмасы, онларын мяняви мядяниййятинин вя шцурунун артмасы, гцсурлу ушагларын формалашмасы цчцн йени имканлар йарадыр. Бу бахымдан саьламлыг имканлары мящдуд ушагларын интеллектинин инкишафы да диггят мяркязиндя олмалыдыр.

Саьламлыг имканлары мящдуд, жямиййятин кичик цзвляринин шяхсиййят кими формалашмасы дцзэцн вя кейфиййятли тялим просесинин тяшкилиндян асылыдыр.

ХХ ясрин 60-70- жи илляриндян башлайараг, пис охуйан аномал ушагларын юйрянилмяси, психолог-мцяллимлярин диггятини жялб етмишдир. Бу ушаглар юз ешитмя дяряжясиня вя мяктябдя йийяляндикляри билик мцвяффягиййятляриня эюря мцхтялифдир. Пис охуйан мяктяблилярин комплекс психолоъи-педагоъи юйрянилмяси (Г.Г.Бертин, Н.Й. Дошскайа, М.С. Певзнер, Н.Ъ. Йашкова) онларын арасында ягли мцщафизя олунмуш психолоъи инкишафы лянэ едян олигофрен ушагларын олдуьуну ашкар етмяйя имкан вермишдир. Бу ушагларын юйрядилмяси мцхтялиф педагоъи просесин тяшкилини тяляб едир.

Ягли эеридя галма иля карлыг (аьырешитмя) мцряккяб гурулуша малик гцсур-ларла мейдана чыхыр. М.С. Певзнерин вердийи мялуматлара эюря, ягли чатышмазлыг баш верян ешитмянин зяифлямяси, дярин позунтулары ана бятниндя зящярлянмяляр (хясарятляр) вя башга хястяликляр нятижясиндя ямяля эялир.

Ешитмя чатышмазлыглары олан ушагларын тяфяккцр вя нитгинин инкишаф етдирилмяси, юйрянмянин илкин мярщялясиндя мцряккяб гцсурлу шаэирдлярин сечилмясини чятинляшдирир.

Гейд етмяк лазымдыр ки, шаэирдлярин ягли инкишафдан эери галмасы иля ялагядар мцяллим галыг ешитмядян истифадя етмир, йалныз мцяййян дцзялиш ишляри апарылдыгдан сонра истифадя етмяйя башлайыр. Ушаглардакы галыг ешитмя габилиййятиндян истифадя етмяк бажарыьы кифайят дяряжядя чятин формалашыр. Кар олигофренлярля ягли мцщафизя олунмуш карларын данышыг нитгинин инкишаф сявиййяси мцхтялифдир. Беля ушагларын лцьят ещтийаты щядсиз дяряжядя мящдуддур. Яламятляри – бязи щярякятляри ифадя едян чох аз мигдарда сюзляри ишлядя билирляр. Сюзцн, сясин, щярфлярин тяркибинин дейилишиндя чятинликляр ашкар едилир. Бунлар сюзлярин тяркибинин йениляшмясиня, щярф бура-хылмасына, щежаларын тяркибинин нюгсанлы дейилишиня эятириб чыхарыр.

Ягли жящятдян эери галмыш зяифешидян ушагларын нитгинин там инкишаф етмямяси, онларда зяифешитмя нятижясиндя баш веряряк вя ягли чатышмамазлыглар аьырлашараг ясас шякилдя ашкар олунур: бурада тяляффцзцн позулмасы сюз ещтийатынын кяскин мящдудлуьу, мцражият олунмуш данышыьын баша дцшцлмямяси вя шаэирд-лярин

мяктябдя охумаьа башлайаркян данышыг тяжрцбясинин аз олмасы щисс олунур. Онларын фяал лцьятиндя тяхминян 10-15 сюзцн билиндийи мялум олур, бу сюзлярин лексик, грамматик вя фонетик жящятляри кобуд шякилдя позулмуш сюзлярин тамлыьы, бцтювлцйц итирилмиш олур (мясялян, довшан-до, палтар- па, баш-ба вя с. кими), щалбуки бу сюзляр зяифешидян нормал ягли олан ушагларда мцшащидя олунмур.

Гейд етмяк лазымдыр ки, ягли инкишафдан эери галмыш зяифешидян ушагларын данышыг нитгиня вя нитгиндян истифадяйя тялябат инкишафы формалашыр. Билийя щявясин олмамасы щиссинин касыблыьы шаэирдлярин нитг сцрятиня, кейфиййятиня тясир едир вя онларын нитгиня дцзялиш вермяк чятинляшир. Ягли инкишафдан эери галмыш зяифешидян ушагларын психи жящятдян юйрянилмяси вя онларын психи инкишафынын бязи хцсусий-йятлярини ашкар етмир.

Тяжрцбядян мялумдур ки, ягли инкишафдан галан зяифешидянляр мяктябиндя тяфяккцр фяалиййятинин тядриси (Л.Ъ. Тигронова) вя онларын тящсил мцяссисяляриндя материалларын гавранылмасында (баша дцшцлмямясиндя) хцсуси чятинликлярин олдуьу цзя чыхыр. Кичижик чятинликляр мейдана чыхаркян онун щяллиндя бюйцк манеяляр юзцнц эюстярир. Беля ушаглар мцяллимин кюмяйиня аз мейиллидирляр вя тящсил фяалиййятиня чох чятинликля гошулурлар. Тапшырыгларын баша салынмасына чох вахт тяляб олунур, онларын мягсяд вя мязмунунун изащыны дяфялярля тякрар етмяк лазым эялир. Бу ушагларын тяфяккцр фяалиййятинин хцсусиййятлярини, яшйаларын тясяввцрлярини йериня йетиряркян юзцнц даща парлаг вя айдын шякилдя цзя чыхарыр. Ян бюйцк чятинликляр яшйаларын тяснифатыны ясасландыраркян мейдана чыхыр. Ушаглар чох вахт яшйаларын ашкар эюрцнян яламятляриня (даща чох рянэди, даща аз щалда формалары вя бюйцк-кичиклийи) эюря тясяввцр едирляр.

Нитг инкишафы дюврцндя мяктябдя охумаьа башлайан кими шаэирдлярдя яшйанын мцщцм яламятлярини айыра билмяк бажарыьы формалашмалы олур вя онлар яламятлярин тясириндян йаха гуртара билмирляр.

Дяркетмя фяалиййятинин бу хцсусиййятляри яшйанын тялиминдя вя ики яшйанын мцгайисясиндя юзцнц бцрузя верир. Беля ки, шаэирдляр яшйанын айры-айры щиссялярини бярпа едя билмирляр. Бу категориадан олан шаэирдлярдя дяркетмя фяалиййятинин тясири эюстярир ки, ики илкин гцсурун (ешитмя зяифлийи вя ягли эеридя галма) ейни вахтда олмасы, ушагларда юзцнямяхсус инкишаф тяляб едир вя нюгсанын дцзялиши ися хцсуси шяраит йарадылан щалда мцмкцндцр. Бунун цчцн тядрис планы, програм вя онун методикасы олмалыдыр. Бу бахымдан тялим просеси шаэирдин йалныз яглини вя гцввялярини инкишаф етдирмякля галмыр, щям дя онларда мющкям ягидя, йцксяк ахлаги щиссляр, гцввятли характер ямяля эятирир.

Ушаьын цмуми инкшафында, шяхсиййят кими формалашмасында, цнсиййятя эирмясиндя бу анлайышларын ролу бюйцкдцр. Аномал ушагларын тялиминдя метод вя цсулларын сечилмясиндя ушаьын йаш хцсусиййятляринин нязяря алынмасы иля йанашы, гцсурларын баш вермя сябяби вя дяряжяси дя щесаба алынмалыдыр. Тялимдя ешитмянин вя йа эюрмянин итирилмя анынын мцяййян едилмяси хцсуси ящямиййят дашыйыр.

Нормал ушагдан фяргли олараг, ягли вя физики жящятдян гцсурлу ушагларын инкишафында тялим даща бюйцк рол ойнайыр. Тялимя жялб едилмянин эежикмяси ано мал ушаьын инкишафына чох бюйцк зяряр вурур. Онларда психи функсийаларын формалашмасыны лянэидир, нормал щямйашыдларындан даща чох вя кяскин фярглянян, мювжудлуьуна шяраит йарадыр. Дцзэцн тяшкил едилмиш тялим ушаьы инкишаф етдирир.

Хцсуси мяктяблярдя ямяк тялими вя тярбийяси, ягли вя физики гцсурлу ушаглары мцстягил ижтимаи файдалы ямяйя щазырламагда, хястялик нятижясиндя инкишаф гцсурларынын зяифлямясиня вя арадан чыхмыш функсийаларын бярпасына тякан верир.

Ягли вя физики жящятдян гцсурлу ушаглар ямяк, бажарыг вя вярдишляри газан-магла йанашы, щяртяряфли инкишаф имканлары да ялдя едирляр. «Ягли жящятдян эери галма» вя

йа «ягли эерилк» ады алтында мяркязи синир системинин цзви зядялянмяси нятижясиндя ушагда дяркетмя фяалиййятинин давамлы вя кобуд шякилдя ашаьы дцш-мяси нязярдя тутулур.

Мяркязи синир системинин зядялянмяси ушагларда баш вермя заманына вя аьырлыьына эюря мцхтялиф ола биляр. Бу юз нювбясиндя ягли эериликли ушаьын щям физиолоъи, щям емосионал-ироди, щям дя интеллектуал инкишафында фярди хцсусиййя-лярин олмасына эятириб чыхарыр.

Ягли эерилийи олан ушагларда дуйьу вя гаврайышын инкишафы, тяфяккцрцн инкишаф етдирилмяси цчцн бир васитядир. Интеллект щяр бир шяхсин мцстягил инкишафы шяраитиндя йараныр. Интеллектин сявиййяси инсанын цмуми психи фяаллыьынын бцтцн формаларында юзцнц бцрузя верир. Баш-бейин йарымкцряляри габыьынын фяалиййятинин позулмасы заманы ушаьын тяфяккцрцнцн формалашмасы вя инкишафы мцяййян чятинликлярля цзляшир. Илк нювбядя тяфяккцр даща габарыг цзя чыхыр. Ягли эериликли ушагларда тяфяккцрцн инкишаф сявиййяси чох ашаьыдыр. Буна сябяб онларда нитгин инкишафынын эерилийидир. Бу ушаглар дейилян фикирляри пис баша дцшцрляр, охунан материаллары анламагда чятинлик чякирляр, мцхтялиф ойунлардан кянарда галырлар вя ятрафында-кыларла цнсиййят гура билмирляр.

Эюрмя вя ешитмя тясяввцрляринин бяситлийи тяфяккцрцн инкишафына лянэидижи тясир эюстярир. Тяфяккцр нитгля цзви сурятдя ялагядардыр вя о нитг васитясиля щяйата кечир. Ягли эериликли ушагларда сяслярин фяргляндирилмяси, сюзлярин дейилиши чох эеж формалашмаьа башлайыр. Онларын нитги бясит, грамматик жящятдян дцзэцн олмур. Ягли эерилик цчцн нитгин инкишафдан галмасы сяжиййявидир.

Идрак фяалиййятинин али формаларынын инкишафдан галмасы нитгин формалаш-масына мянфи тясир эюстярир, сюзлярин мянасынын баша дцшцлмямяси чтинляшир. Ягли эерилийи олан ушагларда инкишафдан галманын ясас хцсусиййятляриндян бири дя психи яталятсизлийидир. Бу ушагларда тяфяккцрцн сцряти лянэийир, бир фяалиййят нювцндян башгасына кечмя чятинляшир.

Ягли эериликли ушагларын фяалиййятинин сявиййяси илк нювбядя ягли чатышмазлыьын дяряжяси вя емосионал ироди сющбятин хцсусиййятляри иля сых баьлыдыр. Щисс цзвляринин инкишафдан галмасынын яламятляри ясяби позулмалара йахындыр. Бир сыра ирси форма-ларда аьылданкямлик, ешитмя вя эюрмянин, щямчинин дахили органларын зядялянмяси иля бирляшмяси олур. Ягли эерилийи олан ушаглар йардымчы мяктяблярдя тящсил алырлар, Ушаглар охунмуш щекайянин ясас идейасыны тута билмирляр, онун мязмунуну йалныз кюмякчи сцаллара ясасян тякрар едирляр.

Нормал ушагларда 6-7 йаш дюврцндя ясас фяалиййят тялим фяалиййятидирся, ягли эерилийи олан ушагларда бу йаш дюврц анжаг ойун фяалиййяти иля баьлыдыр. Ойун мараглары бу ушагларда чох йцксякдир, ойундан щеч йорулмурлар. Ойун заманы йарадыжы мцнасибят йени фикирлярля бярабяр, интеллектуал фяалиййятдян тез йорулма баш верир. Она эюря дя дярс заманы охуйаркян онларда бу мяншяли чятинликляр мцшащидя олунур. Ушаглар интеллектуал фяалиййятдян тез йорулдугларындан дярсдя ойнайыр, эязир вя мцяллимя гулаг асмырлар. Интизам гайдаларыны тез-тез позурлар.

Д.Адамс (1973) йазырды ки, мяктяб вярдишляринин позулмасы, ясасян бу ушагларда эюрмя, ешитмя вя мотор функсийаларын инкишафдан галмасы иля баьлыдыр. Оху вя йазы вярдишляринин формалашмасында да чатышмамазлыглар мцшащидя олунур, бу ися тяляффцзля, сюзц мянимсямякля вя сяс тящлили иля баьлыдыр. Щярякятлярин нитгля тянзимлянмяси гянаятбяхш дейил, дяркетмя фяалиййяти ашаьыдыр. Ушагларын оху вя йазы вярдишляриня чятин йийялянмялярини, анализаторлар системляринин кординасийасынын инкишафдан галмасы иля баьлайырлар.

Яйани-щярякят тяфяккцрц йахшы галдыьы щалда, сюзлц-мянтиги тяфяккцрцн инкишафлан галмасы, мцшащидя олунур. Тез йорулма, ягли иш габилиййятинин зяифли-

йинин ясасында дурур. Психолог вя мцяллим цчцн ушагда олан психи функсийанын чатышмамазлыьыны, мяктяб вярдишлярини, няйя эюря ушаьын чятин гаврадыьыны билмяк важибдир. Коорексийа ишинин истигамятини вермяк цчцн нейропсихолоъи тядгигат методлары явяз едилмяздир. Ушагларын нитг моторикасында позулмалар олдуьундан онлар чятин сюзляри дейя билмирляр, тяляффцз едяркян сящвляр олур.

**Problemin актуаллыьы**. Хцсуси мяктяблярдя интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблилярин тяфяккцрцнц инкишаф етдирмяк цчцн ясас вязифялярдян бири игли эерилийи олан ушагларын шифащи вя йазылы нитгини формалашдырмагдан ибарятдыр.

**Problemin елми йенилийи**. Интеллектуал инкишафы проблемли кичикйашлы мяктяблинин нитгинин инкишафына гайьы иля йанашдыгда йцксяк мцвяффягиййят ялдя етмяк мцмкцндцр.

**Problemin практик ящямиййяти**. Мягалядя иряли сцрцлян тяклифляр, нятижяляр цмумтящсил - хцсуси мяктяб вя ушаг баьчаларында, тялим-тярбийя просесиндя фярди йанашмагла арадан галдырла биляр.

## ЯДЯБИЙЙАТ

1. С. Гасымов. Хцсуси мяктяблярдя аномал ушагларын нитг инкишафы. Бакы: Маариф, 1999
2. Д.Достузадя. Зяифешидян вя сонрадан карлашмыш ушагларын тящсилинин бязи мясяляляри // Ибтidai мяктяб вя мяктябягядяр тярбийя, 2010, № 1
3. Я .Гядиров. Ушагларда идрак просесляринин инкишафы. Бакы: Маариф, 1970.

**Д. Достузаде**

## ОСОБЕННОСТИ МЛАДШИХ ШКОЛЬНИКОВ, ИМЕЮЩИХ ПРОБЛЕМЫ В ИНТЕЛЛЕКТУАЛЬНОМ РАЗВИТИИ

### РЕЗЮМЕ

Процесс обучения младших школьников, имеющих интеллектуальные проблемы, ставит целью подготовку системы работы, содержания обучения, форм, методов, средств обучения, а так же взаимосвязь между воспитательно-образовательной работой и развитием детей.

Для обеспечения всестороннего развития таких детей педагоги-воспитатели должны работать над собой, а так же необходимо создать условия для повышения потенциальных возможностей работников этой области.

**D. Dostuzade**

## ЖЩАРАЖТЕРИСТИЭС OF ЪUNИOR ЩИЭЩ СCЩООЛ СТИДЕНТС WITH PROBLEMS IN ИНТЕЛЛЕЖТУАЛ ДЕВЕЛОПМЕНТ

### СУММАРЙ

The intellectual development of younger children with mental problems in the learning process aims to prepare the system work, training content, forms, methods , tools, and the mutual relationship between the educational and work and educational development of children.

For opespecheniyav vsestorennego development of these children teachers-educators need to work on yourself and need to create conditions for increasing the potential of employees in this area.

# YENİYETMƏLƏRİN KOQNİTİV FƏALİYYƏTİNİN MOTİVASİYASI

**Limunət Əmrahlı,**
*psixologiya üzrə fəlsəfə doktoru, dosent,*
*ARTPİ*
E-mail: psixoqamma@mail.ru

**Rəyçilər:** *prof.* R.İ. Əliyev,
*ped. fəls.dok.* D. Dostuzadə

***Açar sözlər:*** *koqnitiv fəaliyyət, tələbat, motivləşmə, motivasiya komponentləri, uğur motivasiyası*
***Ключевые слова:*** *когнитивная деятельность, потребность, мотивация, компоненты мотивации, мотивация достижения*
***Key words: Keywords****: cognitive activity, need, motivate, components of motivation, achievement motivation*

Son illər dünyada informasiya texnologiyaları sürətlə inkişaf etdiyindən öyrənənlərin koqnitiv fəaliyyətinin bu texnologiyalara uyğunlaşdırılması zərurəti yaranmışdır. Mürəkkəb koqnitiv qurulma tələb edən belə fəaliyyəti motivasiyasız təsəvvür etmək mümkün deyildir. Ona görə yeniyetmələrdə öyrənmə və mənimsəmə motivasiyasının formalaşdırılması hazırda istər ailənin, istərsə də digər sosial institutlar, xüsusilə təhsil sisteminin qarşısında duran mühüm vəzifələrdən birinə çevrilmişdir.

Oyun və əmək fəaliyyətindən fərqli olaraq koqnitiv fəaliyyətin motivasiyası hansısa situasiyanın təsiri ilə yaranmış emosional reaksiyalarla, spontan qaydada formalaşmır. Öyrənmə və mənimsəmə motivasiyası tədricən, hələ uşaqlıq dövründən başlayaraq inkişaf edən meyl, istək və maraqlar əsasında yaranır. Bu prosesdə hər biri fəaliyyətin sosial şərtləri ilə sıx bağlı olan dərketmə (koqnitiv) imkanları, öyrənmə marağı, nəhayət koqnitiv qabiliyyətlər xüsusi rol oynayır.

Ə.S. Bayramov və Ə.Ə. Əlizadə fəaliyyətin motivləşməsi prosesini belə səciyyələndirirlər: "Sensor aclıq və ya zəruri məlumatın alınmaması orqanizmdə narahatlığın yaranmasına səbəb olur. İnformasiya aclığının qarşısını almaq üçün idrak obyektinə tələbat, bu isə öz növbəsində idrak fəaliyyətinə tələbat doğurur. İdrak tələbatının özü idrak fəaliyyəti üçün təhrikedici amilə çevrilir. Bu halda insanda axtarışa sönməz həvəs yaranır. Bu, sadəcə həvəs səviyyəsində qalmır, maraq, meyl, arzu, istək formalarında təzahür edərək idrakın istiqamətinə, intensivliyinə ciddi təsir göstərir... İnsanı fəal idrak fəaliyyətinə yönəldən, istiqamətləndirən amillər onun idrak motivini təşkil edir" (1, 331-332).

N.V. Yelfimova koqnitiv psixologiyada motivasiya probleminin müqayisəli təhlilini apararaq bildirir ki, bu elm insana fəal, informasiyalar üzərində işləyən, biliklərə canatmanın stimullarını axtaran orqanizm kimi baxır. Ancaq bu nəzəri müddəanın yalnız koqnitiv psixologiya çərçivəsində reallaşdırılması çətindir. Belə də izah edə bilərik ki, koqnitiv konsepsiyalarda insana informasiya modelləri ("koqnitiv xəritə", "bələdləşmə sxemləri") qismində yanaşılır. Bu, insandan informasiya əldə etməyə yönəldilmiş spontan fəallıq tələb edir.

Koqnitiv psixologiyanın U. Naysser, C. Kaqan (2) kimi nümayəndələri koqnitiv fəaliyyətin motivləşməsini koqnitiv konstruktlar kimi səciyyələndirirlər. C. Kaqan motivi - arzu edilən son vəziyyət, məqsədi - gələcək hadisələrin koqnitiv təsəvvürü olaraq dəyərləndirir. Koqnitiv motivin və məqsədin bu cür izahı biliklərin determinasiyaedici funksiyası ilə izah olunur (http://voppsy.ru, 3).

Koqnitiv fəaliyyətin motivasiyası hər hansı situativ, hissi-emosional təsirdən yaranan davamsız elementlərlə qurula bilməz. Motivasiyanın quruluşunu əmələ gətirən tələbat, istək, meyl və maraq inikşafetdirici qüvvəyə malik olan komponentlərdir. Bu baxımdan yaş mərhələləri üzrə koqnitiv fəaliyyətin motivləşmə səviyyəsi də fərqli olur. Ona görə A.A. Rean bütövlükdə motivləşməyə belə qüvvələri: "motiv, tələbat, maraq, cəhd, məqsəd, meyl, ustanovka, ideal və s. bütün uyğunluqlarını, daha geniş mənada davranışı determinasiya edən hər şeyi" daxil edir" (4, 345).

A.A. Rean yeniyetmələrin koqnitiv fəaliyyətini motivləşməsində yaranan məzmun dəyişmələrini birinci növbədə onların ünsiyyət sahəsinin genişlənməsi ilə əlaqələndirir, sanki ünsiyyət prosesində yeniyetmələrin motivasiya sahəsinda kordinal dəyişmələr gedir: valideynlərlə, müəllimlərlə ünsiyyət öz aktuallığını itirərək yaşıdlarla münasibət birinci dərəcəli olur. Yeniyetmənin mənəvi və intellektual ünsiyyət sahəsi genişlənir. ”Tədris-dərketmə motivasiyasında da əhəmiyyətli dəyişmələr baş verir. Dərketmə maraqları istiqamətini dəyişir. Bir qismində onlar qeyri-müəyyənliyi, dəyişkənliyi, situativliyi ilə xarakterizə olunur. Digərlərində tədris fənlərinin dar bir sahəsinə, üçüncü qismində isə əksəriyyətinə yönəlir” (4, 346).

İ.S. Konun araşdırmalarında da müəyyən edilmişdir ki, orta və yuxarı siniflərdə oxuyanların yalnız 22% - də tədris fənninə davamlı maraq olur. Əksər yeniyetmələrdə oxumağa fəal formalaşmış maraq olmur. Əksər hissəsində, təxminən 54 % - də bilik əldə etmək deyil, qiymət almaq oriyentasiyasına yiyələnmək xarakterikdir (5, 98).

1. Q.Olport (6) və R. Yakobson (7) motivasiyanın inkişafında emosiyaların rolunu önə çəkirlər, lakin koqnitiv fəaliyyətdə bu hisslər sistemi, emosional vəziyyət, emosional davamlılıq, emosional halət kimi daha geniş sahəni əhatə edir. Bütün bunlar müəlliflər tərəfindən subyektin daxili quruluşundan, özünəinamlılığından və qarşılıqlı əlaqələrin məzmunundan yaranan vəziyyətlər qismində ayırd edilir.

Ə.Ə. Qədirov yeniyetmələrin öyrənmə motivasiyasının inkişafını bütövlükdə həyati məsələlərlə bağlayır. Belə ki, yeniyetemə yalnız dərsdə rast gəldiyi yenilikləri mənimsəməklə kifayətlənməyib, həm də biliklərin yeni sahələrini müstəqil surətdə mənimsəməyə çalışır. “Gerçəkliyə şüurlu münasibətin inkişafı ilə əlaqədar olaraq yeniyetmələrin təlimə münasibəti tədricən dəyişir. Onun təlim motivləri ictimai, idrak motivləri xarakteri alır, yeniyetmə şəxsi motivlərə nisbətən ictimai, həyati motivlərin, eyni zamanda əməyə hazırlığın zəruriliyini dərk edir” (8, 334).

Problemlə bağlı aparılan tədqiqatlardan biri də T.O. Qordeyevanın “Məktəblilərin və tələbələrin təlim fəaliyyətinin motivasiyası: quruluş, müxanizmlər, inkişaf şərtləri” mövzusunda (2013) dissertasiya işidir. T.O. Qordeyeva şagirdlərin koqnitiv fəaliyyətini motivləşməsinə diferensial yanaşaraq onların təlim fəaliyyətinin motivasiyasının quruluş - prosessual modelini təklif edir. Buraya bir sıra faktorlar daxildir (9, 111- 144): motivasiya-məna bloku; məqsəd bloku; intensional-nizamlayıcı blok; çətinliklərə üstüngəlmə və uğursuzluğu nəzərə almaq (kopnnq); motivasiya - davranış bloku; təlim fəaliyyətinin motivasiyasının koqnitiv predikatları.

T.O. Qordeyeva uğurgözləmənin həqiqiliyi (C. Atkinson), fəaliyyətdə uğur əldə etmə (B. Vayner, E. Skinner, K. Dvek, M. Seliqman və b.) və özünüeffektivliyi (A. Bandura) motivasiyanın əsas koqnitiv predikatı kimi ayırd edir. Belə məlum olur ki, əgər şagirdin fəaliyyəti nəzarət altındadırsa, yaxud qarşıya qoyulmuş məqsədə çatmaqdan, uğurlarını təmin etməkdən ötrü özünün tabeliyində olan vasitələrlə yoxlanılırsa, bu halda təlim fəaliyyətinin motivasiyası möhkəmlənir.




*Şəkil 1. Yeniyetmələrdə koqnitiv fəaliyyəti motivləşdirən komponentlərin ierarxiyası*

İkinci mühüm predikat kimi T.O. Qordeyeva öz gücünə inamı göstərir. Beləliklə, o, 6-11-ci siniflərdə oxuyan şagirdlərin təlim motivasiyasının ierarxiyasını müəyyən etmişdir: yaxşı qiymətlər almaq (dərketmə prosesinə maraq, səriştəli olmaq, özü üçün əhəmiyyət kəsb edən şəxslərin rəğbətini qazanmaq, onlar tərəfindən qiymətləndirilmək); öyrənməyə cəhdetmə (daxili məmnunluq motivinin yaranması); başqaları tərəfindən qəbuledilmə (onların qayğısına qalan valideynlərin, təlim fəallığına sövq edən müəllimlərin rəğbətləndirməsi və qiymətləndirməsi, özü üçün əhəmiyyət kəsb edən sinif yoldaşları, həmyaşıdların qiymətləndirmələri); təlimə maraq (dərketmə motivi); başqalarına özünün ağlını və qabiliyyətini göstərmək.

Şəkil 1- də koqnitiv fəaliyyəti motivləşdirən komponentlərin ierarxiyasına yuxarıdan aşağıya doğru baxılır. T.O. Qordeyevaya görə, motivləşmədə sonuncu yeri tutan - başqalarına özünün ağlını və qabiliyyətini göstərmək motivi yeniytemələrdə öz səriştəliliyini nümayiş etdirmək istəyindən yaranır.

A.V.Formus yeniyetmələrin koqnitiv fəaliyyətinin motivasiyasını inkişaf etdirmək istiqamətində həyata keçirdiyi proqramlar nəticəsində bu qənaətə gəlmişdir ki, yeniyetməlik dövründə tədris-tədqiqatçılıq fəaliyyətinin motivasiyasını inkişaf etdirmək üçün onların maraqlarını, motivlərini, müxtəlif fənlərə münasibətini dərindən öyrənmək lazım gəlir. Bu iş hələ IV-V siniflərdən başlanmalıdır. Müasir təhsil prosesində şagirdlərin tədris-tədqiqatçılıq fəaliyyəti onların inkişafı və kamilləşməsi baxımından xüsusi aktualıq kəsb etdiyindən bu işə ciddi yanaşılmalıdır. Fəaliyyətin bu növünün motivləşdirilməsi, şagird tərəfindən ona şəxsi məna verilməsi hazırda müəllimin mühüm və çətin peşə vəzifələrindən birinə çevrilmişdir (10, 7).

S.N. Maxnoves yeniyetmələrdə bu səviyyədə motivasiyanın yaradılmasının heç də asan məsələ olmadığını göstərərək bunun üçün fəaliyyəti nizamlayan qabiliyyətlərin olmasını əsas şərt kimi irəli sürür (11, 18).

1) yeniyetmələrin təlim fəaliyyətindəki müvəffəqiyyəti motivasiyanın qurulmasındakı struktur-funksional əlaqələr və onlar arasındakı qarşılıqlı təsirin qanunauyğunluqlarından, qabiliyyətlər sahəsinin quruluşundan asılı olmaqla onların təlim fəaliyyətinin nizamlanmasının psixoloji mexanizmlərini daha dərindən başa düşməyə imkan verir;

2) yeniyetmələrin təlim fəaliyyətindəki müvəffəqiyyəti motivasiyanın və qabiliyyətlərin qurulmasındakı əlaqələrin mürəkkəb kompleksinin qarşılıqlı təsirindən asılıdır:

- qabiliyyətlər sahəsində: özünüqiymətləndirmənin adekvatlığı, qeyri - adekvatlığı (özünü həqiqi qiymətləndirmək qabiliyyəti), intellektual qabiliyyətlərin ifadə olunması səviyyəsi, nizamlayıcı və öz perspektivlərini qiymətləndirmə qabiliyyəti;
- motivasiya sahəsində: ifadəliliyin və uğur motivasiyasının, affiliasiyanın (insanlarla birgə olmaq, emosional əlaqələrdə iştirak etmək, ünsiyyət tələbatı), nailiyyətə cəhdetmə, qorxunun və inkaredilmə hissinin olmaması;

3) özünüqiymətləndirmə yeniyetmənin davranış və fəaliyyətinin nizamlanmasının mühüm amilidir. Müəyyən edilib ki, yeniyetmələrdə özünüqiymətləndirmə səviyyəsinin adekvatlığı motivasiya sahəsinə əhəmiyyətli dərəcədə təsir göstərir: qarşılıqlı təsirə istiqamətlənmə - VI sinif; şəxsi və işgüzar istiqamətlənmə -VIII sinif; affiliasiyanın, uğurun motivasiyası və onların birgə seçimi;

4) öz şagirdləri haqqında tipik peşə biliklərinə sahib olması praktik işdə pedaqoqa psixoloji baxımdan əlverişli mühit yaratmağa, yeniyetmələri öyrənməyə yönəldən stimullaşdırıcı metodlar seçməyə, təlim fəaliyyətinin səmərəliliyini artırmaq üçün təhsil prosesinin idarə edilməsi mexanizmlərini qurmağa imkan verir.

Apardığımız təhlillər əsasında yeniyetmələrin koqnitiv fəaliyyətinin motivasiyasının quruluşunda duran əsas pedaqoji-psixoloji komponentləri ayırd edə bilərik.

I blok: motivasiyanın fərdi psixoloji (qabiliyyət) komponentləri.

II blok: motivasiyanın emosional (kommunikativ) komponentləri.

III blok: motivasiyanın nizamlayıcı (şəxsiyyət) komponentləri.

IV blok: sosial-ictimai oriyentasiyalar.

Nəticə bundan ibarətdir ki, motivləşmə yaradan faktorların hər biri ayrılıqda deyil, ümumi məqsədə yönəldikdə fəaliyyət dinamik mahiyyət kəsb edir. Həmçinin, nəzərə almaq lazımdır ki, koqnitiv fəaliyyət ciddi iradi səy tələb etdiyindən, bu fəaliyyətin təşkilatçıları bir sıra mürəkkəb əməliyyatları da yerinə yetirməli olurlar: dərketmə maraqlarını təmin etmək üçün müstəqil fəaliyyət göstərmək; müxtəlif tapşırılqarı yerinə yetirmək üçün informasiyaların axtarışında, tapılmasında və işlənməsində yüksək seçicilik, operativlik, sistemlilik, nümayiş etdirmək; məsələlərin həllinə yaradıcı yanaşmaq; informasiyaların mahiyyəti haqqında mühakimə yürütmək; birgə fəaliyyət zamanı komanda işləyərkən, əməkdaşlıq edərkən kommunikativ bacarıqlar nümayiş etdirmək; özünün səmərəli fəaliyyəti üçün məsuliyyət daşımaq; müxtəlif həyati situasiyalarda yaranmış problemləri həll etmək.

Koqnitiv fəaliyyətin psixoloji qurulması yalnız motivləşmə (plan, maraq, subyekt) yolu ilə mümkündür. Bu hadisə affektiv və koqnitiv maraqların qovşağında baş verir. Biliklər ayrılıqda, özü-özlüyündə motivləşmir. Biliklərin motivlərə çevrilməsi üçün onlara əhəmiyyət verilməli, ideallarla, gələcək (peşə) haqqındakı təsəvvürlərlə, (təlim) fəaliyyətilə əlaqələndirilməlidir. Burada əsas məsələ yeniyetmənin koqnitiv fəaliyyətini şəxsi istəklərinə, maraqlarına, qabiliyyətlərinə, həmçinin cəmiyyətin mənafeyinə görə istiqamətləndirmək, neqativ təsirlərə üstün gəlməkdir. Belə mürəkkəbliyinə görə də koqnitiv fəaliyyətin motivasiyasının inkişafı həm ailənin tərbiyə mühitindən, həm də təhsil sistemində fəaliyyət göstərən mütəxəssislərin, fənn müəllimlərinin peşə səriştəliliyindən asılıdır. Hər kəs bu işdə öhdəsinə düşən vəzifəni layiqincə yerinə yetirməlidir.

## ƏDƏBİYYAT

2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı: Maarif, 1989.
3. Neisser U. Cognitive Psychology. N. - York: Appleton, 1967.
4. Елфимова Н.В. Пути исследования мотивации в когнитивной психологии: сравнительный анализ // http://voppsy.ru/
5. Реан А.А.. От рождения до смерти. М.: Алма-пресс, 2002.
6. Кон И.С. Психология ранней юности. М.: Просвещение, 1989.
7. Allport G. W. Pattern and growth in personality. N.Y.: 1961.
8. Jakobson R. Towards a linguistic typology of aphasic impairments. Boston, Little, Brown, 1964.
9. Qədirov Ə.Ə. Yaş psixologiyası. Bakı: Maarif, 2002.
10.Гордеева Т.О. Мотивация учебной деятельности школьников и студентов: структура, механизмы, условия развития //Дисс. на соиск. уч. степе. докт. психол. наук. М.: МГУ, 2013.
11.Формус А.В.Мотивация учебно-исследовательской деятельности учащихся - подростков // http://festival.1september.ru/
12.Махновец С.Н. Взаимосвязь мотивации и способностей подростка в структуре регуляции его деятельности // М.: МГПУ, 1996.

**Л. Амрахлы**

## МОТИВАЦИЯ КОГНИТИВНОЙ ДЕЯТЕЛЬНОСТИ ПОДРОСТКОВ

### РЕЗЮМЕ

В статье мотивирование когнитивной деятельности подростков рассматривается как важная основа для прогрессивного развития современного высокотехнологичного общества, потенциал необходимый для дальнейшего прогресса-развития и реализация когнитивного потенциала подростка, важнейшие источники его достижений. Полученные данные в когнитивной психологии показывают, что мотивирование когнитивной деятельности подростков, несомненно - важно. В то же время, предпринятые попытки вставить мотивацию в процесс переработки информации субъектом являются несколько искусственными, так как при этом отсутствует содержательный анализ процесса возникновения мотивации. Поэтому, в заключение постановили, что на возможностях создания

мотивационного компонента деятельности зависит, либо целиком индивидуальных, либо от коммуникативных, либо личностных или социально-общественных компонентов.

**L. Emrahli**

## MOTIVATION OF COGNITIVE PERFORMANCE OF TEENAGERS

### SUMMARY

In article motivation of cognitive activity of teenagers is considered as an important basis for progressive development of modern hi-tech society, potential necessary for further progress developments and realization of cognitive potential of the teenager, the most important sources of his achievements. The obtained data in cognitive psychology show that motivation of cognitive activity of teenagers undoubtedly - are important. At the same time, the made attempts to insert motivation into process of processing of information by the subject are a little artificial as thus there is no substantial analysis of process of emergence of motivation. Therefore, in summary decided that on opportunities of creation of a motivational component of activity depends, or entirely individual, or from communicative, or personal or social and public components. Dependence motivation of activity of teenagers only from cognitive processes isn't productive.

# SAĞLAMLIQ İMKANLARI MƏHDUD OLAN UŞAQLARLA APARILAN PEDAQOJİ VƏ SOSİAL-PSİXOLOJİ XİDMƏT İŞİ

**Südabə İsgəndərova,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
ARTPİ
E-mail: iskenderova.sudabe@yandex.ru

**Rəyçilər**: *dos.* T.S. Paşayev
*ped. fəls. dok.* D.Ə. Dostuzadə

***Açar sözlər**: sağlamlıq imkanı məhdud uşaqlar, sosial–psixoloji xidmət, valideynlərlə əməkdaşlıq, inkişaf sahələri, prosesyönümlü təlim, reflektiv təlim*

***Ключевые слова**: дети с ограниченными возможностями здоровья, социальные и психологические службы, в сотрудничестве с родителями, развивающиеся сферы, процессуально направленное обучение, рефлексивное обучение*

***Keywords** children with limited health, social and psychological services, in collaboration with parents, developing areas procedurally directed learning, reflective learning*

Bu gün dünyanın iqtisadi cəhətdən inkişaf etmiş hər bir ölkəsinin ən ümdə vəzifələrindən biri ölkəsində olan sağlamlıq imkanları məhdud uşaqların sosiallaşmasına və cəmiyyətə inteqrasiyasına nail olmaqdan ibarətdir. Respublikamızda da bu istiqamətdə xeyli işlər aparılır. 2013-cü il oktyabrın 24-də təsdiq olunmuş Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyasına əsasən xüsusi qayğıya ehtiyacı olan uşaqların həyata və təhsil mühitinə inteqrasiyasını təmin etmək məqsədilə inkişaf və inklüziv təlim metodlarının yaradılması nəzərdə tutulur. Bu vəzifələri həyata keçirmək üçün pedaqoji prosesin təşkili ilə yanaşı təhsildə sosial-psixoloji xidmətin təşkili məsələləri vacibdir.

Xüsusi qayğıya ehtiyacı olan uşaqların bacarıqlarını maksimum inkişaf etdirmək, mövcud xidmətlərdən istifadələrini, cəmiyyətin inkişaf etdirilməsi prosesində fəal iştiraklarını təmin etmək üçün onlara dəstək olmaq lazımdır. Belə uşaqların cəmiyyətə müvəffəqiyyətlə inteqrasiyası psixi, fiziki pozulmanın xarakteri və dərəcəsindən, bu pozulmanın qarşısını almağa yönəlmiş proqramlardan, təlim texnologiyalarından, həm də sosial mühitin təşkilindən asılıdır.

Pedaqoji prosesdə müəllimin dərsdə yaratdığı şərait çox vacibdir. Müəllim dərsi planlaşdırarkən nəticə əldə etmək üçün təlim şəraitini elə qurmalıdır ki, bütün uşaqların təlim tələbatına uyğun gəlsin. Eyni zamanda fəallaşmaları üçün həvəsləndirilməlidirlər. Bütün bunların qiymətləndirmədə nəzərə alınması prosesyönümlü təlimi təşkil etməyə imkan verir. Yəni, müəllim dərsdə uşaqların əməkdaşlığı, dialoq qurmaları, fəal iştirakları, müxtəlif resurslardan istifadələri üçün şərait yaradırmı və hər dərs müntəzəm olaraq müəllim buna riayət edirmi? Bundan başqa hər bir uşaq dərsdə iştirakına görə rəğbətləndirilirmi, uşaqların fərqliliyi anlamasına, birlikdə öyrənmələrinə və bir-birinə kömək etmələrinə şərait yaradılırmı,? Müəllim dərsdə diskussiya zamanı alternativ fikirlərə hörmətlə yanaşırmı? Dərsi planlaşdırarkən və ya sonunda bu kimi sualların verilməsi müəllimə imkan verir ki, dərs prosesində şəraiti düzgün qiymətləndirsin və prosesyönümlü tədrisi həyata keçirə bilsin. Məktəbin bütün əməkdaşları təlim prosesinin qiymətləndirilməsində iştirak edərsə, müəllim, şagird və valideyn əməkdaşlığında qarşılıqlı fəaliyyətin tənzimlənməsinə imkan yaranar [ 1; 90-106].

Bundan başqa dərs prosesində müəllimin yüksək refleksiya etmə və əks əlaqə yaratma bacarığı olmalıdır, yəni düşünərək öyrətməyi bacarmalıdır. Düşünərək öyrətmə pedaqoqdan reflektiv təcrübəçi olmağı tələb edir. Müəllim dərs prosesində problemlə qarşılaşarkən nə edəcəyi haqqında da düşünməli, situasiyanı təhlil etməli, digər müəllimlərin oxşar problemlər zamanı necə addım atdıqlarını öyrənməli, dəyərləndirməli, müxtəlif yanaşmaları tətbiq etməyi bacarmalıdır.

Reflektiv öyrətmə zamanı müəllim yeni ideyalar və anlayışlar yaradaraq tədris praktikasını zənginləşdirir, innovativ düşünmə şəraiti yaradır. Bunun üçün müəllim şagirdlə öz arasında düzgün münasibət yaratmağı, problemin həlli üçün öz fərziyyələrini yoxlamağı, şagirdin düşüncələrini nəzərə almağı, onu mühakimə etməməyi bacarmalıdır. Düşünərək öyrətmə zamanı müəllim sanki tədqiqat aparır. Bu cür tədris müəllimlərə öz təlim praktikalarını başa düşməyə və onu təkmilləşdirməyə imkan verir [ 2; 25-73].

Sağlamlıq imkanları məhdud olan uşaqlarların sosial-psixoloji xidmət işində aşağıdakı sahələr üzrə inkişaf etdirilməsi nəzərdə tutulur: intellektin inkişafı; emosional fəaliyyətin inkişafı; stressə qarşı dözümlülüyün inkişafı; özünəinamın inkişafı; real həyata müsbət münasibətin formalaşdırılması və başqalarını qəbul etmənin inkişafı; müstəqilliyin inkişafı; özünüaktuallaşdırma, özünümotivasiyanın inkişafı [3; 29].

Qiymətləndirmə əsasında hansı sahədə çatışmazlıqlar olduğu aşkarlanır, buna uyğun korreksiya və inkişafetdirici iş aparılır. Psixokorreksiya əsasən iki istiqamətdə aparıldı:

1.Şagirdlərin şəxsiyyətində, əqli inkişafında, emosional iradi xüsusiyyətlərində özünü göstərən çətinliklərin aradan qaldırılması və ya kompensasiyası;

2. Şagirdlərin yaşlılar və həmyaşıdları ilə qarşılıqlı münasibətlərdə özünü göstərən çatışmamazlıqların aradan qaldırılması.

Nəzərdə tutulan psixokorreksiya məşğələlərində aşağıdakı sahələrin korreksiyasını nəzərə almaq lazımdır [4; 75-82].

a) emosional inkişafın korreksiyası;
b) sensor-perseptiv və intellektual korreksiya;
c) davranış pozuntularının korreksiyası;
ç) şəxsiyyətin korreksiyası.

Emosional sahənin korreksiyası narahatçılığın aradan qaldırılmasına, müstəqillik və fəallığın yüksəldilməsinə yönələrək, aqressivlik, gərginlik, həyəcanlılıq, şübhəlilik halları kimi ikincili dərəcəli pozuntuların aradan qaldırılmasına yönəldilir.

Sensor-perseptiv və intellektual korreksiya duyğu-qavrayışın inkişafına, mənimsəmənin möhkəmləndirilməsinə, anlamanın formalaşdırılmasına yönəldilir.

Davranış pozuntuları müxtəlif səbəblərdən yarana bilər:

-pozulmuş ailə münasibətləri;
-psixoloji və sosial deprivasiya;
-təlimin çətinlikləri ilə bağlı dezadaptasiya.

Şəxsiyyətin korreksiyası isə sağlamlıq imkanları məhdud olan uşaqların şəxsiyyətlərinin inkişafında ləngiyən amillərin qarşısının alınması məqsədilə aparılır. Dünyagörüşün artırılması, fəaliyyət zamanı əsas motivin inkişafı, ünsiyyət zamanı qarşılıqlı anlaşma kimi xüsusiyyətlər nəzərdə tutulur.

Sağlamlıq imkanları məhdud olan uşaqların valideynlərini uşaqlarının təlim-tərbiyəsində iştirak etməyə həvəsləndirmək üçün uşaqların ehtiyaclarının dərk olunması, problemlərin təhlili, birgə həlli yollarının tapılması və yerinə yetirilməsi, nəticələrin qiymətləndirilməsi haqqında söhbətlər aparılmalıdır. Eyni zamanda valideynlər hər dəfə uşaqlarla birlikdə psixoloq - defektoloqun, loqopedin məşğələlərində iştirak edərək ev şəraitində şifahi və yazılı nitqin inkişafı, ailədaxili davranışın formalaşdırılması, müvəffəqiyyət zamanı rəğbətləndirmə, təhlükəsiz mühitdə özünə xidmət bacarıqlarının aşılanması və s. kimi məlumatlarla təlimatlandırılmalıdır. Valideynlərlə aşağıdakı mövzularda söhbətlər aparılmalıdır: xüsusi qayğıya ehtiyacı olan uşaqlar haqqında və öz uşağının diaqnozu ilə bağlı məlumatların verilməsi; ehtiyaclar və imkanlar haqqında; sağlamlıq imkanları məhdud uşaqların psixoloji inkişafı haqqında; inkişaf sahələri və onun kiçikyaşlı məktəblidə inkişaf etdirilməsi yolları; sağlamlıq imkanları məhdud uşaqların sosial reabilitasiyasına necə nail olmalı; uşağın müşahidəsinin təşkili; uşağın evdə inkişaf etdirilməsi yolları; uşaqların hazırlığı və kollektivə adaptasiyası; uşağın sosial emosional inkişafı; fiziki inkişafı; ailədaxili ünsiyyətin inkişaf etdirilməsi; ailədə sosial vərdişlərin formalaşdırılması; ailədə sağlam sosial

mühitin yaradılması; problemlərin aradan qaldırılması üçün verilən ev tapşırıqlarının həllində birgə iştirakın təşkili.

Beləliklə, sağlamlıq imkanları məhdud olan uşaqların cəmiyyətə inteqrasiyası həmin uşaqların hüquqlarının təmin olunması baxımından vacib məsələdir. Bu işdə ümumtəhsil məktəblərində psixoloqların, eləcə də təlim prosesinin təşkilində pedaqoqların üzərinə böyük iş düşür.

## ƏDƏBİYYAT


1. Tony Booth. Mel Ainscow. Index for inclusion:developing learning and partion in schools. Great Britain, Publication copyright CSIE 2011.
2. Andrew Pollard. Reflective teaching, 2-nd edition (evidence-informed profesional practice). Continuum, New York, 2005.
3. Hüseynov Q., Şərəfxanova L., Məmmədova S., Mikayılova Ü., Kərimova Y. İnklüziv təhsil. Bakı, 2010.
4. Korreksion pedaqogikanın müasir məsələləri. Bakı: ARTPİ, 2012.
5. Акатов Л.И. Социальная реабилитация детей с ограниченными возможностями здоровя. М.: Владос, 2003.
6. Лубовского В. И. Специальная психология. М. , 2005.
7. Выготский Л.С. Основы дефектологии. М., 1995.
8. Дубровская Т.А. Воронцова М.В. Кукушин В.С.. Адаптация и реабилитация детей с ограниченными возможностями здоровя. М.: Союз, 2001.


**С. Искендерова**

## РАБОТА ПО ОКАЗАНИЮ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКОЙ ПОМОЩИ ДЕТЯМ С НАРУШЕНИЕМ ОПОРНО-ДВИГАТЕЛЬНОГО АППАРАТА

### РЕЗЮМЕ

Данная статья посвящена актуальной на сегодняшний день проблеме социально-психологической, педагогической реабилитации детей с ограниченными возможностями здоровья. Автор в данной статье не только определила проблемы, стоящие перед школой и учителем, но и указала пути их решения, коснулась задач, стоящих перед учителями – организаторами учебного процесса. В статье также отмечено, что способность учителя анализировать и критически оценивать свою деятельность свидетельствует об осуществлении контроля за своей деятельностью.

**S. Iskenderova**

## WORK TO PROVIDE PSYCHO-SOCIAL SUPPORT FOR CHILDREN WITH IMPAIRED LOCOMOTOR SYSTEM

### SUMMARY

This article is devoted to an actual problem of the socio- psychological, pedagogical rehabilitation of children with limited health abilities. The author in this article not only identified the challenges facing the school and the teacher, and the ways of their solution, addressed the challenges facing teachers-organizers of the learning process. The article also noted that the ability of teachers to analyse and critically evaluate their activities of monitoring their activities.

# ОЛИГОФРЕН УШАГЛАРДА НИТГ ГЦСУРУ ВЯ ОНУН АРАДАН ГАЛДЫРЫЛМАСЫ ЙОЛЛАРЫ

**Айнуря Щажыйева,**
*Bakı şəhəri Нясими району 11 нюмряли хцсуси тящсил мяктябинин директору*
Е-маил: 11нюмряли.хтм@маил.ру

**Rəyçilər**: *ped. fəls.dok.* D. Dostuzadə,
*ped. fəls.dok.* X. Talıbova

***Açar sözlər**: fərdi yanaşma, хцсуси мяктяб, мяшьяля, адаптасийа, ягли инкишаф*
***Ключевые слова**: индивидуальный подход, специальная школа, подготовка, адаптация, умственное развитие*
***Кейwордс**: индивидуал аппроажщ, сжщоол, траининэ, адаптатион, жогнитиве девелопмент*

Тялим просеси шаэирдин йалныз яглини вя гцввялярини инкишаф етдирмякля галмыр, щям дя ушагда мющкям ягидя, йцксяк яхлаги щиссляр, гцввятли характер ямяля эятирир. Н.Г. Чернишевски эюстярмишдир ки, елмлярин тядрисиндя мягсяд шаэирдляри формал биликлярля йцклямяк дейил, онлары инкишаф етдирмякдир.

Тялимин тяшкили вя васитяляри шаэирдлярин мцхтялиф билекляря мцвяффягиййятля йийялянмяляриня кюмяк етмяли, онларын мяняви гцввялярини вя габилиййятлярини щяртяряфли инкишаф етдирмялидир.

Олгофрен ушаглар мяктяб шяраитиндя йеткинляшир вя бу йеткинлик мяктяб астанасындан башлайыр. Бир сюзля, мяктяб щяр бир шаэирдин мянявиййатжа формалашмасы уьрунда, эяляжяйя лайиг олан эянж мцтяхяссис йетишдирмяк уьрунда мцбаизя апармагдан ибарятдир. Тядрис просесиндя, тялимин щяйатла мцнасиб олан тялябатына максимум дяряжядя щяр бир шаэирд ямял етмяли вя ону юйрянмялидир.

Ягли жящятдян эери галан ушагларда нитг чатышмамазлыьы системли характер дашыйараг, нитг фяалиййятинин бцтцн ямялиййатларыны мцхтялиф дяряжядя позур.

Ягли эерилийи олан шаэирдлярдя нитг чатышмазлыглары юз механизм вя эедишиня эюря мцхтялиф олдуьундан онларын арашдырылмасы да мцяййян йанашма тяляб едир.

Гейд етмяк лазымдыр ки, йардымчы мяктяб шаэирдляринин чох бюйцк бир щиссяси, сяс тяляффцзц гцсурларынын олмасындан язиййят чякирляр. Беля ки, ибтидаи синиф шаэирдляри даща чох кцйлц, фышылтылы, самитляри, р, л кими сонорларын тяляффцзц заманы тящрифляря йол верирляр.

Сяслярин гцсурлу тяляффцзц, зяриф щяряки чятинликля баьлы олмасы, щям дя сясляри ешитмянин аид едилмясинин позулмасы, (кинестетик) щиссийатын, нязарятин вя фонем сечмя ямялиййатларынын чатышмамазлыьы иля ялагядардыр.

Сяс тяляффцзц гцсурларынын арадан галдырылмасы заманы фярди йанашмайа даща чох йер верилир. Бу иш фярди тяшкил едилян логопедик ишя ясасян планлашдырылыр. Щяр бир коррексийа иши садяляшдириляряк, бир нечя мяшьяля цчцн нязярдя тутулур.

Сяс тяляффцзц гцсурларынын коррексийасындан яввял щазырлыг мярщяляси эялир. Бу мярщяля юз мязмунуна, кейфиййятиня эюря фяргли вя узун мцддятлидир. Бу мярщялядя ягли жящятдян эери галан ушагларын ял вя нитг моторикасынын инкишафы, ешитмя диггяти, ешитмя йаддашы вя гаврайышын формалашдырылмасы цчцн хцсуси мяшьяляляр апарылыр. Сяс тяляффцзцнцн дцзэцн формалашдырылмасы заманы истифадя едилян мярщяля ися сясин ойрядилмясидир. Сяс тяляффцзц гцсурларынын коррексийасы, ясасян, асан тяляффцз едилян сяслярдян башланыр: мясялян «м» сясинин тяляффцзц п, а, у, и, н, о сясляри артикулйасийасына эюря диэяр сяслярдян асан олдуьу цчцн, коррексийасыны онларла башламаг олар.

Олигофрен ушагларын сяс тяляффцз гцсурларынын коррексийасында мцщцм мясялялярдян бири дя сяслярин дифференсийасийасыдыр.

Гейд етмяк лазымдыр ки, нормал инкишаф етмиш ушагларда логопедик иш заманы сяслярин дифференсисасийасынын коррексийасы шифащи нитг цзяриндя тяшкил едилир. Ягли эери олан ушагларда иш щям шифащи, щям дя йазылы нитгин цзяриндя тяшкил едилир. Логопедик иш шифащи вя йазылы нитгин коррексийасында эениш йайылмышдыр.

Ягли жящятдян эери олан ушагларда сяс тяляффцзцнцн позулмасы иля йанашы лцьят ещтийатынын касадлыьы да мцшащидя олунур.

Ягли жящятдян эери олан ушагларда лцьят чатышмазлыьы, тядгигатчыларын фикриня эюря идрак фяалиййятинин позулмасы иля сых ялагядардыр. Бу позулма ушаьын фяал вя гейри фяал лцьят ещтийатынын формалашмасына мянфи тясир эюстярир: Олигофрен ушагларда лцьятин касадлыьы ясасян онларда ягли инкишафын чох ашаьы сявиййядя олмасы, ятраф мцщит щаггында билик вя тясяввцрлярин мящдудлуьу, марагларын формалашмамасы, вербал йаддашын зяифлийи, хцсусиля сосиал вя нитг ялагяляринин, тялябатларынын азлыьы иля изащ едилир.

Йардымчы мяктябдя апарылан мцшащидяляря эюря ибтидаи синиф шаэирдляринин чоху онлары ящатя едян мцщитдя бир чох яшйаларын адларыны билмирляр. Олигофрен ушаглар семантик охшарлыьына эюря сюзляри явязляндирир вя йа гарышыг салырлар. «Айаггабы» сюзц иля «туфли», «чякмя», «узунбоьаз чякмя», кими сюзляри гарыш-дырырлар.

Йардымчы мяктябин ибтидаи синиф шаэирдляри цчцн характерик гцсурлардан бири сюз дцзялтмя функсийасынын формалашмамасыдыр. Онлар йени сюздцзялдижи шякилчилярдян истифадя етмякдя чятинлик чякир, сифятдян, исимдян, фелдян исим дцзялдян шякилчилярдян дцзэцн истифадя едя билмирляр: мясялян, «эцл» исминдян йени сюз дцзял дяркян «эцлдан», «эцлцш». Щям сюзцн мянасынын дцзэцнлцйцндя, щям дя шякилчилярин сечилмясиндя сящвя йол верирляр.

Шаэирдлярин мцстягил нитгиндя дя чатышмазлыглар мцшащидя едилир.

Ашаьы синифлярдя лцьят цзяриндя иш ойун вя тапшырыгларын верилмяси заманы даща чох феллярдян истифадя етмякля башланыр. Шаэирдляря шякилляр эюстярилир. «Бу нядир?», «Бу кимдир?», «О нядир?», «Ит ня едир?», суаллар вермякля, бу иши тяшкил етмяк олар. Ягли жящятдян гцсурлу ушагларда нитгин грамматик гцсурларынын инкишаф етдирилмяси просесиндя щюкмян нитг гцсурунун гурулушу, грамматик мяналарынын формалашмасы, семантик жящятдян йахын олан сюзлярин фяргляндири-рилмяси грамматик формаларын чятинлийи нязяря алынмалыдыр.

Жцмля цзяриндя логопедик иш апараркян, ушаглара яввял садя мцхтясяр жцмляляр, сонра садя эениш жцмляляр, нящайят мцряккяб жцмляляр юйрядилир.

Олигофрен ушаглара чюз бирляшмялярини юйрятмякля, жцмля гурмаг вярдиш-лярини ашыламаг олар. Логопедик иш заманы щазыр жцмля моделляриндян истифадя едяряк, онларын нцмуняси ясасында жцмля гурмаьы мянимсятмяк мцмкцндцр. Щяр бир мяшьялядя нитг гцсурларынын коррексийасы иля йанашы, онларын ягли инки-шафлары цзяриндя дя иш апармаг лазым эялир. Беля йанашма нятижясиндя олигофрен ушагларда лцьят ещтийаты зянэинляшир, мющкямлянир, она мцражият едилян нитги баша дцшцр вя онлар ирадяли нитг вярдишляриня йийялянирляр.

Ягли эериликли ушагларда сяс тяляффцз позулмаларынын коррексийасы узун-мцддятли вя мцряккяб бир просесдир. Апарылан коррексийа ишинин чятинлийи онунла ялагядардыр ки, бу ушагларда бейин габыьынын фяалиййяти зяиф, йени сясин формалашмасыны лянэидян шярти рефлекс ялагяляринин йенидян йаранмасыдыр. Ойанма вя лянэимянин кяскин шякилдя позулмасы кющня ялагялярин стеротипинин йаранмасыны шяртляндирир, йенисинин йаранмасыны гейри-мцмкцн едир. Нятижядя, дцзэцн олма-йан сяс тяляффцзц мейдана чыхыр.

Ягли гцсурлу ушагларын нитг чатышмазлыьынын тящлилини апараркян, онларын сяс тяляффцзцндя йол вердикляри гцсурлардан бири сяслярин вариантлылыьыдыр. Бязян щямин сяс ягли гцсурлу шаэирд тяряфиндян башга жцр тяляффцз едилир. Шаэирдлярин йол вердикляри бу гцсур, ясасян сяс-щежа гурулушунда вя сясин сюздя йериндян асылы олараг мейдана чыхыр. Беля ки, сюзцн яввялиндя вя сонунда дцзэцн тяляффцз едилян сюз ортада йа тящриф олунур, йа да щеч тяляффцз едилмир.

Ягли эерилик заманы идрак фяалиййяти габилиййятинин инкишафдан галмасы, мянтиги тяфяккцрцн зяифлийи иля, просеслярин темпинин лянэимяси иля, гаврайышын, щафизянин, диггятин, нитгин кифайят дяряжядя олмамасы иля емосионал сферанын вя бцтювлцкдя шяхсиййятин формалашмасы иля баьлыдыр.

Идрак фяалиййятинин формаларынын инкишафдан галмасы нитгин формалашмасына мянфи тясир эюстярир. Сюзлярин мянасынын баша дцшцлмямяси чятинляшир, сюз ещтийаты, хцсусян фяал лцьят мящдудлашыр, нитгин грамматик тяркиби зяиф олур. Тез-тез тяляф-фцз нюгсанлары баш верир. Олигофренийанын инкишафдан галмасынын ясас хцсусиййят-ляриндян бири психи просеслярин ящатялилийидир. Тяфяккцрцн суряти лянэийир вя бир фяалиййят нювцндян башгасына кечмя чятинляшир.

Бу ганунауйьунлуг щяр бир психи функсийанын чатышмазлыьы структурунда да тязащцр едир. Нятижядя ягли эерилк заманы гаврайыш, нитг, щафизя, диггят, емосионал сащя вя щятта щярякятдя мцжяррядлик даща чох зийан чякир. Бу ися бир даща чох юз ифадясини нитгин чатышмамазлыьында тапыр. Механики щафизя цзцндян ушаг щямишя зийан чякир. Яшйалар харижи яламятлярля даща йахшы йадда галыр, елементляри дахили ялагя иля бирляшмиш олан щадисялярин йадда сахланмасы вя хатырланмасы чятинляшир. Емосионал ирадi сащядя дя мцряккяб емосийаларын чатышмазлыьы юзцнц эюстярир. Идрак фяалиййятиндя мараг вя тящрик мцяййян едилян тяяссцратлар йа тамамиля олмур йа да зяиф олур.

Ягли инкишафдан галма дяряжясиня эюря кямаьыллыг-олигофренийанын йцнэцл вя даща эениш йайылмыш формасыдыр. Бу ушагларын йардымчы мяктябляря сечилмяси заманы она тез-тез раст эялинир. Дебил дяряжяли олигофренийалы ушаглар йардымчы мяктяб шаэирдляринин ясас континэентини тяшкил едир.

Йардымчы (кюмякчи) мяктябин хцсуси шяраитиндя 10 ил ярзиндя ушаглар кцтляви мяктябин ибтидаи синифляр цчцн програмыны мянимсямяйя вя илк истещсалат щазырлыьы алмаьа габилдирляр.

Бцтцн бунларла йанашы дебиллийя интеллектин олигофреник инкишафдан галмасы хасдыр. Ушаглар охунмуш щекайянин ясас идейасыны тута билмирляр; онун мязму-нуну йалныз кюмякчи суаллара ясасян тякрар едирляр.

Эюрмя вя ешитмя тящлили вя синтезинин чатышмазлыьы, йахуд тяляффцзя эюря охшар щярфлярин йадда сахланмасы заманы сяслярин щежаларда вя щежаларын сюзлярдя бирляшдирилмяси заманы чятинликляр дя юзцнц эюстярир. Оху чох заман механики характер дашыйыр, охунмуш материалын мянасы баша дцшцлмцр. Бу ушаглара илк нювбядя 1-дян 10-а гядяр сыра иля саймаьы, вурма жядвялини механики юйрятмяйи юйрятмяк лазымдыр.

**Мягалянин елми йенилийи**. Ягли эерилийи олан ушагларын дяряжясини мцяййян етдикдян сонра щямин ушагларла корректсийа ишинин апарылмасы чох важибдир.

**Мягалянин практик ящямиййяти**. Мягалядя иряли сцрцлян тяклифляр ягли эерикли ушагларын тялим-тярбийясинин хцсуси тяшкил едилмясиндя, корректсийа ишинин апарылма-сында кюмяк етмиш олар.

**ЯДЯБИЙЙАТ**

1. С.Я. Гасымов. Хцсуси мяктяблярдя аномал ушагларын нитг инкишафы. Бакы: Маариф, 1999.

2. Д.Я. Достузадя. Аномал ушагларын инкишафына манечилик тюрядян хястяликляр вя онларла мцбаризя // Тящсил, мядяниййят, инжясянят, 2004, № 4
3. Д.Я. Достузадя. Ешитмяси гцсурлу ушагларла ишин тяшкили. Бакы, 2011.
4. С.Я. Гасымов. Е.М.Кяримова. Ягли вя физики инкишафы лянэийян ушагларын диагностикасы вя коррексийасы. Бакы: Чашыгоьлу, 2004.

**А. Гаджыева**

## НАРУШЕНИЯ РЕЧИ У ДЕТЕЙ-ОЛИГОФРЕНОВ И ПУТИ ИХ ПРЕОДОЛЕНИЯ

### РЕЗЮМЕ

В развитии ребенка большая роль принадлежит окружению детей. Овладение речью и ее использование во многом зависит от физического и психического развития детей. Наряду с развитием речи детей, следует формировать в них речевую культуру, речевой этикет.

Очень важно для развития правильной речи в детях выявление имеющихся недостатков, изучение причин возникновения таковых недостатков, и их проявления.

**А. Щажыйева**

## СПЕЕСЩ ДИСОРДЕРС ИН ЖЩИЛДРЕН-АЛЛ ОЛИЭОПЩРЕНИЖС АНД WАЙС ОФ ОВЕРЖОМИНЭ ТЩЕМ

### СУММАРЙ

Среежщ дефежтс ин жщилден анд тщеир превентион. Ин жщилд девелопмент плай а маъор роле сурроундед бй жщилден. Ланэуаэе ажгуистион анд усе оф тщис ларэелй депендс он тще плйсижал анд ментал девелопмент оф жщилдрен.

Алонэ wитщ тще девелопмент оф жщилдренс спеежщ, сщоулд бе формед ин тщем тще жултуре оф спеежщ, спеежщ етигуетте.

Ит ис верй импортант фор тще девелопмент оф спеежщ ин жщилдрен иднтитижатион оф эарс, тще студй оф тще жаусес оф сижщ дефиженнжиес, анд тщеир манифестатионс.

# UŞAQLARDA ROL DAVRANIŞIN FORMALAŞMASINDA OYUNLARIN TƏSİRİ

**Ofeliya Əmrahlı,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Bakı Dövlət Universiteti*
E-mail: psixoqamma@mail.ru

Rəyçilər: *dos.* L. Əmrahlı,
*ped. fəls.dok.* D. Dostuzadə

***Açar sözlər:*** *davranış, sosial rol, cinsi rol, rol davranışı, sosial davranış, yaradıcı oyunlar*
***Ключевые слова:*** *поведение, социальная роль, половая роль, ролевое поведение, социальное поведение, творческие игры*
***Key words:*** *we are influence, psychotherapist therapeutics of plot of behavior of behavior, social role, sexual role, social behavior, creative plays, play*

Davranış fizioloji və sosial amillərlə şərtlənən mürəkkəb psixoloji aktdır. Onun adekvatlığı bioloji və fizioloji qurulmadan nə qədər asılıdırsa, eyni dərəcədə sosial mühit amilindən, təlim-tərbiyə mühitindən də asılıdır. Təcrübədən görürük ki, bir çox insanların davranışı heç də həmişə sosial normalara uyğun olmur. Məktəbəqədər müəssisələrdə, eləcə də məktəbdə bu və digər səbəb-lərdən davranış pozuntusu olan xeyli sayda uşaqlara, yeniyetmə və gənclərə rast gəlmək mümkündür. Onların bir qisminə sakit vəziyyət, diqqətin mərkəzləşməsi tamamilə yaddır, başqaları, əksinə saatlarla təklikdə oynaya, sakit danışa, öz həmyaşıdları və yaşlılarla əlaqədən qaça bilərlər. Belə olan halda, davranış geriqalmış, qeyri-konstruktiv kimi xarakterizə olunur.

Davranış pozğunluğu uşağın inkişafında bir sıra çətinliklərin səbəbi hesab olunur. Pozuntu uşağa ünsiyyət bacarıqlarından istifadəyə imkan vermir, əhəmiyyətli dərəcədə ləngidici amilə çevrilir. Ətrafdakıların xoş olmayan yanaşmaları, sağlamlığa dağıdıcı təsir göstərə, nəhayət şəxsiyyətin ləngiməsinə gətirib çıxara bilər. Ləngimiş, qeyri-konstruktiv davranış aqressiya, tərslik, hiperaktivlik və s. özünü göstərə bilir. Məktəbəqədər yaşlı uşaqların qeyri-konstruktiv davranışına bunlar səbəb ola bilir:

- genetik amillər, xarakter;
- fərdi quruluşun hədsiz dinamik xarakteri;
- valideynlərin diqqət və qayğısının çatışmazlığı;
- yaşıdlarla münasibətlərin düzgün tənzimlənməməsi, onlar arasındakı münaqişələr;
- hərəki fəallığının təmin edilməməsi, yaxud fiziki yüklənmə və s.

Uşaqlarda rol davranışın formalaşması prosesi reflektor hərəkətlərlə şüurun qarşılıqlı əlaqəsində baş verən mürəkkəb psixoloji qurulmadır. Bu prosesdə sosial mühit amilləri müstəsna əhəmiyyət kəsb edir. Həmin amillər içərisində təlim-tərbiyə mühiti öndə durur, çünki məhz uşaq üçün qurulan pedaqoji şərait, ona edilən təsirlər, göstərilən şəxsi nümunə uşaq tərəfindən sosial rolların mənimsənilməsinin təmin edir.

Uşağın motor və koqnitiv inkişafına imkan yaradan oyun onun üçün əsas təlim vasitəsidir. Bununla yanaşı, oyun uşaqların sosiallaşma, cəmiyyətə daxilolma funksiyasını yerinə yetirir. Bu təbii məşq prosesində uşaq özündə toplanmış neqativ emosiya və hisslərdən azad olaraq yeni sosial rəğbətləndirilmiş hiss və emosiyalara sahib olur.

Əlbəttə, uşaqlar tərəfindən sosial rolların mənimsənilməsi asan, birdən-birə baş vermir. Bunun üçün həmin rollar üçün səciyyəvi olan hərəkətlər, davranış elementləri, refleksivlik və s. tədricən, çoxlu təkrarlar sayəsində motor sahədə möhkəmlənir. Bu baxımdan psixologiyada oyunlar uşaqlarda rol davranışın formalaşmasında ən səmərəli tərbiyə və təlim vasitələrindən biri kimi qəbul edilir.

M. Məhərrəmov iradə tərbiyəsində oyunlardan istifadəni həyat təcrübəsi kimi dəyərləndirir (1), Ə.S. Bayramov uşaqlarda əxlaqi hisslərin və davranışın formalaşmasında oyunların roluna xüsusi əhəmiyyət verir (2), Ə.Ə. Əlizadə cinsi rolların mənimsənilməsində ən əhəmiyyətli təsir vasitələrindən biri kimi baxır (3). İ.H. Sultanova məktəbəqədər yaşlı uşaqlarda mənəviyyatın formalaşmasında milli oyunların rolunu xüsusi olaraq qabardır (4).

B. Uotson (5), V.Ştern (6), D.B. Elkonin (7), E.V. Subbotski (8) və b. uşaqların davranışına təsir baxımından oyunların xarakterini və məzmununu fərqləndirirlər. Bu sahədə milli mədəniyyət amili önə çəkilir. Bu və digər araşdırmalardan aydın olub ki, arxaik mədəniyyətlərdə belə uşaq oyunlarının elementləri aşkar edilib. Amerika hindularında 2-3 yaşlı oğlanlar oyuncaq oxla təcrübə qazanır, at belində qaçır, qarşısına çıxan hər hansı maneələrə: daş, ağac, çubuq atırlar. Beşyaşlı hindu qızları oyuncaq beşikdəki parça kuklalara dayəlik edir, onlara layla oxuyur, yedizdirir, çimdirir, geyindirib-soyundururlar. Avstraliya aborigenlərində uşaqlar yaşlı həyata atılmazdan əvvəl balaca bumeranqla, tərəvəz yığımı üçün istifadə olunan çubuqla oynayır, qrup halında toplanaraq ovçuluğu, yemək hazırlanmasını, qonaqların qəbulunu imitasiya edirlər.

Alman arxeoloqu Şlimanın rəhbərlik etdiyi, Qədim Troya şəhərinin axtarışlarına həsr edilmiş arxeoloji qazıntılar zamanı aşkar olunan eksponatlar içərisində uşaq oyuncaqları da vardı: terrakot gəlincik, içərisində dəmir hissəcikləri olan zınqırov, balaca oyuncaq qablar və s. Misirdə uşaqların mumiyası ilə yanaşı min illər boyu öz formasını saxlamış kuklalar və başqa oyuncaqlar da tapılıb. Vezuvi vulkanının püskürməsi nəticəsində dağılmış Roma şəhəri Pompeyin qalıqları altından, Avropa və Qafqazın sərhədlərində tunc dövrünə aid qazıntılarda, skif kurqanlarında da çoxlu oyuncaqlar tapmışdır. Bunları təhlil edərək E.A. Arkin belə bir nəticəyə gəlir ki, oyun və oyuncaqlar hər zaman, hər bir xalqın uşaqlığını xarakterizə edən ümumilikdir (9).

Erkən uşaqlıq dövründə sosial davranış modelini mənimsəmək və adekvat ünsiyyət üslubunu formalaşdırmaq bacarığı mədəni amillərlə sıx bağlı idi. Mədəniyyətlərdə rol davranış modelinin formalaşmasının vacib mexanizmlərindən biri təqlidetmə və cəhdetmə olub. Əgər biz, uşaq oyunlarının tarixini, həmin oyunların rol davranışın məzmununa təsirini izləmiş olsaq, burada daha çox rollararası münasibətləri və həmin münasibətlərdəki münaqişələrin izlərini görə bilərik. Sadəcə olaraq, həmin oyunlar bizə kobud oyunlar təsiri bağışlayır. Belə kobud oyunlara bütün insan icmalarında rast gəlinir. O insanın təkamülü prosesində növdaxili aqressiv əlaqələrdə insana mühitdəki yerini, gücünü məşq etməyə imkan verən davranış forması kimi meydana çıxmışdır.

Oyunlar həm də cinsi rollara görə fərqlənir. Oğlanlarda və qızlarda rol davranışa təsir göstərən oyunlar bir - birindən fərqlənir. Qızlar daha çox ailə-məişət, oğlanlar isə ailə-təsərrüfat həyatı ilə bağlı olan oyunlara üstünlük veriblər.

Bu məzmunda uşaq davranışının etioloji təhlilinə M. Boultonun və P. Smitin işlərində rast gəlirik. Oyun döyüşünün təbiətini təhlil edən M. Boulton və P.Smiq hesab edirlər ki, hormonal mexanizmlər kobud oyunların motivləşməsinə əhəmiyyətli dərəcədə təsir edir. Qadın dölündə kişi cinsinin hormonları azdır. Bu, qızların kobud oyunlara marağının az olmasına səbəb olur. Kişi cinsi hormonlarının dölə təsiri nəticəsində qızlarla müqayisədə oğlanlar kobud oyunlardan daha çox həzz alırlar. Aşkar edilib ki, prenatal dövrdə androgenlərin güclü təsirinə məruz qalan qızlar adətən yüksək fiziki fəallıq nümayiş etdirirlər. Oğlanlar isə, əksinə, fiziki hərəkətlilik tələb edən döyüş oyunlarını üstün tuturlar (Money, Ehardt, 1972).

Oğlanların oynadıqları kobud oyunların ailədə valideyn tərbiyəsindən asılılığı barədəki ehtimallar isə öz təsdiqini tapmayıb. Ev şəraitində 20 aydan 24 aya qədər uşaqlar üzərində (tədqiqata 12 oğlan və 12 qız cəlb olunub) aparılmış müşahidələrin nəticəsi göstərib ki, hər iki cinsin valideynləri kobud oyunlara eyni tərzdə, müsbət reaksiya verirlər (Fagot, 1978). Oğlanlarda kobud oyunlara seçici münasibət üç yaşdan başlayır. Sonrakı yaş dövrlərində, xüsusən ataların öz oğullarının kobud oyunlarını daha dəqiq, ciddi və məsuliyyətlə izləmələrindən sonra daha da artır.

Meksikada zapotek dilində danışan iki icmada aparılmış müşahidələr aqressiv və xeyirxah davranış modellərinin nəsildən nəslə ötürüldüyünü sübut edir. La Pas və San Andres icmalarında valideynlər çox az hallarda uşaqlara fiziki cəza tətbiq edirlər. Onlar daha çox izahetmə və

aydınlaşdırma metodlarına üstünlük verirlər. Sülhsevər La Pas icmasının üzvləri uşaqların aqressiv oyunlarına yaxşı münasibət göstərmir, onu neqativ hadisə kimi qiymətləndirirlər. Əksinə, San Andres icmasının üzvləri uşaqlar arasındakı aqressiyanı təqdir etməsələr də, bunun uşaq təbiətinin qaçılmaz hissəsi olması fikri ilə razılaşırlar. Məsələn, müşahidələr zamanı bir yerli qadın oğlan uşaqlarının bir-birinin üzərinə daşla hücum etdiklərini görüb onların yanından keçərkən belə deyir: "Oğlanlar həmişə dalaşırlar" (9).

San Andresdə 3 yaşdan 8 yaşa qədər uşaqların müşahidəsi göstərib ki, onlar iki dəfə artıq döyüşürlər. Uşaqların nümayiş etdirdiyi model valideynlərin davranışını güzgü kimi əks etdirir. Tədqiqatçının La Pas icması üzərində apardığı müşahidələrə görə, icma üzvləri fiziki aqressiyaya daha az meyllidirlər. Əgər döyüşməyə başlasalar, onda başqalarının müdaxiləsi olmadan vaxtında dayanmağı bacarırlar. Uşaqlar partnyorun düşmən niyyətli olub-olmadığını anlayır, çox nadir hallarda kobud oyunu və əsl aqressiyanı bir-birilə səhv salırlar. Bunu müəyyən etmək üçün müxtəlif hərəkətləri ifadə edən mimik ifadələri (oyun zamanı təbəssüm və gülüş, aqressiv kontekstdə qaşqabaqlı və zillənmiş baxış) izləmək yetərlidir.

Deməli, davranış modellərinin transformasiyası yaşlılar tərəfindən idarə edilir, tənzimlənir (Fry, 1987). Əgər yaşlı (ilk növbədə valideyn) fiziki cəzalandırmanı uşaqların davranışını idarə etmək üçün tətbiq edərsə, belə davranış modeli tərbiyə prosesində mənimsənilir (Bandura, 1973).

Fikrimizcə, müasir dövrdə məktəbəqədər yaşlı uşaqlar öz həmyaşdlarından əhəmiyyətli dərəcədə fərqlənirlər. Onlar öz sələfləri ilə müqayisədə daha yaradıcı və təşəbbüskardırlar. Məhz bu cəhətdən istifadə edərək onların rol davranışının inkişafında oyunların təsirindən səmərəli şəkildə yararlanmaq olar. Davranışın oyun fəaliyyəti ilə nə dərəcədə şərtləndiyini müəyyən etmək üçün oyunların quruluşuna baxmaq lazım gəlir.

• Oyun uşağın bütöv, tam fəaliyyətidir. Oyunda uşaq müxtəlif situasiyalarla üzləşir: süjetli-rollu münasibət qurmaq, rolların və oyun atributlarının müəyyənləşdirilməsi, rolların oynanılması və s. Oyun prosesində uşaq insanlar arasındakı münasibətləri ifa etməklə özü də bu münasibətlərdəki xüsusiyyətləri mənimsəmiş olur. Deməli, biz ilk növbədə rol davranışa təsir edən oyun dedikdə pozitiv insani münasibətləri, əxlaqi davranışı təlqin edən oyunlardan danışmalı oluruq. Bunun baş verməsi üçün elə xüsusi oyun situasiyaları yaratmaq lazım gəlir ki, onun nəticələri uşaqda əxlaqi təsəvvürləri möhkəmləndirərək reallaşmasına maraq oyatsın, çoxlu təkrarlar sayəsində ali hisslərin və münasibətlərin möhkəmlənməsinə gətirib çıxartsın,

• Oyun uşağın fəal şəkildə yaşlılıq həyatına daxil olmasıdır. Oyunda uşağın qarşısında insan münasibətlərinin yeni mənzərəsi açılır. Həmyaşıdlarının simasında ifadə olunan bu mənzərə onu seçim qarşısında qoyur: "Nə etməli və necə etməli?". Bunun baş verməsi üçün uşaq oyunlarında iki tip münasibətlərin yaradılması vacibdir: uşaqların obyektlərlə münasibətini və hadisələrə, hərəkətedici stimullara münasibətini formalaşdırmaq.

• Uşaqlar oyuna real həyatda gördüklərini, yaşadıqlarını və hiss etdiklərini köçürürlər. O demək deyil ki, bununla uşaq özünü yaşlıların fəaliyyətinə hazırlayır. O, həm də öz təxəyyülündə hələlik özü üçün əlçatmaz olan peşəyə yiyələnir. Ən əsası isə, uşaq oyun vasitəsi ilə özünün təbii "məhdudiyyətinə", natamamlığına üstün gəlmiş olur.

Uşağın əxlaqi (rol) davranışının inkişafında, həmçinin psixi proseslərin ixtiyariliyi, davranış və özünüqiymətləndirmənin qanunauyğun inkişafı əsas şərtdir. Əxlaqi davranışın inkişafı, eyni zamanda məktəbəqədər yaşlı uşağın cəmiyyətdə mövcud olan əxlaqi münasibətləri nə dərəcədə mənimsəməsindən də asılıdır.

Oyunun uşaq üçün əhəmiyyəti böyük olmaqla yanaşı, məzmununa və formasına görə təsiri də fərqlidir. Yaradıcı oyunlar uşağa bir, qaydalı oyunlar başqa cür təsir göstərir. Rol davranışın formalaşmasında hər iki oyun növlərindən istifadə olunur, lakin rol davranışı sosial məzmun kəsb etdiyindən bu sahədə yaradıcı oyunların rolu daha böyükdür. Bəziləri elə düşünürlər ki, yaradıcı oyunları yalnız böyük məktəbəqədər yaşlı uşaqlar icra edə bilərlər. Əslində isə belə deyildir. Məsələn, biryaşlı uşaq səsli asılqanlar, ya da kubiklərlə oynayır. İkiyaşlı uşaq saatlarla onun üçün yeni olan əşyanı fırladır, üçyaşlı uşaq anasını təqlid edərək süfrə bəzəyir, gəlinciyi yedizdirir,

yatızdırır, maşın sürərək yük daşıyır, beşyaşlı uşaq qrupu mağaza oyununu oynayır. Bu zaman süjetlər əsasında konkret rollar yerinə yetirilir: biri malları sərgiləyir, digəri aldığı "malın" müqabilində "pul" verir, üçüncüsü kassada oturub "alıcılara" ödəniş çekləri verir. Məktəb tənəffüslərində oynanılan çoxsaylı ("qaçdı-tutdu", "gizlənqaç", "dəniz döyüşü" və s.) yaradıcı oyunlar uşaq ağlının nəticəsidir. Bütün bunlar biri digərinə bənzəməyən yaradıcı uşaq oyunlarıdır.

Yaradıcı oyun quran uşaq yanğınsöndürənlə xəyalən yaratdığı yanğını söndürür, dayə oyununu oynayan uşaq üçün kubik (kubiklər) uşağı əvəz edir. Xətkeş onun üçün həm hərarətölçən, həm göstərici, həm də çubuq funksiyasını yerinə yetirir. Bu oyunları oynaryarkən uşaq real əşyalardan istifadə etməyə bilər. Yeri gəldikdə o kuklanı çubuqla yedizdirir, saçını çübuqla darayır, çubuqla güllə atır, xalça-təyyarədə "səyahət edir", böyük qalalar "tikir" və s.

Uşaq oynayarkən hər şeyi etməyi bacarır. Digər tərəfdən, uşaqlar oyuna real həyatda gördüklərini, yaşadıqlarını, hiss etdiklərini köçürürlər. Bununla uşaq bir tərəfdən özünü yaşlıların fəaliyyətinə hazırlayır, digər tərəfdən isə öz təxəyyülündə hələlik özü üçün əlçatmaz olan "gələcək-Mən"in davranış uğurları üçün sosial baza yaratmış olur. Nəhayət, uşaq oynayarkən hər şeyi etmək səlahiyyətində olduğundan bu yolla özünün təbii "məhdudiyyətinə", natamamlığına üstün gəlmiş olur.

Oyunlar vasitəsi ilə uşaq davranışının formalaşdırılması prosesində yaş xüsusiyyətləri də ciddi şəkildə nəzərə alınmalıdır. Erkən yaş dövründə uşaq hər hansı əşyanı əlinə götürmək istəyirsə onu həmin andaca yerinə yetirmək istəyir. Əgər buna icazə verilmirsə ya isterik vəziyyətə düşür, ya da vəziyyətlə barışaraq bu istəyindən imtina edir. Məsələn, uşaq təyyarə görür, necə olursa-olsun ona minmək istəyir. Əgər o şıltaq və ərköyün uşaqdırsa valideyndən elə indicə onun həmin təyyarəyə mindirilməsini tələb edəcək. Əks təqdirdə özünü yerə ataraq ayaqlarını döyməyə başlayacaq. Əgər uşaq sözəbaxandırsa, bu istəyindən əl çəkəcək, digər fəaliyyətlə başını qatmaq mümkün olacaq.

4 yaşın başlanğıcında uşağın sosial hadisələrə münasibəti dəyişərək reallığa daha yaxın olur. Gördüyü hər şeyə deyil, daha çox bilavasitə müşahidə etdiyi və iştirakçısı olduğu hadisələrə maraq göstərir, onların süjetini öz oyunlarında ifadə edir: ana rolunu icra edir, yaxud maşınla yük daşıyır, bu oyunlara lazım olan vasitələr tapmadıqda onların simvolik nümunələrindən yararlanır. Əsas məsələ isə oynadığı rola xas olan sosial xüsusiyyətləri ifa etməkdir - ana kimi uşağa qayğı göstərmək, sürücü kimi maşını idarə edərək yükü lazım olan yerə çatdırmaq.

5 yaşda sujetli-rollu oyunlar uşaqların əsas fəaliyyət növüdür. Bu oyunlar zamanı uşaq şəxsiyyətinin psixoloji xüsusiyyətlərində başlıca dəyişiklər baş verir. Özünə hər hansı rolu götürən uşaq şeylərlə məhdudlaşmış hərəkətlərlə deyil, yeni, situasiyaya uyğun qarşılıqlı münasibətlərlə üzləşir, həmin münasibətlərə adekvat mövqedən çıxış etməli olur. Oyunun süjetinə daxil olmaqla uşaq əxlaqi normaları təkcə elmi baxımdan deyil, özünün əxlaqi keyfiyyətlərini inkişaf etdirməsinə imkan yaranır. Deməli, oyunun məzmunu uşağın əxlaqi simasının formalaşmasında müəyyənedici faktor kimi çıxış edir. Ona görə də uşaq psixologiyasında rol davranışın korreksiyası məsələlərinə xüsusi önm verilir. Hazırda oyun terapiyasına qeyri-konstruktiv davranışın korreksiyası vasitəsi kimi baxılır. Bu seçimin psixopedaqoji vəzifələri (L.S. Vıqotski, D.B. Elkonin, A.S. Spivakovski, A.İ. Zaxarov) bir çox tədqiqatlarda qeyd olunur. Məktəbəqədər yaşlı uşaqlar üçün korreksion işlər planlaşdırılarkən əsas diqqət fəaliyyətə - oyuna ayrılmalıdır.

Bunlarla yanaşı, oyun uşağın psixoloji vəziyyətini diaqnozlaşdırmaq, problemin səbəbini üzə çıxarmaq, həmçinin korreksiya, terapiya işi aparmaq üçün əlverişlidir. Hazırda oyun terapiyasının bir neçə növü ayırd edilir:

- qeyri-direktiv terapiya;
- direktiv terapiya;
- qarışıq oyun terapiyası.

Qeyri-direktiv oyun terapiyası - mərkəzində özünüinkişaf etdirməyi bacaran, müstəqil şəxsiyyət olan uşağın dayandığı məqsədyönlü terapevtik sistemdir. Qeyri-direktiv oyun terapiyası əqli inkişafdan geri qalmış, yaxud autik uşaqlar üçün nəzərdə tutulur. Bu zaman terapevt uşağın müstəqil oyununu müşahidə edərək, yalnız onun oyun fəaliyyətindəki motivasiyasını soruşmaqla passiv mövqedə qalır.

Direktiv oyun terapiyası zamanı mütəxəssis psixoterapiyanın məqsədlərinə nail olmaq üçün məsuliyyəti öz üzərinə götürərək psixoterapevtik prosesin rəhbəri, təşkilatçısı rolunda çıxış edir. O, əsasında uşağın təqlidetmə yolu ilə (etalonlara, başqa uşaqlara, pedaqoqa) öyrəndiyi adekvat sosial davranışın olduğu sosial öyrənmə nəzəriyyəsi əsasında qurulur. Bu zaman uşaq oyunlarının affektiv tərəfinə diqqətdən kənarda qalır. Direktiv davranış zamanı pedaqoq-psixoloq oyun terapiyasının gedişini qurur, uşağın davranışını, terapiyada iştirakını müəyyən edir. Həmin prosesdə hərəkətə gətirilən psixoloji identifikasiya mexanizmi müxtəlif həyati situasiyalarda uşağa vacib olan konstruktiv mövqe nümayiş etdirməyə və davranış modelləri mənimsəməyə imkan verir.

Qarışıq oyun terapiyası - direktiv və qeyri-direktiv oyun terapiyasının inteqrasiyasına əsaslanan psixoterapiya metodudur. Oyun terapiyasının daha yaxşı üsullarının seçilməsi uşağın fərdi imkanlarını nəzərə alaraq qısa zaman ərzində oyun fəaliyyətinin müxtəlif formalarını sintez edilərək istifadəsinə və uğurlu nəticənin əldə edilməsinə imkan verir.

Oyun terapiyası məktəbəqədər yaşlı uşağın qeyri-konstruktiv davranışının korreksiyası və profilaktikasının əsas vasitəsi hesab olunur. Belə ki, qeyri-oyun tiplərindən fərqli olaraq oyun məktəbəqədər yaşlı uşağın emosional təəssüratlarını inkişaf etdirərək fəal şəkildə onun şəxsiyyətinin formalaşması prosesinə təsir göstərir. Oyunun korreksion qarşılıqlı təsirinin uğurlu olması yaşlının uşaqla ünsiyyətindən, oyunda müstəqil şəkildə əks olunan hisslərin nitqdə və hərəkətlərdə ifadəsindən asılıdır. Uşaq üçün əvvəlcə oyunda, daha sonra real həyatda aşağıdakıları reallaşdırmaq mümkündür:

- ✓ öz hərəkətlərinin konkret məqsədlərini müəyyənləşdirmək;
- ✓ məqsədə nail olmaq üçün müxtəlif davranış variantlar üzrə seçim etmək;
- ✓ öz hərəkətlərinin nəticəsini əvvəlcədən görmək;
- ✓ öz hərəkətlərinə görə məsuliyyəti üzərinə götürmək;
- ✓ mühitdə baş verən gerçəkliklərə, başqa insanların emosional vəziyyətinə hiss və emosiyalarına adekvat cavab vermək.

Oyun terapiyasında aşağıdakı oyunlardan istifadə etmək olar:

“Tanışlıq”. Uşaqlara maraqlı tanışlıq təşkil etmək lazımdır. Onları qruplara ayırın, onlara öz adlarını deməyə imkan verin, həmçinin öz qonşularının adını soruşmağa kömək edin.

“Ad günü”. Bu oyun sayəsində bütün uşaqlar özlərini diqqət mərkəzində hiss edəcəklər. Növbə ilə hər kəsin ad gününü qeyd edin. Təbrik və arzularını çatdırmağa kömək edin. Nəzərə almaq lazımdır ki, aqressiyası olan uşaqlara öz mənfi emosiyalarını çıxarmaq üçün oyunlar lazımdır, eyni zamanda öz emosiya və hisslərini doğru ifadə etməyi öyrədən oyunlar da lazımdır.

“Oyuncaq”. Uşaqlardan birinə gözəl oyuncaq verilir, sonra isə digər bir uşaq həmin oyuncağı doğru şəkildə o biri uşaqdan istəyir, ehtiyac olduğu zaman oyuncaq dəyişdirilir.

“ Topu ötür”. Stulda oturaraq ya da ayaq üstə duraraq oyun iştirakçıları tez bir zamanda topu yerə salmadan qonşuya ötürürlər.

Oyun terapiyanın istiqamətləndirici məqamı uşağın fərdiliyinin tam olaraq qəbul edilməsidir. Onun istəklərinə hörmətlə yanaşmaq, oynamağa məcbur etməmək bu sahədə qoyulan əsas tələbdir. Elə etmək lazımdır ki, oyun ona sevinc bəxş etsin. Bunun üçün emosional yükü hissələrə bölmək, özünü hiss etməsini müşahidə edərək sonrakı fəaliyyətə buna adekvat qaydada nizamlamaq lazımdır.

**ƏDƏBİYYAT**

1.Məhərrəmov M. Məktəblinin iradəsini tərbiyə etmək haqqında. Bakı: Azərnəşr, 1953.

2.Bayramov Ə.S. Uşaqlarda əxlaqi hisslərin tərbiyəsi. Bakı: Azərtədrisnəşr. 1963.

3.Ə.Ə.Əlizadə. Uşaq və yeniyetmələr: seksual inkişafın psixopedaqogikası. Bakı: ADPU, 2009.

4.Sultanova I.H. Məktəbəqədər yaşlı uşaqlarda mənəviyyatın formalaşmasında milli oyunların rolu. Bakı, ETPET-Elmi tədqiqat işi, 1998.

5.Уотсон Б. Дж. Психологический уход за ребенком. Дошкольная психология, Хрестоматия. М.: Академия, 2000.

6.Штерн В. Психология раннего детстве шестилетнего возраста. Дошкольная психология // Хрестоматия. Под ред. Г.А. Урунтаев. М.: Академия, 2000.
7.Эльконин Д.Б. Психология игры. М.: Педагогика, 1978.
8.Субботский Е.В. Ребенок открывает мир. М.: Просвещение, 1991.
9. Аркин Е.А. Ребенок в дошкольные годы. М.: Просвещение, 1968.
10. Игровая семейная психотерапия. Под ред. Ч. Шеффера. СПб.: Питер, 2001.
12. Карабанова О. А. Игра в коррекции психического развития ребенка. М.: 1997.
13. Child Psychology and Pedagogy. The Sorbonne Lectures, 2010.
14. www. psychology.com
15. www. stude.com
16. http://dic.academic.ru/
17. http://www. bestlibrary.ru
18. http://www.eti-deti.ru/

**О. Амрахлы**

**ВЛИЯНИЕ ИГР НА ФОРМИРОВАНИЕ РОЛЕВОГО ПОВЕДЕНИЯ ДЕТЕЙ**

**РЕЗЮМЕ**

В статье говорится о том, что все исследователи детского периода жизни человека, так или иначе, обращаются к исследованиям влияния игр на детей, его воспитывающим воздействием. По вопросу о теоретическом осмыслении этой проблемы уже накоплен огромный эмпирический материал. Потребность в игре, как детском образовании, возникает только на определенных этапах развития человека, когда ребенок не может принять непосредственное участие в системе общественного деятельности, когда возникает "пустой" промежуток времени, когда надо подождать, чтобы ребенок подрос. Игра - как ведущий тип деятельности ребенка дошкольного возраста формирует ролевое поведение дошкольника. Поэтому в статье детские игры анализируются как моделирующие ролевое поведение детей.

**O. Amrahly**

**INFLUENCE OF THE GAME IN THE ROLE-BEHAVIOR OF CHILDREN**

**SUMMARY**

The article describes that all researchers of childhood anyway refer to games, its educational influence and the accumulation of vast empirical material, and on the theoretical understanding of this problem. The article also emphasize that the game is a historical educational ample that only occur at certain stages of social development, when the child can’t take a direct part in the system of public activities when the "empty" period of time while we have to wait that the child grew older. Game - as the leading type of preschool activity forms the role-behavior of preschool child. Therefore, in this article children games viewed as the primary in the simulation of role behavior.

# ŞAGİRDLƏRİN RABİTƏLİ NİTQİNİN İNKİŞAFINDA BƏDİİ ƏDƏBİYYATIN ROLUNUN PSIXOLOJİ XÜSUSİYYƏTLƏRİ

**Hüseyn Mirzəyev,**
*fəlsəfə doktoru proqramı üzrə doktorant*
*АРТПИ*
E-mail: huseyn8002@gmail.com

**Rəyçilər:** *dos.* L. Əmrahlı,
*ped. fəls.dok.* D. Dostuzadə,

***Açar sözlər:*** *müəllim-şagird münasibətləri, şagirdlərdə nitq inkişafı, şagirdin formalaşmasında mütaliənin rolu, söz bazası, "110 kitab" layihəsi*
***Ключевые слова:*** *отношения преподаватель-учащийся, развитие речи у детей, роль продвижения чтения в формировании ученика, словарная база, проект "110 книг"*
***Key words:*** *teacher-student relations, development of students' speech, the role of the reader in the formation of students, the word base,"110 books" project*

Məlumdur ki, şagirdlik həyatı insan ömrünün öz ziddiyyətləri və spesifik xüsusiyyətləri ilə yadda qalan "müəmmalı" səhifəsidir. Yəqin, elə bir insan tapılmaz ki, onun həyatında bu təzadlı mərhələnin təsirlərinə rast gəlinməsin. Sosial mühit, irsi xüsusiyyətlər, valideyn nəzarəti, müəllim-şagird münasibətləri və s. amillər şagirdlərin həyatında bir sıra çətinliklər yaratmış olur. Ortaya çıxan bu cür problemlərin bəziləri müxtəlif fəaliyyətlər və müsbət təsirlər nəticəsində aradan qaldırılsa da, bəzən isə bir sıra fəsadlar, çatışmazlıqlar şəklində şagirdlərin həyatının digər dövrlərində də özünü göstərmiş olur. Bu tipli çatışmazlıqlardan biri də şagirdlərdə rast gəlinən nitq problemi olur.

Respublikamızda kiçik məktəb yaşlı şagirdlərin ünsiyyət və nitqinin spesifik inkişaf xüsusiyyətləri, lüğət ehtiyatı və onun zənginləşdirilməsinin psixoloji qanunauyğunluqları, ana dilini mənimsəyərkən qarşıya çıxan çətinliklər və onların aradan qaldırılması yolları, ikidilliyin (blinqvizmin) psixoloji problemləri və s. məsələlər artıq öyrənilmişdir. F.Ə. İbrahimbəyov, S.H. Hacıyevin, M.R. Abbasovun, M.Ə. Həmzəyevin, R.M. Rəsulovun, Ş.M. Babayevin, M.M. Əbdülovun, N.S. İbrahimxəlilovun bu sahədəki xidmətlərini xüsusilə qeyd etməliyik. Psixoloqlarımız bu problemlə hələ 1930-1931-ci illərdən maraqlanmış və bir neçə elmi-metodiki məqalələr yazmışlar. Şagirdlərdə müşayiət olunan nitq problemi çox zaman onlarda öz fikirlərini, istəklərini, üstünlüklərini ətrafdakılara təqdim etmək bacarıqlarının inkişafına güclü maneçilik törədir. Yaranan belə neqativ hallar həm onların potensiallarının üzə çıxarılmasına, həm də psixolji durumlarına mənfi təsirlər göstərir.

Şagirdlərin gələcəkdə "bütöv" şəxsiyyət kimi tanınmasında valideynlərin rolu olduğu kimi, müəllimlərin də əhəmiyyəti əvəzsizdir. Hesab edirəm ki, fənn müəllimləri tədris prosesini idarə edərkən mütləq ədəbi dildə danışmalıdırlar. Çünki onlar şagirdlərin pərəstiş etdikləri şəxsiyyətlərdir. Uşaq-şagird çox zaman hər gün qarşısında gördüyü müəllimi təkrarlamaq, ona bənzəmək istəyir. Müəllimin bütün əlamətləri, eyni zamanda nitqi də daim diqqət mərkəzində olur. Müəllimin nitqi səlis, rabitəli, aydın olmalıdır ki, şagird üçün bu həm anlaşıqlı, həm də arzu olunan olsun.

İkinci halda, şagirdlərdə həmyaşıdlarına qarşı yaranan *qorxu hissi* də məhz onların nitq inkişafına mane olan ünsürlərdəndir. Belə ki, şagirdlər yeniyetməlik yaş dövrünün bir sıra xüsusiyyətlərindən irəli gələrək sinif mühitində bəzən çəkinirlər. Təbii ki, bu hal bütün uşaqlara şamil edilmir. Lakin həmin xüsusiyyəti nümayiş etdirən şagirdlər çox zaman ünsiyyət zamanı əziyyət çəkirlər, bu sahədə kompleksli olurlar. Bu cür halların meydana gəlməsinin də bir çox səbəbləri vardır. Məsələn: yaş xüsusiyyətinə uyğun olaraq oğlan-qız münasibətlərinin formalaşması, əqli-intellektual cəhətdən digərlərindən geri qalma və s. təsirləri bu mənada qeyd etmək olar.

Müəllim öz bacarıqlarını işə salaraq şagirdlərdə müşahidə olunan belə halların qarşısının alınması üçün var qüvvəsini sərf etməlidir. Bu kimi halların aradan qaldırılması üçün o həm özünü, həm də məktəb psixoloqunu səfərbər etməyi bacarmalıdır.

Şagirdlərin nitq inkişafını təmin edən amillərdən ən əsası onlarda söz bazasının çox olmasıdır. Bu qazancın əldə edilməsində isə ən təsirli vasitələrdən biri bədii ədəbiyyata müraciət etmək, mütaliə ilə məşğul olmaqdır.

İKT-nin sürətli inkişafı bütün sahələri əhatə etdiyi kimi, tədris prosesinə də öz töhfələrini vermiş və belə də davam etməkdədir. Bu hal təqdirəlayiqdir. Digər tərəfdən, texnikanın durmadan dəyişilməsi və sürətli inkişafı uşaqların bir müddət “kitab”-dan uzaqlaşlaşmasına səbəb olmuşdur.

Bir zamanlar mütaliə mədəniyyətinə yiyələnərək bədii əsərləri həyatlarının ayrılmaz bir hissəsi hesab edən nəsil yeniləndikcə münasibətlər, baxışlar da dəyişdi. Artıq hekayə, povest və romanların oxunulması, onların müzakirəsinin aparılması mədəniyyəti sıradan çıxmağa başladı. Bu daha çox orta məktəblərdə təhsil alan şagirdlərin fəaliyyətlərində özünü büruzə verirdi. Çünki hər bir insanın həyatında mütaliəyə çox üstünlüyün verilməsi, əsasən, şagirdlik mərhələsində baş tutur. Amma burada bir məqama nəzər salmaq da məqsədəuyğun olar: uşaqların mütaliəyə sevgisini formalaşdırmaq işində əsas lokomotiv kimi müəllim obrazını hesab etmək olar. Bu istiqamətdə Azərbaycan dili və ədəbiyyat müəllimlərinin də rolu əvəzsizdir.

N. Çernışevskinin qeyd etdiyi kimi, elmi ədəbiyyat insanları nadanlıqdan, bədii ədəbiyyat isə kobudluq və bayağılıqdan xilas edir.

O. Şpenqler hesab edirdi ki, millətin əsasında ideya dayanır. Onun fikrincə, ideyanın geniş xalq kütlələrinə çatdırılmasının ən optimal və anlaşıqlı vasitəsi elmi-fəlsəfi fikir ola bilməz. Çünki elmi-fəlsəfi fikir ancaq intellektual elita üçün əlçatandır. Bədii ədəbiyyat isə ən dərin ideyanı belə obrazlarla ifadə etdiyi üçün onun oxucuları çoxdur və deməli, təsir dairəsi də qat-qat böyükdür.

O zaman belə bir sual meydana çıxır: məktəblərdə şagirdlərlə bədii ədəbiyyata olan marağın artırılması, mütaliəyə meyilin güclənməsi istiqamətində hansı işlər görülür? Təbii ki, bu missiyanın həyata keçirilməsi üçün təkcə dərs-tədris fəaliyyəti kifayət etmir. Bu baxımdan, bədii ədəbiyyatın şagirdlərə təbliğində layihə fəaliyyətlərinə geniş yer ayrılması da məqsədəuyğun və daha effektiv olar.

Nümunə kimi, Milli Qəhrəman Mübariz İbrahimov adına Biləsuvar Lisey-Məktəb Kompleksində 2011-ci ildən fəaliyyət göstərən “110 kitab” layihə-proqramını misal göstərmək olar. Bəs niyə bu layihə “110 kitab” adlanır? İlk dəfə intellektual saytlardan birində rus tədqiqatçısı Viktor Nikonov tərəfindən 110 (yüz on) bədii ədəbiyyat nümunəsinin (hekayə, povest və s.) oxunması fikri irəli sürülərək bunun qiraət materialının sürətlə mənimsənilməsi və dərk edilməsi üzrə vəziyyətin yaxşılaşdırılmasına müsbət təsir göstərəcəyi vurğulanmışdı.

Proqramın məqsədi:

- uşaq-şagirdlərdə bədii ədəbiyyata olan marağı artırmaq;
- oxu mədəniyyətini inkişaf etdirmək;
- xüsusi seçilmiş əsərlər vasitəsilə uşaqların həyata baxışını, təhlil qabiliyyətini inkişaf etdirmək;
- ifadəli oxu vərdişlərini formalaşdırmaq;
- uşaq-şagirdlərdə milli – mənəvi, bəşəri dəyərlərə hörmət hissini aşılamaqdır.

Ümumiyyətlə, şagirdin qiraətlə (oxu ilə) bağlı problemləri məktəbdə tədrislə bağlı müxtəlif çətinliklərə səbəb olur. Uşağın həyatının bu mərhələsində yaranmış “mütaliə boşluğu” bir çox fəsadların formalaşmasına səbəb olur. Sizcə, bugünkü yaşadığımız cəmiyyətdə insanların bir-birinə qarşı münasibətlərinin ifadəsində, insanlar tərəfindən gündəlik həyatda adi müraciətlərin belə ünvanlanmasında çox tez-tez hallarda rast gəlinən kobud ifadələr, sərtlik, qeyri-etik davranışlar öz-özünə yaranmış olur?! Əlbəttə ki, yox!!!

Hamıya məlumdur ki, insanın cəmiyyətin kamil bir üzvünə çevrilməsi üçün ən boyük işi təhsil prosesi yerinə yetirir. Uşaqlara irsən keçən bir çox zərərli keyfiyyətlər də məhz keyfiyyətli təhsil prosesinin nəticəsində bəzən aradan qaldırılmış olur. Bu baxımdan, uşağın məktəbdə qarşılaşdığı təhsil mühiti elə mükəmməl formada təşkil edilməlidir ki, bu günün şagirdi gələcəkdə

savadlı, intellektual, əqli cəhətdən yaxşı inkişaf etmiş bir şəxs olmaqla yanaşı, həm də səlis, rabitəli nitq qabiliyyətinə sahib, ətrafındakılarla rəftarında, davranışında mədəni ünsiyyət nümayiş etdirən insan olsun. İnsanların daha çox rast gəlindiyi məkanları (metronu, avtobus marşrutlarını) bircə gün müşahidə etsək, onların bir çoxunun nə qədər aqressiv olduğunun şahidi olmuş olarıq. Bu cür aqressivlik qarşılıqlı münasibətdə də özünü göstərmiş olur. Təbii ki cəmiyyətdə təşəkkül tapmış belə bir mühitin formalaşmasının digər səbəbləri də mövcuddur. Lakin bir fakti unutmaq olmaz ki, orta məktəbdəki təhsil dövründə qayğıkeşliyi, ədalətliliyi, mehribanlığı, düzgünlüyü, insanları sevməyi və bu kimi digər xüsusiyyətləri mənimsəyən uşaqlar gələcəkdə cəmiyyət üçün tam yararlı və tələb olunan insanlara çevrilirlər. Yuxarıda qeyd edilmiş xüsusiyyətlərin şagirdlərdə öz əksini tapması üçün məhz bədii ədəbiyyatın da əvəzsiz rolu var. Bədii ədəbiyyat həyatı obrazlarla əks etdirən söz sənəti olduğu üçün şagirdlər müxtəlif maraqlı süjet xəttinə malik olan əsərlərlə tanış olur, təhlil aparır və nəticədə münasibətlər (yaxşını pisdən ayırma, düzgün yol seçmə, yalana nifrət və s.) əmələ gəlir. Bu da uşaqların gələcək həyatlarının bir növ təminatçısı olmuş olur.

Yaranmış boşluq erkən cinayətkarlığın baş verməsi, narkotikdən asılılıq və yeniyetməlik hamiləliyinə qədər aparıb çıxara bilir. Bir sözlə, asılılıq silsiləsini genişləndirən bütün mümkün nəticələr uşağın həyatında öz izini qoya bilir. Bədii ədəbiyyatdan istifadənin mümkün variantları da mənimsəmədə, əsərin təhlil edilməsi üzrə müzakirələrdə fərqli nəticələr ortaya qoyur. Məsələn, bədii ədəbiyyat nümunələrinin həmyaşıdlarla, valideynlərlə birgə oxunması, təhlili prosesi uşaqlarda sosial bacarıq və vərdişləri inkişaf etdirir. Bu həm də şagirdlərin kollektivə uyğunlaşmasında yaranan kompleksin aradan qaldırılmasına da öz mühüm təsirini göstərmiş olur.

Bütün bu və ya digər hallar sözügedən "110 kitab" təhsil proqram-layihəsini əks etdirən dəyərlər, məqsəd və vəzifələr kimi nəzərdən keçirilir.

Proqram 7-ci, 8-ci və 9-cu sinif şagirdləri üçün üç ilə nəzərdə tutulmuşdur. Layihə işi kimi uşaqların yaş və sosial - psixoloji xüsusiyyətləri nəzərə alınmaqla, əsas ədəbi janrları - şifahi xalq yaradıcılığı, klassik, müasir, xarici ( o cümlədən, ingilis və rus dillərində) ədəbiyyatı əhatə edən kitabların (bədii əsərlərin) siyahısı işlənib hazırlanmışdır. Təqdirəlayiq hal odur ki, hər il müəllim və şagirdlərin təklifləri əsasında siniflər üzrə seçilmiş bədii əsərlərin siyahısı yenilənir; bir sıra ədəbiyyat nümunələri əlavə edilir, digərləri dəyişdirilir.

Biləsuvar liseyində siniflər üzrə seçilmiş bədii ədəbiyyat nümunələri tədris ilinin əvvəlində püşkatma yolu ilə məktəb müəllimlərinə paylanılır. Belə ki, hər bir müəllim müzakirəsini həyata keçirəcəyi bədii əsəri və sinfi qabaqcadan müəyyənləşdirmiş olur. Layihənin işçi qrupu tərəfindən təyin olunan zamanlarda müəllimlər həmin sinifdə əsərin müzakirəsini təşkil edirlər. Müzakirə təhlil istiqamətində şagirdlərin fərqli münasibətlərinin nümayişi ilə yadda qalır. Nəticədə, şagirdlər əsərlərdə göstərilən müxtəlif obrazlara öz baxışlarını ifadə edirlər; rəğbət bəsləyirlər, tənqid edirlər, onlara bənzəmək istəyirlər. Bunu əyani nümunə ilə də göstərmək olar.

Məsələn, layihə fəaliyyəti çərçivəsində Liseyin VII sinif şagirdləri ilə keçirilmiş böyük rus yazıçısı A.P. Çexovun "Məmurun ölümü" hekayəsinin müzakirəsini qeyd etmək olar. Həmin tədbirdə şagirdlər əsərin əsas ideyasını ortaya çıxarmaqla cəmiyyətin eybəcərliklərinə, çürük, yararsız ənənələrinə qarşı çıxmış, əsl insan faciəsinə qarşı konkret münasibət göstərmişlər. Aparılan müzakirənin nəticəsində şagirdlərin psixologiyasında yaltaqlıq keyfiyyəti ən rəzil xüsusiyyət kimi canlanmış, həmin xüsusiyyətin insan qüruruna vurduğu zərbənin nə qədər ağır olduğu hiss olunmuşdur.

Liseyin VIII sinif şagirdlərinin fransız yazıçısı Gi de Mopassanın "Boyunbağı" hekayəsinin təhlili üzrə söylədikləri fikirlər fərqli və spesifik olmuşdur. Əsərdən çıxardıqları ümumi nəticəyə görə, insan ləl-cəvahirat, var-dövlət əsirinə çevrilməməlidir. Əks halda, o, bir çox gözlənilməz acı sürprizlərlə qarşılaşa bilər.

Bu cür nümunələrin sayını kifayət qədər artırmaq olar. Sonda belə bir nəticəyə gəlmək olur ki, bədii ədəbiyyat – bədii əsər cəmiyyət üçün faydalı bir məhsuldur. Amma orta məktəb şagirdlərinə isə bu "hava-su" kimi lazımdır. Düşünürəm ki, məhz bu tələbatı ödəmək naminə özülü Biləsuvar liseyi tərəfindən qoyulmuş layihənin hər bir məktəbdə tətbiq olunması daha məqsədəuyğun olar.

Eyni zamanda, gələcəkdə digər məktəblərdə də bu istiqamətdə fəaliyyətlərin geniş ampluada həyata keçirilməsini də vacib amillərdən biri kimi dəyərləndirmək lazımdır.

**Problemin aktuallığı**. Müasir dövrdə şagirdlərdə söz bazasının zəifliyi səbəbindən nitq qabiliyyətinin aşağı olması probleminin aradan qaldırılması üçün ən optimal çıxış yollarından biridir.

**Problemin elmi yeniliyi**. Şagirdlərin bədii əsərlərə olan marağınınxüsusi layihələr vasitəsilə həyata keçirilməsi daha effektivdir.

**Problemin praktik əhəmiyyəti**. Məqalədə irəli sürülən məqsədlər, təkliflər şagirdlərlə birgə təşkil edilən layihə fəaliyyətləri sayəsində gerçəkləşə bilər.

## ƏDƏBİYYAT

1. N. Abdullayev. Nitq mədəniyyətinin əsasları. Bakı, 2013.
2. Məktəbəqədər yaşlı oxucuların mütaliəsinə rəhbərlik. Bakı, 2009
3. Hüseynoğlu S. İfadəli oxunun əsasları. Bakı: ADPU, 2009.
4. B.H.Əliyev, R.V.Cabbarov. Təhsildə şəxsiyyət problemi. Bakı, 2009.

**Г. Мирзоев**

## ПСИХОЛОГИЧЕСКИЕ ОСОБЕННОСТИ РОЛИ ХУДОЖЕСТВЕННОЙ ЛИТЕРАТУРЫ В РАЗВИТИИ СВЯЗНОЙ РЕЧИ УЧАЩИХСЯ

### РЕЗЮМЕ

Детей необходимо "вернуть" к чтению художественной литературы. Этот процесс должен проходить не в розницу, а в систематической форме. Анализ содержания художественного произведения обеспечивает здоровым мышлением владения обеспечивает деятельность учащихся художественных произведений, содержание и анализа применяемых в будущем.

**H. Mirzayev**

## THE ROLE OF THE LITERARY IN THE DEVELOPMENT OF PSYCHOLOGICAL CHARACTERISTICS OF SPEECH COMMUNICATION STUDENTS

### SUMMARY

One of the main factors that ensure that children need "to return" to fiction to read in students speech development. This process is not in retail form and be in the form of system. The content of literary work and analysis of student activities used in the future to ensure a healthy belief and thought it was.

# MİRZƏ FƏTƏLİ AXUNDOVUN "MÜRAFİƏ VƏKİLLƏRİNİN HEKAYƏTİ" ƏSƏRİNDƏ İDARƏETMƏNİN BƏZİ SOSİAL-PSİXOLOJİ MƏSƏLƏLƏRİ

**Könül Haqverdiyeva,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*ADU*
E-mail: sevinc224@rambler.ru

**Rəyçilər:** *psix.fəls.dok.* İ. Sultanova,
*psix.fəls.dok.* N. Rzayeva

***Açar sözlər:*** *sosial psixologiya, çevik təfəkkür, dövlət idarəçiliyi, insanların psixoloji aləmi, şəxsiyyət, maska effekti*

***Ключевые слова:*** *социальная психология, подвижное мышление, психологический мир личности, государственное управление, личность, эффект маски*

***Key words:*** *social psychology, mobile thinking, state governance (management), psychological world of the people, personality, mask effect*

Məlumdur ki, şəxsiyyət cəmiyyətin məhsuludur. O, cəmiyyətdə istehsal münasibətlərində təşəkkül tapıb formalaşır. Gündəlik həyat tərzi, insanlarla ünsiyyət, onun sosial psixologiyasını müəyyənləşdirir. Bu baxımdan hər hansı bir yazıçının əsərində təsvir olunan obrazlardakı sosial-psixoloji xüsusiyyətlər həmin dövrdə yaşayan insanların gerçəkliyə münasibətlərinin adekvat reaksiyasıdır. Lakin, bu obrazlar o zaman inandırıcı olur ki, yazıçının təxəyyülündə canlandırdığı ideyalar gerçək həyat hadisələri ilə əlaqələndirilsin. Bildiyimiz kimi, XIX əsr Azərbaycan tarixində ən diqqətli, həm də elmi-mədəni, baxımdan inkişaf dövrüdür. Bu dövr Azərbaycana Mirzə Kazım bəy, Mirzə Şəfi Vazeh, H.Zərdabi, A.A.Bakıxanov, M.F.Axundov, F.Köçərli, N.Nərimanov, N.Vəzirov, Ə.Haqverdiyev və onlarla digər mütəfəkkirlər bəxş etmişdir. Onlar XIX əsrdə Azərbaycanın rus imperiyası məngənəsində çox böyük əziyyət çəkdiyini görür və bu zülmlü əsarətdən qurtuluş yolunu axtarırdılar. Öz fikir və mülahizələrini açıq deyə bilməsələr də əsərlərində dolayı yolla olsa da bunu göstərirdilər.

Belə sənətkarlardan biri də XIX əsr Azərbaycan ictimai, siyasi, sosial, psixoloji, fəlsəfi fikir tarixində özünə layiqli yer tutan M.F. Axundovdur. O, vətənini, millətini, xalqını sevən, onun azadlığı, maarifi, mədəniyyəti, dili uğrunda yorulmadan mübarizə aparan vətənpərvər bir şəxsiyyətdir. Tarixdən məlumdur ki, XIX əsrdə İran və Rusiya arasında gedən müharibələrin sonunda bu iki dövlət arasında bağlanan Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) sülh müqavilələrinin nəticəsində Azərbaycan torpaqlarının cənub hissəsi İranın, şimal hissəsi isə, Rusiyanın tabeliyinə keçmişdir (3, 128). Ədibin XIX əsrdə Azərbaycan üçün göstərdiyi elmi-siyasi, sosial-psixoloji, ədəbi-bədii, fəlsəfi xidmətləri alimlərimizin tərəfindən bir mənalı qiymətləndirilməsə də, biz cəsarətlə deyə bilərik ki, XIX əsrdə Rusiya imperiyasının canavar caynaqları arasında onun cəsarətli addımları, İmperiya əleyhinə yazdığı əsərlər, xalqını cəhalətlə, mövhumatla mübarizəyə çağırması böyük əhəmiyyətə malik idi. Tarixi faktlar göstərir ki, XIX əsrdə Azərbaycanda millət imperiya zorakılığına məruz qalır, savadsızlıq, mövhumat, dövlət idarələrində süründürməçilik, qadın hüquqsuzluğu, ailə problemlərinin həddindən artıq zəifləməsi, gənclərin əsl vətənpərvər, ziyalı kimi yetişməsi başqa yazıçılar kimi M.F.Axundovu da narahat edirdi. "Mürafiə vəkillərinin hekayəti" (Şərqi Təbrizdə) adlı əsəri də məhz bu problemləri qabartmaq və xalq öz haqqı uğrunda mübarizəyə səsləməsi məqsədi ilə yazılıb. Yuxarıda qeyd etdiyimiz kimi, XIX əsrdə Azərbaycanda Rus imperiyasının müstəmləkəçilik siyasəti çox güclü idi. Çarın məmurları hər yerdə ağalıq edir, xalqa olmazın əziyyət verirdilər. M.F.Axundov bunları görür və yaşayırdı. Özü də dövlət qulluğunda çalışdığı üçün bir çox hadisələr onun gözünün qabağında olurdu. "Mürafiə vəkillərinin hekayəti" adlı əsərdəki hadisələrin Təbriz şəhərində cərəyan etməsi və

əsərin ikinci adının "Şəhri Təbrizdə" olması, zənnimizcə, diqqətimizi İran tabeliyinə keçmiş Azərbaycan torpaqlarındakı yadellilərin talançılıqlarına, özbaşınalıqlarına yönəltmək məqsədi daşıyır.

Əsərin süjet xəttində bir ailənin başçısı mərhum Hacı Qafurun mirasına görə, onun bacısı Səkinə xanımla siğəli arvadı Zeynəb arasında yaranmış konfliktlərin məhkəməyə qədər gedib çıxması təsvir olunur. Və ailənin qohumlarından Səkinə xanımın bibisi Zibeydənin Səkinəni tacir ağa Həsənə ərə vermək istəyində və ağa Həsənin bu işə razı olmasında, eləcə də vəkil Ağa Mərdanın ailəyə göstərdiyi diqqətdə öz maraqları var. "Xeyirxah", "səxavətli", "mehriban" və s. maskalarla guya başsız qalmış ailəyə dost yardımı edirlər, əslində isə, mirası ələ keçirmək niyyətindədirlər. "...güzəran təcrübəsinin sosial-psixoloji kontekstdə təhlili gostərdi ki, hələ qədim zamanlarda insan münasibətləri axarında maska effektləri yaxşı məlum idi...Psixoloji maska isə. bilavasitə psixoloji effektin yaradılmasını nəzərdə tutur... İnsanlar psixoloji maskadan ancaq bir məqsədlə - özlərinin müəyyən neqativ keyfiyyətlərini gizlətmək və ya pərdələmək, bu yolla özləri haqqında ətrafdakı adamlarda müsbət təəssürat yaratmaq məramı ilə istifadə edirlər" (4, 80).

M.F. Axundov gənc qızlarımızın, oğlanlarımızın sərbəst düşünmələrinə imkan verilmədiyini zamanla, məkanla çox vaxt isə adət-ənənələrimizlə bağlı olduğunu da dərk edirdi. Əsərdə XIX əsrdə Azərbaycanda qadın hüquqsuzluğunun baş alıb getdiyindən, qadın düşüncə tərzində ictimai-sosial həyata qarşı hələlik laqeydlik münasibətlərinin olmasından, lakin yavaş-yavaş onların idrak fəaliyyətində bu buzların əriməsindən də danışılır.

Zibeydənin kəskin sözlərinin psixoloji təsiri Səkinənin iradəsinin möhkəmliyini üstələyə bilmir: "Kişi Təbrizin mütəçəxxis adamlarının arvadlarını mənim yanıma göndərmişdi... Ona söz verdim... İndi istirsən ki, məni Təbriz arvadları arasında bir pulluq edəsən?... Səkinə xanım: ...ona bildir ki, bu niyyətdən düşsün, yoxsa, vallah özüm onu çağırdıb beç yüz söyüş özünə qarşı deyərəm...Zibeydə xanım: Bıy, zamananız qırılsın, ay qızlar. Üzlərində bir tikə həya və şərm qalmayıbdır. Səkinə, mən sənin kimi qızıl-qırmızı qız görməmişəm...Səkinə xanım: ...o nadürüst oğlu altmış min tümən adın eşidib, onun üçün məni istəməyə talib olubdur..."

Ağa Həsənin əvvəlcə Səkinə xanıma "Fərmayişini buyur. Mən sənin bəndənəm, qulunam" (1, 163) deyə şirin sözlərlə müraciəti, niyyəti baş tutmayınca, hədə-qorxulara çevrilir. Bu da onun maskalandığını sübuta yetirir: "Yaxşı, sənə mən bir oyun tutum ki, tamam dastanlarda deyilsin, ölənədək dadı damağından getməsin!" (1, 164). Lakin Səkinə xanımın xarakterindəki mətinlik bu təzyiqlərə də hakim kəslilir.

Ünsiyyət prosesində psixoloji təsir etməyə mirasda gözü olan vəkil Ağa Mərdanın sərbazlarla söhbətində də rast gəlmək mümkündür. Ağa Mərdan sərbazlarla söhbət zamanı istər qonağa süfrə açılması kimi adətlərimizdən, istərsə də dini inanclardan məharətlə mənfur niyyətində istifadə edir: "Ağa Kərim, bizim nökərlərdən birisini göndər, bazardan çilovpəzdan dörd nəfər üçün dümərdi boşqabda, yanınca qəndqabı çilov gətirsin...İndi çaşt vaxtıdır. Rəvamıdır evimdən ac gedəsiniz", "Hacı Qafuru sizmi dəfn etdiniz? Sərbaz: bəli, ağa. Ağa Mərdan: ...Nəinki islamın köməyisiniz, bəlkə də dar gündə xalqın vecinə də ancaq siz gələrsiniz...", "Ağa Mərdan: Özündən başqa istəmir ki, bir kimsəyə bir həbbə xeyir yetişsin. Yaxşı altmış min tümənin davasında nahaq işə şəhadət etdirir. Sizin kimi cavanmərd insanların hər birinə bir iyirmi ya otuz tümən cib xərclığı verməklə can çəkir. Vallah, beləcə məlun olmaz. Allah bəlasın versin" (1, 178-179).

M.F. Axundov güclü məntiqi mühakiməyə, çevik təfəkkürə malik, fikirlərini sətiraltı yolla çox ustalıqla ifadə etməyi bacaran bir insan olub. Dövrün hadisələrini çox asan, amma çox psixoloji bacarıqla üstüörtülü verə bilib. Bu bir həqiqətdir ki, İran əhli ən çox kişiləri "ağa" deyə müraciət edirlər. Bu əsərdə də Ağa Mərdan, Ağa Səlman, Ağa Kərim, Hacı Qafur, Ağa Abbas, Ağa Kərim, Hacı Rəcəbli, Əziz bəy, Ağa Rəhim, Ağa Cabbar və başqa belə adlara müraciət olunması bu baxımdan zənnimizcə təsadüfi deyil. (Bu bizim şəxsi psixoloji düşüncəmizdir).

Əsərdə bəzi insanların xarakterindəki sərvət meylləri, mal-dövlət hərisliyi psixoloji münaqişələr yaradır. M.F. Axundov insanların psixologiyasında bu təbii, tarixən kök salmış sosial-psixoloji xüsusiyyəti görürdü. Yaşadığı ictimai-sosial mühitində belə bir psixoloji xüsusiyyətlərin inkişafına rəvac verildiyini də görürdü. Çox zaman insanların bir çox ədalətsizliklərlə rastlaşdığının

da şahidi olurdu. M.F. Axundov göstərir ki, insanların psixoloji aləmində yaranan mənəvi, əxlaqi hisslər ətraf aləmdən qaynaqlanır.

M.F. Axundov obrazlar vasitəsi ilə bir daha XIX əsrdə Azərbaycanda eləcə də ictimai-sosial gerçəklikdə məmurların mənəviyyatındakı psixoloji çalarları açır, oxucularda, gənclərində həmin cəmiyyətə və dövləti təmsil edən məmurlara ikrah hissi yaradır. Milli adət-ənənələrimizə, əxlaqımıza, mentalitetimizə yad olan belə psixologiyanın ayrı-ayrı fərdlərdə, yaxud qruplarda olduğunu göstərir və oxucuların diqqətini onlara yönəldir.

M.F. Axundov əyani olaraq göstərir ki, qrup daxili təlqin zamanı konformluq yarana bilər. Bu saxta olduğu üçün qrup üzvləri zahirən razılaşsalar da, daxili razılaşmırlar.

M.F. Axundov XIX əsrdə hüquq sahəsində baş verən özbaşınalıqları, ədalətsizliyi, məmurlar pul üçün istənilən haqsızlıqlara getmələrin həm ayrı-ayrı fərdlər, eyni zamanda qrupların simasında çox inandırıcı şəkildə açıq göstərir. Pulun, mal-dövlətin insan simasına nə dərəcədə mənfi təsir göstərməsinin psixoloji boyalarla inandırıcı şəkildə göstərir. Qrup üzvləri mənsub olduqları qruplarda müxtəlif statusa, rollara malik olurlar. Bu status və rollar qarşılıqlı əlaqədardırlar hər bir rolun arxasında nə isə gizlənilir, rol onu ifa edən şəxs tərəfindən qavranılır, rol bəzən rədd edilir və s. əsərdəki vəkillər və şahidlərdən ibarət düzəldilmiş qruplardakı münasibətlər kimi.

İnsan psixologiyası mürəkkəb və çətin anlaşılandır. Ağa Mərdan guya Ağa Salman ilə “dostdurlar”. Lakin, bu “dostluq” yalan və hiylə, qazanc əldə etmək üçün müvəqqəti xarakter daşıyır. Bu onu göstərir ki, süni don geymək, özünü səmimi, xeyirxah göstərmək hələ həmin xarakteri ifadə etmək deyil. Situasiya dəyişən kimi belə adamlar da dəyişir. Ağa Mərdan və Ağa Salman kimi Sərbazlara gəldikdə isə deməliyik onları birləşdirən yekdil bir səbəb olmadığı üçün onlar da dağılır. M.F. Axundzadə çox öncə psixoloji anlara toxunur. İnsanların çətin mənəvi-psixoloji aləmi açılır. Belə insanlar şəxsiyyətcə cılız və qeyri səmimi olur. Belə insanlar M.F. Axundzadənin fikrincə cəmiyyəti ağır bir yükdür. Təbii ki, bu cür insanların da tərbiyəsi, inkişaf edərək cəmiyyətə intiqrasiyası yazıçının arzularındandır. Məhkəmə bu cür də başlayır. Sədr hakimi – şər, sağ tərəfdə Ağa Rəhim və Ağa Cabbar, sol tərəfdə Ağa Kərim və Ağa Səttar. Əsərlə tanışlıq göstərdi ki, hadisələrdə üç qrup (I qrup – Ağa Mərdan, Ağa Kərim, Zeynəb və 4 nəfər şahidlər; II qrup – Səkinə xanım, Əziz bəy, Ağa Səlman, Ağa Kərim və 4 nəfər; III qrup – 5 nəfər məhkəmə üzvləri ) iştirak edir. Hər üç qrupda münasibətlər natamamdır və buna görə də psixoloji uyuşma yaranmır. Ağa Mərdanla Sərbazın məhkəmə ərəfəsi dialoqları bu saxta və qeyri səmimi münasibətlərin təzahürüdür.

Məhkəmədə Ağa Mərdan çox narahatdır. Ağa Rəhim, Ağa Cabbar, Ağa Bəşir, Ağa Səttar ona yardımçı olsalar da vəziyyət tamam başqa məcrada gedir. Məhkəməyə cəlb olunmuş qrupların bütün üzvləri təşviş içindədir. Hadisənin sonu maraq doğurudu. M.F. Axundzadə burada təbii olaraq hadisələrin sonluğuna yeni psixoloji çalarlar gətirir. Hiyləgər ədalətsiz, bir işin qələbəsinə rəvac vermir. Bu da elə yazıçının haqq və ədalətli olmasından xəbər verir.

Məhkəmə prosesində dörd nəfər (Ağa Rəhim, Ağa Cabbar, Ağa Bəşir, Ağa Səttar) hakimi şərə psixoloji təsirdən istifadə edir. Sosial psixologiyada qarsılıqlı münasibətlər sistemində insanların bir-birinə təsiri problemindən vacib məsələlərdən biri kimi tədqiq olunur. Psixoloji təsir inandırma, təlqin, tənqid, sirayət və digər formalarda özünü göstərir. Bu təsir vasitələri isə fəaliyyətin məzmunu ilə şərtlənir. Ağa Rəhim. Ağa Mərdana müraciət etməklə əksinə digər qrup üzvlərinə təsir etmək istəyir və müvəqqəti olsa da buna nail olur.

Hakimi – şər şahidlərə müraciətlə deyir: Şahidlər cavab verirlər ki, “'Ağa, mən yoldaşlarım ilə Hacı Qafur öləndən bir gün irəli onu yoluxmağa gəldik və soruşduq ki, oğlundan uşaqdan nəyin var? Dedi ki, bir bacım Səkinə xanımdan başqa bir kəsim dünyada yoxdur” (1, 184).

Qruplar arasında sosial-psixoloji münasibətlər münaqişə ilə yekunlaşır. Bəli, məqsədlər toqquşanda insani münasibətlər də tarazlığını itirir. Bu əsərdə də belə oldu. Ağa Mərdanı, Ağa Salmanın, Ağa Kərimin qurduqları maska effekti itir. Hakimi-şərə və şahidlərə, məhkəmə üzvlərinə məlum olur ki, bu yalanların hamısı Ağa Salman və Ağa Mərdanın qazanc əldə etməsi üzündən yaradıb. Digər tərəfdən M.F .Axundzadə obrazlar vasitəsi ilə bir daha sübut edir ki, gec olsa da,

haqq ədalət qalib gəlir. Bu da insanlarda doğruçuluq xüsusi ilə özünə inamı artırır. M.F. Axundov bu yolla insanların mənəviyyatında ədalət humanizm yaxşılıq, yalan danışmamaq toxumu səpir.

Bunun özü də tərbiyəvi psixoloji məsələlərdən biridir. Səkinə xanımın xeyrinə hadisələrin yekunlaşması oxucuda da bir rahatlıq yaradır. Hakimi-şərin Əziz bəyə "Əziz bəy, Hacı Qafurun bacısının adamı indi sənsən. Onu xəbərdar elə ki, iki saatdan sonra Hacı Qafurdan qalan məbləği mən özüm gətirib neçə nəfər şahidi-mötəbərin hüzürunda ona təslim edərəm." deməsi bunu bir daha göstərir.

Zənnimizcə, məmurların və onların verdikləri pulların köməyi ilə insanların sosial-psixoloji simasında mənfi psixoloji keyfiyyətlər yaşadıqları mühitin bəlasıdır. M.F. Axundov bunları demək istəyirdi, bu yolla o, insanları cəhalətdən uzaqlaşmağa, fırıldaqçı vəkillərə aldanmamağa çağırır, ədalətin, humanizmin, insanlığın qalib gələcəyinə insanları inandırmağa çalışırlar.

Əsərdəki obrazlar arasında biri də sərbazlardan biri Herodur. O, başqa obrazlara nisbətən daha rəzil, satqın, utanmaz, hiyləgər və s. sosial-psixoloji keyfiyyətlərə malikdir. Belə tükürpədici, psixoloji keyfiyyət isə yalnız erməni qanı insanlara xasdır. M.F. Axunzadə çox həssaslıqla bunu verə bilir.

Həpo adı gələndə Ağa Mərdan diksinir. Bəli, bu M.F. Axundzadənin əsər üçün xarakter taspıntısıdır. M.F. Axundzadə sətiraltı çox güman ki, bu şəxsin erməni əsilli olmasına işarə edir. Düzdür, onun dabanıkəsik Heydərqulunun oğlu olduğu əsərdə qeyd edilir. Adı və xisləti isə, bizi düşündürməyə vadar edir. Hacı Rəcəbəlinin dili ilə Heponun psixoloji xarakteristikası buna əyani sübutdur: "Qorxma, Hepo bir nadürüstdür ki, hər sifətə və hər dona girə bilər. İstirsən bir-iki saatdan sonra bir mütəşəxxis tacir sifətinə girib yanına gəlsin ki, sən özün də onun haqqında müştəbeh olasan. Məgər bilmirsən ki, bu kimin nütfəsindən əmələ gəlib? Bu, dabanıkəsik Heydərqulunun oğludur ki, gündüz Əhərdə görünüb, gecə iki günlük yol piyada gəlib..." (1, 177).

Dünyada bir sıra nadürüst, yalançı, əqidəsiz, imansız insanların xarakterlərindəki xüsusiyyətlərə oxucuların cəlb edilməsi. insanı, özünü düşünməsinə, özünüdərkinə, kimliyini təhlil etməyə, bəzi ikrah edici hisslərdən uzaqlaşdırmağa təhrik edir. Bunun özü də əsərin sosial-psixoloji məziyyətlərindəndir. Əsərdə bu və ya digər obrazların (Ağa Həsən, Hacı Rəcəbli, Gülsəba, Həpo, Bədəl, Ağa Abbas, Qəhrəman, Qəffar, Nəzər və b.) vasitəsi ilə insanın sosial-psixoloji xüsusiyyətlərinin açılması, M.F. Axunovun filosof, psixoloq olmasından xəbər verir. Bu obrazları hər birində insana xas olan psixoloji keyfiyyətlər (istər müsbət, istərsə də mənfi) təhlil olunur. İnsanların hadisələrə münasibətləri çox ustalıqla verilir.

Beləliklə, M.F. Axundovun "Mürafiə vəkillərinin hekayəti" əsərinin süjet xəttində ailə-məişət problemi təsvir olunmuşsa da, bu zəmində, əsas ideya dövrün sosial-psixoloji xüsusiyyətlərini açmaqdır. Xatırladaq ki, əsərin "Şəhri Təbrizdə" adlanması da təsadüfii deyil. Tarixdən məlumdur ki, XIX əsrdə İran və Rusiya arasında gedən müharibələrin sonunda bu iki dövlət arasında bağlanan Gülüstan (1813-cü il) və Türkmənçay (1828-ci il) sülh müqavilələrinin nəticəsində Azərbaycan torpaqlarının cənub hissəsi İranın, şimal hissəsi isə, Rusiyanın tabeliyinə keçmişdir. Dövlət idarəçiliyindəki özbaşınalıqlar və yerli adamlar arasında isə, tamahkarların yadellilərə dəstək olması nəticəsində, onların torpaqlarımızda daha da bərqərar olaraq, onu talaması, dinc əhalinin hər birinin ailəsinə öz mənfi təsirini göstərir. Bununla, M.F. Axundov digər əsərlərində olduğu kimi, bu əsərində də əsas ideya kimi, kimliyindən asılı olmayaraq, hər bir azərbaycanlını özünüdərk edərək, öz azadlıqları uğrunda mübarizəyə səsləyirdi.

**ƏDƏBİYYAT**


1. M.F. Axundzadə. Əsərləri. Üç cilddə. I cild. Bakı: Şərq-Qərb, 2005.
2. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Sosial psixologiyanın aktual məsələləri. Bakı: Azərnəşr, 1986.
3. Ə.H. Quliyev. Azərbaycan tarixi. Bakı: Maarif, 1986.
4. Ə.S. Bayramov, Ə.Ə. Əlizadə. Sosial psixologiya.. Bakı: QAPP-POLİQRAF, 2003.

**К. Хагвердиева**

## НЕКОТОРЫЕ СОЦИАЛЬНО-ПСИХОЛОГИЧЕСКИЕ ВОПРОСЫ УПРАВЛЕНИЯ В ПРОИЗВЕДЕНИИ М.Ф, АХУНДОВА «ПРАВОЗАСТУПНИКИ В ГОРОДЕ ТЕБРИЗЕ»

### РЕЗЮМЕ

Хотя по линии сюжета произведения М.Ф. Ахундова «Восточные адвокаты» и отображаются семейно-бытовые проблемы, основная идея состоит в раскрытии социально-психологических особенностей того периода. Напомним, что и название произведения «Правозаступники в городе Тебризе» не случайно.

Самоуправство в государственном управлении и поддержка алчности иноземных чужих людей отрицательно сказалось на каждой семье мирного населения.

Таким образом, М.Ф. Ахундов в данном произведении, как и в других его работах, выразил основную идею призыва к борьбе за свою свободу, осознавая, что он азербайджанец.

**K. Haqverdiyeva**

## SOME SOCIAL-PSYCHOLOGICAL QUESTIONS OF MANAGEMENT IN A WORK OF M.F. AKHUNDOV “THE DEFENDER OF RIGHTS IN THE CITY TEBRIZ” (EASTERN LAWYERS)

### SUMMARY

Despite the fact that there was described the family-life problem in the plot line of M.F.Axundov’s “Mürafiə vəkillərinin hekayəti”, the main idea is to open the socio-psychological characteristics of the period. It should be noted that, it is not accidentally that the work was called “Şəhri Təbrizi”. Since it is known from the history that, as a result of the Golestan (1813) and Turkmanchay (1828) peace treaties which signed between Iran and Russia in the XIX century, the southern part of Azerbaijani lands became a part of Iran and the northern part, has gone under the Russian rule. As a result of public administration willfulnesses and the support of greedy individuals to strangers, they settled in our lands and robbed it, also showed a negative effect on the civilian population. Thus , as the main idea, as well as the M.F.Akhundov’s other works, he called every Azerbaijani person, regardless of their identity to fight for their freedom.

# ВЛИЯНИЕ ГЛОБАЛИЗАЦИИ НА НАЦИОНАЛЬНЫЕ ОСОБЕННОСТИ И ВНУТРИСЕМЕЙНЫЕ ОТНОШЕНИЯ

**Вафа Керимова,**
*докторант по программе доктора философии*
*АГПУ*

**Рецензенты:** *проф.* Р.И. Алиев,
*доц.* Д.А. Достузаде

***Ключевые слова:*** *глобализация, национальные особенности, экономическое развитие, социальный прогресс, интеграция*
***Açar sözlər:*** *qloballaşma, milli xüsusiyyətlər, iqtisadi inkişaf, ictimai tərəqqi, inteqrasiya*
***Key words:*** *globalization, national characteristics, economic development, social progress, integration*

На современном этапе научно-технический прогресс, развитие экономики, расширение политических, культурных, социальных связей между государствами являются причиной сближения народов и стран, повышения возможностей взаимовлияния. Это повышает вес, силу влияния и необходимость глобализации. Она особенно быстро стала распространяться в XXI веке. Как самая важная и значимая проблема в мировой политике и идеологии глобализация стала в центре внимания великих государств, еще начиная со второй половины XX века. Как в общественной, политической, правовой областях, так и в духовно-психологической, моральной сфере в жизни общества произошли серьезные изменения. Все это стало причиной обновления в образе мышления и поведения людей, в системе межличностных отношений. Естественно, что семья, как социальный институт, не могла остаться в стороне от происходящих изменений и обновлений.

В процессе глобализации и интеграции наряду с другими явлениями одновременно усиливается этническая идентификация людей, наций, а также идея национального суверенитета и этнической мобильности. В результате комплексного влияния всего этого национальное сознание и национальное чувство приобретают новое содержание, которое оказывает существенное влияние на межличностные и внутрисемейные отношения.

Естественно, что происходящие в мире процессы оказали определенное влияние и на Азербайджан, его общественно-политическую жизнь, в том числе на образ жизни и быт. Геополитическая позиция суверенной Азербайджанской Республики такова, что она находится в центре постоянного внимания и интереса великих держав мира, развитых государств, а также близких соседей. Наша республика, обладающая богатыми природными ископаемыми и находящаяся между Востоком и Западом, исторически была связана с Западными государствами и хорошо знала ряд их особенностей.

С другой стороны, Азербайджан, будучи восточной и мусульманской страной, в своей жизни, деятельности и в быту, как часть целого, проявляя соответствующую приверженность, соблюдала восточные традиции.

Азербайджанское государство, учитывая и происходящие в мире события, и наши национальные особенности, социально-культурные возможности проводит удачную, сбалансированную для современного этапа политику, представляя и пропагандируя нашу культуру, науку, искусство, обычаи и традиции. Одновременно взоры народов и стран мира привлекаются в Азербайджан.

Проведение в 2011 году в Азербайджане Евровидения, Бакинского форума «Всемирный межкультурный диалог», различных крупных и авторитетных соревнований по

различным видам спорта, международных музыкальных фестивалей и др. наглядно подтверждает сказанное.

Президент Азербайджанской Республики Ильхам Алиев, ясно, логическими доводами доказывая проводимую политику, позицию, образ жизни суверенного Азербайджанского государства, говорил, что наличие в Азербайджане высокого уровня национальной и религиозной терпимости, толерантности – это уже факт и является источником нашей силы.

Глобализация и национальность, имея идеологическую, политическую, экономическую и культурную сущность, выступают также в качестве психологической проблемы. Ибо в любом случае и глобализация, и национальность связана с человеческим фактором, образом мышления человека, и обе они влияют на психику человека.

Происходящие в жизни общества процессы и обновления – это одна из проблем, с которыми встречаются педагоги, психологи, философы, социологи, политики, работники социальной сферы, словом, люди, которые в своей повседневной жизни и деятельности поддерживают практическое взаимоотношение и общение с окружающими. Вместе с тем, нашим соотечественникам, с одной стороны, следует интегрироваться в развитые государства мира, создавать новые социально-культурные, экономические, политические связи, изучать их законы, закономерности и потребности, следовать им в своей деятельности, а с другой, с новых позиций отражать нашу национальную особенность, обычаи и традиции, историческое прошлое, возрождать их в соответствии с потребностями существующих реалий.

Как видно, глобализация и национальность оказывают на людей совместное и единое влияние. Другими словами, каждая отдельная личность, также малые и большие коллективы, в целом общество встречаются и с тем, и с другим, принимают их в различных формах, демонстрируют соответственное поведение.

Семья как социальный институт, семейное воспитание, изучение и исследование внутрисемейных отношений во все времена находились в центре неослабного внимания. Однако в условиях глобализации оно представляет новую сущность и новое содержание, так как семейные отношения непосредственно, в открытом виде связаны с происходящими в жизни общества событиями. Происходящие в обществе обновления серьезное влияние оказывают также на семейную жизнь, внутрисемейные и межличностные отношения. Вместе с тем, в свою очередь, общественная среда, развитие общества во многом зависят от состояния социального института, обуславливающего физическое и духовное здоровье семьи, в частности, подрастающего поколения, а в целом людей.

Как известно, семейное воспитание, внутрисемейные отношения всех народов наряду с определенными сходствами, идентичностью по составу, структуре и содержанию обладают также определенными особенностями. В этом смысле не исключение составляет также Азербайджанская семья, обладающая своеобразными качествами и особенности.

Исследование проблемы с различной точки зрения представляет особую актуальность. Во-первых, происходящие в новых условиях обновления, оказало серьезное влияние на семейную жизнь, наряду с позитивными изменениями, стали причиной и негативных проявлений. Поэтому возникла необходимость в исследовании, с одной стороны, влияния глобализации на семейную жизнь, с другой – национальных особенностей. Таким образом, исследование проблемы преимущественно обусловливается ее системной разработкой.

Проблема объединяет в себе глобализацию, национальные особенности и семейные отношения. В тоже время она не только социальная, философская, педагогическая, но и как психологическая проблема охватывает широкую сферу. Еще, начиная с 60-х годов прошлого века, глобализация стала разрабатываться в общетеоретическом контексте, в аспекте межкультурных отношений и экономических связей. Ученые зарубежных стран С.Е.Стиглитз, Г.Зиммел, Л.Г.Ионин, Л.Козер, Т.Г.Стефаненко, В.Б.Шаклеин, А.И.Кравченко, Н.Л.Ханин исследовали эту проблему в экономическом, философском и социальном аспектах, а Э.Дюркейм, Д.Вердер, К.Томсон, Г.Ольпорт, Р.Кеттель, Э.Ериксон, Г.Томе и

другие – влияния происходящих в жизни общества изменений на взаимоотношения и процессы формирования личности. Г.М.Андреева, Ф.Е.Василюк, Н.М.Лебедева, К.Роджерс, Дж.Роттер, А.Маслоу изучили проблему с точки зрения социально-когнитивной, образа мышления, образа жизни и влияния на личность.

Ученые (Г.Н. Волков, Н.Л. Иванова, В.С. Кукушкин, Н.М. Лебедева, Г.В. Нездемковская, Г.Т. Стефаненко и другие), которые обратили внимание на этнопедагогические и этнопсихологические стороны глобализации, исследовали проблему в аспекте образования, общественной среды, межкультурных отношений и ее влияния на формирование личности.

Humanist pedaqogikanın formalaşmasında C. Dyuinin, V. Layın, Montessonun – pedosentrizminin, R. Ştaynerin – Valfdor pedaqogikasının müstəsna xidmətləri olmuşdur. Hazırda isə, humanist pedaqogikanın formalaşması və təbliğində Ş.A. Amonaşvili diqqət mərkəzindədir. Akad. Ş.A. Amonaşvili Azərbaycanla, xüsusən Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutu ilə da sıx əlaqə saxlayır. 2014-cü ilin dekabrında o, humanist pedaqogikanın problemləri, məqsədi, istiqamətləri və həyata tətbiqinin səmərəli yolları ilə bağlı respublikamızın doktorant və dissertantları, gənc tədqiqatçıları ilə Avropa hotelinin Bakı zalında dörd günlük seminar aparmışdır. "Təhsildə mənəvi-əxlaqi dəyərlər: harmonik şəxsiyyətin inkişafı" mövzusunda keçirilən beynəlxalq elmi konfransda "Учитель, укажи путь красоты духа" adlı məruzə ilə çıxış etmişdir. Azərbaycan Respublikasının Təhsil Problemləri İnstitutunda Akad. Ş.A. Amonaşvilinin şərəfinə "Humanist pedaqogika" mərkəzi açılmışdır.

Humanist pedaqogika K. Rocersin humanist psixologiyasından xeyli qidalanmışdır. Humanist psixologiya uşağa hədsiz məhəbbəti, o, necə varsa onu elə qəbul etməyi, psixoloji-pedaqoji dayağı və s. nəzərdə tutur.

Tərbiyənin prinsiplərinə bir sıra tələblər verilir. İ.P. Podlası ali məktəblər üçün yazdığı "100 sual – 100 cavab" dərs vəsaitində həmin tələbləri aşağıdakı kimi qruplaşdırır: "Zərurilik. Tərbiyənin prinsipləri – nə məsləhət, nə də tövsiyədir. Onlar zəruri və tam şəkildə həyata keçirilməsini tələb edir. Prinsiplərin kobud və sistemli halda pozulması, onların tələblərinə etinasızlığın göstərilməsi nəinki sadəcə tərbiyə prosesinin səmərəliliyini aşağı salır, həm də onun əsaslarını sarsıdır. Prinsiplərin tələblərini pozan tərbiyəçi bu prosesə rəhbərlikdən kənarlaşdırılır, onların bəzilərinin, məsələn humanizm, şəxsiyyətə hörmət prinsiplərinin kobudcasına və şüurlu şəkildə pozulması nəticəsində hətta məhkəmə istintaqına cəlb edilmə baş verə bilər.

Kompleksililik. Tərbiyənin prinsipləri onların növbələşmə əsasında deyil, eyni vaxtda tətbiqini nəzərdə tutur.

Müxtəlifmənalılıq. Tərbiyənin prinsipləri ümumi fundamental müddəalar kimi müxtəlifmənalıdır, onların arasında əsasları və ikinci dərəcəliləri, hətta ilk növbədə həyata keçirilməsi və yoxdur həyata keçirilməsi sabaha saxlanılası yoxdur. Bütün bunlarla yanaşı, tərbiyənin prinsipləri heç də hazır reseptlər deyil ki, onunla tərbiyəçilər yüksək nəticələrə avtomatik çaya bilsinlər. Onlar tərbiyəçinin nə xüsusi biliklərini, nə təcrübəsini, nə də ustalığını əvəz etmir.

Tərbiyəvi prosesin əsaslandığı prinsiplər sistem təşkil edir" (2, 259).

Ata-anaların ailə tərbiyəsində tərbiyənin prinsiplərindən yerli-yerində istifadə etmələri məqsədəuyğyndur və övladlarının taleyini düşünənlər bu məsələni diqqət mərkəzində saxlayır və səmərəli nəticələr qazanırlar.

Tərbiyəvi işlərin təşkilində çətinlik və səriştəsizlik, hətta mənfi təsir göstərən valideynlərin düzgün mövqe tutmaları istiqamətində cəmiyyətin, qohum ailələrin, cəmiyyətin səyləri birləşmələri, ailənin yeniyetməyə mənfi təsiri neytrallaşdırılmalıdır. Bu zaman tərbiyəvi fəaliyyətdə rəhbər tutulan başlıca tələblərə və qaydalara – müvafiq prinsiplərə əməl olunması zərurəti meydana çıxır.

Ailənin yeniyetməyə mənfi təsirini neytrallaşdırmaq üçün ilk növbədə ər-arvad, başqa sözlə ata-ana arasındakı qarşılıqlı münasibətlərin hansı səbəblərdən xoşagəlməz hala gəldiyi araşdırılmalı, qarşılıqlı münasibətlərdəki müsbət və mənfi təzahürlər diqqətlə nəzərdən keçirilməli və ailəyə konkret kömək göstərilməlidir.

İkinci əsas məsələ uşaqların, o cümlədən yeniyetmələrin ailə tərbiyəsindəki müsbət və mənfi hallar araşdırılmalıdır. Valideynlər tərbiyə işlərini səmərəli qursunlar deyə onlara məsləhət bilinməlidir ki, pedaqoji prosesin təcrübədə özünü doğrultmuş prinsiplərindən geniş şəkildə və sıx vəhdətdə bəhrələnsinlər.

Ailə tərbiyəsində tərbiyənin aşağıdakı əsas prinsiplərindən istifadə olunması məqsədəuyğundur: 1. Tərbiyədə məqsəd aydınlığı. 2. Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasının quruculuğu ilə əlaqələndirilməsi. 3. Tərbiyəyə humanist yanaşma. 4. Uşaqların yaş xüsusiyyətlərinin nəzərə alınması. 5. Fərdi xüsusiyyətlərin hesaba alınması. 6. Tərbiyədə şüurluluq və fəallıq prinsipi. 7. Tərbiyədə sistemlilik, ardıcıllıq və fasiləsizlik. 8. Uşağın müsbət cəhətlərinə əsaslanmaqla onun qüsurlarının aradan qaldırılması (nikbinlik). 9. Uşağın şəxsiyyətinə hörmət və düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq). 10. Tələblərdə vahidliyin gözlənilməsi.

Tərbiyədə məqsəd aydınlığı prinsipi uşaq və yeniyetmə şəxsiyyətinin təşəkkülünə özünün böyük köməyini göstərir. Bu prinsip nəzərdə tutur ki, valideyn, yaxud ailənin digər yaşlı üzvləri ailə tərbiyəsinin ümumi məqsədini aydın təsəvvür etsinlər, yaxın vəzifələri müəyyənləşdirə və yerinə yetirə bilsinlər.

Haqqında danışılan prinsip ailədə aparılan tərbiyə işinin onun məqsədinə uyğun planlaşdırılmasını nəzərdə tutur, buraxılmış qüsurları görməyi, tərbiyə işində yaxşı nəticələrə nail olmağı tələbata çevirir. Məqsəd aydın olmalıdır, əks təqdirdə ata, yaxud ana uşaqda hansı keyfiyyətləri inkişaf etdirəcəyini, hansı nöqsanları aradan qaldıracağını, sonda nəyə nail olacağını bilmədikdə öz fəaliyyətində uğur qazana bilmir. «Kəlilə və Dimnə»də deyildiyi kimi, «Ağıllı adam gərək işin əvvəlində onun sonunun nə ilə qurtaracağını gözünün qabağına gətirə, yola çıxmamış hara gedəcəyini müəyyən edə. Əks halda o, yolun ortasında avara qalar» (3, 40).

K.D. Uşinski tərbiyəvi fəaliyyətin məqsədini aydın təsəvvür etməyin önəmli bir məsələ olduğunu diqqət mərkəzinə gətirmişdir. Diqqət edək: «Yeni binanın bünövrəsini qoyarkən nə tikmək istədiyini bilməyən memar haqqında siz nə deyərsiniz; o bilmir ki, tikdiyi bina həqiqət və məhəbbət allahına həsr olunmuş məbədgahdırmı, içərisində rahat yaşamaq üçün sadəcə evdirmi, başqa yerdən gələnlərin nəzərini cəlb etmək üçün yaraşıqlı, lakin mənasız təntənəli darvazadırmı, haqq-hesabını bilməyən səyahətçiləri soymaq üçün olan yaraşıqlı mehmanxanadırmı, yeyinti şeyləri bişirmək üçün mətbəxdirmi, nadir şeyləri mühafizə etmək üçün muzeydirmi, yoxsa heç kəsə həyatda lazım olmayan hər cür köhnə şeyləri yığmaq üçün ambardırmı? Öz tərbiyəvi fəaliyyətinin məqsədini aydın və dürüst təyin edə bilməyən tərbiyəçi haqqında da eyni şeyləri demək lazımdır» (4, 80-81 ).

Məqsədin aydın olması və yerinə yetirilməsi ailədə uşaq və yeniyetmələrlə tərbiyəvi işlərin səmərəliliyini artırır.

Tərbiyə işinin həyatla, əməklə və Azərbaycan Respublikasında dinc quruculuq işləri ilə əlaqələndirilməsi prinsipi də çox vacib bir prinsipdir, tərbiyənin digər prinsipləri ilə sıx əlaqə şəraitində reallaşır. Hər gün ölkəmizin daxilində və xaricində baş verən çoxlu əlamətdar, qəribə, ziddiyyətli hadisələrlə qarşılaşır, yaxud onlar barədə məlumat alırıq. Onların bir qismi hətta uşaq və yeniyetmələrin gözləri qarşısında baş verir. Odur ki, ata-analar belə hadisələrdən düzgün nəticə çıxarmaqda öz oğul və qızlarına kömək göstərməlidirlər. Öz tərbiyəvi işlərini məhz bu şəkildə quran valideynlər heç də az deyildir.

Tərbiyə işini həyatla əlaqələndirməyə vacib tələb kimi yanaşmaq, həmin prinsipə istinad səmərəli nəticələrin qazanılmasına şərait yaradır. Valideyn, yeri gəldikcə övladlarının diqqətini respublikamızın şəhər, rayon və kəndlərində aparılan dinc quruculuq işlərinə yönəltməlidir. Bu, eyni zamanda onun vətəndaşlıq borcudur. O, özü ölkəmizin nailiyyətlərindən milli iftixar hissi keçirməklə yanaşı bu müqəddəs hissi oğul və qızlarına da təlqin etməlidir.

Tərbiyədə sistemlilik və fasiləsizlik prinsipi. Fəaliyyət, o cümlədən tərbiyəvi fəaliyyət sistemli halda həyata keçirildikdə, ardıcıllığa əməl olunduqda yaxşı, qənaətləndirici göstəricilərə çatmaq olur. Tərbiyə prosesində sistemin gözlənilməsi tərbiyənin komponentləri, tərkib hissələri, istiqamətləri arasında sıx əlaqənin hesaba alınmasını tələb edir. Sistemlilik və ardıcıllıq prinsipi tərbiyə işləri apararkən məntiqi əlaqələrin gözlənilməsini və davranış və rəftara, şəxsiyyətlərarası münasibətlərə dair deyilənlərin əməli fəaliyyətə istiqamətlənməsini təmin edir. Sistemlilik və ardıcıllıq prinsipi qısa müddət ərzində daha çox nəticəyə nail olmağa şərait yaradır.

Sistemin tələbi belədir ki, hər şeydən əvvəl şüura təsir göstərən metodlardan istifadə edilməli, tərbiyə prosesinin səmərəliliyini artırmaqdan ötrü fəaliyyəti təşkil edən və davranış təcrübəsini formalaşdıran metodlardan, eyni zamanda fəaliyyəti və davranışı stimullaşdıran metodlardan faydalanılmalıdır.

Valideyn tərbiyə işini fasiləsiz aparmalıdır.

Tərbiyəyə humanist yanaşma prinsipi uşağa daimi məhəbbətdə, insana qayğıda və ağıllı tələbkarlıqda ifadə olunur.

Tərbiyədə şüurluluq və fəallıq prinsipi. Bu prinsipin mahiyyəti ondan ibarətdir ki, tərbiyə şüur və təhtəlşüur səviyyəsində həyata keçməlidir. Bu, heç də o demək deyildir ki, tərbiyə şifahi sözə, öyüd-nəsihətə, məsləhətə əsaslanmalıdır. Bəzi mütəxəssislərin fikri belədir ki, uşaqla tərbiyəlilik barədə nə qədər çox danışılsa, o, bir o qədər tərbiyəli olar. Bu, yanlış qənaətdir. Haqqında danışılan prinsip həqiqəti deməyin zəruriliyini diqqət mərkəzinə gətirir, lakin eyni zamanda kəskin problemlərdən yan keçməməyi nəzərdə tutur.

Əməkdaşlıq prinsipinin tətbiqində tərbiyə prosesində şəxsiyyətə üstünlük verilməsi; onun özünütəsdiqi, müəyyənləşməsi; uşaq və böyüklərin birgə fəaliyyəti diqqətdə olur. Yeniyetmənin şəxsiyyətinə hörmət prinsipi - valideynin öz övladına bir şəxsiyyət kimi hörmətinin zərurətə çevirir.

Tərbiyə zamanı fərdi yanaşma prinsipinin əhəmiyyəti böyükdür. Yeniyetmələrin fərdi qabiliyyətlərini diqqət mərkəzində saxlamağı nəzərdə tutur.

Uşaqlar xarakter və xasiyyətcə bir-birlərinə oxşamırlar. Uşağın hərəsi özünəməxsus fərdi xüsusiyyətlərə malikdir. Ona görə də tərbiyə işləri apararkən ata və analar həmin fərdi fərqləri nəzərə alaraq, yaxşı səmərəli nəticələrə nail ola bilərlər.

Psixologiya üzrə ədəbiyyatlarda, əsasən temperamentin dörd tipinin üzərində dayanırlar: xolerik, sanqvinik, fleqmatik, melanxolik. Temperamentin həmin tiplərindən asılı olaraq, fərdi fərqlər yaranır.

Valideyn uşaq və yeniyetmələrin fərdi fərqlərinə bələd olmadıqda onların tərbiyəsində çətinliklərlə üzləşir. Nəsirəddin Tusinin haqlı olaraq yazdığı kimi, «Heç bir surət bir-birinə oxşamadığı kimi, heç bir xasiyyət də başqa xasiyyətə oxşamaz. Ona görə də tərbiyə və təlimdə ehmallıq göstərilsə, hər kəsin cilovu öz təbiətinin ixtiyarına verilsə, o, bütün ömrü boyu hansı xasiyyətdə doğulmuşdursa, elə də qalar».

Təlim və tədrisdə yaş və cinsi xüsusiyyətlərin nəzərə alınması prinsipinin də rolu böyükdür. Ailədə oğlan və qız tərbiyəsinin özünəməxsus xüsusiyyətləri vardır. Valideyn müxtəlif yaşlı uşaqlara eyni tələblərlə yanaşa bilməz. Hər yaş dövrünün öz xüsusiyyəti var. Məktəbəqədər yaşlı uşağa, kiçik məktəb yaşlı uşağa, yeniyetməyə və yuxarı məktəb yaşlı uşaqlara tələblər verilərkən onların yaşı nəzərə alınmalıdır. Hətta yeniyetməlik yaş dövrü də bölünür (kiçik yeniyetməlik yaşı, böyük yeniyetməlik yaşı) və fərqli yanaşma tələb edir. Böyük məktəb yaş dövrü ilk gənclik yaşı dövrü kimi nəzərdən keçirilir. Cinsi xüsusiyyətlərə gəldikdə isə, qız, adətən – ana ("Anasının keçdiyi körpüdən qızı da keçər", "Anası gəzən ağacları balası budaq-budaq gəzər", " "Qız anadan öyüd alar", "Qızı tanımaq istəyirsənsə, gərək anasını görəsən, lap yaxından tanımaq istəyirsənsə, gərək nənəsini görəsən", "Anasına bax, qızı al" və s.) oğlan ata nümunəsində ("Qız anadan görməyincə, öyüd almaz, Oğul atadan görməyincə süfrə çəkməz") tərbiyə edilir.

Nikbinlik prinsipi uşağın müsbət keyfiyyətlərinə əsaslanaraq, onun qabiliyyətni, bacarığını və istedadını nəzərə almaqla, mənfi cəhətlərini aradan qaldırmağı diqqət mərkəzinə gətirir. Uşaq və yeniyetmələr arasında elə şəxslərə rast gəlinir ki, məhəllə mühitinin pozucu təsiri, yanlış ailə tərbiyəsinin təsiri səbəbindən özünü yaxşı aparmır, davranış və rəftarında qüsurlar olur, məktəbdə, məhəllədə, küçədə balacaları incidir, yoldaşları ilə kobud olur, intizamı pozur, söyüş söyür, dalaşır, dərsə mane olur, məşğələlərdən qaçır.

Belə uşaqlarla, yeniyetmələrlə ehtiyatlı davranmaq lazımdır. Onlarla ixtilafa girmək, onlara acıqlanmaq, üstlərinə qışqırmaq, səmərəsizdir, valideyn-yeniyetmə münasibətlərini çətinləşdirə bilər.

Belələrinin tərbiyə olunmasının qeyri-mümkünlüyü barədə bədbin qənaətə gəlmək yolverilməzdir. Nikbinlik prinsipi tərbiyəvi fəaliyyətdə uşağa münasibətdə nikbin olmağı tələbata çevirir.

Yalnız mənfi keyfiyyətlərə malik insan yoxdur. Bir sıra hallarda xoşlamadığımız adamlar ekstremal şəraitlərdə elə müsbət hərəkətlər nümayiş etdirir, qəhrəmanlıq, mərdlik nümunəsi ilə fərqlənirlər ki, nümunəvi hesab etdiyimiz bəzi adamlar bu kimi vəziyyətlərdə sadəcə seyrçi mövqedə olurlar. Ona görə də valideyn «tərbiyəsiz», «çətin», «düzəlməz», «yolagəlməz» sandığı övladına nikbincəsinə yanaşdıqda, onun da yola gələcəyinə, düzələcəyinə, tərbiyəli və nümunəvi olacağına inandıqda və həmin istiqamətdə işlərini qurduqda müsbət nəticələr qazanır.

Uşaq hərtərəfli öyrənilməlidir. Onda mənfi cəhətləri ilə yanaşı bu uşaq və yeniyetmələrin müsbət keyfiyyətləri də üzə çıxacaq.

Nəzəriyyə və praktikanın əlaqəsi prinsipi - tərbiyə işinin gündəlik həyat təcrübəsi ilə harmonik əlaqəsini ifadə edir.

Mədəniyyət prinsipi – tərbiyə prosesində respublikanın, xalqın, mədəniyyətin dəyərləri barədə aydın təsəvvür yaratmaqdır.

Şagirdin şəxsiyyətinə hörmətlə düzgün tələbkarlığın uzlaşdırılması (tərbiyədə hörmət və tələbkarlıq) prinsipi. Uşaqlar hansısa qəbahətli bir iş görür, sözə qulaq asmır, nadinclik edir, qonşu uşaqla savaşır, evdə nəyi isə yerə salıb sındırırlar.

Onlardan ailənin qayda-qanuna, intizama əməl etməyi, nümunəvi davranmağı, tələb etmək vacibdir. Xoşagəlməz hərəkətinə, əməlinə görə, təbii ki, ona cəza verilməlidir. Ailədə intizam yaratmaq, oğul və qızlarında mədəni adətlər formalaşdırmaq məqsədilə ata-ana, yaxud ailənin digər yaşlı üzvü – baba-nənə, böyük qardaş, böyük bacı səmimi, mehriban, qayğıkeş olduğu qədər eyni zamanda ciddi və tələbkar olmalıdır. Fəqət tələbkarlıq o demək deyildir ki, uşağın şəxsiyyətini təhqir etsinlər, ləyaqətini alçaltsınlar.

Xoşagəlməz davranış, rəftar və hərəkətinə görə təcrübəli valideyn, adətən yeniyetməyə güzəştə getmir ona müvafiq cəza verir. Ancaq cəza yeniyetmə şəxsiyyətinki, mənliyini təhqir etməklə müşayiət olunmamalıdır. Yaxşı tərbiyəçi insan şəxsiyyətini alçaldan vasitələrdən istifadə etmir, nisbətən səmərəli təsir üsullarından faydalanır.

Ailədə uşaqlara həm qayğı və nəvaziş göstərilir, onların təhsili, yaşayışı, istirahəti üçün hər cür şərait yaradılmaqla bərabər eyni zamanda onlara bir çox müxtəlif tələblər irəli sürülür. Həmin tələblər nümunəvi davranış, rəftar və ünsiyyətin, mədəni adətlərin yaranmasına, əmək bacarıq və

vərdişlərinin formalaşmasına, müsbət əxlaqi keyfiyyətlərə yiyələnilməsinə imkan verir. Tələblər uşaqlara kiçik yaşlardan verilir. Bu, onda tələbləri, onların mahiyyətini, məqsədini, ölkə və ailə üçün, özləri üçün əhəmiyyətini və zəruriliyini başa düşməyə və onlara könüllü əməl etməyə istiqamətlənir. Beləliklə, uşaq tədricən bir şəxsiyyət olaraq yetişməyə başlayır.

Valideynlərin tələbləri bir-biri ilə ziddiyyət təşkil etməməlidir. Onlar tərəfindən verilən müxtəlif tələblər yeniyetmədə tələbə qarşı laqeydliyin yaranması ilə nəticələnə bilər ki, bu da yaxşı hal deyildir.

**Problemin aktuallığı**. Ailənin yeniyetməyə mənfi təsirinin neytrallaşdırılması üzrə işdə rəhbər tutulan prinsiplər diqqət mərkəzinə gətirilir.

**Problemin yeniliyi**. Ailənin yeniyetməyə mənfi təsirinin neytrallaşdırılmaq üçün faydalı olan prinsiplər əsaslandırılır.

**Problemin praktik dəyəri**. materialdan ailə tərbiyəsini səmərəli qurmaq üçün istifadə edilə bilər.

Uşağa tələblər verildikdə onun yerinə yetirilib-yetirilmədiyi yoxlanmalıdır.

## ƏDƏBİYYAT


1. Abbasov A.N. Pedaqogika: Orta ixtisas məktəbləri üçün dərslik. Bakı: Mütərcim, 2013.
2. Подласый И.П. Педагогика: 100 вопросов - 100 ответов: Учеб. пособие для вузов. М.: ВЛАДОС-пресс, 2004, 365 с. http://www.pedlib.ru/Books/1/0221/1_0221-259.shtml).
3. Kəlilə və Dimnə. Bakı: ADU-nun nəşriyyatı, 1961.
4. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri. Bakı: Azərnəşr, 1953.


**Г.Р. Мамедова**

## ПРИНЦИПЫ, КОТОРЫМИ РУКОВОДСТВУЮТСЯ В РАБОТЕ ПО НЕЙТРАЛИЗАЦИИ НЕГАТИВНОГО ВЛИЯНИЯ СЕМЬИ НА РЕБЕНКА

### РЕЗЮМЕ


Какие пути, мероприятия могут быть эффективными для нейтрализации негативного влияния семьи на подростка? Педагогическое просвещение родителей в этой области может значительно помочь. Во время педагогического просвещения весьма полезно проинформировать родителей о принципах педагогического процесса, которыми полезно пользоваться во время проведения воспитательных работ в семье.

Целесообразно использование родителями воспитательных принципов; родители, заботящиеся о судьбе своих детей обращают внимание на эти вопросы и получают эффективные результаты.

В статье рассматриваются вышеописанные проблемы.


**G.R. Mammadova**

## THE PRINCIPLES THAT GUIDE THE WORK TO NEUTRALIZE THE NEGATIVE IMPACT ON THE CHILD'S FAMILY

### SUMMARY


What ways, measures can be effective to neutralize the negative impact of the family on a teenager? Pedagogical education of parents in this area can greatly help. During teacher education is useful to inform parents about the principles of the educational process, which may be useful to use during the educational work in the family. It is advisable to use the parents of educational principles; parents who care about the fate of their children pay attention to these issues and get effective results. The article deals with the problems described above.

# EKOLOJİ PROBLEMLƏRLƏ TANIŞLIĞIN EKOLOJİ MAARİFLƏNMƏ VƏ EKOLOJİ TƏRBİYƏ BAXIMINDAN FAYDASI

**Səbinə Səmədova,**
*fəlsəfə doktoru proqramı üzrə dissertant*
*Azərbaycan Müəllimlər İnstitutu*
E-mail: Samadova.sabina@box.az

**Rəyçilər:** *prof. Ə.M. Hüseynov,*
*dos. H. Hacıyeva*

***Açar sözlər**: ekologiya, ətraf mühitin mühafizəsi, təbii ehtiyatlar, ekoloji mədəniyyət, ekoloji şüur*
***Ключевые слова**: экология, охрана окружающей среды, природные ресурсы, экологическая культура, экологическое сознание*
***Key worlds:** ecology, ecological protection, natural resources, ecological culture, ecological awareness*

"Ətraf mühiti mühafizə" və "təbii ehtiyatlardan səmərəli istifadə" bir-birinə yaxın anlayışlar olmaqla yanaşı, əlaqəli proseslərə də malikdirlər. Əslində isə bu fənnin adı iki hissədən ibarətdir. Ətraf mühiti mühafizəsi və təbii ehtiyatlardan səmərəli istifadə. Predmetin nisbətən cavan, əhatə dairəsinin mürəkkəb və çoxsahəli olması ətraf mühit və təbiətdən səmərəli istifadə edilməsi məsələlərinin təkmilləşdirilməsini tələbata çevirir. Dahi pedaqoqlar insan şəxsiyyətinin formalaşmasında təbiətin rolunun daima əsas amil hesab etmişlər. Hələ vaxtilə K.D. Uşinski deyirdi: "Qəribədir , təbiətin tərbiyəvi təsiri pedaqogikada çox az qiymətləndirilib".

"İnsan-cəmiyyət-təbiət" üçlüyü hər zaman vəhdətdə olan bir sistem kimi özünü göstərmişdir. Təbiətin mühafizəsi, onun tükənən və tükənməyən sərvətlərindən səmərəli və ağıllı şəkildə istifadə etmək hər bir kəsin vətəndaşlıq borcu olmalıdır. Bunun üçün də insanlarda ekoloji mədəniyyət formalaşmalıdır. "Ekologiya" və "mədəniyyət" anlayışları bir-biri ilə daima vəhdət təşkil etməlidir.

"Ekologiya" bir anlayış kimi XIX əsrin sonlarında meydana gəlmişdirr. Həmin dövrlərdə ekologiya elminin əhəmiyyəti hələ məhdud xarakterli idi. Yəni XIX əsrin əvvəllərində ekologiya sadəcə canlı orqanizmlər, onların qarşılıqlı əlaqəsi və təbiətə təsiri haqqında təlim kimi diqqəti cəlb edirdi.

Son illər ölkəmizdə ətraf mühitin mühafizəsinə böyük diqqət yetirilir. Sağlamlıq və ətraf mühitin mühafizəsi baxımından hüquqi-normativ aktların hazırlanması və qəbul edilməsi sahəsində bir çox işlər görülür. 1999-cu ildə Milli Məclisin qəbul etdiyi "Ekoloji təhlükəsizlik haqqında" Qanun Ulu Öndər Heydər Əliyev tərəfindən təsdiq olundu.

XX əsrin son rübündə ətraf mühitin mühafizəsi ümumbəşəri səviyyədə narahatlıq doğurduğu üçün bu sahədə fəaliyyət göstərən beynəlxalq təşkilatların əlaqələrinin genişləndirilməsi və əlaqələndirilməsi xüsusilə mühüm əhəmiyyət daşıdı.

Təhsilalanlarda ekoloji şüuru, ekoloji təfəkkürü və ekoloji davranışı formalaşdırmaq üçün onlar arasında ekoloji maariflənmə işləri aparılmalıdır. Aşağıdakı məlumatlar, ekologiya ilə bağlı, ekoloji təhsil və ekoloji tərbiyə ilə bağlı sərəncamlarla tanış olmaq bu baxımdan faydalıdır.

Azərbaycan Respublikası 1997-2000-ci illərdə Türkiyə, Norveç, Gürcüstan, Qazaxıstan, Moldova, Dağıstan Respublikası ilə ətraf mühitin mühafizəsi sahəsində hökumətlərarası birgə əməkdaşlıq sazişləri imzaladı, bir sıra beynəlxalq konvensiyalara qoşuldu. Ölkəmiz Avropa Energetika Xartiyasının Protokolunu imzalamışdır. 1997-2000-ci illər ərzində "Tükənməkdə olan vəhşi heyvan və bitki növlərinin beynəlxalq ticarəti üzrə", "Səhralaşmaya qarşı mübarizə üzrə", "Atmosferin ozon qatının mühafizəsi üzrə", "Ətraf mühitə təsirin transqranik kontekstdə qiymətləndirilməsi üzrə" və "Ətraf mühitlə bağlı informasiya əldə etmək üzrə" konvensiyalar Azərbaycanın Milli Məclisi tərəfindən ratifikasiya edilmişdir.

1998-ci ildə Azərbaycan Respublikası hökuməti tərəfindən "Ətraf mühitin mühafizəsi üzrə Milli Fəaliyyət Proqramı" qəbul edilib. 1999-cu ilin əvvəllərindən Xəzər dənizi üzrə beynəlxalq ekoloji proqramı həyata keçirmək üçün Bakı şəhərində Xəzər Ekoloji Mərkəzi yaradılmış və fəaliyyətə başlamışdır. 2003-cü ildə Ulu öndər bir sərəncamla iki milli proqramı - "Azərbaycan Respublikasında ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair Milli Proqram"ı və "Azərbaycan Respublikasında meşələrin bərpa edilməsi və artırılmasına dair Milli Proqram"ı təsdiq etmişdir.

Ekoloji vəziyyətin sağlamlaşdırılması üçün həyata keçirilən layihələr su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, biomüxtəlifliyin qorunması, yaşıllıqların artırılması, atmosferin mühafizəsi, torpaqların deqradasiyasının qarşısının alınması, o cümlədən neft və digər tullantılarla çirklənmiş torpaqların təmizlənməsi, bərk sənaye və məişət tullantılarının, o cümlədən, təhlükəli tullantıların idarə olunmasının təkmilləşdirilməsi sahələrinə yönəldilmişdir. Ətraf mühitin mühafizəsinin metodoloji baxımdan tədqiqi tarixən təbiət və cəmiyyətin qarşılıqlı əlaqəsi, cəmiyyətin inkişafında coğrafi mühitin rolu, təbiətin dialektikası, əhali artımı və ərzaq problemi, torpaqların münbitliyi və iqtisadi qiymətləndirilməsi kimi problemlərin, bəzi elmi məsələlərin tədqiqi ilə bağlı olmuşdur.

Ekologiya, ətraf mühitin qorunması və s. bu cür həyati məsələlər ölkə Prezidentinin də həmişə diqqətindədir. Ötən müddət ərzində Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin çox vacib sərəncamı ilə təsdiq olunan "Ekoloji cəhətdən dayanıqlı sosial-iqtisadi inkişafa dair", "Azərbaycan Respublikasında Hidrometeorologiyanın İnkişafı Proqramı" və digər proqramlarda nəzərdə tutulmuş tədbirlər ardıcıllıqla həyata keçirilir.

Dövlət başçısının sərəncamı ilə ətraf mühitlə bağlı problemlərin həllinə yönəldilən mühüm və çox qiymətli sənəd olan "Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks Tədbirlər Planı"nın icrasını təmin etmək məqsədilə ölkənin gərgin ekoloji vəziyyətdə olan bölgələrinin, əsasən də Bakı şəhəri və Abşeron yarımadasının ətraf mühitinin sağlamlaşdırılması istiqamətində mühüm tədbirlər həyata keçirilib. Bu tədbirlər çərçivəsində Kompleks Tədbirlər Planından irəli gələn ətraf mühitin qorunmasına yönəldilmiş Bakı Buxtasının, Bibi-Heybət zonasının, Heydər Əliyev adına Beynəlxalq Hava Limanının ətrafının, Abşeron yarımadasındakı göllərin, neftlə çirklənmiş torpaqların, lay suları altında qalmış sahələrin və digər istehsal tullantıları ilə çirklənmiş ərazilərin ekoloji vəziyyətinin yaxşılaşdırılması, bərk məişət tullantılarının idarə olunmasının təkmilləşdirilməsi və s. tədbirlər uğurla həyata keçirilib.

Təhsilalanların təbiəti mühafizə fəaliyyətinə cəlb edilməsinin zərurəti onların ekoloji tərbiyə və ekoloji təhsilin vacibliyini şərtləndirir. Azərbaycan ətraf mühitin mühafizəsi sahəsindəki son on illik fəaliyyətinə görə dünyada ikinci yerdə qərarlaşıb. ABŞ-ın Yel və Kolumbiya universitetləri tərəfindən hazırlanan "Beynəlxalq Ekoloji Fəaliyyətin Nəticələrinin İndeksi" (Environmental Performance Index) adlı sənəddə Azərbaycanın bu mövqeyi öz əksini tapmışdır. Sənədə əsasən Azərbaycan ətraf mühitlə bağlı xəstəliklərin azalması sahəsində birinci yerdədir. Buna insan sağlamlığına mənfi təsir edən ekoloji problemlərin aradan qaldırılması istiqamətində görülmüş işlər zəmin yaradıb.

Dünya ölkələrində təsərrüfatın və əmək fəaliyyətinin intensivləşdirilməsi suya olan tələbatı artırmış və elmi, həyati məsələlər içərisində sudan istifadə məsələsi günün təxirəsalınmaz probleminə çevrilmişdir. Belə ki, təhlükəli tullantıların idarə olunması sahəsində dəyişikliklər, o cümlədən 300 min tona yaxın civə tərkibli toksiki tullantıların müasir təhlükəli tullantılar poliqonunda tam zərərsizləşdirilməsi, əhalinin içməli su ilə, o cümlədən regionlarda 340 minə yaxın əhalinin Ümumdünya Səhiyyə Təşkilatının tələblərinə cavab verən içməli su ilə təmin edilməsi, bərk məişət tullantıları və çirkab suların idarə olunmasındakı irəliləyişlər, neftlə çirklənmiş ərazilərin reabilitasiyası və s. belə nəticələrin əldə olunmasına gətirib çıxarıb.

Azərbaycan, həmçinin, meşələrlə bağlı qiymətləndirmədə hər 3 komponent üzrə - meşə ehtiyatlarının vəziyyəti, meşə örtüyünün dəyişməsi və meşə itkiləri sahəsində - həm ətraf mühitin

vəziyyətinin indeksi, həm də ekoloji inkişafın göstəricilərinə görə ən yüksək nəticə göstərərək 132 dövlət arasında birinci yeri tutub.

Ötən il də ətraf mühitin mühafizəsi ilə bağlı bir sıra tədbirlər həyata keçirilmişdir. Belə ki, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin ətraf mühitin mühafizəsini həyata keçirən qurumları tərəfindən 2013-cü il ərzində hüquqi və fiziki şəxslər tərəfindən yol verilmiş qanun pozuntularına görə 2995 akt və 774 protokol tərtib olunub və aşkar edilmiş, nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 1180 müddətli "məcburi göstəriş" verilib. Su ehtiyatlarının mühafizəsi üzrə görülmüş işlər uğurlu nəticələnib. Bu sahədə 304 akt və 70 protokol tərtib olunub, müəyyən edilmiş nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 160 müddətli "məcburi göstəriş" verilib. Uzun illər ölkəmizdə və xaricdə aparılan elmi-tədqiqat nəticəsində müəyyən edilmişdir ki, çirkli suların təmizlənməsində aşağıdakı üsulların tətbiqi daha səmərəlidir, mexaniki üsul, bioloji üsul, kimyəvi üsul, səthdə üzən çirkləndiricilərin yığılması üsulu.

Atmosfer havasının çirklənməsi də ətraf mühitə çox güclü təsir göstərir. Ona görə də ETSN havanın çirklənməsinin qarşısını almaq üçün davamlı tədbirlər həyata keçirmişdir. Bu sahə üzrə 345 akt və 73 protokol tərtib olunub, müəyyən edilmiş nöqsanların aradan qaldırılması üçün icrası məcburi olan 280 müddətli "məcburi göstəriş" verilib. Torpağın mühafizəsi üzrə 178 akt və 87 protokol, yerin təkinin mühafizəsi üzrə 176 akt və 78 protokol, məişət tullantıları üzrə 397 akt və 95 protokol , istehsalat tullantıları üzrə 479 akt və 56 protokol tərtib olunmuşdur ki, onların da icrası müvafiq orqanlar tərəfindən nəzarətə götürülmüşdür.

Flora və fauna ehtiyatlarının mühafizəsi daim diqqət mərkəzindədir. Təhsilalanların ətraf mühitin mühafizəsi işinə cəlb edilməsi təbiətin qorunmasıda əhəmiyyətli rol oynayır.

**Problemin aktuallığı**. Ekoloji tarazlığı pozulmaqda olduğu müasir mərhələdə ekoloji maariflənməyə ehtiyac var.

**Problemin yeniliyi.** Ekoloji maariflənmənin vacibliyi əsaslandırılır.

**Problemin praktik dəyəri.** Məqalə ekoloji təhsil və ekoloji tərbiyə işlərini səmərəli qurmaqda müəllimlərə kömək edəcəkdir.

## ƏDƏBİYYAT


1. Ə. Ələsgərov. Təbiətin mühafizəsi. Bakı: Maarif , 1983.
2. Ə. Ələsgərov. Ətraf mühitin qorunması və təbii sərvətlərdən istifadə. Bakı: Maarif , 1989.
3. F. İbrahimov, R. Hüseynzadə. Pedaqogika: Dərslik 2 cilddə. Bakı: Mütərcim, 2013.
4. A.N. Abbasov. Pedaqogika: Dərslik. Bakı: Mütərcim, 2013.


**С.О. Самедова**

## ПОЛЬЗА ЗНАКОМСТВА С ЭКОЛОГИЧЕСКИМИ ПРОБЛЕМАМИ С ТОЧКИ ЗРЕНИЯ ЭКОЛОГИЧЕСКОГО ПРОСВЕЩЕНИЯ И ЭКОЛОГИЧЕСКОГО ВОСПИТАНИЯ

### РЕЗЮМЕ


Ввиду того что, защита окружающей среды вызывает беспокойство на всемирном уровне в последней четверти XX века становится особо значимым расширение связей международных организаций, работающих в этой сфере.

Для формирования у учащихся экологического сознания, экологического мышления и экологического отношения необходимо проводить среди них просветительскую работу. С этой целью весьма полезно ознакомление с указами, связанными с экологией, экологическим образованием и экологическим воспитанием.

**S.O. Samadova**

# BENEFITS OF FAMILIARITY WITH ENVIRONMENTAL ISSUES FROM THE PERSPECTIVE OF ENVIRONMENTAL EDUCATION AND ENVIRONMENTAL EDUCATION

## SUMMARY

Due to the fact that environmental protection is a concern at the global level in the last quarter of the XX century becomes particularly significant expansion of ties of international organizations working in this field.

For the formation of students' environmental awareness, environmental thinking and ecological relationships necessary to carry out educational work among them. For this purpose, a very useful introduction to the decrees related to the environment, environmental education and environmental education.

# MEHMET AKİF ERSOYUN ƏSƏRLƏRİNİN TƏRBİYƏVİ ƏHƏMİYYƏTİ

**Aslan Mehmet Güder,**
*Bakı Slavyan Universiteti*
E-mail: mehmet_guder@hotmail.com

**Rəyçilər:** *dos.* V. Bəşirov,
*dos.* T. Paşayev

***Açar sözlər:*** *Mehmet Akif Ersoy, davranış normaları, əxlaq tərbiyəsi, milli dəyərlər, hüquq tərbiyəsi, ailə tərbiyəsi, estetik tərbiyə, təhsil və məktəb*

***Ключевые слова:*** *Мехмет Акиф Эрсой, нормы поведения, нравственное воспитание, национальные ценности, правовое воспитание, семейное воспитание, эстетическое воспитание, школа и образование*

***Key words:*** *Mehmet Akif Ersoy, code of ethics, moral education, national values, legal education,education of family, aesthetic education,education and school*

Ədəbiyyat bədii təfəkkürün inkişafında əsas amildir. O, söz sənəti olub, incəliyi, estetik duyğuları tərbiyə edir, bilik və elm verir.

Ədəbiyyat varlığı elm yolu ilə deyil, bədii şəkildə, bədii lövhələr vasitəsilə əks etdirir. Sənətkar hadisələri, faktları ümumiləşdirir, onların vasitəsilə tip, surət yaradır. Yaradılan bədii əsərlər şüur və hisslərə, duyğulara təsir göstərir. Gəncləri həyati mübarizəyə səsləyir, ətrafı, insanları daha dərindən qavramasına kömək edir. Məhz buna görə də orta məktəblərdə bədii əsərlərin, bu sənət əsərlərini yaradan insanların həyat və yaradıcılıqlarının öyrədilməsinin çox böyük tərbiyəvi əhəmiyyət kəsb edir.

Ədəbiyyat dərslərinin istiqaməti böyüməkdə olan nəslin tərbiyəsinə doğru yönəlir və yönəldilməlidir. Bunun üçün hər bir əsərin ideya məzmunu ilə yanaşı onu yaradan insanın sənətkarlıq xüsusiyyətləri də nəzərə alınır. "Ədəbiyyatdan təlim materialı seçilərkən, ədəbi nümunə verilərkən onun tərbiyəvi təsiri ön plana çəkilməlidir. Bütövlükdə ədəbiyyatın tərbiyəvi təsirə malik olduğu hamıya aydındır. Tərbiyə anlayışı da çoxşaxəlidir. Əlbəttə, məktəblilərin şəxsiyyət kimi formalaşmaları istiqamətində yeri gəldikcə tərbiyənin bütün növləri barədə söhbət aparılmalı və şagirdlərin mənəvi aləminin keyfiyyətinə çevrilməlidir, xüsusilə vətənpərvərlik, milli zəmin, adət-ənənəyə, dini dəyərə əməl etmək, böyüyə hörmət və s. kimi mənəvi keyfiyyətləri təbliğ edən mətnlərə önəm vermək lazım gəlir" (3, 3).

Böyük Türk şairi, Türkiyə Cümhuriyyətinin azadlıq himninin-“Müstəqillik marşı”nın müəllifi olan Mehmed Akif Ersoyun əsərlərinin də məktəblilər, tələbə gənclər arasında təbliğinin əxlaqi hisslərin və düzgün davranış normalarının, o cümlədən mənəvi dəyərlərin formalaşmasına təsiri çox böyükdür. Mehmet Akifin nəsillərə örnək olan həyatı və yaradıcılığı vardır. Şeirləri vasitəsilə yaratdığı nümunələrdə öz fikirlərini, hisslərini verir. Bədii obrazlar sənətkarın bir növ fikir və düşüncələrinin carçısına çevrilir.

Mehmed Akifin əsərlərində irəli sürülən ideyalar tərbiyə işinin müxtəlif istiqamətlərini əks etdirir. Onun şeirləri həyati problemləri göstərməklə yanaşı, ictimait tərbiyənin kəsərli vasitəsi kimi çıxış edir. Onların vasitəsilə şair yeni, mübariz ruhlu insanları tərbiyə edilməsinə çalışır.

Ya şu oğlan, şu tostopaç afacan
Ki, fezalar gelir sürüruma dar;
Taşıyor sanki sığmıyor kabına...
Kendisinden büyük de bayrağı var!
Geçti mazi denen o devr-i melal,
Haydı feth et: Senindir istikbal. (1, 123)

Mehmet Akif Ersoyun şeirləri gənc nəsli Vətənə hədsiz sədaqət, onu şüurlu və fəal surətdə sevmək, bütün qüvvələrini Vətənin səadəti uğrunda sərf etmək, əgər lazım gələrsə bu yolda canından keçmək ruhunda tərbiyə edir. Vətən məhəbbətini o, əqidə və inam şəklinə salır.

Kim bu cennet vatanın uğruna olmaz ki feda?
Şüheda fışkıracaq toprağı sıksan, şüheda!
Canı, canaı, bütün varımı alsan da Hüda,
Etmesin tek vatanımdan beni dünyada cüda. (1, 574)

Təcrübə göstərir ki, müharibə mövzularında yazılan əsərləri oxuyarkən şagirdlər gərgin psixoloji anlar keçirir, çox həyəcanlı olurlar. Şagirdlərə Mehmed Akifin döyüş ruhunda yazılmış əsərlərinin tərbiyəvi əhəmiyyətini və təsir gücünü daha yaxşı başa salmaq üçün onun Türkiyənin çətin günlərində yazdığı şeirləri haqqında ətraflı məlumatın verilməsi çox mühümdür.

Arkadaş! Yurduma alçakları uğratma sakı,
Siper et gövdeni, dursun bu hayasızca akın.
Doğacaktır sana vadettigi günler Hakkın...
Kim bilir, belki yarın, belki yarından da yakın (1, 373).

Şairin yaradıcılığı məktəblinin şəxsiyyətinə mütəşəkkil, məqsədyönlü şəkildə təsir göstərərək, onlarda düzgün davranış adətlərinin və vərdişlərinin formalaşdırılmasına, cəmiyyətəzidd hallara qarşı dözülməzlik münasibətlərinin tərbiyə olunmasına kömək edir. Onun şeirləri böyüməkdə olan nəslin ideya-sinfi mövqeyinin, Türkiyə Cümhuriyyətinin siyasətinə hörmət və sədaqət hisslərinin formalaşmasında mühüm rol oynayır.

Degil kabusun artıq, devr-i devlet intibahındır.
Gel ey nazende hürriyet ki, canlar ferş-i rahındır.
Emindir mevkiin: En pak vicdanlar penahındır.
Serapa mülk-i Osmani müreyyed taht-gahındır.
Serir-ara-yi ikbal ol ki: Bir millet sipahındır (1,116).

Hüquq tərbiyəsi bu alovlu-lirik parçalarda əxlaq tərbiyəsi ilə birləşir. Əxlaqi davranış qaydaları hüquq tərbiyəsi üçün zəmin rolunu oynayır. Şeirlər sanki həlqə kimi bir-birinə qovuşaraq, böyüməkdə olan nəsildə yüksək mənəvi keyfiyyətlərin, xarakter və davranış cəhətlərinin formalaşmasına yönəldilmiş tərbiyəvi təsir sistemi adlı zəncirə çevrilir. Uşaqlıqda tərbiyə edilmiş mənəvi keyfiyyətlər və xarakterik xüsusiyyətlər gələcəkdə insanın şəxsiyyətinə mühüm təsir göstərir. O, cəmiyyətdə baş verən geriləmənin səbəblərindən birini ailədə görür və çətinlikdən xilas olma yolunu həmin "kiçik dövlətdə" axtarırdı. Böyüklərə, valideyinlərə, öz xalqına hörmət və məhəbbət kimi ilk mənəvi hisslər Mehmet Akif Ersoyun yaradıcılığında ailə və uşaq tərbiyəsi, ana-qadın probleminin həlli məsələlərinə yönəldilir.

Onu da qeyd etmək lazımdır ki, qadın və ailə problemi Tənzimatdan sonra Türkiyə ədəbiyyatında yer almışdır. “Cəmiyyət və ailə içində qadının yeri və əhəmiyyəti nədir, nə olmalıdır, xarici görünüşü necə olmalıdır, qadın evdən kənarda işləməlidirmi kimi suallara cxavab axtarıldığını görürük” (5, 44).

Mehmed Akif qadına hörmətlə yanaşır, ona başqalarının da hörmətlə yanaşmasını tələb edirdi. O, qadına bir dost, yoldaş kimi baxırdı. Mehmet Akifin fikrincə, xoşbəxtlik ancaq ailə həyatında mümkündür. "Məhəllə kafesi" şeirini nəzərdən keçirsək, şairin dünyanın ən zövqlü həyatının ailədə yaşandığı fikrinin şahidi oluruq:

"Hayat-i aile" isminde bir maişet var:
Saadet ancak odur... Dense hangimiz arzular?
Hayat-i aile dünyada en safalı hayat...
Sabahileyin dolaşıp bu kazanca hizmetle;
Evinde akşam otursan kemali-i izzetle:
Karın, çocuqların, annen, baban, kimin varsa (1, 152).

Mehmet Akifin anaya-qadına həsr olunmuş şeirlərinin orta məktəbdə tədris olunması, kiçik yaşlılardan başlayaraq böyük yaşlı məktəblilərin də ailə tərbiyəsində mühüm rol oynayır.

Şeirlərində təbliğ edilən ailə tərbiyəsində o, ideya tərbiyəsini mühüm sayır, gənc vətəndaşın, şərəfli insanın ləyaqətlə yetişdirilməsi işinin məhz ailədən başladığını söyləyir.

Cemaatler kölendir. Kabeler haclen... Gel ey Leyli.
Gel ey candan yakın canan ki, gaiblerdesen, hala!
Bu nazıe el verir, Leyla, in artık in ki baladan,
Müebbed bir bahar insin şu yanmış yurda,mevladan (1, 523).

Valideyinlərin və ailənin bütün üzvlərinin ictimai həyat hadisələrində fəal iştirakını şair çox mühüm sayır, ailə üzvləri arasında düzgün və səmimi əlaqələr qurulmasını mühüm hesab edir. Beləliklə də, məktəblilər Mehmed Akif Ersoyun qadın-ana, uşaq-övlad münasibətlərini əks etdirən şeirlərini öyrənməklə qadının və onun tərbiyə verdiyi insanların cəmiyyətdə hansı rol oynadığının şahidi olurlar.

Meşe halinde yaşanmaz, o zamanlar geçti,
Gelen incelemiş adam devri, həmən yontulumuz.
Ama dikkatli olun: Bir kafanız yontulacak,
Sakın aldanmayın: İncelmeye gelmez kolunuz! (1, 545)

Mehmet Akifin yaradıcılığında qarşı-qarşıya qoyulan iki mədəniyyət məsələsi Qərblə Şərqin əxlaqı və onlar arasındakı fərqləri önə çıxardır. Məsələn, "Berlin xatirələri" adlı şeirində o, iki mədəniyyət ocağını-İstanbul və Berlini müqayisə edərək, Türk cəmiyyətini haqq, hüquq və azadlıq kimi ideyalar istiqamətində müxtəlif mövqelərdən qiymətləndirir.

Önümde yükseliyor binihaye çıplak alın,
Ki, her birinde yazılmış görün de ibret alın,
Cihana karşı cidalın meal-i qalibini,
O itimad de millet bütün metalibini (1, 370).

Şairin bu səpgidə yazılmış şeirləri ilə tanış olan məktəblilərdə Qərb dünyasının verdiyi müasirlik, müstəqillik, yeni elmi və siyasi dünyagörüşə malik olmaq kimi ideyaların möhkəmlənməsi ilə yanaşı, onlarda milli əxlaqi dəyərlərə, milli adət-ənənələrə daha sıx bağlanmaq və onları qorumaq kimi hisslər də yaradır. Şagirdlər "türkləşmək, islamlaşmaq, avropalaşmaq" ideyasının əsl mahiyyətini başa düşürlər.

Okutma: Bitti; okut: Serser-i şirü hayal!
Okutmasan da, okutsan da ayni istikbal!
Hesab edilse: Cehalet kadar çıkar mühlik,
Maarif oldu mu bir yerde sade müstehilik,
Ülum-i hazıradan beklenen menafidir,
Demək, birincisi ilmin: Hayata nafidir. (1, 380)

Mehmet Akif Ersoy təhsil, maarif məsələlərinə böyük diqqət verdiyindn, yeni təhsil sisteminə keçidi alqışlayır. Şair məktəblərdə yeni tərbiyə üsulunun Türkiyə üçün dövrün tələblərinə uyğun vətəndaşlar yetişdirəcəyinə inanır. Şagirdlər Avropa təhsili haqqında məlumat alır, bu təhsil sisteminin üstünlüyü tanış olurlar.

Mehmet Akif belə hesab edirdi ki, cəmiyyətdə olan cahilliyin, nadanlığın, səfalətin qarşısını almaq üçün təhsilin rolu çox böyükdür. Gənc məktəblilər onun əsərlərindənsavadsızlıq üzündən törənən bir sıra sosial problemlər və onların yaratdığı mənfi hallarla tanış olurlar.

Mehmet Akif Ersoyun şeirlərinin özünəməxsus estetikası vardır. Bu estetika bir səngərin, bir döyüşçünün həyata baxışının estetikasıdır. Torpaq divarlı, hər qarışında ot bitmiş, daşlı-çınqıllı, divarları yoldaşlarının qanına bulanmış səngərdə dayanıb, soyuq-qarlı havada, qızmar günün altında əlində tüfəng Anadolunu, doğma insanları qoruyan, hər an döyüşə hazır olan Türk əsgərinin estetikası tamailə başqa cürdür. Bu esteikadan azadlıq və xoşbəxtlik iyi gəlir. Mehmet Akifin şeirlərinin vurğusu, əzmkarl tonu gənc nəsildə Anadolu-Ana Vətən uğrunda ölmək arzusu yaradır. Bu əsərlərlə tanışlıq uşaqlarda qavrayışı, təfəkkürü, təxəyyülü, yaddaşı inkişaf etdirir. Türkiyənin ağır günlərində baş verən faciəli hadisələr, bir çox dünya dövlətlərinin və daxilində yaşayan düşmənlərin onu çökdürmək arzusu ilə törətdikləri vəhşiliklər Mehmet Akif şeirlərinin də qan

yaddaşına çevrilir. Zaman adlı saatın əqrəbləri bu əsərlərdə vaxtın artıq çoxdan geridə qaldığını göstərsə də, gen yaddaşında həmin saatın işləmədiyini, o illərdə ölümə məhkum edilmiş minlərlə oğulun, ananın, övladın səsinin, igidliklə döyüşən və şərəflə ölməyi özünə borc bilən gənclərin hayqırtısı hələ də Türk torpaqlarında qaldığını gənc məktəblinin yadına salır.

Şairin maarifçiliyidə təlim-tərbiyənin bütün istiqamətlərində özünü göstərə bilirdi. O, ictimai problemlərin həllinin məhz mənəvi dəyərlərə yiyələnməklə, ölkədə maarifi və elmi inkişaf etdirməklə mümkün olacağını söyləyirdi.

**Məqalənin aktuallığı.** Şairin əsərlərinin vətənpərvərlik,əxlaqı, estetik, hüquqi və ailə tərbiyəsi baxımdan tədqiqi, yeni insanın mənən formalaşdırılması məsələlərinin araşdırılması böyük əhəmiyyət kəsb edir və tədqiq olunan mövzunu daha da aktuallaşdırır.

**Məqalənin elmi yeniliyi.** Bu özünü Mehmet Akif Ersoyun yaradıcılığının pedaqoji müstəvidən təhlilində göstərir.

**Məqalənin praktiki əhəmiyyəti.** Məqalədən pedaqoji fəaliyyətlə məşğul olanlar istifadə edə bilərlər.

## ƏDƏBİYYAT

1. Ersoy M.A. Safahat. İstanbul, 2007.
2. Kabaklı A. Mehmet Akif. İstanbul, 2002.
3. Mikayılov Ş.Ədəbiyyatdan təlim materiallarını seçilməsinə dair düşüncələrim. “Azərbaycan müəllimi” qəz., 2013, 26 iyun
4. Səfərov Ş. Şagirdlərin bədii təfəkkürünün inkişafı. Bakı, 1989.
5. Tüylü,A. Mehmet Akif Ersoy: Şeirlərində sosial məsələlər. Bakı, 2005.
6. Yaşar S. Mehmet Akifin hayatı. İstanbul, 2006.

**А.М. Гюдер**

## ВОСПИТАТЕЛЬНОЕ ЗНАЧЕНИЕ ПРОИЗВЕДЕНИЙ МЕХМЕТ АКИФ ЭРСОЯ

## РЕЗЮМЕ

Произведения Мехмет Акиф Эрсоя имеют воспитательное значение. Они помогают формированию нравственных ценностей. Для нравственного развития молодого поколения его произведения имеют особую ценность. Данная статья посвящена влиянию педагогических взглядов Мехмета Акифа Эрсоя на воспитание будущего молодого поколения.

**Aslan Mehmet Guder**

## MEHMET AKIF ERSOY’S EDUCATIONAL IMPORTANCE OF THE WORKS

## SUMMARY

Mehmet Akif Ersoy’s works attracts With its educational importance. The formation of moral values, political and social problems in education, science is highly appreciated by him. The poet's works can manifest itself in different fields of education, so awareness and education among the youngers generation is very important. This article based on Mehmet Akif thouhgts in the influence of positive youth development educator meetings.

# NARKOMANİYAYA QARŞI MÜBARİZƏDƏ VALİDEYN MÜƏLLİM ASSOSİASİYASININ (VMA) BİRGƏ FƏALİYYƏTİ

**İlhamə Əsədova,**
*ARTPİ-nin elmi işçisi*

**Rəyçilər:** *ped. elm. dok.* P.B. Əliyev,
*dos.* M.S. Kazımov

***Açar sözlər:*** *fəaliyyət proqramı, ictimai birlik, KİV, məhdudiyyət, aqresiv, təlim kursları*
***Ключевые слова:*** *программа деятельности, общественное объединение, СМИ, агрессивный, учебные курсы*
***Key words:*** *activity program, commonwealth public, Mass Media, aggressive, training courses*

Cəmiyyəti narahat edən problemlərin içərisində həlli təxirəsalınmaz tədbirlər tələb edən, vacib, ən mürəkkəb, sonu faciə ilə nəticələnən narkomaniya və narkobiznes təhlükə və faciə simvollarındandır. Bir neçə il əvvəl narkomaniyaya daha çox böyük şəhərlər - Bakı, Sumqayıt, Gəncə və s. yerlərdə rast gəlinirdisə, indi bu dərd bütün ölkəyə yayılıb. Statistik məlumatlara görə son illərdə respublikanın Cənub zonasında narkomanların sayı çoxalmağa başlamışdır. Digər ağrılı problem narkotik vasitələrdən istifadə edənlərin arasında qadınların sayının artmasıdır. Bəşəriyyətin bu dəhşətli bəlasına qarşı ayrı-ayrı dövlət strukturları, qeyri-hökumət təşkilatları, kütləvi informasiya vasitələri (KİV), hüquq-mühafizə orqanları, təhsil və səhiyyə sistemi birgə mübarizə aparmaqla onun qismən də olsa yayılmasının və kütləvi hal almasının qarşısı ala bilər. Narkotikaya qarşı mübarizə tədbirləri bir neşə istiqamətdə:

1) narkobiznesə qarşı kəskin; 2) tam sağlam insanlar üçün qabaqlayıcı; 3) ilkin addım atanlar üçün çəkindirmə; 4) xəstəliyə düçar olanlar üçün müalicəvi tədbirlər aparılmalıdır. Narkotika ilə mübarizədə VMA-nın fəaliyyətinin aktivliyi xüsusi qeyd olunmalıdır. Uşağın hansı yolla getməsində valideyn və müəllimin təsiri danılmaz olduğu kimi onların birgə fəaliyyəti də həlledicidir:

- VMA-nın fəaliyyət proqramında narkomaniyaya qarşı mübarizə tədbirləri öz əksini tapmalı, konkret tədbirlər həyata keçirilməlidir.
- VMA yeniyetmələrin narkomaniyaya meyilliyinin səbəblərini ilk olaraq ailədə axtarmalı, valideynlərin məktəblə əlaqəsini möhkəmləndirilməsi təmin edə biləcək tədbirlər hazırlamalıdır.
- VMA-nın təşkilatçılığı ilə yetkinlik yaşlı məktəblilər vaxtaşırı məcburi müayinədən keçirilməli, müayinədən yayınma hallarının qarşısı alınmalıdır.
- Yeniyetmələrin narkomaniyaya olan meyillərinin səbəbləri: ailə, yoldaş, kənar təsir, məktəb (yəni məktəbdəki təsir vasitəsi), valideyn laqeydliyi aşkar olunmalıdır.
- "Narkomaniyaya və Narkobiznesə qarşı Beynəlxalq Mübarizə Günü" məktəblərdə də xüsusi qeyd olunmalı, valideynlərin, digər müvafiq təşkilatlar tədbirə cəlb olunmalı, şagirdlərin tədbirdə fəal iştirakı təşkil edilməlidir.
- VMA İcra Hakimiyyətləri aparatının yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə komissiyanın məsul katibləri, "Narkomaniyaya Qarşı Mübarizə İctimai Birliyinin" nümayəndələri ilə əlaqəni gücləndirməlidir.
- Məktəb psixoloqlarının və yuxarı siniflərlə işləyəcək sinif rəhbərləri narkomaniyaya meyilli yeniyetmələrlə iş sahəsində xüsusi təlim kurslarından keçmələri vacib məsələlərdəndir. VMA-nın tərkibindəki valideynlərdən də bu sahəyə yönəltmək imkanlarından istifadə mümkündür.
- VAM-ın KİV–də öz yeri olmalı, özünə aid mətbu orqanı, televiziya verilişi və internet səhifəsi olmalı, valideynin və ya şagirdləri abunəçi olmağa və həmin verilişlərin izlənməsi,

mümkün qədər yaxından iştirakına nail olmaq əsas məsələlərdəndir. Narkomaniyanın fəsadlarını, acı nəticələrini göstərən yaradıcılıq əsərlərinin təsir gücündən istifadəyə yönəlmək faydalı olar.

- Məktəblərdə həmin mövzunu əhatə edən plakat və foto, rəsm, karikatura sərgilərinin, eyni zamanda məktəblilərin də həmin sərgidə iştirakının təşkili, bu mövzuya həsr olunmuş musiqi festivalları, musiqi gecələri, məktəblilərin yaxından iştirakını, müəyyən bədii əsərlərin səhnələşdirilməsi də bu baxımdan əhəmiyyətlidir.
- VMA hər bir yeniyetmənin ətrafını, yoldaşlıq, dostluq etdiyi uşağı da diqqət mərkəzində saxlamalı, yeri gəldikdə ondan müsbət təsir vasitəsi kimi istifadə etməlidir.
- Valideynin valideynə təsirinin yaxşı səmərə verdiyini bilərək VMA bu vasitədən də yerli-yerində istifadə etməlidir. "Vaxt itkisi" vermək istəməyən valideyn əksər hallarda övlad itkisi ilə üzbəüz qalırlar. "Uşaqlara vaxtınızı əsirgəməyin!" devizi altında keçirilən tədbirlər də bu baxımdan əhəmiyyətlidir.
- Uşağa və valideynə təsir paralel aparılmalıdır. Əgər valideyn laqeyidlik edirsə və yaxud özü də bu yolun yolçusudursa uşağa təsir o qədər də əhəmiyyətli olmayacaq.
- Narkomanların müalicə olunduğu obyektlərdən videolentlər hazırlamaq, onların acınacaqlı halını dana yaxından müşahidə edilməsinə şərait yaradılmalıdır. Məsələn, bu tip müalicə müəssisələrinə ekskursiyalar təşkil etmək, kamera, monitor quraşdırılmış otaqlardan xəstələri müşahidə olunmasına şərait yaradılmalıdır.



